MÜDRİK FİKİRLƏR
(1993-2003-cü illər)

- ***Dövlətçilik, müstəqillik və demokratiya haqqında*** ***3***
- ***Ordu quruculuğu haqqında*** ***39***
- ***Konstitusiya və qanunçuluq haqqında*** ***58***
- ***İqtisadiyyat haqqında*** ***85***
- ***Dil haqqında*** ***108***
- ***Təhsil və elm haqqında*** ***114***
- ***Mədəniyyət, ədəbiyyat və incəsənət haqqında*** ***118***
- ***Bədən tərbiyəsi və idman haqqında*** ***131***
- ***Ekologiya haqqında*** ***135***
- ***Mənəvi dəyərlər haqqında*** ***136***
- ***Azərbaycan xalqı haqqında*** ***154***
- ***Vətənpərvərlik və şəhidlik haqqında*** ***163***
- ***Milli münasibətlər haqqında*** ***175***
- ***Erməni separatizmi haqqında*** ***179***
- ***Ermənistan-Azərbaycan münaqişəsi və qaçqınlar haqqında*** ***187***
- ***Terrorizm, ekstremizm, rüşvətxorluq və cinayətkarlıq haqqında*** ***191***
- ***Qadın və ailə haqqında*** ***194***
- ***Uşaq və gənclər haqqında*** ***197***
- ***Ziyalılar və tarixi şəxsiyyətlər haqqında*** ***204***
- ***Müxtəlif vəzifə və peşələr haqqında*** ***218***
- ***Azərbaycanın şəhərləri və bölgələri haqqında*** ***223***
- ***Siyasi partiyalar və müxalifət haqqında*** ***227***
- ***Kütləvi informasiya vasitələri haqqında*** ***230***

- ***Dünya azərbaycanlıları haqqında 232***
- ***Dövlətlərarası münasibətlər və beynəlxalq təşkilatlar haqqında 238***
- ***Tarix və tarixi hadisələr haqqında 251***
- ***Özü haqqında 269***

DÖVLƏTÇİLİK, MÜSTƏQİLLİK VƏ DEMOKRATİYA HAQQINDA

Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır.

Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur. Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunma. Iıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır. Azərbaycan Respublikasının vətəndaşları sülh və əmin- amanlıq şəraitində yaşayıb öz dövlətini özü istədiyi kimi qurmalıdır.

Ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm.

Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə qatılmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir.

Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışından
(15 iyun 1993-cü il)

***

Azərbaycan müstəqil dövlətdir və indən belə heç vaxt hər hansı başqa dövlətin tərkibinə daxil olmamalı, kiminsə vassalı, yaxud müstəmləkəsi olmamalıdır.

"Ostankino" Dövlətlərarası Televiziya Şirkətinə müsahibəsindən
(6 iyul 1993-cü il)

***

Əgər sən liberalsansa, əgər sən Xalq Cəbhəsinin üzvüsənsə, səni heç kəs təqib etməyəcək, sənə gözün üstə qaşın var, deməyəcəklər. Xalqa xidmət elə, xalqın yolunda özünü fəda elə. Bax, budur ideya, budur fəlsəfə!

Yazıçı Aleksandr Proxanovla müsahibəsindən
(12 avqust 1993-cü il)

***

Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

Azərbaycanı parçalamaq Azərbaycanın daxilində və xaricində olan düşmənlərin uzun illərdən, bəlkə də əsrlərdən bəri ən bəd niyyəti, istəyi, arzusu olmuşdur.

Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə çıxışından
(13 avqust 1993-cü il)

***

İndi Azərbaycan Respublikası, Azərbaycanın dövlətçiliyi üçün birlik, milli həmrəylik, milli birlik, vətəndaş birliyi hava, su kimi lazımdır. Biz gərək torpaqlarımızı müdafiə edək, işğal olunmuş torpaqlarımızı geri qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Azərbaycanın müstəqilliyini qoruyub saxlayaq.

Azərbaycan Milli Televiziyası ilə xalqa müraciətindən
(23 avqust 1993-cü il)

***

Azərbaycan bir müstəqil dövlət kimi öz taleyinin sahibi, öz torpaqlarının sahibi, öz hüquqlarının sahibi olacaq və gələcək firavan həyatını özü quracaqdır.

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından
(21 sentyabr 1993-cü il)

***

Əgər indi dövlət müstəqilliyimiz, milli azadlığımız körpə uşağın ilk addımlarına bənzəyirsə, bir neçə ildən sonra dövlətimiz, ölkəmiz, xalqımız güclü, iradəli addımlarla irəliləməli, böyük inamla hərəkət etməlidir.

Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışından
(22 sentyabr 1993-cü il)

***

Azərbaycan xalqının əsrlər boyu qəlbində olan, həsrətini çəkdiyi günlər gəlib çatmışdır. Azərbaycan xalqı öz müstəqilliyinə nail olmuşdur. Müstəqilliyi əldə etmək, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi əldə saxlamaq, onu möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq və bütün vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat tərzi təmin etmək daha çətindir.

Azərbaycanın müstəqillik günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xalqa təbrikindən
(18 oktyabr 1993)

***

Hamımız Azərbaycanın müstəqil dövlət olmasının tərəfdarıyıq və şəxsən mən dəfələrlə qeyd etdiyim kimi, harada olmağından asılı olmayaraq bütün fəaliyyətimdə və həyatımın son dəqiqəsinədək Azərbaycanın müstəqil dövlətçiliyini qoruyacağam. Bizim ideologiyamızın əsası budur.

Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışından
(17 noyabr 1993-cü il)

***

Nə qədər partiya olur-olsun, onların hamısı bir məqsədə - Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir.

Xaricdə yaşayan soydaşlarımızın bır qrupu ilə görüşdə çıxışından
(9 yanvar 1994-cü il)

***

Azərbaycan müstəqil dövlətdir və daim bu yolla gedəcəkdir. Heç bir qüvvə onu bu yoldan döndərə bilməz.

Dövlət quruculuğunda nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir.

Böyük Britaniya sənayeçiləri konfederasiyasında çıxışından
(22 fevral 1994-cü il)

***

Azərbaycan öz torpaqlarının, öz taleyinin sahibi, öz dövlətinin sahibi kimi gələcəkdə də müstəqil dövlət olaraq yaşayacaqdır.

Londonun "Hilton" otelində Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə çıxışından
(23 fevral 1994-cü il)

***

Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir.

Müstəqil Azərbaycan dövləti sözün tam mənasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur.

Çin Xalq Respublikasına rəsmi səfər zamanı Pekində mətbuat konfransında bəyanatından
(8 mart 1994-cü il)

***

Dövlət istiqlaliyyətinin əldə edilməsi Azərbaycan xalqı üçün tarixi hadisədir və bizim vəzifəmiz, məqsədimiz istiqlaliyyətimizi, beynəlxalq mövqelərimizi hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir.

Pekin İctimai Elmlər Akademiyasında çıxışından
(9 mart 1994-cü il)

***

Heç kəs bizə təsir edə bilməz! Biz Azərbaycan Respublikasının müstəqilliyini qorumuşuq və bundan sonra da qoruyacağıq. Biz müstəqilliyimizin keşiyində nəyin bahasına olur-olsun, durmuşuq.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün güclənməsi ilə əlaqədar Respublika Milli Televiziya və Radiosu ilə xalqa müraciətindən (12 aprel 1994-cü il)

***

Biz nazik sapın üstündə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun, ərazi bütövlüyümüz təmin edilsin, Azərbaycan müharibə şəraitindən çıxa bilsin.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Zuğulbadakı pansionatda müvəqqəti məskunlaşan qaçqınlarla görüşdə çıxışından (21 may 1994-cü il)

***

Yeni Azərbaycanda demokratiya prinsipləri bərqərar olmalı, hər yerdə insan azadlığı təmin edilməli, insan hüquqları qorunmalı, vicdan azadlığı, din azadlığı təmin edilməlidir.

Siyasi plüralizm yolu, söz azadlığı Azərbaycan dövlətinin demokratik prinsiplərinin və demokratik hüquqi cəmiyyət yaradılmasının əsas şərtlərindən biridir.

Azərbaycanın müstəqilliyi, müstəqil dövlətimizin hərtərəfli fəaliyyəti torpaqlarımızın azad edilməsi ilə bağlıdır.

Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik cəmiyyət qurmaq yoludur.

Azərbaycanın İstiqlal Bayramına – Respublika Gününə həsr olunmuş təntənəli yığıncaqda nitqindən Respublika sarayı (27 may 1994-cü il)

***

Azərbaycanın müstəqil dövlət olması, xalqımızın azadlığa çıxması tarixi hadisələrdir və biz bunları qiymətləndirməli, əldə edilmiş nailiyyətləri əbədiləşdirməliyik. Bu, istər bizim, istərsə də gələcək nəsillərin qarşısında duran strateji vəzifədir.

Prezident Sarayında respublika iqtisadiyyatının və həyatın digər sahələrinin cari məsələlərinə həsr olunmuş müşavirədə çıxışından (21 iyun 1994-cü il)

***

Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir.

Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən - bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır.

Kim müxalifətdə dursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın.

Səudiyyə Ərəbistanına – Müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən sonra Bakıda Təzəpir Məscidində din xadimləri ilə görüşdə çıxışından
(29 iyul 1994-cü il)

***

Respublikamızı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq.

Prezident Sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə dövlət komissiyasının iclasında çıxışından
(1 avqust 1994-cü il)

***

İndi biz müstəqil dövlətik, öz respublikamızın, öz taleyimizin sahibiyik, xalqımızın bu günü və gələcəyi üçün cavabdehik.

Prezident Sarayında respublikanın ali və orta ixtisas məktəblərinə qəbulla əlaqədar keçirilən müşavirədə çıxışından
(2 avqust 1994-cü il)

***

...Azərbaycanın suverenliyi hər bir Azərbaycan vətəndaşı üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir.

Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə çıxışından
(31 avqust 1994-cü il)

***

Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir.

Respublikanın ali məktəblərinə daxil olmuş birinci kurs tələbələri ilə görüşdə nitqindən
(14 sentyabr 1994-cü il)

***

Biz müstəqilliyimizi yalnız milli həmrəylik əsasında, vətəndaş birliyi əsasında qoruyub saxlaya biləcəyik. Biz Azərbaycanın xoşbəxt gələcəyini yalnız bu əsasda təmin edə biləcəyik. Məhz bu əsasda biz Azərbaycanı müharibə şəraitindən çıxara biləcəyik. Məhz bu əsasda biz Azərbaycanın ərazi bütövlüyünü təmin edə biləcəyik.

Azərbaycanın Dövlət Müstəqilliyi Gününə həsr olunmuş təntənəli yığıncaqda çıxışından
(17 oktyabr 1994-cü il)

***

...Müstəqilliyin əldə olunması nə qədər çətin idisə, onun saxlanılması, daimi, yəni əbədi olması bundan da çətindir.

Azərbaycan müstəqil dövlətdir, nə olursa-olsun, bu müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Qırılsaq da, ölsək də müstəqilliyimizi əldə saxlayacağıq. Əgər bizi də qırsalar, balalarımız müstəqilliyimizi davam etdirəcəklər.

Azərbaycan bir daha sosializm sisteminə qayıtmayacaqdır!

Azərbaycan xalqı öz dövlətini dəstəkləyir, müdafiə edir və bu da xalqımızın əbədi müstəqilliyinin təminatıdır.

Türkiyədə yaşayan azərbaycanlılarla görüşdə çıxışından
(1 noyabr 1994-cü il)

***

Əgər biz müstəqil dövlət olmaq istəmişiksə və buna nail olmuşuqsa, öz ölkəmizin sərvətlərindən səmərəli istifadə edərək həm müstəqil dövlətimizi möhkəmləndirməliyik, həm də bu müstəqilliyin təkcə siyasi-mənəvi deyil, habelə maddi nəticəsi də olmalıdır, insanların yaşayışının yaxşılaşmasını təmin etməlidir. Əgər bu olmasa, belə müstəqilliyin heç bir əhəmiyyəti yoxdur.

Prezident Sarayında respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş müşavirədə çıxışından
(5 noyabr 1994-cü il)

***

Azərbaycanın müstəqil bir dövlət olması dünyada, xüsusən o vaxtlar Sovetlər İttifaqında gedən tarixi, ictimai-siyasi, obyektiv proseslərin məntiqi nəticəsidir.

Yeni Azərbaycan Partiyası o halda həqiqi, sağlam, mübariz və doğrudan da görkəmli partiya olar ki, onun daxilində fikir mübadiləsi getsin, fikir toqquşmaları getsin, sağlam prinsiplər əsasında mübarizə getsin.

Mən Yeni Azərbaycan Partiyası ilə bərabərəm və partiyanın bugünkü vəziyyətini görərkən çox sevinirəm və hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və fəaliyyət göstərəcəkdir.

Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqindən
Şəhriyar adına mədəniyyət mərkəzi
(19 noyabr 1994-cü il)

***

Əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam.

Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir Prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram.

Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz.

Ümumxalq nümayəndələri toplantısından
Respublika sarayı
(28 noyabr 1994-cü il)

***

Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır.

Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr edilmiş yubiley gecəsində nitqindən
(28 dekabr 1994-cü il)

***

Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi o yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır.

Azərbaycanın müstəqilliyi Azərbaycan Respublikasının dünya birliyində tutduğu yer ilə bağlıdır.

Azərbaycan xalqına yeni il təbrikindən
(31 dekabr 1994-cü il)

***

Müstəqillik yolu qədər çətin yol yoxdur.

Bir var dövlət işi ilə məşğul olan adamlar, bir də var adi vətəndaş. Adi vətəndaş da, əgər həqiqətən vətəndaşdırsa, Vətənin övladıdırsa, deməli, öz Vətəninə, burada gedən proseslərə, dövlətinə biganə qala bilməz.

Beynəlxalq müsabiqələr laureatları və diplomantları ilə görüşdə çıxışından
Üzeyir Hacıbəyov adına Musiqi Akademiyası
(8 aprel 1995-ci il)

***

Xalqımız milli azadlığını əldə edibdir. Bu milli azadlığın, müstəqilliyin əldə edilməsində, şübhəsiz ki, xalqımızın hamısının - hərənin öz yeri, hərənin öz payı, hərənin öz xidməti var.

Xalq şairi Məmməd Arazın "Azərbaycan – dünyam mənim"
yaradıcılıq gecəsindən sonra ziyalılarla görüşdə çıxışından
M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası
(16 aprel 1995-ci il)

***

Müstəqil Azərbaycan Respublikası bizim ən böyük tarixi nailiyyətimizdir!

Görkəmli Azərbaycan yazıçısı və kinodramaturqu
Maqsud İbrahimbəyovun 60 illik yubileyi gecəsində çıxışından
"Gülüstan" sarayı
(14 may 1995-ci il)

***

Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir.

Müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik iqtisadiyyat sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır.

Azərbaycan Demokratik Respublikası ilk dəfə milli azadlıq, müstəqillik toxumlarını bütün Azərbaycana səpdi. Bu toxumlar uzun müddətdən sonra cücərdi, boy atdı və nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etdi.

Respublikamız artıq böyük bir dövlətdir. Bu dövləti biz öz gücümüzlə, vətənpərvər insanların gücü ilə qoruyuruq və qoruyacağıq.

Respublika Günü münasibətilə keçirilən təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(27 may 1995-ci il)

***

Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır.

Respublika Milli Qvardiyasının Qərargahında Azərbaycanın milli qəhrəmanı Əfqan Hüseynovun büstünün açılışı mərasimində çıxışından
(28 may 1995-ci il)

***

Mən Azərbaycanda bütün məsələlərin demokratiya yolu ilə həll olunmasının tərəfdarıyam.

Bundan sonra Azərbaycanda silahla, zorakılıqla heç bir iş görmək olmaz.

Bizim müstəqilliyimizi heç kim sarsıda bilməz!

Azərbaycan indi keçmiş Azərbaycan deyil. Azərbaycan dünya birliyində öz yerini tapıb və hər yerdə nəinki tanınır, hər yerdə öz sözünü deyir, öz siyasətini həyata keçirir.

"15-17 mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyət" mövzusuna həsr olunmuş ümumxalq nümayəndələri toplantısında nitqindən
Respublika Sarayı
(23-24 iyun 1995-ci il)

***

İndi müstəqil Azərbaycan dövlətinin qarşısında duran ən böyük vəzifələrdən biri respublikanın pozulmuş ərazi bütövlüyünü bərpa etməkdir.

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın geniş iclasında nitqindən
Prezident Sarayı
(16 avqust 1995-ci il)

***

Hər bir demokratik cəmiyyətdə şübhəsiz ki, müxalifət olmalıdır.

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın geniş iclasında nitqindən
Prezident Sarayı
(16 avqust 1995-ci il)

***

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə, ən böyük məmləkət qədər güclü olar.

1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən Heydər Əliyevə "səs" qəzeti vasitəsilə müraciət etmiş Azərbaycan ziyalıları ilə görüşdə çıxışından
Prezident Sarayı
(9 sentyabr 1995-ci il)

***

XX əsr sona çatır. Bu əsrdə xalqımız bir çox mərhələlərdən, sınaqlardan, imtahanlardan keçib və nəhayət öz milli azadlığına, dövlət müstəqilliyinə nail olubdur. Bütün bu mərhələlərdə Azərbaycan xalqını yaşadan, irəliyə aparan, xalqımıza güc, ruh verən, Azərbaycan xalqının görkəmli şəxsiyyətləri, böyük alimləri və dahi insanları olmuşdurlar.

Görkəmli alim və cərrah Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illiyi yubileyinə həsr olunmuş təntənəli gecədə çıxışından
Azərbaycan Dövlət Opera və Balet teatrı
(14 oktyabr 1995-ci il)

***

Müstəqil Azərbaycan Respublikası deyəndə biz Azərbaycan Respublikası deyirik. Buna başqa ad vermək olmaz. Əgər buna kimsə başqa ad versə, bu bizim xalqımıza, millətimizə xəyanət ola bilər.

Azərbaycan Respublikasının Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında çıxışından
Prezident sarayı,
(2 noyabr 1995-ci il)

***

İndi biz dövlət müstəqilliyi əldə etdiyimiz, öz taleyimizin sahibi olduğumuz bir dövrdə problemlərimizi özümüz həll etməliyik.

Ümumdünya Bankının təşkil etdiyi "Azərbaycan üçün investisiyalar" beynəlxalq konfransının açılış mərasimində çıxışından
Paris
(5 dekabr 1995-ci il)

***

Azərbaycan azadlıq, suverenlik uğrunda mübarizə əzmini həmişə qoruyub saxlamış, bu yolda böyük məhdudiyyətlərə düçar olsa da, qurbanlar versə də mətin iradəsi sarsılmamışdır.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan xalqına müraciətindən
(30 dekabr 1995-ci il)

***

Müstəqilliyi təmin etmək üçün çox düşünülmüş xarici siyasət aparmaq lazımdır.

Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda nitqindən
Respublika Sarayı
(2 fevral 1996-cı il)

***

1994-cü ilin oktyabr ayının əvvəllərində dövlət çevrilişi cəhdi başlanan zaman məhz bizim televiziyamızdan istifadə etdim. Bu nə qədər güclü silah imiş! Bu, bütün silahlardan da güclü silah imiş.

Azərbaycan Milli Televiziyasının 40 illiyi münasibətilə təntənəli yubiley gecəsində çıxışından
Respublika Sarayı
(17 fevral 1996-cı il)

***

Son iki il müddətində Azərbaycanın başına gəlmiş ağır bəlalardan müvəffəqiyyətlə çıxmağımızın səbəbi odur ki, xalq ilə dövlətin tam həmrəyliyi əldə olunub.

Azərbaycanda zorla, güc işlətməklə, silah gücünə hakimiyyət əldə etmək mümkün deyildir. Bunu hamı bilməlidir, hamı dərk etməlidir və belə cinayət əməllərindən çəkinməlidir!

1994-cü il oktyabr, 1995-ci il mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyətə həsr olunmuş ümumxalq nümayəndələri toplantısında çıxışından
Respublika Sarayı
(5-6 aprel 1996-cı il)

***

Azərbaycan dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacaqdır.

Norveçin Baş Naziri Qru Harlem Brundtlandin Azərbaycan Prezidentinin şərəfinə verdiyi rəsmi ziyafətdə nitqindən
(24 aprel 1996-cı il)

***

Xalqımız öz gücünü toplamalı, keçmişdən nəticə çıxarmalıdır.

Qurban Bayramı münasibətilə "Qızılqum" sanatoriyasında müvəqqəti yerləşmiş Şuşa, Xocalı, Laçın, Ağdam qaçqınları ilə görüşdə çıxışından
(28 aprel 1996-cı il)

***

Sovet İttifaqının süqutu qanunauyğun obyektiv tarixi proseslərin nəticəsidir. Əvvəllər Sovet İttifaqının tərkibində olmuş respublikaların dövlət müstəqilliyi və suverenlik əldə etməsi tarixi hadisədir, azadlıq və istiqlaliyyət qazanan hər bir xalqın milli sərvətidir.

Rusiya Federal Məclisi MDB dövlət başçıları şurasının iclasında bəyanatından
Moskva, Kreml, Yekaterina salonu
(17 may 1996-cı il)

***

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir!

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Eyni zamanda bu, XX əsrin əvvəlindən sonunadək xalqımızın qəlbində yaşayan hissiyyatların, xalqımızın içində gedən proseslərin məntiqi nəticəsidir.

Əminəm ki, Azərbaycanın ilk demokratik konstitusiyası xalqımızın demokratiya, milli dövlətçilik yolu ilə getməsini təmin edəcək və gələcək nəsillərə sivilizasiyalı, yüksək səviyyəli, dünya demokratiyasında özünəməxsus yer tutan müstəqil Azərbaycan dövləti miras qoyacağıq.

Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik.

Milli Bayram – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika Sarayı
(26 may 1996-cı il)

***

Azərbaycan xalqı heç vaxt indiki kimi öz sərvətlərinin sahibi olmayıb və heç vaxt da özü belə iri, cəsarətli, iradəli addımlar atmaq imkanına malik olmayıbdır.

"Şahdəniz" Yatağının birgə işlənməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında müqavilə imzalanması mərasimində çıxışından
"Gülüstan" Sarayı
(4 iyun 1996-cı il)

***

Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin.

Türkiyənin İqdır, vilayətinin nümayəndələri ilə görüşdə çıxışından
Prezident Sarayı
(21 iyun 1996-cı il)

***

İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir.

Almaniya-Azərbaycan forumu idarə heyətinin və rəyasət heyətinin üzvləri ilə görüşdə çıxışından
Bonn

(1 iyul 1996-cı il)

***

Bizim işimizdə bir prinsip həmişə əsas olmalıdır: biz hər bir məsələni obyektiv qiymətləndirməli, obyektiv araşdırmalı, obyektiv təhlil etməliyik.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin respublikada sosial-iqtisadi sahənin inkişafına həsr olunmuş geniş iclasından
Prezident Sarayı
(18-19 iyul 1996-cı il)

***

Bizə nə qədər böyük zərbələr dəyibsə də, nə qədər böyük itkilərimiz olubsa da, biz müstəqil dövlət kimi ətrafımızda olan ölkələrin hamısı ilə sülh şəraitində yaşamalıyıq. Sülh münasibətləri, qarşılıqlı faydalı münasibətlər, əməkdaşlıq münasibətləri şəraitində yaşamalıyıq-

Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının üçüncü ildönümü ilə əlaqədar Ağdam rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdən
Prezident Sarayı
(2 avqust 1996-cı il)

***

Əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, biz nəyin bahasına olursa-olsun torpaqlarımızı azad edəcəyik. Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən, Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir metrəsini də, bir qarışını da heç kəsə verməyəcəyik.

Azərbaycanın dövlətçiliyini qorumaq üçün, Azərbaycanda yaranmış bu ictimai-siyasi sabitliyi qorumaq üçün mən bütün imkanlardan indiyə qədər istifadə etdiyim kimi, bundan sonra da istifadə edəcəyəm.

Mən hesab etmirəm ki, bizim xalqımız aciz xalqdır. Mən hesab etmirəm ki, bizim xalqımız bütün xüsusiyyətlərinə görə ermənilərdən, erməni xalqından gücsüz xalqdır. Mən belə hesab etmirəm. Güman edirəm ki, siz də belə hesab etmirsiniz.

Torpağımızın hər bir qarışının itməsi bizim üçün dəhşətlidir, düşmən tapdağı altında qalması bizim üçün ağır dərddir, böyük bir faciədir.

Azərbaycan heç bir ölkənin təsiri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Bu da bir Prezident kimi mənim siyasətimin ana xəttidir. Bunun üçün də hamı bir yolla getməlidir. Burada başqa bir yol yoxdur. Başqa yolla gedən adam, demək, başqa məqsəd daşıyır. O məqsədlərə bu gün Azərbaycanda yer yoxdur.

Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalının üçüncü ildönümü ilə əlaqədar həmin bölgələrin ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından
Prezident Sarayı
(7 sentyabr 1996-cı il)

***

Xalqımızın, dövlətimizin ən ümdə məqsədi Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, yerlərindən-yurdlarından didərgin düşmüş vətəndaşlarımızın evlərinə qayıtmağını təmin etməkdir.

Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər döyüşə, hər vuruşa hazır olmalıyıq!

Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var.

Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitqindən
Şəhriyar adına Mədəniyyət Mərkəzi
(7 oktyabr 1996-cı il)

***

Azərbaycanın dövlət müstəqilliyi dönməzdir və biz müstəqilliyimizə, milli azadlığımıza qəsd olunmasına heç vaxt yol verməyəcəyik!

Fransanın Xarici İşlər naziri Erve de Şarettin şərəfinə təşkil edilmiş rəsmi qəbulda çıxışından
"Gülüstan" sarayı
(11 oktyabr 1996-cı il)

***

Bu gün tarixi iftixar hissi ilə deyə bilərik ki, biz artıq taleyimizin, öz ölkəmizin sahibiyik və Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir.

Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə xalqa müraciətindən
(18 oktyabr 1996-cı il)

***

Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üzvləri ilə görüşdə nitqindən
Naxçıvan

(31 oktyabr 1996-ci il

***

Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir.

Bakıda Yeni Sellülyar Rabitə Sisteminin təntənəli açılışı mərasimində nitqindən
(15 dekabr 1996-cı il)

***

Biz dərk etməliyik, anlamalıyıq ki, xoşbəxt bir mərhələyə gəlib çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq.

Azərbaycan Respublikası Sərhəd Qoşunlarının yaradılmasının
beş illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Şəhriyar adına mədəniyyət mərkəzi
(16 dekabr 1996-cı il)

***

Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməli və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur.

Azərbaycan Respublikası milli dövlət quruculuğu yolunda uğurlar qazanaraq böyük gələcəyə doğru inamla addımlayır.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə müraciətindən
(28 dekabr 1996-cı il)

***

Bizim tutduğumuz yol doğru yoldur, düzgün yoldur, ədalətli yoldur, bu yolla biz bundan sonra da gedəcəyik, müstəqil Azərbaycanın dövlətçiliyini möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik və kim bu yolda bizimlə bərabərdirsə, o öz xalqına xidmət etmiş olacaqdır. Kim bu yolda bizə mane olacaqsa, o maneələri biz aradan götürməyə qadirik.

Zəngilan rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən
Prezident Sarayı
(29 dekabr 1996-cı il)

***

Bizim qarşımızda duran əsas məqsəd, vəzifə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirməkdən ibarətdir.

Fransanın həftəlik "Puan" jurnalının müxbirinə müsahibəsindən
Paris
(14 yanvar 1997-ci il)

***

Azərbaycan gəncləri – bugünkü və sabah gələn gənclər də gərək bilsinlər ki, hər bir azərbaycanlının milli borcu, vəzifəsi respublikamızın dövlət müstəqilliyini qoruyub saxlamaqdır. Azərbaycanı azad, sərbəst, müstəqil dövlət kimi inkişaf etdirməkdir. Azərbaycanın elmini, mədəniyyətini yüksəklərə qaldırmaqdır, respublikamızın adını, şanını-şöhrətini dünyaya yaymaqdır, Dünya Birliyində Azərbaycanın layiqli yer tutması üçün xidmətlər göstərməkdir.

Hər bir müstəqil dövlətin müstəqil yaşaması üçün güclü, müasir tələblərə cavab verən ordusu olmalıdır.

Müstəqil Azərbaycan Respublikası gənclərinin 1-ci forumunun birinci ildönümü münasibətilə forum nümayəndələrinin bır qrupu ilə görüşdən
Prezident Sarayı
(1 fevral 1997-ci il)

***

Torpaqlarımızın azad olunması, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, müstəqil Azərbaycanın gələcək xoşbəxt günü gəlib çatacaqdır.

Qırğızıstan prezidenti Əsgər Akayevin M. Ə. Rəsulzadə adına BDU-nun tələbə şəhərciyində müvəqqəti yerləşdirilmiş qaçqınlarla görüşündə çıxışından
(23 aprel 1997-ci il)

***

Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, yenilməzdir, sarsılmazdır. Biz Azərbaycanın dövlət müstəqilliyini bundan sonra da göz bəbəyimiz kimi qoruyacağıq, yüksəldəcəyik.

Azərbaycan Prezidentinə "9 eylül" Universitetinin fəxri doktoru adı verilməsi mərasimində nitqindən
İzmir
(7 may 1997-ci il)

***

Xalqın, millətin mənafeyini hər bir kəsin mənafeyindən üstün tutmaq lazımdır. Əgər xalqın, millətin mənafeyinə görə mən də cəzalanmalıyamsa, cəzalanmalıyam.

Bizim, Azərbaycan dövlətinin çox gözəl gələcəyi var. Biz bu gələcəyi müstəqillik yolunda görürük. Azərbaycan üçün dövlət müstəqilliyi tarixi nailiyyətdir, ən böyük sərvətdir.

Azərbaycan Prezidentinə "Fatih" Universitetinin
fəxri doktoru adı verilməsi mərasimində nitqindən
İstanbul
(8 may 1997-ci il)

***

Azərbaycan Respublikasının bu gün mövcud olan dövlət müstəqilliyi böyük sınaqlardan keçibdir. İftixar hissi ilə demək olar ki, bu sınaqlardan şərəflə çıxıbdır və indiki Azərbaycanın dövlət müstəqilliyi artıq mövcuddur və dönməzdir.

Azərbaycanın Milli Bayramı – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(27 may 1997-ci il)

***

Azərbaycanın müstəqilliyini qoruyan dövlətin atributlarının hər biri bizim üçün əhəmiyyətlidir, hər birinin böyük məsuliyyəti var.

Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt heç yana əyə bilməsin, heç bir dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin. Bunun üçün də hər kəs bu müstəqilliyi qorumaqdan ötrü sadiq olmalı və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır. Milli mənafe, dövlət mənafeyi hər şeydən üstün olmalıdır.

Respublikanın Milli Təhlükəsizlik Orqanları əməkdaşlarının peşə bayramı
gününün təsis edilməsinə həsr olunmuş təntənəl yığıncaqda nitqindən
(5 iyul 1997-ci il)

***

Biz tam müstəqil bir dövlətik. Azərbaycan dünya birliyində müstəqil dövlət kimi özünəməxsus yer tutur. Bunun mənəvi əhəmiyyəti maddi əhəmiyyətindən daha da çoxdur.

Amerikanın "Hyüston Xronikal" qəzetinə müsahibəsi
Hyüston
(2 avqust 1997-ci il)

***

Bütün azərbaycanlıların dünyada bir vətəni var. O da müstəqil Azərbaycan Respublikasıdır.

İnsan harada olsa yaşayacaqdır. Şərt o deyil. Şərt odur ki, insan milləti, Vətəni, torpağı üçün nə edir.

Amerikadakı Azərbaycan Mədəniyyət Cəmiyyətinin nümayəndələri ilə görüşdə nitqindən
Çikaqo
(4 avqust 1997-ci il)

***

Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq tək rəsmi yerlərdə yox, idarələrdə, küçələrdə, saraylarda, məktəblərdə yox, gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun.

Azərbaycanın ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanması münasibətilə bakıdakı 18 nömrəli məktəbdə keçirilmiş mitinqdə nitqindən
(1 sentyabr 1997-ci il)

***

Hər birimizin müqəddəs borcu müstəqil dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişaf etdirmək dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmaqdan ibarətdir.

Dövlət müstəqilliyi günü münasibətilə Azərbaycan xalqına təbrikindən
(17 oktyabr 1997-ci il)

***

Müstəqillik naminə biz hər şeyə dözməliyik, müstəqillik naminə hər çətinliyə, hər əzab-əziyyətə dözməliyik.

Azərbaycan Yazıçılarının X Qurultayında nitqindən
Prezident sarayı
(30 oktyabr 1997-ci il)

***

Müxalifətin normal fəaliyyət göstərməsi üçün bütün imkanlar yaradılıb, bundan sonra da yaradılacaqdır. Ancaq heç kəs bundan sui-istifadə etməməlidir: heç bir partiyada heç bir silahlı qüvvə olmamalıdır və hər bir siyasi partiya, ancaq siyasi yollarla mübarizə aparmalıdır, başqa yollara əl atmamalıdır.

Yeni Azərbaycan Partiyasının yaradılmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(29 noyabr 1997-ci il)

***

Azərbaycan bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması, sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla, ələlxüsus öz qonşuları ilə qarşılıqlı anlaşma, mehriban qonşuluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir.

Dünya Azərbaycanlılarına
(25 dekabr 1997-ci il)

***

Biz Azərbaycanda ictimai-siyasi sabitliyi qoruyub saxlamağa qadirik və heç kəsə Azərbaycanın qanunlarını, konstitusiyasını pozmağa yol verməyəcəyik. Azərbaycanın bütün vətəndaşları arxayın ola bilərlər ki, Azərbaycanın dövləti, onun Prezidenti verdiyi sözlərə, andına sadiqdir. Azərbaycan vətəndaşlarının hüquqları və onların əmin-amanlığı daim qorunacaqdır.

Azərbaycan dövləti son illərdə öz qüdrətini həm ölkədə, həm də dünyada nümayiş etdiribdir. Biz Azərbaycanda ictimai-siyasi sabitliyi qoruyub saxlamağa qadirik və heç kəsə Azərbaycanın qanunlarını, konstitusiyasını pozmağa yol verməyəcəyik.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından
(22 yanvar 1998-ci il)

***

İnsan ləyaqətinə, bötövlükdə insan hüquqları ideyasına zidd olan ölüm cəzasının tətbiqi, hansı dəlillərlə əsaslandırılmasından asılı olmayaraq demokratik cəmiyyətdə qeyri-insani və amansız tədbir kimi qiymətləndirilir.

Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi
haqqında Milli Məclisə müraciətindən
(3 fevral 1998-ci il)

***

Azərbaycan dövlətçiliyinə qəsd edən hər bir kəs öz cəzasını alacaqdır. Heç bir terrorçu Azərbaycanda öz istəyinə nail ola bilməyəcəkdir. Ona görə ki, Azərbaycanın xalq tərəfindən seçilmiş Prezidenti var və Azərbaycanın Prezidenti Azərbaycan dövlətçiliyinin, xalqın keşiyində durubdur. Ona görə ki, Azərbaycan xalqı ilə Azərbaycan Prezidentinin birliyi, həmrəyliyi vardır.

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi nümayəndələrinin
ümumrespublika toplantısında nitqindən
Respublika İdman–Konsert Kompleksi
(18 fevral 1998-ci il)

***

Biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq, bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz üçün, mənəviyyatımız üçün uyğun cəhətlərini götürüb tətbiq edərək heç vaxt dinimizdən, dini adət-ənənələrimizdən ayrıla bilmərik və imtina edə bilmərik.

Qurban Bayramı münasibətilə Mir Mövsüm Ağanın ziyarətgahında keçirilən görüşdə nitqindən
(8 aprel 1998-ci il)

***

Bizim yolumuz Azərbaycanda dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyub saxlamaq, onu günü-gündən möhkəmləndirmək, dönməz, sarsılmaz, əbədi etməkdən ibarətdir.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Bakıda akkreditə olunmuş diplomatik korpusun üzvləri - xarici ölkələrin respublikamızdakı səfirləri və müvəqqəti işlər vəkilləri, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşdə çıxışından
Prezident iqamətgahı
(9 may 1998-ci il)

***

Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixi vardır.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
(27 may 1998-ci il)

***

Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir.

Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə nitqindən
London,
Azərbaycan Respublikasının səfirliyi
(22 iyul 1998-ci il)

***

Əsrlər boyu ulu babalarımız, Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu və yaşamışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq. Bilin ki, indi bunu əlimizdə saxlamaq, qorumaq hər bir insan üçün canından da artıqdır.

Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din və idman xadimlərinin böyük bir qrupuna "Şöhrət" ordenlərinin təqdim edilməsi mərasimində
Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
Prezident iqamətgahı
(21 avqust 1998-ci il)

***

Demokratiya yüksək mədəniyyət deməkdir. Demokratiya yüksək mənəviyyat deməkdir. Bu yüksək mənəviyyatı, yüksək mədəniyyəti hər bir Azərbaycan vətəndaşında yaratmaq üçün, gənc nəsli bu əsaslarda tərbiyələndirmək üçün İslam dininin mənəvi dəyərləri çox gərəklidir.

Bakıda keçirilən Beynəlxalq Konfransda və Qafqaz Müsəlmanları Qurultayında nitqindən
(29 sentyabr 1998-ci il)

***

“Azərbaycan sülhpərvər ölkədir. Biz dünyada sülh istəyirik, Qafqazda sülh istəyirik, bölgəmizdə sülh istəyirik, ölkəmizdə sülh istəyirik və buna nail olmağa çalışırıq”.

Biz Azərbaycan dövlətinin müstəqilliyini əldə edən zaman BMT tərəfindən tanınmışıq. Azərbaycanın dövlət sərhədləri çərçivəsində olan müstəqil Azərbaycanın tam bütövlüyünü müdafiə edəcəyik. Bunu dünya da bilməlidir. Hamı bilməlidir və ATƏT, onun Minsk qrupu da bilməlidir.

“Biz gələcəyə nikbinliklə baxırıq. Mən Azərbaycanın gələcəyini çox gözəl görürəm. Bizim bu gün gördüyümüz işlər və həyata keçirdiyimiz tədbirlər Azərbaycanın ardıcıl inkişafını təmin edəcəkdir”.

Azərbaycan Respublikasının prezidenti seçilməsi münasibətilə andiçmə mərasimində nitqindən
(18 oktyabr 1998-ci il)

***

Bizim ölkəmiz müstəqil ölkədir, müstəqil dövlətdir. Biz artıq hansısa bir ölkənin tərkibində deyilik, ona görə də ölkəmizin həyatının hər bir sahəsi dünya ilə bağlıdır, başqa ölkələrlə bağlıdır və dünya iqtisadiyyatı ilə, dünyada gedən proseslərlə bağlıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin ölkənin iqtisadi və sosial inkişafının yekunlarına həsr olunmuş geniş iclasında yekun nitqindən
(6 noyabr 1998-ci il)

***

Sovet İttifaqı dağılandan sonra Azərbaycan böyük çətinliklərdən keçərək öz müstəqilliyini əldə edibdir. İndi biz bu müstəqilliyi saxlamalıyıq, müstəqil Azərbaycanı yaşatmalıyıq, inkişaf etdirməliyik. Bu böyük tarixi vəzifəni, bu tarixi missiyanı hansısa xırda siyasətçilərin iddialarına, şıltaqlıqlarına, yaxud da ki, ayrı-ayrı hay-küylərinə biz qurban verə bilərikmi? Bu, heç vaxt ola bilməz!”

Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır.

Müstəqilliyi elan etmək hər bir xalq üçün, hər bir ölkə üçün tarixi hadisədir, böyük xoşbəxtlikdir. Amma müstəqilliyi yaşatmaq və onu dönməz etmək, sarsılmaz etmək bundan da böyük vəzifədir, bundan da çətin vəzifədir, bundan da böyük xoşbəxtlikdir.

Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər - bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir.

Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(21 noyabr 1998-ci il)

***

Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. O, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir.

Azərbaycan BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illik yubileyini keçirən dövlət komissiyasının iclasında nitqindən
Prezident sarayı
(3 dekabr 1998-ci il)

***

Azərbaycan Qafqazda və Qafqaz ətrafında, Mərkəzi Asiyada yerləşən, islam dininə mənsub olan xalqlar içərisində öz mədəniyyətini ümumbəşəri dəyərlərlə, Avropa mənəvi dəyərləri, Avropa mədəniyyəti ilə zənginləşdirmiş ən qabaqcıl ölkədir.

Azərbaycan Milli Elmlər Akademiyası rəyasət heyətinin binasında keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun açılışı mərasimində nitqindən
(9 dekabr 1998-ci il)

***

Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bu üç söz bizim dövlət quruculuğumuzun əsas mənasını, məzmununu, əsas prinsiplərini təşkil edir. Bu sözlərin üçü də - demokratiya da, hüquq da, dünyəvilik də insan haqlarından irəliyə gələn sözlərdir. Beləliklə, biz müstəqil Azərbaycanda öz strateji yolumuzu artıq müəyyən etmişik və bu yolla gedirik.

Azərbaycan İslam mədəniyyətinin, İslam milli-mənəvi ənənələrinin ümumbəşəri mənəvi dəyərlərlə vəhdətindən doğulan bugünkü Azərbaycandır.

"İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun iştirakçılarının böyük bir qrupu ilə Prezident sarayında görüşdə çıxışından
(10 dekabr 1998-ci il)

***

Sayca dünyanın ən iri millətləri ilə müqayisə olunan xalqımızı qarşıdan gələn yeni yüzillik və minillikdə ciddi və müqəddəs mübarizələr gözləyir. Biz nəinki təkcə müstəqil Azərbaycanın dövlət¬çiliyi¬nin qorunması, möhkəmlənməsi və inkişaf etməsi uğrunda, eyni zamanda bütün dünya azərbaycanlılarının milli hüquq¬larının, tarixi haqlarının həyata keçməsi ilə bağlı ciddi iş aparmalıyıq.

Biz nəinki müstəqil Azərbaycanın dövlətçiliyinin qorunması, möhkəmləndirilməsi və inkişaf etməsi uğrunda, eyni zamanda, bütün dünya azərbaycanlılarının milli hüquqlarının, tarixi haqlarının həyata keçməsi

ilə bağlı ciddi işlər aparmalıyıq. Bütün bu müqəddəs vəzifələrə nail olmaq üçün biz azərbaycançılığın dövlət rəmzini yaşadan müstəqil dövlətimiz ətrafında sıx birləşməliyik.

Dünya Azərbaycanlılarına
(24 dekabr 1998-ci il)

***

Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Bu, bizim müqəddəs borcumuzdur, - əcdadlarımız qarşısında borcumuz, bugünkü nəsil qarşısında borcumuz, gələcək nəsillər qarşısında borcumuzdur.

Xocalının erməni işğalçılarından müdafiəsində iştirak etmiş, şəhid olmuş milli qəhrəmanların, döyüşçülərin valideynlərinə, ailə üzvlərinə və fərqlənənlərə "Qızıl ulduz" medalları, "Azərbaycan bayrağı" ordenlərini Prezident iqamətgahında təqdimetmə mərasimində nitqindən
(26 fevral 1999-cu il)

***

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir.

Azərbaycanda yüksək savadlı, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik.

Azərbaycan Respublikasında təhsil sahəsində İslahatlar Üzrə Dövlət Komissiyasının iclasında nitqindən
Prezident sarayı
(17 mart 1999-cu il)

***

Hər birimizin qəlbini sonsuz qürur duyğularıyla döyündürən milli dövlətçilik atributlarımızı, türklüyün zəngin maddi və mənəvi dünyasını nümayiş etdirən tarixi abidələrimizi, ümumbəşəri dəyərlərimizi maneəsiz inkişaf etdirmək üçün hər cür şərait yaranmışdır.

Türk Dövlətləri və Topluluqlarının Bakıda keçirilən VII Dostluq, Qardaşlıq və İşbirliyi Qurultayında nitqindən
(29 iyun 1999-cu il)

***

Azərbaycanda siyasi plüralizm var, demokratiya var və biz bunları inkişaf etdirəcəyik. Ancaq öz şəxsi ambisiyalarına görə, öz şəxsi məqsədlərinə görə Azərbaycanın dövlət mənafeyinə zərər gətirmək, ləkə vurmaq xəyanətdir, cinayətdir. Bilin ki, biz bunların qarşısını bundan sonra da qətiyyətlə alacağıq.

Şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilmiş yaşayış evinin istifadəyə verilməsi mərasimində nitqindən

Bakı, Qaradağ rayonu, Lökbatan qəsəbəsi
(30 iyun 1999-cu il)

***

Bir dövlət olaraq, hökumət olaraq biz xalqımızın, millətimizin, vətəndaşlarımızın sosial tələblərini təmin etməliyik. Ona görə də insanların sağlamlığını və vətəndaşların müalicəsini təmin etmək üçün səhiyyədə mövcud imkanlardan daha da səmərəli istifadə etmək lazımdır.

Mustafa Hacıqasımov adına Azərbaycan Mamalıq və Ginekologiya Mərkəzinin açılışı mərasimində nitqindən
Bakı, Xətai rayonu
(6 avqust 1999-cu il)

***

Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir.

Ən əsas nailiyyət ondan ibarətdir ki, biz müstəqilliyimizi müdafiə etdik, qoruduq, möhkəmləndirdik, inkişaf etdirdik və müstəqilliyimizi əbədi etdik.

Respublikanın təhsil işçiləri və 1999-cu ildə ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə nitqindən
(31 avqust 1999-cu il)

***

Elə etmək lazımdır ki, ayrı-ayrı adamlar demokratiyadan istifadə edərək, öz şəxsi məqsədlərinə nail olmasınlar. Buna yol vermək olmaz. Ona görə də bu işlərə çox diqqətlə yanaşmaq lazımdır.

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin, Siyasi Şurasının, Partiyanın qurultayına hazırlıq üzrə təşkilat komitəsinin üzvləri və mərkəzi aparatının rəhbər işçiləri ilə görüşdə nitqindən
Prezident sarayı
(4 sentyabr 1999-cu il)

***

Xoşbəxtik ki, nəhayət, XX əsrin sonunda Azərbaycan öz milli azadlığını, dövlət müstəqilliyini əldə edib və öz təbii sərvətlərindən nə cür, hansı yolla istifadə olunmasını özü müəyyən edir.

Gülüstan sarayında keçirilən "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş rəsmi qəbulda nitqindən
(20 sentyabr 1999-cu il)

***

Azərbaycan dünyəvi dövlətdir, öz milli ənənələri ilə bərabər, ümumbəşəri dəyərləri də qəbul edir və onlardan istifadə edir.

ATƏT-in İstanbulda keçirilən zirvə görüşünün yekunlarına həsr olunmuş toplantıda yekun nitqindən
(24 noyabr 1999-cu il)

***

Azərbaycanda hər bir seçki prosesi insanları, vətəndaşları demokratiya prinsiplərinə daha da yaxınlaşdırmalıdır. Yəni demokratiya prinsipləri insanların daxili mənəviyyatı olmalıdır. Onların üzərinə bir vəzifə kimi yox, onlara bir tapşırıq kimi yox, insanların özlərinin mənəviyyatının tərkib hissəsi olmalıdır. Belə bir şəraitdə biz gələcəkdə də Azərbaycanda demokratiyanı sürətlə inkişaf etdirə bilərik.

12 dekabr - Bələdiyə seçkiləri ilə əlaqədar xalqa müraciətindən
(10 dekabr 1999-cu il)

***

Mən məmnunam ki, 1992-ci ildə çox ağır şəraitdə Naxçıvanda bizim yazdığımız və qəbul etdiyimiz proqram bu gün də öz aktuallığını saxlayıbdır. Demək, biz o vaxt nə qədər uzaqgörənlik etmişik, ölkəmizdə olan vəziyyəti nə qədər düzgün qiymətləndirmişik və partiyamızın gələcək yolunu, istiqamətini nə qədər düzgün müəyyən etmişik.

Yeni Azərbaycan Partiyası yarananda az bir müddət sonra Yeni Azərbaycan Partiyasının sədrinin üzərinə partiya işindən əlavə yeni böyük bir məsuliyyət - Azərbaycanın ağır dövründə, 1993-cü ildə Azərbaycan Respublikasına, ölkəmizə, xalqımıza rəhbərlik etmək məsuliyyəti düşdü. Buna görə də o zamandan indiyə qədər dövlətin, hökumətin gördüyü işlər və Yeni Azərbaycan Partiyasının fəaliyyəti bir-biri ilə vəhdət təşkil edir, üzvi surətdə bağlıdır.

Partiyanı yaradarkən heç kəs qarşıya məqsəd qoymurdu ki, biz hakimiyyəti devirəcəyik, - necə ki, indi ayrı-ayrı müxalifət qüvvələri hakimiyyəti devirmək haqqında, yaxud da hakimiyyət uğrunda mübarizə aparacaqları barədə ayda bir dəfə bəyanatlar verirlər. Bizim partiya sağlam düşüncə, sağlam fikir – xalqı birləşdirmək və Azərbaycanın o mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədi ilə yarandı.

Yeni Azərbaycan Partiyasının I Qurultayında nitqindən
Respublika sarayı
(20 dekabr 1999-cu il)

***

Hər bir xalq, millət üçün milli azadlıqdan, müstəqillikdən qiymətli heç bir şey yoxdur.

Qaradağ rayonunda qaçqınlar və məcburi köçkünlər üçün tikilmiş fərdi yaşayış evləri kompleksinin – "Ümid" qəsəbəsinin istifadəyə verilməsi mərasimində nitqindən
(29 dekabr 1999-cu il)

***

Müstəqil Azərbaycan Respublikasının tam və bərabərhüquqlu vətəndaşları olan xristian icması bu gün də cəmiyyətimizin ayrılmaz hissəsidir və onlar əsl vətəndaşlıq əzmi ilə həyatımızın bütün sahələrində yaxından iştirak edir, Azərbaycanın tərəqqisi və inkişafı üçün əllərindən gələni əsirgəmirlər.

Azərbaycan xristianlarına müraciətindən
(6 yanvar 2000-ci il)

***

Hər bir insan üçün vətən, torpaq, ölkə, müstəqil dövlət onun mənəviyyatı, həyatı üçün çox yüksək anlayışlardır.

İsveçrədəki Azərbaycan Cəmiyyəti İdarə Heyətinin bir qrup üzvü ilə Davosda görüşdə çıxışından
(30 yanvar 2000-ci il)

***

Öz təcrübəmə və bir çox ölkələrin təcrübəsinə əsasən deyirəm ki, qazanılmış müstəqilliyin bir çox çətinlikləri, mürəkkəb halları dəf etdiyi, müxtəlif islahatların çətinliklə aparıldığı, xarici xarakterli çox çətinliklərin olduğu ölkələrdə nüfuzlu siyasi xadim gərəkdir. Elə bir adam gərəkdir ki, ona inansınlar, öz talelərini ona etibar edə bilsinlər.

Gürcüstan ictimaiyyətinin nümayəndələri ilə Tbilisidə görüşdə nitqindən
(22 mart 2000-ci il)

***

Bəziləri hesab edirlər ki, dövlətin adı dəyişən kimi, gərək onun məzmunu da dərhal dəyişsin. Bu qeyri-təbii bir məsələdir. Bir məsələ ki, insan fikri, psixologiyası ilə əlaqədardır, burada həmişə müəyyən proses gedir. Dövlətin də, hakimiyyət orqanlarının da demokratiyanı təmin etməsi, demokratik dövlət quruculuğu prosesinin aparılması üçün çoxlu tədbirlər, əməli iş görmək, qanunlar qəbul etmək lazımdır. Biz belə başa düşürük ki, demokratiyanın başlanğıcı var, amma sonu yoxdur.

Avropa Şurası Venesiya Komissiyasının katibi Canni Bukikkionun
başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbətindən
Prezident sarayı
(18 aprel 2000-ci il)

***

Dövlətin vəzifəsi ölkədə qanunun aliliyini təmin etməkdir, insanların hüquq bərabərliyini təmin etməkdir, insanların azadlığını təmin etməkdir. Vətəndaşın da vəzifəsi bütün hərəkətləri, bütün fəaliyyəti, işləri qanun çərçivəsində görməkdir.

Demokratiya əxlaqsızlıq demək deyil. Demokratiya mənəviyyatsızlıq demək deyil. Demokratiya qanunları pozmaq deyil. Demokratiya qanun çərçivəsində olmalıdır.

Demokratiya heç də xaos demək deyil, özbaşınalıq demək deyil. Əgər elə olsa, onda dövlət olmaz. Elə olsa, onda qanun lazım deyil.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının Rəşid Behbudov adına Mahnı Teatrında keçirilən iclasında nitqindən
(6 may 2000-ci il)

***

Bizim məqsədimiz Azərbaycanı bir müstəqil dövlət kimi yaşatmaq, inkişaf etdirmək, dünya dövlətləri içərisində güclü, iqtisadi cəhətdən inkişaf etmiş bir dövlətə çevirməkdir. Bizim məqsədimiz Azərbaycanı tam demokratik dövlət etməkdən, demokratiya yolu ilə irəlilətməkdən və ölkəmizdə hər bir vətəndaşın hüquqlarını qorumaqdan, azadlığını təmin etməkdən ibarətdir. Bizim məqsədimiz Azərbaycanı bazar iqtisadiyyatı yolu ilə aparmaqdan, ölkəmizdə iqtisadi islahatlar həyata keçirməkdən ibarətdir. Bizim məqsədimiz dünya birliyində Azərbaycanın özünəməxsus yer tutmasını təmin etməkdən, ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı ilə sıx birləşdirməkdən, inteqrasiya etməkdən və bunların nəticəsində Azərbaycanı xoşbəxt, inkişaf etmiş bir dövlətə, ölkəyə çevirməkdən ibarətdir.

Gəncə şəhəri sakinləri qarşısında nitqindən
(24 may 2000-ci il)

***

Daxili ictimai-siyasi sabitlik olmayan yerdə demokratiya ola bilməz. Daxili ictimai-siyasi sabitlik olmayan yerdə iqtisadiyyat inkişaf edə bilməz.

Azərbaycanın xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr qurmaq və bu əlaqələr vasitəsilə həm gənc, müstəqil dövlət kimi inkişaf etmiş dövlətlərin təcrübəsindən istifadə etmək, həm də bu təcrübənin mümkün olan hissələrini Azərbaycanda tətbiq etmək, eyni zamanda Azərbaycanın dünya miqyasında özünə layiq yer tutmasına nail olmaq məqsədi daşıyır.

28 may – Respublika günü münasibətilə keçirilən təntənəli mərasimdə nitqindən
(27 may 2000-ci il)

***

Azərbaycan hüquqi, demokratik dövlətdir. Azərbaycanda demokratiyanın, qanunun əliliyinin təmin olunması üçün bütün işlər görülür və görüləcəkdir. Bunların özü də xarici investorların Azərbaycanda işləməsi üçün əsas şərtlərdən biridir.

Bakıda "Xəzərneftqaz - 2000" Yeddinci Beynəlxalq Sərgisi və Konfransının açılışı mərasimində nitqindən
(6 iyun 2000-ci il)

***

Azərbaycan xalqı irəlidə gedən xalqların arxasınca gedərək bəşəriyyətin əldə etdiyi elmi, texniki nailiyyətlərdən istifadə etməyə çalışıbdır. Bunun üçün də birinci növbədə öz milli təhsilini yaradıblar. Bu, XX əsrdə bizim əldə etdiyimiz ən böyük nailiyyətdir. Çünki əgər xalqımız təhsillənməsəydi, savadlanmasaydı, nəhayət, Azərbaycanın özünün milli ali təhsil müəssisələri, institutları, universitetləri yaranmasaydı, indi biz müstəqil olaraq bu cür böyük imkanlara malik ola bilməzdik.

Azərbaycan Tibb Universitetinin 70 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitqindən
(19 iyun 2000-ci il)

***

Bizim əsas problemimiz Ermənistan-Azərbaycan münaqişəsinə son qoymaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və işğal olunmuş torpaqlarımızdan didərgin düşmüş vətəndaşlarımızı öz yerlərinə, yurdlarına qaytarmaqdır.

Sülhü təmin etmək üçün, dövlətlər arasında daimi sülhü saxlamaq və müharibələrin baş verməsinin qarşısını almaq üçün gərək hər bir dövlətin güclü ordusu olsun.

Silahlı qüvvələr gününə həsr edilmiş təntənəli mərasimdə nitqindən
(26 iyun 2000-ci il)

***

Azərbaycanda demokratiya var və bundan sonra daha da güclənəcəkdir. Ancaq o şəxslər ki, hər şeyi qoyublar kənara, öz məqsədlərinə nail olmaq üçün bütün dünyaya car çəkirlər ki, Azərbaycanda demokratiya yoxdur, onlar müstəqil Azərbaycan dövlətinə, Azərbaycan xalqına böyük zərbələr vururlar. Amma qoy heç də düşünməsinlər ki, bu zərbələr bizi sarsıda bilər. Biz öz işimizi bilirik, demokratiya yolu ilə gedirik, dövlət quruculuğu prosesi normal gedir və bundan sonra da gedəcəkdir.

Prezident Sarayında keçirilən müşavirədə nitqindən
(2 oktyabr 2000-ci il)

***

Biz demokratiyanı təkcə seçkilərdə görmürük. Məsələn, Azərbaycanda bazar iqtisadiyyatının həyata keçirilməsi və bunun vasitəsilə iqtisadiyyatın inkişaf etdirilməsi, sosial problemlərin həll olunması da demokratiyanın bir hissəsidir.

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) ölkəmizdə Milli Məclisə seçkiləri müşahidə etmək üçün Bakıya gəlmiş nümayəndə heyəti ilə görüşdə söhbətindən
Prezident sarayı
(4 noyabr 2000-ci il)

***

Demokratiya bizim üçün xaricdən gətirilmə bir dəyər deyildir, bu, Azərbaycan xalqının öz istəyidir, onun özünün müəyyən etdiyi, getmək istədiyi yoldur.

12 noyabr Konstitusiya günü münasibətilə Azərbaycan xalqına təbrikindən
(11 noyabr 2000-ci il)

***

Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir.

Demokratiyanın hüdudları genişdir. Odur ki, o, hər xalqın mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir.

Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir.

Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir.

XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır.

Azərbaycanın çox zəngin intellektual potensialı və misilsiz xammal ehtiyatları, Avropadan Asiyaya gedən yolda əvəzedilməz coğrafi mövqeyi onun dünya birliyində sanballı yer tutmasına imkan verir.

Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən
(29 dekabr 2000-ci il)

***

Demokratiya daim inkişafda, daim hərəkətdə olan bir prosesdir.

Beynəlxalq təşkilatların – Avropa Şurası Parlament Assambleyasının, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, Parlament Assambleyasının, Avropa Şurası Nazirlər Komitəsinin "AQO" Monitorinq Qrupunun nümayəndə heyətlərinin rəhbərləri ilə Prezident sarayında görüşdə söhbətindən
(8 yanvar 2001-ci il)

***

Biz ölkəmizin Avropa Şurasına qəbulunu yalnız indiyə qədər gördüyümüz işlərə, həyata keçirdiyimiz islahatlara verilən qiymət kimi deyil, həm də ölkəmizə və xalqımıza doğru uzadılan dost əli kimi qiymətləndiririk və ona görə də bir sıra problemlərin vahid Avropa ailəsi daxilində həllini tapacağına inanırıq.

Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar təntənəli mərasimdə çıxışından
Strasburq
(25 yanvar 2001-ci il)

***

Əgər sülh və təhlükəsizlik təmin olunmasa, nə demokratiya, nə iqtisadi inkişaf, nə də insanların rahatlığı ola bilər.

Avropa İttifaqının Nümayəndə Heyəti – hazırda bu beynəlxalq təşkilata sədrlik edən İsveç Krallığının Xarici İşlər Naziri Xanım Anna Lind, Avropa İttifaqının Baş Katibi Havyer Solana, bu ittifaqın komissarı Kristofer Patten və onları müşayiət edən şəxslərlə görüşdə söhbətindən
Prezident sarayı
(21 fevral 2001-ci il)

***

Mən demişəm və deyirəm, Azərbaycanda demokratiya var, demokratiya inkişaf edir və inkişaf edəcəkdir. Heç kəs bu məsələdən sui-istifadə etməsin. Heç kəs də Azərbaycana bu barədə öz müxtəlif imkanları ilə təsir edə bilməz. Bizim Azərbaycanın öz yolu var. Xalqımızın öz mentaliteti var. Heç kəs güman etməsin ki, burada - Azərbaycanda bu gün Fransadakı kimi demokratiya olacaqdır. Onun üçün çox illər yaşamaq lazımdır.

Azərbaycan Respublikası Milli Məclisinin növbəti iclasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid məsələnin müzakirəsində nitqindən
(23 fevral 2001-ci il)

***

Bu müstəqil xarici siyasətin əsas ana xətti, əsas mənası Azərbaycanı yüksəltmək, ölkəmizi dünya miqyasında tanıtmaq və Azərbaycan xalqını, müstəqil Azərbaycanın mənafelərini dünya miqyasında daim qorumaqdan, müdafiə etməkdən ibarətdir.

Ümumxalq Novruz bayramı şənliyində nitqindən
Bakı, İçərişəhər
(21 mart 2001-ci il)

***

Biz bütün çətinliklərdən keçdik, bütün maneələrin qarşısını aldıq, Azərbaycanın bütün düşmənlərinə layiqli cavab verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq. Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdik və Azərbaycanın dövlət müstəqilliyini yaşadırıq və bundan sonra da yaşadacağıq.

Müstəqilliyi qorumaq, saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi.

28 May - Respublika gününə həsr olunmuş təntənəli mərasimdə çıxışından
(26 may 2001-ci il)

***

Dövlət xalqındır, xalq üçündür, millət üçündür.

Azərbaycan Respublikasının silahlı qüvvələri gününə
həsr olunmuş təntənəli mərasimdə nitqindən
(25 iyun 2001-ci il)

***

Demokratik, hüquqi dövlət qurarkən biz eyni zamanda əmin olmalıyıq ki, beynəlxalq aləmdə beynəlxalq hüquq normaları da təmin edilir və onların pozulmasına yol verilmir.

Mən tam əminəm ki, Azərbaycan xalqı bu böyük yol ilə - müstəqillik yolu ilə, demokratiya yolu ilə, insan azadlıqları yolu ilə, bazar iqtisadiyyatı yolu ilə sürətlə irəliləyəcəkdir. Bütün bunlar üçün sülh lazımdır. Sülh, əmin-amanlıq üçün ölkədə sülh lazımdır, bölgədə sülh lazımdır, cahanda sülh lazımdır.

Amerika Birləşmiş Ştatlarının milli bayramı – İstiqlaliyyət günü münasibətilə
ABŞ-ın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqindən
(4 iyul 2001-ci il)

***

Demokratiyanın bütün tələblərini tətbiq etmişik və edəcəyik. Ancaq Azərbaycanın milli-mənəvi dəyərlərinə qarşı, Azərbaycanın milli mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin hamısının qarşısı alınacaqdır və qanun çərçivəsində lazımi ölçülər götürüləcəkdir.

Milli–mənəvi dəyərlər və ənənələr Azərbaycan prezidenti Heydər Əliyevin bəyanatından
(14 avqust 2001-ci il)

***

Hansısa partiyanın, qüvvənin hakimiyyətə gəlməsinə heç kəs mane olmur. Ancaq bu, demokratiya yolu ilə, seçki yolu ilə olmalıdır. Amma o adamlar ki, indi qəzetlərdə müraciət edib insanları itaətsizliyə dəvət edirlər, dövlətə qarşı çıxışlar edirlər, onlar demokrat hesab oluna bilərmi? Onlar təxribatçıdırlar, cinayətkardırlar.

Ölkəmiz öz coğrafi-strateji vəziyyətinə, müstəqil siyasət apardığına görə, böyük təbii sərvətləri olduğuna görə müxtəlif yerlərdən Azərbaycana qarşı müxtəlif təxribat əməliyyatları daim olacaqdır. Onun üçün də Azərbaycanda ictimai-siyasi sabitlik, sağlam mühit, xalqın birliyi bütün bu çətinliklərin qarşısını almaq üçün əsas şərtdir.

Sərhəd Qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(18 avqust 2001-ci il)

***

Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdən ibarətdir. Həyata keçirdiyimiz daxili və xarici siyasət, o cümlədən Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlətin qurulması, Azərbaycanın yeni neft strategiyası və Azərbaycan neftinin, qazının adlarını çəkdiyim kəmərlərlə dünya bazarlarına çıxarılması Azərbaycanın müstəqilliyinin daimi olması üçün əsas şərtlərdən biridir. Bu, müstəqilliyimizin təminatıdır.

Hər bir vicdanlı vətəndaş anlamalıdır ki, bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının müstəqilliyini qorumaq əzmindən asılıdır.

Mən əminəm ki, biz Azərbaycanın müstəqilliyini qoruyacağıq, saxlayacağıq və gələcək nəsillərə müstəqil, yüksək iqtisadiyyata və potensiala malik olan bir dövlət bəxş edəcəyik.

"Neftçilər günü"nə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(22 sentyabr 2001-ci il)

***

Ötən on il hər bir azərbaycanlının, hər bir Azərbaycan vətəndaşının, hesab edirəm ki, nailiyyətidir. Birincisi, bu, bütün xalqımızın əvəzsiz sərvətidir, ikincisi isə, hər bir insanın bunda öz payı var. Heç kəsin payı inkar olunmamalıdır, heç kəsin rolu inkar olunmamalıdır. Amma heç kəsin də fəaliyyəti, necə deyərlər, şişirdilməməlidir. Hər şey düzgün, doğru, obyektiv olmalıdır

Azərbaycanın Dövlət Müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş müşavirədə nitqindən
(2 oktyabr 2001-ci il)

***

Azərbaycanın müstəqil dövlət olaraq dövlət rəmzləri var. Himni dünyanın hər yerində səslənir, milli gerbi Azərbaycanın dövlətçiliyini hər yerdə nümayiş etdirir, dövlət bayrağı Azərbaycanın üzərində uğurla dalğalanır və daim dalğalanacaqdır.

Dövlətçilik haqqında düşünən adam - həm adi vətəndaş, həm dövlət işində işləyən, xüsusən dövlətə başçılıq edən insanlar heç vaxt öz canı haqqında düşünməməlidir. Öz canı haqqında düşünən və xırda bir çətinlikdə ancaq qaçmaqla canını qurtarmaq istəyən insanlar - bunlar heç vaxt xalqın hörmətini, xalqın etimadını qazana bilməzlər.

İndi dünyada müstəqil Azərbaycan dövləti var. Onun milli dövlət bayrağı var, milli himni var, milli gerbi var. Azərbaycan dünya birliyində özünə layiq yer tutubdur. Azərbaycanın dövlət bayrağı bütün beynəlxalq təşkilatların iqamətgahları qarşısında dalğalanır, müstəqil Azərbaycanın başı üstündə dalğalanır və daim dalğalanacaqdır, bu yüksəkliklərə qalxmış bayraq bundan sonra heç vaxt enməyəcəkdir.

Azərbaycanın dövlət müstəqilliyi haqqında konstitusiya aktının qəbul olunmasının 10-cu ildönümünə həsr olunmuş Respublika sarayında keçirilən zirvə tədbirində – təntənəli mərasimdə nitqindən
(17 oktyabr 2001)

***

Borcumuz odur ki, Azərbaycan müstəqil bir dövlət kimi inkişaf etsin, daha da qüdrətlənsin, Azərbaycanın müstəqilliyi hər bir vətəndaş üçün xoşbəxtlik gətirsin, səadət gətirsin.

Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümü münasibətilə təşkil olunmuş rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən
(18 oktyabr 2001)

***

Azərbaycan heç vaxt öz müstəqil siyasətindən geri çəkilməyəcəkdir. Onun müstəqil xarici siyasəti Azərbaycanın müstəqilliyinin əsas rəmzidir, əsas göstəricisidir.

Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.

Dünya Azərbaycanlılarının I qurultayında nitqindən
(10 noyabr 2001-ci il)

***

Azərbaycanda həqiqi demokratiya yaranıbdır, onu yaradan da Azərbaycanın iqtidarıdır, onun Prezidentidir.

Azərbaycanda müxalifətdə olan partiyalar daim demokratiya haqqında danışırlar. Sən hələ Azərbaycan üçün bir iş görməmisən. Azərbaycanda demokratiyanı yaradan, inkişaf etdirən biz, Azərbaycanda islahatları həyata keçirən biz, Azərbaycanı dünyada tanıdan biz, bütün azadlıqları verən biz, indi necə oldu ki, siz demokrat oldunuz, iqtidar və Yeni Azərbaycan Partiyası antidemokratik oldu?

Azərbaycanın istiqlaliyyətinin bəyan edilməsi ölkəmizin tarixində çox böyük əhəmiyyətə malik olan hadisədir.

1992-ci ildə Naxçıvanda ağır bir şəraitdə, böyük təzyiqlər altında biz partiyanın yaranması ilə əlaqədar xeyli işlər gördük və ilk konfransı keçirdik. O vaxt, əlbəttə ki, partiyanın yaranması yalnız ayrı-ayrı şəxslərin, bu partiyanın yaranmasında çox təşəbbüs göstərmiş insanların, o cümlədən təkcə mənim xidmətim deyildir.

Müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də yaşaması bizim üzərimizə, mənim üzərimə düşən vəzifədir.

Yeni Azərbaycan Partiyasının II qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından
(22 noyabr 2001-ci il)

***

Bizim ümumi məqsədimiz mətbuata daha çox ' azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir.

Mətbuat Azərbaycan iqtidarı üçün çox önəmli bir sahədir. Biz demokratiya yolu ilə gedərək, söz azadlığını təmin edərək, bu yolda nöqsanları ardıcıl surətdə aradan qaldırmalıyıq və qaldıracağıq, mətbuata, söz azadlığına bütün imkanları yaradacağıq.

Azərbaycanda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdə nitqindən
(18 dekabr 2001-ci il)

***

Hər bir ölkənin dövlət sərhədi onun dövlət müstəqilliyinin əsas amilidir.

Milli Təhlükəsizlik Nazirliyinin rəhbər heyəti və Sərhəd Qoşunlarının dəstə rəisləri ilə görüşdə nitqindən
(6 mart 2002-ci il)

***

Azərbaycan dünyəvi dövlətdir. Demək, tarixi, milli dəyərləri ilə bərabər, mənəvi dəyərləri ilə bərabər Azərbaycan ümumbəşəri dəyərlərdən də bəhrələnir və onlarla zənginləşərək ölkəmizi dünyanın inkişaf etmiş dövlətlərinin səviyyəsinə qaldırmaq yolu ilə gedir.

Naxçıvandakı "N" saylı hərbi hissədə keçirilən görüşdə nitqindən
(17 iyun 2002-ci il)

***

Vəzifə təkcə ondan ibarət deyildir ki, gəlin altı- yeddi saat iş yerində oturun, ondan sonra gedin, dünyadan xəbərsiz. Bizim hər birimiz gecə də, gündüz də öz vəzifəmiz, məsuliyyətimiz haqqında düşünməliyik. Öz məsuliyyətimizi düşünərək üzərimizə düşən vəzifələri yerinə yetirməliyik.

Azərbaycanın energetika sistemində baş vermiş qəza ilə əlaqədar keçirilmiş müşavirədə çıxışından
Prezident sarayı
(15 iyul 2002-ci il)

***

Təcavüzkarların və separatçıların hərəkətləri ilə barışmaq meylinin müşahidə edilməsi, bəzən isə münaqişə zonasındakı vəziyyəti möhkəmlətmək və qanuniləşdirmək cəhdlərinə açıq-aşkar göz yumulması, bəzi vasitəçilərin "baş vermiş fakt" əsasında "asan" nizamasalmaya çalışması, etnik təmizləmələri və işğalı

tanımağa cəhd göstərilməsi yalnız gərginliyin artmasına gətirib çıxarır və münaqişələrin həqiqətən ədalətli həlli perspektivini uzaqlaşdırır.

GÜÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Yalta zirvə görüşündə nitqindən
(20 iyul 2002-ci il)

***

Müstəqilliyi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib, əsərlər, illüstrativ materiallar, kinolentlər yaratmaq, bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır.

Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə giriş nitqindən
(12 avqust 2002-ci il)

***

Müstəqil Azərbaycan Respublikası dünya azərbaycanlılarının həmrəyliyinin əsası və dayağıdır. Bu həmrəyliyin qayəsini təşkil edən Azərbaycançılıq və Azərbaycan dövlətçiliyi ideyaları məhz müstəqil dövlətimizin yaranması ilə inkişaf etmişdir. Bu ideyalar şüurlarda özünə möhkəm yer tutmuş, soydaşlarımızı birləşdirən milli məfkurəyə çevrilmişdir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə müraciətindən
Bakı
(26 dekabr 2002-ci il)

***

Hər bir ölkənin dövlət müstəqilliyini və ərazi bütövlüyünü təsdiq edən amillərdən biri onun dövlət sərhədləri və bu sərhədlərin toxunulmazlığıdır.

Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti və sərhəd dəstələrinin rəisləri ilə görüşdə nitqindən
(6 fevral 2003-cü il)

***

İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Bizi tanıyırlar, qəbul edirlər və əsas məsələlərdə bizimlə hesablaşırlar.

Prezident seçkiləri ilə əlaqədar Azərbaycan xalqına müraciətindən
(1 oktyabr 2003-cü il)

***

İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin

inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

Prezident seçkiləri ilə əlaqədar Azərbaycan xalqına müraciətindən
(1 oktyabr 2003-cü il)

***

Azərbaycan heç vaxt öz müstəqil siyasətindən geri çəkilməyəcəkdir. Onun müstəqil xarici siyasəti Azərbaycanın müstəqilliyinin əsas rəmzidir, əsas göstəricisidir.

Dünya Azərbaycanlılarının I qurultayında nitqindən
(10 noyabr 2001-ci il)

ORDU QURUCULUĞU HAQQINDA

Azərbaycan Respublikası müstəqil bir dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır... Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaranması bizim əsas vəzifəmizdir.

Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqindən
Bakı, "Respublika" Sarayı
(10 oktyabr 1993-cü il)

***

Bu gün hamı, ən əvvəl əli silah tuta bilən kişilər Vətənin müdafiəsinə qalxmalıdırlar.

Güclü orduya malik olmağımız müharibə vəziyyətindən sülh yolu ilə çıxmağımız üçün də böyük zəmin yaradacaqdır. Ona görə də güclü ordu yaradaraq respublikanın etibarlı müdafiəsini təşkil etmək, eyni zamanda sülh danışıqlarını qüvvəmizə arxalanaraq aparmaq istəyirik.

Mən qələbəmizə inanıram. Qələbəni biz birlikdə təmin etməliyik. Bu nurlu günün yaxınlaşmasında ordumuza hər kəs əlindən gələn köməyi göstərməlidir.

Bizim ordumuz sağlam mənəviyyata malik adamlardan ibarət olmalıdır.

Azərbaycan öz oğullarına - təcrübəli hərbi mütəxəssislərə bu gün həmişəkindən daha çox möhtacdır. Elə mütəxəssislərə ki, həmvətənlərini öz arxasınca aparmağa, düşmənin qarşısında igidliklə durmağa, onu pərən-pərən salıb doğma torpaqdan qovmağa qadirdirlər.

Cəbhəyanı bölgədə – İmişli, Füzuli Beyləqan, Şəmkir, Ağcabədi
rayonlarında və gəncə şəhərində görüşlər zamanı çıxışlarından
(11-12 dekabr 1993-cü il)

***

Vətənin, torpağın keşiyində daha cəsarətlə, daha mətinliklə durun. Vətəni qoruyun. Xalq, Vətən sizin şücaətlərinizi layiqincə qiymətləndirəcək və heç vaxt unutmayacaqdır.

Azərbaycanın Milli qəhrəmanları və vətənimizin azadlığı
uğrunda şəhidlərin ailə üzvləri ilə görüşdə çıxışından
(27 dekabr 1993-cü il)

***

Bilin ki, sizin hər birinizin arxanızda böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmişsiniz. Bilin ki,

sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır.

Siz cəbhəyə yola düşərkən indi orada vuruşan Azərbaycan əsgərlərinin qəhrəmanlıq nümunələrini gözlərinizin önünə gətirirsiniz. Bilirsiniz ki, son aylar Azərbaycan Ordusu öz gücünü toplayaraq möhkəmlənmişdir. İndi ordumuzun hissələri Azərbaycan torpaqlarım etibarlı surətdə qorumağa qadirdir və düşmənlə döyüşə girişərək qəhrəmanlıqlar göstərir, erməni silahlı qüvvələrinə güclü zərbələr endirir, Vətənimizi, xalqımızı sədaqətlə müdafiə edirlər.

Mən Azərbaycan ordusunun bugünkü qüdrətinə arxalanıram, ona güvənirəm.

Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpağının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!

"N" hərbi hissəsinin əsgər və zabitləri ilə görüşdə çıxışından
(24 yanvar 1994-cü il)

***

Qəhrəman ordumuz Azərbaycan Respublikasının müstəqilliyinin təminatçısı olmuşdur və gələcəkdə də olacaqdır.

Vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü qorumaqdır. Dövlət səviyyəsində bunun üçün müxtəlif tədbirlər görülür. Biz çalışırıq ki, siyasi vasitələrdən istifadə edək. Ordumuzun borcu isə ondan ibarətdir ki, dövlətimizin siyasətini səmərəli etmək üçün öz gücünü artırsın, bu siyasi tədbirlərin, danışıqların müsbət nəticə verməsinə mühüm kömək edir.

Azərbaycan Respublikasının indiki vaxtında orduda xidmət etməkdən, Vətənin müdafiəsində durmaqdan şərəfli peşə yoxdur... Bütün Azərbaycan xalqı bu yolu tutan övladlarına minnətdar olacaqdır.

Azərbaycan xalqı öz müstəqilliyini, milli azadlığını qoruyub saxlamalıdır. Bunun üçün də Azərbaycanın güclü ordusu olmalıdır. Bu, həm işğal olunmuş torpaqlarımızı düşməndən təmizləmək, həm də gələcəkdə müstəqil Azərbaycanın etibarlı müdafiəsini təmin etmək üçün gərəkdir. Ona görə də orduya diqqət və qayğı göstərmək hər bir vətəndaşın şərəfli borcu olmalıdır.

Bərdə rayonunda ictimaiyyətin nümayəndələri qarşısında çıxışından
(9-10 aprel 1994-cü il)

***

Azərbaycan hər birimizin Vətənidir. Hər kəs, hər bir vətəndaş öz Vətəninin keşiyində durmalıdır. Əgər əsgər, zabit Vətənin keşiyində durursa, döyüşdə həlak olursa, cəbhə bölgəsinə gedə bilməyən vətəndaş öz iş

yerində çalışmalı və döyüşməyə qadir olan övladını, qohum-qardaşını mütləq cəbhə bölgəsinə, orduda xidmətə göndərməlidir. Başqa yol yoxdur! Başqa yol ola bilməz!

Ermənistanın Azərbaycana qarşı təcavüzünün güclənməsi ilə əlaqədar respublika milli televiziya və radiosu ilə xalqa müraciətindən
(12 aprel 1994-cü il)

***

Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların xidməti heç vaxt unudulmayacaq, onlar qəlbimizdə daimi yaşayacaqdır. Onların qəhrəmanlığı, şəhidliyi Azərbaycan Ordusunun əsgərləri üçün böyük örnək olacaqdır.

Hər bir müstəqil dövlətin ordusu dövlətin əsas atributlarından biridir.

Azərbaycanın İstiqlal Bayramına – Respublika gününə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(27 may 1994-cü il)

***

Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz vətənimizi qoruyuruq.

Səttarxan adına zavodun işə salınmasının 100 illiyi münasibətilə
zavodun kollektivi ilə görüşdə çıxışından
(24 iyun 1994-cü il)

***

Bizim qüdrətli, möhkəm ordumuz olmalıdır, ona görə ki, müstəqil Azərbaycan dövləti daim qüdrətli olsun.

Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir.

Səudiyyə Ərəbistanına – Müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən sonra
Bakıda Təzəpir Məscidində din xadimləri ilə görüşdə çıxışından
(29 iyul 1994-cü il)

***

Orduya qayğı, hörmət, cəmiyyətin, xalqın şərəfli vəzifəsidir.

Bakıdakı 23 saylı orta məktəbdə Azərbaycanın milli qəhrəmanı Tahir Həsənovun xatirə lövhəsinin açılışına həsr olunmuş mitinqdə çıxışından
(3 sentyabr 1994-cü il)

***

Vətənini müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir.

Respublikanın ali məktəblərinə daxil olmuş birinci kurs tələbələri ilə görüşdə nitqindən
(14 sentyabr 1994-cü il)

***

Xalqımız əsrlər boyu həmişə öz torpağını qoruyub, öz milli azadlığını, qürurunu müdafiə edib və bu gün də müdafiə etməyə qadirdir.

Nyu-Yorkdakı "Türk Evi"ndə Amerikada yaşayan türk və azərbaycanlı icmasının nümayəndələri ilə görüşdə çıxışından
(26 sentyabr 1994-cü il)

***

Bu gün biz cəsarətlə deyə bilərik ki, Azərbaycanın güclü Silahlı Qüvvələri var, Azərbaycanın qəhrəman Milli Ordusu var, Azərbaycanın dəyərli generalları, zabitləri var, Azərbaycanın mətin, qəhrəman, hazırlıq keçmiş əsgərləri var.

Ordu Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq üçün yaranıb. Ona görə də hər bir vətəndaş ordu sıralarında xidmət etməyi özünə şərəf bilməlidir.

Azərbaycan Silahlı Qüvvələrinin 3-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(8 oktyabr 1994-cü il)

***

Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir.

Türkiyədə yaşayan azərbaycanlılarla görüşdə çıxışından
(1 noyabr 1994-cü il)

***

Bizim məqsədimiz müharibə etmək deyil. Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır. Biz düşdüyümüz vəziyyətdən sülh yolu ilə çıxmaq istəyirik.

Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi - o yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır.

Azərbaycan xalqına Yeni İl təbrikindən
(31 dekabr 1994-cü il)

***

Biz öz inamımızı itirməməliyik, məsləkimizdən, tutduğumuz yoldan çəkinməməliyik. Tutduğumuz bu yol Azərbaycanın müstəqilliyidir, Milli azadlığıdır, müstəqil Azərbaycanın müstəqil dövlət kimi əbədi olmasıdır. Tutduğumuz yol bizim mənəvi dəyərlərimizə, adət-ənənələrimizə, dinimizə, dilimizə, tariximizə sədaqətimizdir. Bunlara nə qədər sadiq olsaq, bugünkü ağır şəraitin səbəblərini bir o qədər dərk edəcək, bir-birimizə əl tutaca- ğıq, kömək edəcəyik, erməni qəsbkarlarının qarşısını da alacağıq. Torpaqlarımızı da azad edəcəyik və xalqımızı, respublikamızı bu böhran vəziyyətindən də çıxaracağıq.

Xocalı Soyqırımının üçüncü ildönümü ilə əlaqədar keçirilən mərasimdə çıxışından
Təzəpir məscidi
(26 fevral 1995-ci il)

***

Gənclər bilməlidirlər ki, 1941-1945-ci illər müharibəsində, dünya, bəşəriyyət tarixində ən dəhşətli müharibədə Azərbaycan xalqının qəhrəmanlıq göstərən generalları, zabitləri, sıraviləri olub. Onlar öz qəhrəmanlıqları ilə xalqımızın hörmətini qaldırıblar, Azərbaycan xalqını tanıdıblar. Bunların hamısı gənc nəslimiz üçün örnəkdir və örnək olmalıdır.

Faşizm üzərində qələbənin 50 illiyinə hazırlıqla əlaqədar müharibə,
əmək və silahlı qüvvələrin veteranları ilə görüşdə çıxışından
Prezident sarayı
(7 aprel 1995-ci il)

***

25 il bundan öncə mən Azərbaycanda heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq fikri irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da mən həyatımda gördüyüm işlər içində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özüm çox yüksək qiymətləndirirəm.

Respublika Milli Qvardiyasının Qərargahında Azərbaycanın milli
qəhrəmanı Əfqan Hüseynovun büstünün açılışı mərasimində çıxışından
(28 may 1995-ci il)

***

Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox. Biz sülhsevər dövlətik. Biz heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik. Azərbaycan xalqının ali məqsədi bundan ibarətdir. Azərbaycan dövlətinin apardığı siyasət, əməli fəaliyyət bundan ibarətdir. Bunun üçün və gələcəkdə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır. Biz ordu quruculuğu işi ilə məşğul oluruq.

Bizim güclü ordumuz olmalıdır, hər bir vətəndaş orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir. Hər bir valideyn də öz oğlunun, övladının orduda xidmət etməsini şərəf bilməlidir.

«Müstəqil Azərbaycan» ifadəsi indi hamı üçün əzizdir, bunu hamı təkrar edir. Ancaq hər kəs də başa düşməlidir ki, müstəqil Azərbaycanın müstəqil yaşaması üçün hər bir vətəndaşın vətəndaşlıq borcu var. Bunu təmin etmək üçün hər bir vətəndaş öz payını verməli, öz xidmətini göstərməlidir.

Azərbaycanın müstəqilliyini əbədi etmək üçün güclü və daim təkmilləşən, güclənən milli ordumuz olmalıdır. Bu, bizim müqəddəs vəzifəmizdir, hər bir kəsin şərəfli vəzifəsidir.

Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə çıxışından
Prezident Sarayı
(18 oktyabr 1995-ci il)

***

Azərbaycan azadlıq, suverenlik uğrunda mübarizə əzmini həmişə qoruyub saxlamış, bu yolda böyük məhrumiyyətlərə düçar olsa da, qurbanlar versə də, mətin iradəsi sarsılmamışdır.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan xalqına müraciətindən
(30 dekabr 1995-ci il)

***

İkinci dünya müharibəsində bizim Həzi Aslanov, Akim Abbasov, Mahmud Əbilov və başqaları kimi böyük generallarımız, sərkərdələrimiz olubdur. Bunlar hamısı olubdur. Bunlar bizim tariximizdir. Düzdür, onlar bizim müstəqil Azərbaycanın olmayıbdır, amma Azərbaycanın mənsub olduğu dövlətə xidmət ediblər.

Bizim keçmişdə də orduda xidmət etmək sahəsində böyük ənənələrimiz olub. Məsələn, XIX, XX əsrləri götürsək, Azərbaycan çar Rusiyasının tərkibində olarkən xalqımızın çox dəyərli şəxsiyyətləri orduda yüksək rütbələrdə xidmət etmişlər, general rütbəsi almışlar. Biz bu gün də general Mehmandarovla, general Əliağa Şıxlinski ilə, yaxud Talışxanovla, Bakıxanovla, Ağalarovla fəxr edirik. Bizim vaxtilə belə sərkərdələrimiz olublar. Onlar bizim tariximizə yazılıblar. Biz onları böyük hörmət və ehtiram hissi ilə xatırlayırıq.

Əgər bu hərbi məktəb olmasaydı, bizim ordumuz- dakı zabitlərin çoxu yəqin olmayacaqdı. Çünki bu zabitlərin çoxu həmin məktəbin yetirməsidir. Bu məktəbdən sonra bir ildə təxminən 800-900 nəfər gənc azərbaycanlını Sovetlər İttifaqının ali hərbi məktəblərinə göndərirdik. O cümlədən, Bakıda yerləşən iki ali hərbi məktəbdə - onlar indi bizim ixtiyarımızdadır - zabitlər hazırlayırdıq. İndi ordumuzda olan zabitlərin tam əksəriyyəti həmin dövrdə hazırlanan zabitlərdir, onlar bu gün də xidmət edirlər. Bu işləri biz vaxtında görmüşük. O dövrdə bizim imkanımız məhdud idi, amma bunları etmişik. Amma bu gün isə hər şey bizim əlimizdədir və çalışmalıyıq ki, bu imkanımızdan istifadə edib güclü ordu yaradaq.

Müstəqil Azərbaycan Respublikası Gənclərinin birinci forumunda nitqindən

Respublika Sarayı
(2 fevral 1996-cı il)

***

Hər bir tayfanın, ordunun, dəstənin, hər bir millətin başında duranlar, sərkərdəlik edənlər çox şey həll edirlər.

Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 3-cü ildönümü ilə əlaqədar rayon sakinlərinin nümayəndələri ilə görüşdən
Prezident Sarayı
(1 aprel 1996-cı il)

***

Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacağıq.

Norveçin Baş Naziri Qru Harlem Brundtlandin Azərbaycan Prezidentinin şərəfinə verdiyi rəsmi ziyafətdə nitqindən
(24 aprel 1996-cı il)

***

Dövlətimizin hərbi qüdrətini möhkəmləndirməliyik!

Qurban Bayramı münasibətilə "Qızılqum" sanatoriyasında müvəqqəti yerləşmiş Şuşa, Xocalı, Laçın, Ağdam qaçqınları ilə görüşdə çıxışından
(28 aprel 1996-cı il)

***

Azərbaycanın böyük gələcəyi var. Gələcək nəsillər haqqında düşünməliyik. Azərbaycanın gəncləri, gənc nəsli, Milli ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər. Mən əminəm ki, belə də olacaqdır.

Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik!

Milli Bayram – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika Sarayı
(26 may 1996-cı il)

***

Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza

sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər.

Ordu bizim doğma ordumuzdur, ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır, ona görə də biz heç vaxt bunu unutmamalıyıq və orduya olan qayğını daim əsas vəzifəmiz kimi dərk etməliyik.

Orduya çağırılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar. O gənclərin valideynləri bilməlidirlər ki, onların övladları ölkə, dövlət qarşısında öz vətəndaşlıq borclarını layiqincə yerinə yetirməlidirlər.

Bütün dünyaya məlumdur ki, biz sülh tərəfdarıyıq, müharibəyə son qoymaq istəyirik, döyüşlərin bir daha baş verməsinin tərəfdarı deyilik. İşğal olunmuş torpaqlarımızın sülh yolu ilə azad edilməsinə nail olmağa çalışırıq, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasına nail olmağa çalışırıq.

Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, müstəqil Azərbaycan Respublikasının Milli ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir.

Hər bir zabit, komandir əsgərdən, özünə tabe olan zabitdən nizam-intizam tələb edərkən, qanun-qaydaya riayət etməyi tələb edərkən özü bu barədə nümunə göstərməlidir. Yüksək rütbəli zabitlərin, generalların nümunəsi, şübhəsiz ki, bütün orduda sağlam mühit, sağlam əhval-ruhiyyə, möhkəm nizam-intizam yaratmaq üçün əsasdır.

Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır.

Möhkəm, daimi sülh üçün müstəqil dövlətin güclü ordusu olmalıdır.

Orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq olmalıdır.

Mən əminəm ki, bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitqindən
Şəhriyar adına Mədəniyyət Mərkəzi
(7 oktyabr 1996-cı il)

***

Orduda xidmət etmək hər bir azərbaycanlının şərəfli borcudur. Orduda xidmət edən, əsgərlik borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə - ölkəni, Vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar.

Güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir, respublikamızın sülh və əmin- amanlıq şəraitində yaşamasının təminatıdır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci ildönümü münasibətilə çıxışından
"N" hərbi hissəsi
(9 oktyabr 1996-cı il)

***

Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya daha çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir.

Naxçıvan Hərbi Qarnizonunun əsgər və zabitləri ilə görüşdə nitqindən
(30 oktyabr 1996-cı il)

***

Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının Milli Ordusu - respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarımızın müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır.

Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir.

Azərbaycan Respublikası Milli Qvardiyasının yaradılmasının
beş illiyinə həsr olunmuş mərasimdə çıxışından
Azərbaycan Milli Qvardiyasının Qərargahı
(25 dekabr 1996-cı il)

***

Hər bir müstəqil dövlətin müstəqil yaşaması üçün onun güclü, müasir tələblərə cavab verən ordusu olmalıdır.

Milli Ordumuzda xidmət etmək hər bir Azərbaycan gəncinin şərəfli vətəndaşlıq borcudur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müstəqil Azərbaycan
Respublikası gənclərinin 1-ci forumunun birinci ildönümü münasibətilə
forum nümayəndələrinin bir qrupu ilə görüşdə nitqindən
Prezident Sarayı

(1 fevral 1997-ci il)

***

Hər bir gənc ailəsindən, ata-anasından, tutduğu vəzifəsindən, yaxud da maddi vəziyyətindən asılı olmayaraq, Azərbaycan milli ordusunda xidmət etməlidir.

Azərbaycanın Milli Bayramı – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(27 may 1997-ci il)

***

Bizim ordumuzda milli aviasiya sahəsini də özümüzün milli mütəxəssislərimizlə, azərbaycanlılarla yarada bilərik. Bunlar artıq yaranıbdır və bu gün də sizinlə ilk görüşə gəlmişik. Bu, Azərbaycan Milli Ordusunun bu sahədə ilk addımıdır. Amma hesab edirəm ki, bu çox yaxşı başlanğıcdır. Bunun böyük gələcəyi var. Mən bu gələcəyi açıq-aydın görürəm. Əgər biz bu qısa müddətdə azərbacanlılardan, Azərbaycan gənclərindən təyyarələri, hərbi təyyarələri, döyüş təyyarələrini idarə edə bilən və havada döyüş apara bilən, yaxud hava qüvvələri ilə ölkəmizin müdafiəsini təmin edə bilən mütəxəssislər hazırlaya bilmişiksə, bu böyük nailiyyətdir.

Azərbaycanın Silahlı Qüvvələrinin tərkibinə ilk illərdə soxulmuş və Silahlı Qüvvələrimizi içəridən dağıtmağa, parçalamağa, ölkəmizin milli mənafeyinə zərər vurmağa cəhd edən dəstələr, qüvvələr artıq zərərsizləşdiriliblər. Bizim Silahlı Qüvvələrimiz bu cür cinayətkar, xəyanətkar dəstələrdən, qruplardan, qüvvələrdən demək olar ki, təmizlənibdir. Ancaq eyni zamanda, sayıqlığı əldən vermək olmaz. Hələ heç də deyə bilmərik ki, bizim ordumuzun möhkəmlənməsinə maneçilik göstərən qüvvələr tamamilə ləğv olunubdur.

Etibarlı, güclü, vətənini, torpağını müdafiə etməyə qadir silahlı qüvvələri olmayan ölkənin müstəqilliyi də etibarlı ola bilməz.

İstəyirəm ki, bizim cəsur şahinlərimiz olsun, bu şahinlər öz məharətlərini bütün dünyaya göstərsinlər, o cümlədən, keçmiş illərdə bizim millətə bu sahədə bacarıqsız kimi qiymət verən adamlara göstərsinlər ki, azərbaycanlılar hər bir işin öhdəsindən gəlməyə qadirdirlər.

Nizami ordunun döyüş qabiliyyəti günü-gündən yüksəlməlidir. Azərbaycanın nizami ordusu, milli ordusu respublikamızın ərazi bütövlüyünün, torpaqlarının müdafiəsinin və dövlətimizin müstəqilliyinin tam qarantı olmalıdır.

Bizim şahinlərimiz Azərbaycanın səmasını daim qorumağa, Azərbaycanın ərazisini qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər.

Azərbaycan Respublikası Hərbi Təyyarəçilər məktəbinin ilk buraxılışına həsr olunmuş təntənəli mərasimdə çıxışından
(15 oktyabr 1997-ci il)

***

Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var.

Gənclik illəri sonra ələ düşməyən illərdir. Yaş artdıqca, insan bu illəri həmişə böyük həsrətlə xatırlayır. Siz gənclər bəlkə də bunu indi dərk edə bilmirsiniz, ancaq biz - yaşlı insanlar bunu çox yaxşı bilirik. Hər bir yaşlı insan öz gəncliyini daim məhəbbətlə xatırlayır və eyni zamanda gəncliyi dövründə itirdiyi günlərə, səmərəsiz keçmiş günlərə görə özünü daim qınayır, heyfislənir. Gələcəkdə özünüzü qınamamaq üçün, gəncliyinizdə nəyisə etmədiyinizə görə heyifsilənməməyiniz üçün mən sizə məsləhət edirəm: gənclik günlərindən, aylarından, gənclik illərindən səmərəli istifadə edin, boş yerə vaxt sərf etməyin, yaxşı oxuyun, yaxşı təhsil alın. Özünüzü həyata, əmək fəaliyyətinə, gələcəyə yaxşı hazırlayın.

Bizim ordumuz möhkəmlənməlidir. Möhkəmlənməlidir ki, Azərbaycan ölkəsinin özünə layiq qüdrətli ordusu olsun. Möhkəmlənməlidir ki, Azərbaycan ordusu bu gün də, gələcəkdə də ölkəmizə qarşı mümkün olan təcavüzün qarşısını alsın. Möhkəmlənməlidir, ona görə ki, ordumuz Azərbaycanı daima qoruya bilsin.

Vətəninə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir.

Azərbaycan gəncləri gününə həsr edilmiş bədii-idman bayramında nitqindən
Bakı İdman Oyunları Sarayı
(2 fevral 1998-ci il)

***

Azərbaycan xalqı qəhrəman xalqdır.

Mərdəkandakı "Abşeron" sanatoriyasında Novruz Bayramı münasibətilə qaçqınlar və məcburi köçkünlər üçün keçirilən bayram şənliyində nitqindən
(20 mart 1998-ci il)

***

Silahlı Qüvvələrdə Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə sədaqətli, sağlam mənəviyyatlı insanlar xidmət etməlidirlər.

Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin nitqindən
(25 iyun 1998-ci il)

***

Azərbaycan dövlətinin, dövlətçiliyinin, ərazimizin müdafiəsi ölkəmizin konstitusion əsaslarının qorunması hər bir əsgərin, zabitin, döyüşçünün borcudur. Zabitlərin öz peşəkarlıqlarını artırması, ali hərbi məktəblərdə təhsil sisteminin yaxşılaşdırılması, hərbi hissələrdə sağlam mənəvi mühitin yaradılması və bütün yabançı meyllərin aradan qaldırılması komandirlərimizin, zabitlərimizin, Silahlı Qüvvələrimizin rəhbərlərinin müqəddəs vəzifəsidir. Bu vəzifələri gərək hamı yerinə yetirsin.

Azərbaycanda ordunun inkişaf etməsi, möhkəmlənməsi dövlətimizin və xalqımızın ən əsas vəzifəsidir. Biz həmişə həmrəy olaraq bəyan etmişik ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir və sarsılmazdır. Bu bəyanatı həmişə reallaşdırmaq üçün, bu fikirləri əməli surətdə daim həyata keçirmək üçün biz orduya xüsusi qayğı göstərməliyik, onu möhkəmləndirməli və inkişaf etdirməliyik.

Azərbaycan Milli Ordusunun Yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitqindən
Respublika sarayı
(26 iyun 1998-ci il)

***

Biz gələcəyə baxmalıyıq. Həm bu günümüz, həm də gələcəyimiz üçün Azərbaycanda güclü, yüksək səviyyəli zabitlər yaratmalıyıq. Azərbaycanda zabitlər korpusu gərək böyüsün və inkişaf etsin. Azərbaycanın dövlət müstəqilliyi daim qorunmalıdır. Bunun üçün bizim yüksək səviyyəli peşəkar ordumuz və yüksək səviyyəli zabitlərimiz olmalıdır.

Azərbaycanın şəhid milli qəhrəmanlarının və döyüşçülərinin valideynlərinə, ailə üzvlərinə, habelə hərbi qulluqçulara «Qızıl ulduz» medalları, «Azərbaycan bayrağı» ordenləri və «Hərbi xidmətlərə görə» medallarının təqdim olunması mərasimində nitqindən
Prezident İqamətgahı
(8 dekabr 1998-ci il)

***

Əziz gənclər!

Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq,.inkişaf etdirmək üçün hazır olun!

Azərbaycan Gənclərinin II Forumunda nitqindən
Respublika sarayı
(3 mart 1999-cu il)

***

Azərbaycanın milli ordusu bu gün Azərbaycanı hər bir hadisədən qorumağa qadirdir, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin keşiyində durubdur.

28 may – Respublika günü münasibətilə Azərbaycan xalqına müraciətindən

(28 may 1999-cu il)

***

Müstəqillik dövründə qazandığımız ən mühüm nailiyyətlərdən biri milli odumuzun yaradılması olmuşdur.

Silahlı qüvvələrimizin hər bir əməkdaşı gözəl bilir ki, güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini qorumaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün əsas amildir, sülhün və əmin-amanlığın təminatçısıdır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə görüşdə nitqindən
(25 iyun 1999-cu il)

***

Cəmiyyətdə, gələcək həyatda hörmət qazanmaq istəyən gənc gərək mütləq əsgərlik borcunu yerinə yetirsin. Əsgərlik borcunu yerinə yetirmək hər bir azərbaycanlı gəncin müqəddəs vəzifəsidir.

Mən arzu edirəm ki, hər bir Azərbaycan gənci Azərbaycan ordusunda xidmət etməyi özünün müqəddəs vəzifəsi kimi qəbul etsin. Orduda xidmət etməyən gənc cəmiyyətdə böyük hörmət qazana bilməz. Cəmiyyətdə, gələcək həyatda hörmət qazanmaq istəyən gənc gərək mütləq, mütləq əsgərlik borcunu yerinə yetirsin. Əsgərlik borcunu yerinə yetirmək hər bir azərbaycanlı gəncin müqəddəs vəzifəsidir.

Naxçıvan qarnizonu "N"saylı hərbi hissəsinin şəxsi heyəti ilə görüşdə nitqindən
(11 oktyabr 1999-cu il)

***

Hər bir müstəqil dövlətin öz dövlətçiliyini, torpaqlarını, ərazisini, xalqını qorumaq üçün güclü, qüdrətli ordusu olmalıdır.

Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının açılışında nitqindən
(13 oktyabr 1999-cu il)

***

Gərək orduda yüksək vətənpərvərlik ruhu, sağlam münasibətlər olsun. Gərək bizim orduda Azərbaycan dövlətçiliyinə, dövlətinə, Azərbaycan Ali Baş Komandanına daim sədaqət olsun.

Azərbaycan gənci erməni gəncindən aciz deyil, gücsüz, cəsarətsiz deyil, əksinə, azərbaycanlılar daha cəsarətli, daha qüdrətli və daha güclüdürlər. Ancaq bu insanı, bu gənci müharibə etməyə, silahdan istifadə etməyə öyrətmək lazımdır.

Azərbaycan ordusu, Silahlı Qüvvələri böyük gələcəyə baxmalıdır. Ancaq bu böyük gələcəyi təmin etmək üçün bu gün Azərbaycanın güclü ordusu olmalıdır. Bu ordu sabah ondan güclü, beş il sonra ondan da güclü, on il, on beş il sonra daha da güclü olmalıdır. Azərbaycan prezidenti və Ali Baş Komandan kimi, mən bu

siyasəti aparıram və sizdən onu tələb edirəm. Buna nail olmaq üçün öz tərəfimdən əlimdən gələni etmişəm və bundan sonra da edəcəyəm.

İndi Azərbaycan ordusunun müasir dövrə uyğun uğurlu müdafiəni təmin etmək, yaxud da müharibə aparmaq üçün düzgün strukturu yaranıbdır, hərbi hissələrin düzgün strukturu yaranıbdır. 1993-cü ilin noyabrından və 1995-ci ildən sonrakı dövr Azərbaycan ordusunun güclənməsi, möhkəmlənməsi dövrüdür. Bu gün mən məmnuniyyət hissi ilə deyə bilərəm ki, Azərbaycan ordusu böyük gücə, texnikaya, silaha, sursata malikdir və onun inkişaf etməsi üçün böyük imkanlar yaranıbdır.

18 yaşında gənc hələ tam formalaşmayıbdır. Onun tam formalaşması üçün bir neçə il lazımdır. Amma keçmişdə, bütün dövlətlərdə də belə olubdur ki, orduda xidmət, əsgərlik dövrü hər bir gənci möhkəmləndirir, cəsarətləndirir, onu daha dözümlü edir, bütün çətinliklərə dözməyə öyrədir. Bu, təbiidir. Çünki əsgər olmaq halva yemək, yaxud anasının hər gün bişirdiyi plovu yemək deyildir. Elə bütün ordularda əsgərlik asan məsələ deyildir.

Bir var ki, əlinə silah alıb vuruşan adam torpağını müdafiə etmək istəyir, şəhid olmağa hazırdır, amma silahdan istifadə etməyi, hərbi işi, hərbi peşəni bilmir, onun komandiri yoxdur, ona yol göstərən yoxdur.

İndi bizim əsas problemimiz Ermənistan-Azərbaycan münaqişəsinə son qoymaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və işğal olunmuş torpaqlarımızdan didərgin düşmüş vətəndaşlarımızı öz yerlərinə, yurdlarına qaytarmaqdır.

Azərbaycanın güclü ordusu bu gün də, sabah da, on il, yüz il də bundan sonra lazımdır.

Silahli Qüvvələr Gününə həsr edilmiş təntənəli mərasimdə nitqindən
(26 iyun 2000-ci il)

***

Müstəqil Azərbaycan Respublikasının getdikcə güclənməsi, azad, varlı və demokratik bir ölkəyə çevrilməsi həm də dünya azərbaycanlılarının milli birliyinə, Azərbaycan xalqına və dövlətinə mənsubluq hissinə mütəşəkkillik, yenilik və daimilik gətirəcək, həm də bütün dünyada onların vətəndaş və milli haqlarının daha dolğun təmin olunmasına, qorunmasına təkan verəcəkdir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə müraciətindən
Bakı
(26 dekabr 2000-ci il)

***

Azərbaycan bir tərəfdən Ermənistanın təcavüzünə məruz qaldığına görə, ikinci tərəfdən, təkcə bu gün yox, gələcəkdə də həmişə öz torpaqlarını, öz mənafelərini qorumaq üçün güclü orduya malik olmalıdır.

Azərbaycanın torpaqlarını, mənafeyini müdafiə etməyə qadir olan əsgərlərimiz, zabitlərimiz, milli ordumuz vardır.

28 May Respublika Gününə həsr olunmuş təntənəli mərasimdə çıxışından
(26 may 2001-ci il)

***

Özünü hərbi peşəyə həsr edən hər bir gənc anlamalıdır: bu peşəyə özünü nə üçün həsr edir? Çünki hərbi peşə başqa peşələrə nisbətən asan deyil, çətindir. Nə üçün həsr edir? Demək, Vətəni qorumaq üçün, öz dövlətini, öz millətini qorumaq üçün! Hesab edirəm ki, hərbi təhsil alıb orduda xidmət etmək istəyən gəncin əsas məqsədi budur. Əgər siz hamınız həqiqətən bu məqsədi nəzərə alaraq özünüzü hərbi peşəyə həsr etmək istəyirsinizsə və hərbi məktəbə daxil olub ali hərbi təhsil almaq, bizim orduda, Silahlı Qüvvələrdə xidmət etmək istəyirsinizsə, demək siz sağlam mənəviyyata malik olmalısınız.

Dünyada çox peşələr var. Hər bir ölkədə, o cümlədən müstəqil Azərbaycanda da. Amma bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə milləti, xalqı, torpağı qorumaq peşəsidir - yəni hərbi peşədir.

Mənim üçün hər bir əsgər, hər bir döyüşçü, hər bir zabit Azərbaycan vətəndaşlarının hər birindən daha da qiymətlidir, daha da yüksəkdir.

Bakı Ali Birləşmiş Komandirlər Məktəbində keçirilən görüşdə nitqindən
(20 iyun 2001-ci il)

***

Bizim güclü ordumuz, bundan sonra daha da güclənəcək ordumuz Azərbaycanın işğal olunmuş torpaqlarını azad etməyə, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə qadirdir.

Silahlı Qüvvələrin yaranmasına, ordu quruculuğuna dövlətin, bütün hakimiyyət orqanlarının xüsusi qayğısı olmalıdır. Azərbaycanın dövləti, Azərbaycanın Prezidenti, Ali Baş Komandan bu qayğını göstərir və bundan sonra da göstərəcəkdir.

Ordunun ordu olmasının əsas amili nizam-intizamdır.

Azərbaycan bu gün güclü orduya malikdir və Azərbaycan torpaqlarının qorunmasına qadir olan ordumuz var.

Azərbaycan xalqı, onun yaratdığı dövlət, onun yaratdığı Silahlı Qüvvələr böyük sınaqlardan, çətinliklərdən keçərək, böyük itkilər verərək Azərbaycanın dövlət müstəqilliyini ilbəil yaşadıb, möhkəmləndirib, inkişaf etdirib və artıq indi dönməz vəziyyətə gətirib çıxarıbdır.

Ordu xalqındır və ordu xalq üçündür, dövlət üçündür, millət üçündür.

Xalq, dövlət orduya ümid edir, orduya güvənir. Ordu isə xalqın, dövlətin dəstəyinə güvənir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri gününə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(25 iyun 2001-ci il)

***

Azərbaycan əsgəri gərək hər şeydə türk əsgərinə bənzəməyə çalışsın.

Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir....

Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin, onun əsgərlərinin bütün başqa keyfiyyətlərdən əlavə, ən yüksək keyfiyyəti Vətənə, millətinə, torpağına daim sədaqət hissi ilə yaşaması və xidmət etməsidir. Bu, hər bir ölkənin əsgərinin borcudur.

Azərbaycan ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir, işğal olunmuş torpaqlar azad olunmalıdır. Bu, Azərbaycan dövlətinin üzərinə düşən vəzifədir və bunun icraçıları Azərbaycanın Silahlı Qüvvələridir, Azərbaycan ordusudur, Azərbaycan əsgərləridir. Siz hər an, hər dəqiqə Azərbaycan dövlətinin bu qərarını, üzərinizə düşən bu vəzifəni yerinə yetirməyə hazır olmalısınız.

Sizin qarşınızda çox böyük vəzifələr durur. Siz bu illər aldığınız təhsili, qazandığınız təcrübəni gərək Azərbaycanın xidmət edəcəyiniz hərbi hissələrində səmərəli istifadə edəsiniz. Birincisi, siz gərək öz xidmətinizlə sübut edəsiniz ki, dörd il müddətində aldığınız təhsil həqiqətən Azərbaycan ordusunun peşəkarlığını, səviyyəsini qaldırmağa xidmət edəcəkdir. İkincisi, gərək hər bir hərbi hissədə əsgərlər üçün, zabitlər üçün nümunə olasınız. Çünki siz müstəqil Azərbaycanın milli ordusunun, milli hərbi məktəbinin məzunlarısınız. Bu, çox şərəfli addır.

Azərbaycan əsgəri, Azərbaycan zabiti gərək yüksək mənəviyyata malik olsun. Azərbaycan xalqının yüksək mənəvi dəyərləri ilə yaşasın. Vətənpərvərliyi, Vətəni sevməyi, Vətən yolunda şəhid olmağı daim gözünün önündə saxlasın.

Azərbaycan Ali Hərbi Məktəbinin birinci buraxılışına həsr olunmuş mərasimdə nitqindən
(25 avqust 2001-ci il)

***

Azərbaycan heç vaxt öz torpaqlarını kiməsə verə bilməz. Biz torpaqlarımızı mütləq azad edəcəyik. Əgər sülh yolu ilə həll edilməsə, bizim bütün imkanlarımız, güclü ordumuz vasitəsilə bu məsələni həll edəcəyik.

Azərbaycanın dövlət müstəqilliyi haqqında konstitusiya aktının qəbul olunmasının 10-cu ildönümünə həsr olunmuş Zirvə tədbirində – təntənəli mərasimdə nitqindən
Respublika sarayı
(17 oktyabr 2001-ci il)

***

Biz əldə etdiyimiz nailiyyətlər haqqında danışarkən, eyni zamanda, heç də həyatımızda olan çətinlikləri, problemləri, çatışmazlıqları, nöqsanları gizlətmək məqsədi daşımırıq. Biz onları Azərbaycan vətəndaşlarına da, bütün dünyaya da açıq-aydın etiraf edirik. Məhz bu yol ilə biz Azərbaycan qarşısında duran problemləri həll edə və ölkənin inkişafını təmin edə bilərik.

Dünya Azərbaycanlılarının I Qurultayında nitqindən
(10 noyabr 2001-ci il)

***

Gənclərimiz idmanla, bədən tərbiyəsi ilə nə qədər çox məşğul olsalar, o qədər güclü olacaqlar. Ən nəhayət, gənclərimiz təəssüflər olsun ki, indi müəyyən qədər yayılmış xoşagəlməz vərdişlərə uymayacaqlar.

Naxçıvan Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimində nitqindən
(15 iyun 2002-ci il)

***

Mən inanıram ki, Azərbaycan Ordusu güclənərək elə bir səviyyəyə çatacaqdır k, lazım olan anda o, Azərbaycana qəsd edən hər bir düşmənə zərbə vuracaq və zəfər qazanacaqdır.

Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir.

Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən.

Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır. Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, tarixi nöqteyi-nəzərdən çox qısa bir zamanda Azərbaycanda güclü milli ordu yaranıbdır.

Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfa- keşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur.

Naxçıvandakı "N" hərbi hissəsində keçirilən görüşdə nitqindən
(17 iyun 2002-ci il)

***

XX əsrin sonunda öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının Silahlı Qüvvələri məhz Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunun layiqli varisidir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə təbrikindən
(25 iyun 2002-ci il)

***

Azərbaycanın nizami ordusu var, Azərbaycanın yüksək səviyyədə təşkil edilmiş Silahlı Qüvvələri var, Azərbaycan dövlətini, dövlətçiliyini və bütün mənafelərini, torpaqlarını qorumağa qadir ordusu var və bu ordu peşəkar hərbçilər, peşəkar zabitlər tərəfindən idarə olunur...

Bizim Silahlı Qüvvələrimizdə hər bir zabit, hər bir komandir mənəviyyatca saf olmalıdır. Mənəvi saflıq insanı daim yüksəldir və lazım olan bütün başqa keyfiyyətlərin onda cəmlənməsi üçün əsas meyardır.

Ordumuza yeni nəsillər, zabit nəsilləri sistemli olaraq gəlir. Bunların hamısı bizim ordumuzu ilbəil gücləndirir, onun qüdrətini artırır.

Bizim ordumuz güclüdür. Ordumuzun gücü günü-gündən artır. Ölkəmizin gözəl gələcəyi var. Azərbaycan xalqı, Azərbaycan dövləti işğal olunmuş torpaqları mütləq azad edəcəkdir.

Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi
məzunlarının buraxılışına həsr olunmuş mərasimdə nitqindən
(27 iyul 2002-ci il)

***

Orduda gərək dəmir nizam-intizam olsun. Nizam-intizam hər yerdə lazımdır, amma ordu üçün bu, əsas şərtdir.

Bizim gələcəyimiz gənclərdir. Biz bu gün müstəqil Azərbaycanın bütün sahələrində mümkün olan nailiyyətlər əldə etmək üçün çalışmalıyıq. Ancaq bu işləri görərkən mütləq Azərbaycanın gələcəyi haqqında düşünməliyik və düşünürük.

Hərbi məktəbdə təhsil almağa başlayan hər bir kəs verdiyi vədə və içdiyi anda sadiq olmalıdır.

Möhkəm, daimi sülh üçün müstəqil dövlətin güclü ordusu olmalıdır.

Güclü ordu dövlətin müstəqilliyinin təminatçısıdır, qarantıdır.

Biz ordumuzu gücləndirərək, döyüş qabiliyyətini yüksəldərək, müasir silahlardan istifadə olunmasının keyfiyyətini artıraraq, dövlətimizi yüksəldəcəyik və ən əsası, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi gününü yaxınlaşdıracağıq və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini mütləq təmin edəcəyik.

Gəncədəki "N"saylı hərbi hissədə keçirilən görüşdə nitqindən
(12 sentyabr 2002-ci il)

***

Son illər Azərbaycanda aparılan işlər ölkəmizin ordusunu gücləndiribdir. Bizim ordumuz indi Azərbaycan torpaqlarını qorumağa və Azərbaycana qarşı hər bir hərbi təcavüzün qarşısını almağa qadirdir.

Şəkidə Olimpiya İdman Kompleksinin açılış mərasimində nitqindən
(9 noyabr 2002-ci il)

***

Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, o cümlədən işğal olunmuş torpaqlarımızın azad olunması, ölkə iqtisadiyyatının sürətlə inkişaf etdirilməsi, əhalinin sosial problemlərinin həll edilməsi, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması yolunda görüləsi işlər hələ çoxdur. XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti isə bugünkü gənclərin üzərinə düşür. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz, yüksək amallı Azərbaycan gəncləri, daim hazır olmalısınız.

Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır.

Azərbaycan Respublikası gənclərinin üçüncü forumundan
(13 oktyabr 2003-cü il)

KONSTİTUSİYA VƏ QANUNÇULUQ HAQQINDA

Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikanın bir sənə bundan öncə başladığı yol davam etməlidir. Bu düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir.

Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır.

Biz Azərbaycanda demokratik müstəqil respublika quraraq, sivilizasiyalı cəmiyyət uğrunda mübarizə apararaq, ümumi, dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin. Azərbaycan xalqının bu barədə həm tarixi, həm də müasir potensialı olduqca böyükdür. Bunların hamısından səmərəli istifadə olunarsa, Azərbaycan həm tam müstəqil, demokratik bir dövlət olacaq, həm də cəmiyyətimiz tam demokratik hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq. Bunun üçün bizim həm elmimiz, həm mədəniyyətimiz, həm tarixi ənənələrimiz, həm dini mənbəyimiz olan islam dini - hamısı birlikdə çox böyük əsas yaradır. Vəzifəmiz bundan ibarətdir ki, bunlardan səmərəli istifadə edək.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yer verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanunun pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır.

Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışından
(15 iyun 1993-cü il)

***

Biz heç kəsi təqib etməyəcəyik, gözümçıxdıya salmayacağıq. Əgər sən liberalsansa, əgər sən xalq cəbhəsinin üzvüsənsə, səni heç kəs təqib etməyəcək, sənə gözün üstə qaşın var deməyəcəklər. Xalqa xidmət elə. Bax budur ideya, budur fəlsəfə.

Yazıçı Aleksandr Proxanovla müsahibəsi
(12 avqust 1993-cü il)

***

Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

Qanunsuzluqları, ədalətsizlikləri biz aradan götürəcəyik, ancaq yenə də bir şey qanunsuz olursa, o biri qanunsuz işlə qanunsuzluğu aradan götürmək olmaz. Bir şey ədalətsizliklə olubsa, ədalətsizliklə ədaləti bərpa etmək olmaz. Ədaləti bərpa etmək lazımdır. Qanunsuzluğu aradan qaldırmaq lazımdır. Qanunsuzluğa qanunsuzluqla cavab vermək lazım deyil.

Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdən (13 avqust 1993-cü il)

***

Demokratiya hərc-mərclik deyildir, özbaşınalıq deyildir, xaos deyildir. Demokratiya yüksək mədəniyyət, yüksək nizam-intizam, vətəndaş həmrəyliyi, vətəndaşların bir-birinə hörməti, dövlət orqanlarına hörməti, dövlətin vətəndaşlarına hörməti, sayğısı və qayğısıdır.

Rüşvətxorluq, vəzifədən sui-istifadə etmək, insanlara qanunsuz təzyiq göstərmək, zor işlətmək və yaxud başqa hallar polis orqanlarının iş praktikasından, yəni əməli fəaliyyətindən tamamilə kənar olmalıdır.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində keçirilmiş müşavirədə çıxışından (20 sentyabr 1993-cü il)

***

Azərbaycanda insan azadlığı, təşəbbüs azadlığı, din azadlığı, sahibkarlıq azadlığı - bütün azadlıqlar təmin olunub. İnsan haqları qorunmalıdır. Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir.

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından (21 sentyabr 1993-cü il)

***

Bizim borcumuz Azərbaycanın simasını dəyişdirməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını bu hürriyyət yolu ilə, azadlıq yolu ilə, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçularıyıq. Bu yolla da gedəcəyik.

Azərbaycan Respublikası Milli Məclisinin iclasında respublikada qanunsuz həbslər olub-olmaması haqqında məsələnin müzakirəsi ilə bağlı çıxışından (29 sentyabr 1993-cü il)

***

Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi və milli ənənələrindən bəhrələnərək dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir.

Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqindən

Bakı, "Respublika" Sarayı
(10 oktyabr 1993-cü il)

***

Təəssüf ki, Azərbaycanın daxili həyatında demokratik prinsiplər sahəsində lazımi təcrübə olmadığına görə, bəzən ictimai-siyasi qüvvələrin bir-birinə münasibəti respublikanın ümumi mənafeyinin qorunmasına deyil, bir-biri ilə düşmənçilik etməyə yönəlibdir.

İstanbulda mətbuat mərkəzində jurnalistlər və kütləvi informasiya vasitələri nümayəndələri üçün mətbuat konfransında bəyanatından
(11 fevral 1994-cü il)

***

Respublikada bütün azadlıqlar elan olunmuşdur. Ancaq bu şəraitdə, demokratiya, siyasi plüralizm şəraitində həmin azadlıqlardan doğru və düzgün istifadə etmək lazımdır.

Prezident Sarayında kənd təsərrüfatı problemlərinin həllinə həsr olunmuş müşavirədə nitqindən
(4 mart 1994-cü il)

***

Müstəqil Azərbaycan dövləti sözün tam mənasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur.

Çin Xalq Respublikasına rəsmi səfər zamanı Pekində mətbuat konfransında bəyanatından
(8 mart 1994-cü il)

***

Gərək heç kəsə imkan yaranmasın ki, o, rüşvətxorluq, əliəyrilik, fırıldaq, dövlətin, xalqın malını oğurlamaq, mənimsəmək yolu ilə özünə sərvət toplasın.

Prezident Sarayında pambıqçılıqda mövcud vəziyyət və səpin kampaniyasına hazırlıqla əlaqədar problemlərin həlli yollarına həsr olunmuş müşavirədə çıxışından
(30 mart 1994-cü il)

***

Dinindən, dilindən, irqindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır.

Azərbaycanda söz azadlığı, fikir azadlığı, siyasi plüralizm geniş yer almalıdır, hər bir vətəndaş özünü azad, sərbəst hiss etməlidir.

Azərbaycanın İstiqlal Bayramına – Respublika Gününə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(27 may 1994-cü il)

***

Heç bir vəzifəli şəxs qanundan kənara çıxa bilməz. İstər baş nazir olsun, istər nazir, istərsə icra hakimiyyətinin başçısı olsun - fərqi yoxdur. Əgər biz demokratik dövlət qururuqsa, demokratiya yolu ilə gediriksə, deməli heç kimin qanunu pozmağa ixtiyarı yoxdur.

Prezident Sarayında Respublika iqtisadiyyatının və həyatın digər sahələrinin cari məsələlərinə həsr olunmuş müşavirədə n
(21 iyun 1994-cü il)

***

Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz vətənimizi qoruyuruq.

Səttarxan adına zavodun işə salınmasının 100 illiyi münasibətilə zavodun kollektivi ilə görüşdə çıxışından
(24 iyun 1994-cü il)

***

Respublikanın bütün vətəndaşları Azərbaycan Konstitusiyasının, Azərbaycan Prezidentinin təminatı altındadır.

Prezident Sarayında respublika iqtisadiyyatının vəziyyətinə həsr olunmuş geniş müşavirədə çıxışından
(11 avqust 1994-cü il)

***

Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir.

Respublikanın ali məktəblərinə daxil olmuş birinci kurs tələbələri ilə görüşdə nitqindən
(14 sentyabr 1994-cü il)

***

Müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir.

Xəzər Şelfində yataqların birgə işlənməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalanması mərasimində nitqindən
"Gülüstan" sarayı
(20 sentyabr 1994-cü il)

***

Azərbaycanın hər bir vətəndaşı mənim üçün - Azərbaycan Prezidenti üçün əzizdir. Mən hər bir vətəndaşı qorumalıyam. Əgər kim isə cinayət etmişdirsə, onu bu əməldən çəkindirməliyəm və o, belə hərəkəti üçün qanun çərçivəsində cavab verməlidir.

Respublika Prokurorluğu və Baş prokuror Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir. Əgər bu orqana və onun başında duran adama qarşı təcavüz edilərsə, deməli, Azərbaycan dövlətinə qarşı təcavüz olunur.

Kimin nə qədər böyük xidməti olsa da, kim nə qədər böyük hünər, cəsarət sahibi olsa da, nə qədər ülvi amalı olsa da, cəmiyyət üçün gərəkli və dəyərli adam olsa da, onların hamısı qanuna tabe olmalıdır.

İnsanların nə qədər böyük xidmətləri olsa da, onlar qanuna da bir o qədər itaət etməli, tabe olmalı, qanunu sevməlidirlər.

Respublikada fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri ilə görüşdə çıxışından
(3 oktyabr 1994-cü il)

***

Respublikamızda hüquqi dövlət qurulması demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir.

Ankarada "Hilton" mehmanxanasındakı iqamətgahda Türkiyə və Azərbaycandakı xarici ölkə səfirlərinin qəbulu zamanı çıxışından
(1 noyabr 1994-cü il)

***

Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin.

Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışından
(14 noyabr 1994-cü il)

***

Mən Yeni Azərbaycan Partiyası ilə bərabərəm və partiyanın bugünkü vəziyyətini görərkən çox sevinirəm və hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və fəaliyyət göstərəcəkdir.

Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqindən
Şəhriyar adına mədəniyyət mərkəzi
(19 noyabr 1994-cü il)

***

İstintaq orqanlarından, hüquq-mühafizə orqanlarından bizim birinci tələbimiz ondan ibarətdir ki, bütün istintaq qısa müddətdə getməlidir, keyfiyyətli getməlidir, cinayətkarlar aşkara çıxarılmalı və tezliklə məhkəmə qarşısında dayanmalıdırlar. Məhkəmə də öz sözünü deməlidir. Qaçmış və ya Azərbaycan ərazisində gizlənən, yaxud da Azərbaycandan kənarda olan adamları axtarıb tapmaq lazımdır. Bu bizim hüquq-mühafizə orqanlarının, xüsusən Daxili İşlər Nazirliyinin borcudur.

Şəxsiyyətindən, keçmiş xidmətlərindən, adından- sanından asılı olmayaraq hər kəs qanuna tabe olmalıdır. Qanunun aliliyi hamı üçün eyni olmalıdır: adi vətəndaş üçün də, vəzifəli şəxs üçün də, prezident üçün də.

Respublikamızda fikir, söz, insan azadlığı var və bunların hamısı bundan sonra da qorunub saxlanacaqdır. Ancaq bunların hamısı sağlam məfkurə əsasında, sağlam prinsiplər əsasında, Azərbaycan dövlətçiliyinin, qanunların qorunması prinsipləri əsasında olmalıdır.

Ümumxalq nümayəndələri toplantısından
Respublika sarayı
(28 noyabr 1994-cü il)

***

Biz bu gün elə gömrük orqanı yaratmalıyıq ki, o, xarici iqtisadi əlaqələrimizdə öz yerini tutsun, iqtisadiyyatımızın inkişafına xidmət etsin, bütün hallarda müstəqil Azərbaycanın nüfuzunun yüksəldilməsinə öz töhfəsini versin.

Dövlət Gömrük Komitəsinin 1994-cü ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş müşavirədən
Prezident sarayı
(9 yanvar 1995-ci il)

***

Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax, bu, xalqın ən böyük faciəsidir.

"Qanlı Yanvar" rəssamlıq sərgisinin açılışında çıxışından
Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi
(18 yanvar 1995-ci il)

***

Kim bizim dövlətçiliyimizə, vətəndaşların hüququna, insanlara qəsd edəcəksə, biz onlara qarşı amansız olmuşuq və şübhəsiz ki, bundan sonra da amansız olacağıq.

O adamlar ki, doğrudan da, cinayət ediblər, onlar cəzalanmalıdırlar, cəzasını almalıdırlar. Amma elə adamlar var ki, ola bilər, yolunu azıblar, yanılıblar, yaxud təsadüfən gəlib cinayətkarların təsiri altına düşüblər. Şübhəsiz ki, onlara münasibət başqa cür olmalıdır.

Beynəlxalq müsabiqələr laureatları və diplomantları ilə görüşdə çıxışından
Üzeyir Hacıbəyov adına Musiqi Akademiyası
(8 aprel 1995-ci il)

***

Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.

Xalq şairi Məmməd Arazın "Azərbaycan – dünyam mənim"
yaradıcılıq gecəsindən sonra ziyalılarla görüşdə çıxışından
M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası
(16 aprel 1995-ci il)

***

Bizim indiyə qədər yaranmış intellektual potensialımız, iqtisadi potensialımız, insanlarımızda indiyə qədər yaranmış olan qüdrət, cəsarət müstəqil Azərbaycanı yaşadacaq, nəsillərdən-nəsillərə verəcəkdir.

Görkəmli Azərbaycan yazıçısı və kinodramaturqu Maqsud İbrahimbəyovun
60 illik yubileyi gecəsində çıxışından
"Gülüstan" sarayı
(14 may 1995-ci il)

***

Biz düz yolla, haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Biz istəyirik ki, Azərbaycanda haqq-ədalət olsun, Azərbaycan müstəqil yaşaya bilsin, xalqımız milli azadlığını həmişə qoruyub saxlaya bilsin. Biz istəyirik ki, respublikamızda insan hüquqları qorunsun, demokratiya tamamilə bərqərar olsun, hər kəs öz sözünü deyə bilsin, hər kəs öz hüququnu müdafiə etməyi bacarsın, heç kəsin hüququ tapdanmasın və heç kəs heç kəsi istismar etməsin. Biz bu yolla gedirik və bu yolla da gedəcəyik. İnanın ki, tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır.

Zəvvarların Həcc Ziyarətindən qayıtması münasibətilə keçirilən mərasimdə nitqindən
Səttarxan adına maşınqayırma zavodu
(20 may 1995-ci il)

***

Bundan sonra Azərbaycanda silahla, zorakılıqla heç bir iş görmək olmaz.

Demokratik prinsiplər bu günümüzün, gələcəyimizin əsasını təşkil edəcəkdir.

"15-17 mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyət" mövzusuna
həsr olunmuş ümumxalq nümayəndələri toplantısında nitqindən
Respublika Sarayı
(23-24 iyun 1995-ci il)

***

İnsanın hüquqlarının, şəxsiyyət azadlığının təmin edilməsi məsələsi və milliyyətindən, dilindən, dini etiqadından asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarının öz hüquqlarından istifadə etmək imkanı bizim üçün əsas prinsipdir.

Rumıniya Prezidenti İon İliyeskunun Azərbaycan Prezidentinin şərəfinə təşkil etdiyi rəsmi qəbulda nitqindən
Buxarest
(1 iyul 1995-ci il)

***

Bəziləri, həmin bu müxalifətdə duranlar hesab edirlər ki, Azərbaycanda demokratiyanın daşıyıcıları yalnız onlardır və başqaları demokratiya yolu ilə gedə bilməzlər. Həyat göstərdi və qəbul olunan qanunlar, həyata keçirilən tədbirlər də onu göstərir ki, xeyr, həqiqi demokratiyanı elə biz həyata keçiririk. Azərbaycanda həqiqi demokratiya prinsiplərini biz möhkəmləndiririk.

Hər bir partiya qanuna tabe olmalıdır. Heç kəsə ərköyünlük şəraiti, heç kəsə istisna yaratmaq olmaz.

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın geniş iclasında nitqindən
Prezident Sarayı
(16 avqust 1995-ci il)

***

Vəzifəli adamlar başa düşməlidirlər ki, onlar dövlətdən etimad alıblar, dövlət orqanlarında vəzifə daşıyırlar. Onlara vəzifələri ona görə verməyiblər ki, xalqın qanını sorub, şəxsən varlanmaqla məşğul olsunlar. Bu vəzifələr ona görə verilib ki, onlar ayrı-ayrı sahələri idarə etsinlər.

Respublikada kənd təsərrüfatı işlərinin gedişi və aqrar islahatları həyata keçirilməsi vəziyyətinə həsr olunmuş müşavirədən
Prezident Sarayı
(25 avqust 1995-ci il)

***

Demokratiyanın daşıyıcıları Azərbaycanın ağıllı, zəkalı insanlarıdır, ziyalılarıdır. Azərbaycanda həqiqi demokratiya, qanun çərçivəsində olan demokratiya yolunda fədakarcasına çalışan insanlardır. Azərbaycan xalqının mənəviyyatıdır.

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən Heydər Əliyevə "Səs" qəzeti vasitəsilə müraciət etmiş Azərbaycan ziyalıları ilə görüşdə çıxışından
Prezident Sarayı
(9 sentyabr 1995-ci il)

***

İndi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk konstitusiyasını qəbul edirik. Bu, çox məsuliyyətli və eyni zamanda çox şərəfli vəzifədir. Bu, bizə nəsib olubdur və güman edirəm ki, biz, yəni indiki nəsil həmin şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməyə qadirik.

Azərbaycan Respublikasının Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında çıxışından
Prezident sarayı
(3 oktyabr 1995-ci il)

***

Bizim respublika demokratiya dərsi keçir, demokratiya təlimi keçir. Demokratiya yolu ilə getmək üçün böyük bir yola, geniş bir yola çıxıbdır.

Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır - hər bir vətəndaşın Konstitusiyasıdır.

Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və hər bir hakimiyyət ancaq xalqın iradəsi əsasında əldə oluna bilər.

Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqindən
(24 noyabr 1995-ci il)

***

Biz çalışacağıq ki, vətəndaşların konstitusiyadan irəli gələn hüquq və azadlıqları daim təmin olunsun, qorunsun.

Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitqindən
Respublika Sarayı
(2 fevral 1996-cı il)

***

Biz bütün cəmiyyətimizi demokratikləşdirmək istəyirik, ona görə də qəbul etdiyimiz Konstitusiya əsasında respublikamızda bu işləri addımbaaddım görürük.

1994-cü il oktyabr, 1995-ci il Mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyətə həsr olunmuş ümumxalq nümayəndələri toplantısından
Respublika Sarayı
(5-6 aprel 1996-cı il)

***

Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

Rusiya Federal Məclisi MDB Dövlət Başçıları Şurasının iclasında bəyanatından
Moskva, Kreml, Yekaterina salonu
(17 may 1996-cı il)

***

Qanunun aliliyi təmin edilməlidir və hər bir vətəndaş qanuna tabe olmalıdır. Biz öz tərəfimizdən qanunun aliliyini təmin etməyə çalışacağıq və hər bir vətəndaşı qanuna tabe olmağa dəvət edirəm.

Milli Bayram – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika Sarayı
(26 may 1996-cı i)

***

Hüquq-mühafizə orqanlarının işi çox mürəkkəbdir. Bu orqanlarda işləmək üçün xüsusi keyfiyyətlərə malik olmaq, bir çox xüsusi tələblərə uyğun olmaq lazımdır. Yalnız soyuq mühakiməli, coşqun qəlbli və saf vicdanlı adam çekist ola bilər. Bəli, dövlət işində, hüquq-mühafizə orqanlarında mənəviyyatca təmiz, sadə, təmkinli, nəfsi tox insanlar işləyə bilərlər. Əks halda, onların işinin səmərəsi olmaz.

Görkəmli dövlət xadimi, general-leytenant Arif Heydərovun
70 illiyinə həsr olunmuş yubiley gecəsində nitqindən
Şəhriyar adına mədəniyyət sarayı
(28 iyun 1996-cı il)

***

İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir.

Azərbaycanın müstəqilliyinə zidd olan ölkələr, qüvvələr, cəmiyyətlər var. Bəli, dünyada elə qüvvələr var ki, Azərbaycanın müstəqil dövlət olmasını istəmirlər. Dünya da görür ki, səkkiz ildir Ermənistan Azərbaycana təcavüz edir Azərbaycana qarşı olan bu təcavüz ədalətsizlikdir. Bu, misli görünməmiş bir şeydir. Ancaq bunu dünyaya sübut etmək ki, Ermənistan Azərbaycana bu cür təcavüz edib və Ermənistan təcavüzkardır - bu asan məsələ deyildir. Çünki dünyada Ermənistanı dəstəkləyən, ona kömək edən, dayaq duran böyük ölkələr var.

Almaniyadakı Azərbaycan cəmiyyətlərinin sədrləri və Azərbaycan
Cəmiyyətləri Federasiyasının nümayəndələri ilə görüşdə çıxışından
Bonn
(1 iyul 1996-cı il)

***

Heç kəs burada özünə müstəsna bir yer tuta bilməz. Hamı qanun qarşısında cavabdehdir. Heç kəs hesab etməsin ki, onun üçün xüsusi bir status olmalıdır, yaxud onun hansısa xidmətləri var və o, nə istəsə edə bilər.

Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı dövlət qurulur, demokratik proseslər gedir və gedəcəkdir, demokratik cəmiyyət yaranır, Azərbaycanda siyasi plüralizm, insan azadlığı, insanlar üçün bütün azadlıqlar bərqərar olur. Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya üçün addımlar atacaqdır, öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirəcəkdir. Azərbaycanda sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı, sahibkarlıq prinsipləri yaranacaq, bərqərar olacaq və inkişaf edəcəkdir.

Bizim Konstitusiyamız Azərbaycanın gələcək perspektivlərini müəyyən edibdir və biz o perspektivlər yolu ilə gedirik, bundan sonra da gedəcəyik.

Mən həyatım boyu bu hallarla mübarizə etmişəm. Bu gün də mübarizə edirəm və həyatımın sonuna qədər mübarizə edəcəyəm. Bilin, bu, təkcə mənim istəyim deyil, bu cəmiyyətin istəyidir. Cəmiyyət bunu tələb edir, insanlar bunu tələb edir. Bu hallar - korrupsiya, rüşvətxorluq, vəzifədən sui-istifadə bizim mənəviyyatımıza zidd olan hallardır. İnsanları bizdən, nə təhər deyərlər, incidir və heç kəs bu hallara haqq qazandıra bilməz.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Respublikada sosial-iqtisadi sahənin inkişafına həsr olunmuş geniş iclasından
Prezident Sarayı
(18-19 iyul 1996-cı il)

***

Ayrı-ayrı dəstələr, qruplar, partiyalar demokratiya şəraitində yaşaya bilər, fəaliyyət göstərə bilər - ancaq Azərbaycanın Konstitusiyası çərçivəsində, Azərbaycanın qanunları çərçivəsində, sırf demokratiya prinsipləri çərçivəsində!

Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün bizim Konstitusiyamız var, qanunlarımız var və Azərbaycan Prezidentinin iradəsi var!

Heç kəs güman etməsin ki, torpaqlarımızın bir hissəsi - Dağlıq Qarabağ, yaxud başqa bir hissəsi zorla əlimizdən alına bilər. Xeyr, biz bununla heç vaxt razı ola bilmərik və heç vaxt da razı olmayacağıq.

Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalının üçüncü ildönümü ilə əlaqədar həmin bölgələrin ictimaiyyətinin nümayəndələri ilə görüşdən
Prezident Sarayı
(7 sentyabr 1996-cı il)

***

Cinayətkarlığa qarşı mübarizəmiz indiyə qədər olduğu kimi, bundan sonra da kəskin olacaqdır. Fərqi yoxdur, Naxçıvandandır, Gəncədəndir, Bakıdandır, Şəkidəndir, Qubadandır, yaxud başqa yerdəndir: cinayətkar cinayətkardır, qanun əleyhinə çıxandır və burada heç kəsə fərq qoymaq olmaz.

Azərbaycan Respublikasında hər bir vətəndaş eyni hüquqa malikdir. Heç kəs keçmiş xidmətlərinə, vəzifəsinə, doğulduğu yerə görə, yaxud başqa səbəblərə görə müstəsna hüquqa malik deyil, ola da bilməz. Biz demokratiya qururuq, hamı eyni hüquqa malikdir, hamı qanuna tabe olmalı, qanun çərçivəsində işləməlidir. Əgər kim isə hansısa bir vəzifəsindən, yaxud da ki, başqa bir mövqeyindən sui-istifadə edirsə, şübhəsiz ki, o, özü-özünə, valideynlərinə, xalqına, doğulduğu yerə xəyanət edir.

Naxçıvan Muxtar Respublikası ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən
(30 oktyabr 1996-cı il)

***

Bizim yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir.

Bakıda yeni sellülyar rabitə sisteminin təntənəli açılışı mərasimində nitqindən
(15 dekabr 1996-cı il)

***

Mən imkan verə bilmərəm ki, Azərbaycanda özbaşınalıq olsun. Qanun- qayda, qanunun aliliyi hamı üçün eyni olmalıdır. Heç kəs özü üçün xüsusi qanun icad edə bilməz. Bizim dövlətimiz var, dövlətin qanunları var və hamı bunlara tabe olmalı, riayət etməlidir.

Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri,
institut direktorları və aparıcı alimləri ilə görüşdə nitqindən
Prezident sarayı
(31 yanvar 1997-ci il)

***

Cəzanın böyük tərbiyəvi əhəmiyyəti var. Əgər bir insan öz cinayətinə, xəyanətinə görə cəzalanırsa, bu, minlərlə insanların belə cinayətlərdən xilas olmasına kömək edir, belə cinayətlərə qoşulmamasını təmin edir. Ona görə də cəza tədbirlərini təkcə ayrı-ayrı adamları cəzalandırmaq kimi qəbul etmək lazım deyil, yəni mahiyyəti bundan ibarət deyil.

Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 4-cü ildönümü
ilə əlaqədar Nərimanov rayonundakı yataqxanada məskunlaşmış
Kəlbəcər qaçqınları ilə görüşdə nitqindən
(2 aprel 1997-ci il)

***

Ölkənin varidatının, əmlakının qorunması, saxlanılması çox vacibdir. Respublikanın, xalqın, dövlətin əmlakını dağıdanlar, mənimsəyənlər ən yüksək cəzaya məhkum olunmalıdırlar. Həm bu gün, həm də gələcək üçün bunu bilmək lazımdır.

Respublikamızın bütün vəzifəli şəxsləri, dövlət, hakimiyyət orqanlarında, aqrar bölmədə, sənayedə, iqtisadiyyatda, hüquq-mühafizə orqanlarında işləyənləri, hamını xəbərdar edirəm: bu işlərdən əl çəkin. Rüşvət-xorluqdan, oğurluqdan, əyrilikdən, korrupsiyaya qurşanmaqdan əl çəkin. Bilin ki, biz mübarizədən geri dönməyəcəyik. O cinayətkarlar bu gün də olmasa, sabah aşkar ediləcəklər.

Azərbaycanda iqtisadi islahatların gedişinə, eyni zamanda kənd təsərrüfatında carı işlərin vəziyyətinin müzakirəsinə həsr olunmuş müşavirədən
Prezident sarayı
(16 aprel 1997-ci il)

***

Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüquqi aliliyin təmin olunması əsas vəzifəmizdir və bunu yerinə yetirməyə çalışırıq.

Azərbaycan Prezidentinə "9 Eylül" Universitetinin fəxri doktoru adı verilməsi mərasimində nitqindən
İzmir
(7 may 1997-ci il)

***

Xalqın, millətin mənafeyini hər bir kəsin mənafeyindən üstün tutmaq lazımdır. Əgər xalqın, millətin mənafeyinə görə mən də cəzalanmalıyamsa, cəzalanmalıyam.

Türkiyənin "TRT", "TQRT", "Samanyolu", "NTV" televiziya kanallarının rəhbərləri ilə görüşdə çıxışından
İstanbul, "Çırağan" oteli
(8 may 1997-ci il)

***

Hər bir Azərbaycan vətəndaşı bərabər hüquqlara malikdir və öz hüquqlarından istədiyi kimi istifadə etmək imkanına malikdir.

Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(27 may 1997-ci il)

***

Azərbaycanın müstəqilliyini qoruyan dövlət atributlarının hər biri bizim üçün əhəmiyyətlidir, hər birinin böyük məsuliyyəti var. Biz Azərbaycanın dövlət atributlarının, dövlət strukturlarının gündən-günə güclənməsini, təkmilləşməsini təşkil etməyə çalışacağıq. Bunların içərisində Milli Təhlükəsizlik Nazirliyi xüsusi yer tutur.

Dövlətin təhlükəsizlik, yaxud kəşfiyyat orqanı o vaxt qalib gəlir, öz vəzifəsini layiqincə yerinə yetirir ki, orada peşəkar əhval-ruhiyyə olsun, peşəkar kadrlar və iş üslubu olsun.

Respublikanın Milli Təhlükəsizlik Orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(5 iyul 1997-ci il)

***

Azərbaycanda hüquqi, demokratik cəmiyyət qurulur. Ölkəmizdə bütün məsələlər demokratik prinsiplər əsasında həyata keçirilir. Azərbaycanda hakimiyyət bölgüsü Konstitusiya yolu ilə həyata keçirilib, həll olunub.

İtaliyanın "Sole 24 ope" gündəlik iqtisadiyyat qəzetinə müsahibəsindən
Roma
(26 sentyabr 1997-ci il)

***

Azərbaycanda hüquqi, demokratik cəmiyyət qurulur. Ölkəmizdə bütün məsələlər demokratik prinsiplər əsasında həyata keçirilir. Azərbaycanda hakimiyyət bölgüsü Konstitusiya yolu ilə həyata keçirilib, həll olunub.

Yeni müstəqillik qazanmış, bazar münasibətləri yolunu seçmiş, hüquqi, demokratik dövlət quran Azərbaycanın ilk demokratik Konstitusiyası ilə vətəndaşlara geniş hüquqlar verilmiş, ölkəmizdə söz və vicdan azadlığı təmin olunmuşdur.

Roma Papası II İoann Pavel ilə görüşdə söhbətdən
Vatikan, «Palasio Kastel Qondolfo»
(26 sentyabr 1997-ci il)

***

Bizim Konstitusiyamız, qanunlarımız hər bir siyasi partiyanın, hər bir siyasi qurumun, hər bir təşkilatın Azərbaycanın qanunları çərçivə¬sində fəaliyyət göstərməsini tələb edir. Fikir müxtəlifliyi, siyasi plüralizm, çoxpartiyalılıq qanunun aliliyi ilə üzvü surətdə bağlıdır. Partiyalar məhz qanunların aliliyi şəraitində fəaliyyət göstərməlidir. Hamı qanuna tabe olmalıdır, heç kəs qanunu pozmamalıdır, heç kəs özü üçün müstəsna hüquq tələb etməməlidir. Buna heç kəsin haqqı yoxdur.

Mətbuat azadlığından, söz azadlığından sui-istifadə edib, xüsusən iqtidara qarşı cürbəcür böhtan, yalan yazanlar, uydurmalar yazanlar cinayət edirlər, onlar, sadəcə, xuliqanlıq edirlər. Ancaq xuliqanlıq, cinayət heç vaxt heç bir siyasi partiya üçün, heç bir qəzet üçün hörmət gətirə bilməz.

Yeni Azərbaycan Partiyasının yaradılmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(29 noyabr 1997-ci il)

***

Biz Azərbaycanda ictimai-siyasi sabitliyi qoruyub saxlamağa qadirik və heç kəsə Azərbaycanın qanunlarını, konstitusiyasını pozmağa yol verməyəcəyik. Azərbaycanın bütün vətəndaşları arxayın ola bilərlər ki, Azərbaycanın dövləti, onun Prezidenti verdiyi sözlərə, andına sadiqdir. Azərbaycan vətəndaşlarının hüquqları və onların əmin-amanlığı daim qorunacaqdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından
(22 yanvar 1998-ci il)

***

İnsan ləyaqətinə, bütövlükdə insan hüquqları ideyasına zidd olan ölüm cəzasının tətbiqi, hansı dəlillərlə əsaslandırılmasından asılı olmayaraq demokratik cəmiyyətdə qeyri-insani və amansız tədbir kimi qiymətləndirilir.

Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında Milli Məclisə müraciətindən
(3 fevral 1998-ci il)

***

Azərbaycan dövlətçiliyinə qəsd edən hər bir kəs öz cəzasını alacaqdır. Heç bir terrorçu Azərbaycanda öz istəyinə nail ola bilməyəcəkdir. Ona görə ki, Azərbaycanın xalq tərəfindən seçilmiş Prezidenti var və Azərbaycan Prezidenti Azərbaycan dövlətçiliyinin, xalqın keşiyində durubdur. Ona görə ki, Azərbaycan xalqı ilə Azərbaycan Prezidentinin birliyi, həmrəyliyi vardır.

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi nümayəndələrinin Ümumrespublika toplantısında nitqindən
Respublika İdman–Konsert Kompleksi
(18 fevral 1998-ci il)

***

Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir.

İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanından
Bakı şəhəri

(22 fevral 1998-ci il)

***

Vətənpərvər, mərd insan əgər şüurlu ya şüursuz hansısa bir cinayəti edibsə, o, vətənindən qaçmamalıdır. Cinayət edib vətənindən qaçan adam xalq, millət, cəmiyyət üçün ən yaramaz və ən nüfuzsuz bir adamdır. Əgər sən şüurlu surətdə cinayət edirsənsə, bil ki, bu cinayətə görə məsuliyyət daşımalısan. Demək, sən bu cinayəti edəndə məsuliyyəti də gözünün önünə almalısan. Məsuliyyəti öz ölkəndə, doğma torpağında, xalqının içində daşımalısan. Gedib hansısa bir ölkədə gizlənməklə canını qurtara bilməyəcəksən. ...Cinayət edib ölkəsini tərk etmək böyük qəhrəmanlıq deyildir....

Milli təhlükəsizlik orqanı hər bir dövlətin çox əhəmiyyətli, güclü və çox vacib təşkilatıdır. Dünyanın hər bir dövlətində belə bir təşkilat mövcuddur. Ancaq dövlət möhkəm olanda və xalqla dövlət bir olanda hətta bu təşkilatda baş vermiş böyük satqınlıq, xəyanət də dövləti yerindən edə bilməz....

Mən hüquq-mühafizə orqanlarının bu sahədə gördüyü işi qiymətləndirirəm. Ancaq eyni zamanda, hüquq-mühafizə orqanları əldə etdikləri nailiyyətlərlə bərabər, gərək işlərində olan nöqsanları da aradan qaldırsınlar. Təəssüflər olsun ki, nöqsanlar da az deyildir. Şəxsən məni ən çox narahat edən hüquq-mühafizə orqanlarının bəzi əməkdaşlarının öz vəzifələrindən sui-istifadə etməsidir. Hüquq-mühafizə orqanının hər bir əməkdaşı bilməlidir ki, o, bu təşkilatda işləyərək xüsusi səlahiyyət alıb, xüsusi etimada layiq olub və bu etimadı da doğrultmalıdır. Yüksək vəzifəsindən istifadə edərək qanunu pozmaq, öz şəxsi mənafeyi üçün ayrı-ayrı yollara getmək hüquq-mühafizə orqanlarını ləkələyir və bu, orqanlara hörmət gətirmir...

Hüquq-mühafizə orqanları müstəqil Azərbaycan dövlətinin əsas sütunlarındandır. Əgər bütün sütunlar sağlam olmasa, bu sütunların içərisində qanunu pozan, vəzifəsindən sui-istifadə edən, rüşvətxorluq edən, insanların hüquqlarını pozanlar olduğu halda, ümumiyyətlə, bu sütunlar sağlam olmaz....

Hüquq-mühafizə orqanlarında işləyən hər bir kəs, yaxud işləmək istəyən hər bir vətəndaş bilməlidir ki, ondan birinci növbədə müstəqil Azərbaycan dövlətinə sədaqət tələb olunur. Əgər kimdəsə bu çatmırsa, qoy geriyə çəkilsin...

Bizim Konstitusiyamız, qanunlarımız hər birimiz üçün müqəddəs olmalıdır. Xüsusən, qanunların həyata keçirilməsi, qanunlara riayət olunması hüquq-mühafizə orqanlarının işinin təkmilləşməsini tələb edir. Qanunun aliliyi hamı üçün - adi vətəndaş üçün də, ən yüksək vəzifəli insan üçün də eyni tələblər qoyur...

Vaxtilə belə bir məşhur kəlam var idi ki, soyuq baş, hərarətli ürək, təmiz əllər olmalıdır. Bu kəlamın müəllifinin kim olub-olmamağından asılı olmayaraq, müdrik sözlərdir. Mən arzu edərdim ki, bizim hüquq-mühafizə orqanlarında işləyən adamların həqiqətən yanan hərarətli ürəyi olsun, düşünən başı olsun və təmiz əlləri olsun. Biz, ümumiyyətlə, vətəndaşlarımızı və xüsusən hüquq-mühafizə orqanlarında çalışan əməkdaşları bu tələblər əsasında tərbiyə etməliyik.

Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının bir qrupu ilə görüşdə nitqindən
Respublika sarayı
(28 mart 1998-ci il)

***

Biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq, bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz üçün, mənəviyyatımız üçün uyğun cəhətlərini götürüb tətbiq edərək heç vaxt dinimizdən, dini adət-ənənələrimizdən ayrıla bilmərik və imtina edə bilmərik.

Qurban Bayramı münasibətilə Mir Mövsüm Ağanın ziyarətgahında keçirilən görüşdə nitqindən
(8 aprel 1998-ci il)

***

Konstitusiyamızın əsasında qəbul olunan qanunlar bu gün də, gələcəkdə də Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin inkişafını təmin edən əsas sənədlərdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə Milli Məclisin təntənəli iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
(26 may 1998-ci il)

***

Cinayətkarlıqla mübarizədə korrupsiya ilə, rüşvətxorluqla mübarizə xüsusi yer tutmalıdır. Bu, təkcə hüquq-mühafizə orqanlarının işi deyil, bütün dövlət orqanlarının, hökumətin işidir, ümumxalq işidir. Ancaq hüquq-mühafizə orqanlarının bunun üçün xüsusi imkanları var. Ona görə də korrupsiya ilə, rüşvətxorluqla mübarizə sahəsində hüquq-mühafizə orqanlarından daha da çox səmərəli iş tələb olunur. Ancaq təəssüflər olsun ki, hüquq-mühafizə orqanlarının əməkdaşları içərisində də korrupsiya ilə, rüşvətxorluqla məşğul olanlar var və bəzən az deyildir....

Polis peşəsi ağır, çətin peşədir. Polis peşəsinə öz həyatını sərf edən insan bir çox xüsusi keyfiyyətlərə malik olmalıdır. Polis əməkdaşı birinci növbədə ölkəsinin dövlətinə, Konstitusiyasına, qanunlarına tam sadiq olmalıdır. Polis əməkdaşı bilikli, öz sahəsində yüksək təhsilə, yaxşı təcrübəyə malik, iradəli, cəsarətli, qorxmaz olmalıdır. Polis əməkdaşı saf mənəviyyata malik olmalıdır. Polis əməkdaşı yalnız və yalnız qanun çərçivəsində fəaliyyət göstərməlidir, qanunun aliliyini daim rəhbər tutmalıdır, qanuna həmişə hörmət etməlidir. Polis əməkdaşı vətəninə, torpağına hədsiz sədaqətli və istənilən vaxt öz vəzifəsini yerinə yetirərək həyatını belə qurban verməyə hazır olmalıdır.

Azərbaycanda cinayətkarlıqla mübarizə hər bir cinayətə qarşı olmalıdır. Amma indi biz iqtisadi islahatlar həyata keçirdiyimiz zaman hüquq-mühafizə orqanları bilməlidirlər ki, onlar harada cinayət axtarmalıdırlar, harada isə cinayət axtarmağa ehtiyac yoxdur. Təəssüf olsun ki, bəzən bunu anlamayanlar, yaxud da qəsdən, - o yerdə ki, cinayət yoxdur, ya da o yerdə ki, sadəcə, bizim yeni qanunlar əsasında iqtisadi islahatlar aparılır və

bunun nəticəsində müəyyən tədbirlər həyata keçirilir,- oraya müdaxilə olunur və beləliklə də ümumi işimizə zərər vurulur. Bunların qarşısı alınmalıdır.

Hüquq-mühafizə orqanları tam siyasətsiz, siyasət- dənkənar olmalıdırlar. Hüquq-mühafizə orqanları üçün dövlətin mənafeyinin qorunması ilə hər bir vətəndaşın hüquqlarının qorunması eyni səviyyədə durur. Vətəndaşların hüququnu qoruyaraq, cəmiyyətdən cinayətkarlığı sıxışdırıb çıxararaq dövlətçiliyin qorunması üçün yaxşı zəmin yarana bilər.

Azərbaycan polisi, daxili işlər orqanları daim xalqla olmuş, xalqına, dövlətinə sədaqətlə xidmət etmişdir.

Azərbaycan Polisinin 80 illik yubileyinə və polis gününə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Azərbaycan Dövlət Opera və Balet Teatrı
(2 iyul 1998-ci il)

***

Demokratiya yüksək mədəniyyət deməkdir. Demokratiya yüksək mənəviyyat deməkdir. Bu yüksək mənəviyyatı, yüksək mədəniyyəti hər bir Azərbaycan vətəndaşında yaratmaq üçün, gənc nəsli bu əsaslarda tərbiyələndirmək üçün İslam dininin mənəvi dəyərləri çox gərəklidir.

Ayrı-ayrı insanlar, yaxud qruplar, dəstələr demokratiyanın insanlara verdiyi bütün azadlıqları bəzən özbaşınalıq, qanuna itaətsizlik, qanunu pozmaq, hərc- mərclik, hətta tərbiyəsizlik kimi anlayırlar, yaxud da ki, bu cür anlamaq istəyirlər. Demokratiya yüksək mənəviyyat deməkdir.

Bakıda keçirilən Beynəlxalq Konfransda və Qafqaz müsəlmanları qurultayında nitqindən
(29 sentyabr 1998-ci il)

***

Biz XXI əsrə daha da qüdrətli müstəqil Azərbaycan dövləti çatdırmaq istəyirik. Gələcək nəsillərə daha xoşbəxt həyat yaratmaq istəyirik. Azərbaycanın imkanlarından səmərəli istifadə edib, iqtisadiyyatı inkişaf etdirib, Azərbaycan xalqının rifah halını yüksəltmək üçün çalışırıq. Biz bundan sonra da dünya birliyində özümüzə məxsus olan yeri tutmağa, saxlamağa çalışacağıq. Biz dünyanın mütərəqqi dövlətləri, birlikləri ilə bundan sonra da əməkdaşlıq edəcəyik. Azad, sərbəst, demokratik ölkə kimi Azərbaycan inkişaf edəcək və Avropa ilə Asiyanın qovuşduğu bir yerdə öz tarixi xidmətlərini göstərəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə andiçmə mərasimində nitqindən
Respublika sarayı
(18 oktyabr 1998-ci il)

***

Bizim milli ideologiyamızın bir şaxəsi, bir qolu da ümumbəşəri dəyərlərdir. Ümumbəşəri dəyərlər Azərbaycan xalqı tərəfindən artıq çox on illərdir, əsrlərdir ki, qavranıbdır, qəbul olunubdur. Ümumbəşəri dəyərlər birinci növbədə bizim yaratdığımız Konstitusiyada əsas məqsəddir. Biz dünyəvi dövlət qururuq. Biz

hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Bax, bu bir cümlədə ümumbəşəri dəyərlərin ifadəsi öz əksini tapıbdır. Eyni zamanda ümumbəşəri dəyərlərlə bərabər Azərbaycanın milli-mənəvi dəyərlərinin vəhdəti öz əksini tapıbdır.

Respublika sarayında Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(21 noyabr 1998-ci il)

***

Prokurorluq orqanı hüquq-mühafizə orqanlarının içərisində xüsusi yer tutur. Prokurorluq istintaqın əsas hissəsini aparır. İstintaq isə cinayəti açmaq üçün və qanun əsasında cinayətkarın cinayətkar olduğunu sübut etmək üçün, yaxud da ki, edilmiş cinayətin məzmununu aşkar etmək üçün əsas vasitədir...

Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram.

Hüquq-mühafizə orqanlarının əməkdaşları çox ağır bir peşə sahibləridir. Bu sahədə işə başlayan hər bir adam dərk etməlidir ki, bütün başqa sahələrə nisbətən öz üzərinə ağır bir iş götürür. Amma eyni zamanda, bu peşə həm də şərəfli peşədir. Dövlətçiliyin keşiyində durmaq, insanların hüquqlarını qorumaq, cəmiyyətdə qanun-qaydanın saxlanmasını təmin etmək və insanların rahat yaşamasına xidmət etmək - bu, çox şərəfli vəzifədir....

Prokuror olmaq, şübhəsiz ki, böyük intellekt tələb edir. Hüquq-mühafizə orqanlarının cürbəcür təşkilatları vardır, hər təşkilatın özünəməxsus xüsusiyyəti vardır. Ancaq prokurorluq işi yüksək intellekt tələb edən işdir, yüksək peşəkarlıq tələb edən işdir, yüksək hüquqi bilik, hüquqi təhsil tələb edən işdir...

Hüquq-mühafizə orqanlarına verilən səlahiyyət heç bir başqa dövlət orqanına verilmir. Hüquq-mühafizə orqanlarının içərisində isə prokurorların ən çox, ən yüksək səlahiyyəti vardır. Təsəvvür edin, prokuror vətəndaşın həbs olunması üçün qərar qəbul edir. Bunu ancaq prokuror edə bilər. Ancaq, birincisi, prokuror həmişə çalışmalıdır ki, bu qərar əsaslı olsun, ədalətli və düzgün olsun. İkincisi, əgər prokuror belə bir yüksək səlahiyyətə malikdirsə, əgər prokurora bu qədər böyük etimad göstərilirsə, prokuror nə qədər məsuliyyətli olmalıdır və mənəviyyatca nə qədər saf olmalıdır.

Cinayət elə şeydir ki, onun qarşısını daim almaq lazımdır. Əgər bizim hüquq-mühafizə orqanları bir gün, yaxud bir ay zəiflik göstərsələr, yaxud diqqəti azaltsalar, cinayətkarlar yenə də baş qaldıra bilərlər.

Azərbaycan Respublikası Prokurorluq Orqanlarının 80 illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitqindən

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
(28 noyabr 1998-ci il)

***

Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. O, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir.

Azərbaycan BMT-nin ümumdünya insan hüquqları bəyannaməsinin
50 illik yubileyini keçirən dövlət komissiyasının iclasında nitqindən
Prezident sarayı
(3 dekabr 1998-ci il)

***

Təbiidir ki, vətəndaşlarımız içərisində cinayət edənlər də var, qanunu pozanlar da var, başqalarının hüquqlarına təcavüz edənlər də var, ümumiyyətlə, qanuna, hüquqa riayət etməyənlər də vardır. Hakimiyyət orqanlarının, vəzifəli şəxslərin vəzifəsi bütün bunlarla mübarizə aparmaqdır. Ancaq bu mübarizəni apararkən qanuna riayət etmək, qanun çərçivəsində hərəkət etmək, qanun əsasında fəaliyyət göstərmək lazımdır.

Azərbaycan müstəqil dövlət kimi Ümumdünya insan hüquqları bəyannaməsinə sadiqdir və bundan sonra da sadiq olacaqdır. Biz həyatımızın bütün sahələrində və xüsusən dövlət quruculuğu prosesində Konstitusiyada həkk olunmuş insan hüquqlarına aid bütün maddələrin həyata keçirilməsini təmin edəcəyik.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında keçirilən Birləşmiş Millətlər Təşkilatının
ümumdünya insan hüquqları bəyannaməsinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(10 dekabr 1998-ci il)

***

1995-ci ildə ümumxalq referendumunda qəbul edilmiş Azərbaycan Konstitusiyası cəmiyyətimizin ideya-siyasi və dünyagörüşü əsasını yaratmışdır. Konstitusiya respublikada həyata keçirilən bütün təşəbbüslərə sosial və siyasi istiqamət vermişdir.

Azərbaycanın Rus İcması Qurultayının nümayəndələrinə müraciətindən
(17 dekabr 1998-ci il)

***

Azərbaycanda siyasi plüralizm var, demokratiya var və biz bunları inkişaf etdirəcəyik. Ancaq öz şəxsi ambisiyalarına görə, öz şəxsi məqsədlərinə görə Azərbaycanın dövlət mənafeyinə zərər gətirmək, ləkə vurmaq xəyanətdir, cinayətdir. Bilin ki, biz bunların qarşısını bundan sonra da qətiyyətlə alacağıq.

Şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilmiş yaşayış evinin
istifadəyə verilməsi mərasimində nitqindən
Bakı, Qaradağ rayonu, Lökbatan qəsəbəsi

(30 iyun 1999-cu il)

***

Elə etmək lazımdır ki, ayrı-ayrı adamlar demokratiyadan istifadə edərək, öz şəxsi məqsədlərinə nail olmasınlar. Buna yol vermək olmaz. Ona görə də bu işlərə çox diqqətlə yanaşmaq lazımdır.

İnsan gərək sərbəst olsun, insan gərək öz fikri ilə azad olsun. Biz bu azadlıqların, sərbəstliklərin hamısını Konstitusiyada elan etmişik.

Prezident sarayında Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin,Siyasi Şurasının, Partiyanın Qurultayına Hazırlıq üzrə Təşkilat Komitəsinin üzvləri və Mərkəzi Aparatının rəhbər işçiləri ilə görüşdə yekun nitqindən
(4 sentyabr 1999-cu il)

***

Azərbaycanda hər bir seçki prosesi insanları, vətəndaşları demokratiya prinsiplərinə daha da yaxınlaşdırmalıdır. Yəni demokratiya prinsipləri insanların daxili mənəviyyatı olmalıdır. Onların üzərinə bir vəzifə kimi yox, onlara bir tapşırıq kimi yox, insanların özlərinin mənəviyyatının tərkib hissəsi olmalıdır. Belə bir şəraitdə biz gələcəkdə də Azərbaycanda demokratiyanı sürətlə inkişaf etdirə bilərik.

12 dekabr - Bələdiyə seçkiləri ilə əlaqədar xalqa müraciətindən
(10 dekabr 1999-cu il)

***

Əgər müxalifət olmasaydı, Azərbaycanda demokratiya olmazdı. Müxalifət olmalıdır və vardır. Ancaq mən dəfələrlə demişəm, gərək müxalifət konstruktiv olsun, ümummilli, ümumxalq məsələləri ilə əlaqədar problemlərdə öz yetkinliyini göstərsin və iqtidarın apardığı siyasət Azərbaycanın milli mənafelərinə zidd deyilsə, onu anlaya, dərk edə bilsin, qəbul etsin, əməkdaşlıq etsin.

Yeni Azərbaycan Partiyasının birinci qurultayında nitqindən
Respublika sarayı
(20 dekabr 1999-cu il)

***

Bəziləri hesab edirlər ki, dövlətin adı dəyişən kimi, gərək onun məzmunu da dərhal dəyişsin. Bu qeyri-təbii bir məsələdir. Bir məsələ ki, insan fikri, psixologiyası ilə əlaqədardır, burada həmişə müəyyən proses gedir. Dövlətin də, hakimiyyət orqanlarının da demokratiyanı təmin etməsi, demokratik dövlət quruculuğu prosesinin aparılması üçün çoxlu tədbirlər, əməli iş görmək, qanunlar qəbul etmək lazımdır. Biz belə başa düşürük ki, demokratiyanın başlanğıcı var, amma sonu yoxdur.

Avropa Şurası Venesiya Komissiyasının katibi Canni Bukikkionun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbətindən
Prezident sarayı

(18 aprel 2000-ci il)

***

Bizim bütün məhkəmə sistemində işləyən işçilər, hüquq-mühafizə orqanlarında işləyənlər bilsinlər ki, bəli, biz hüquqi dövlət qururuq, hüquqi dövlət qurmaq üçün müvafiq qanunlar qəbul etmişik və bundan sonra da edəcəyik. Bunun qarşısını almaq mümkün deyil. Kim bunun qarşısını alacaqsa, biz onu yolumuzdan kənarlaşdıracağıq.

Biz bu hüquqi dövləti, demokratik dövləti yaradırıq və onu pillə-pillə yüksəkliklərə qaldırırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, bütün məhkəmə sisteminin beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır.

Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır.

Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir.Bizim tələblərimiz isə qanundur, qanundur, qanunun aliliyidir.

Dövlətçilik prinsipi, qanunun aliliyi bizim hamımız üçün hər şeydən üstün olmalıdır.

Prezident sarayında Azərbaycan Respublikasının Prokurorluq Orqanlarının rəhbər işçiləri ilə görüşdə nitqindən
(26 aprel 2000-ci il)

***

Demokratiya əxlaqsızlıq demək deyil. Demokratiya mənəviyyatsızlıq demək deyil. Demokratiya qanunları pozmaq deyil. Demokratiya qanun çərçivəsində olmalıdır.

Demokratiya heç də xaos demək deyil, özbaşınalıq demək deyil. Əgər elə olsa, onda dövlət olmaz. Elə olsa, onda qanun lazım deyil.

Yeni Azərbaycan Partiyası siyasi şurasının iclasında nitqindən
Bakı,
Rəşid Behbudov adına Mahnı Teatrı
(6 may 2000-ci il)

***

Daxili ictimai-siyasi sabitlik olmayan yerdə demokratiya ola bilməz. Daxili ictimai-siyasi sabitlik olmayan yerdə iqtisadiyyat inkişaf edə bilməz.

28 may – Respublika Günü münasibətilə keçirilən təntənəli mərasimdə nitqindən
(27 may 2000-ci il)

***

Azərbaycan hüquqi, demokratik dövlətdir. Azərbaycanda demokratiyanın, qanunun aliliyinin təmin olunması üçün bütün işlər görülür və görüləcəkdir. Bunların özü də xarici investorların Azərbaycanda işləməsi üçün əsas şərtlərdən biridir.

Bakıda "Xəzərneftqaz - 2000" Yeddinci Beynəlxalq Sərgisi və Konfransının açılışı mərasimində nitqindən
(6 iyun 2000-ci il)

***

Bizim əsas problemimiz Ermənistan-Azərbaycan münaqişəsinə son qoymaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və işğal olunmuş torpaqlarımızdan didərgin düşmüş vətəndaşlarımızı öz yerlərinə, yurdlarına qaytarmaqdır.

Silahlı qüvvələr gününə həsr edilmiş təntənəli mərasimdə nitqindən
(26 iyun 2000-ci il)

***

Azərbaycanda demokratiya var və bundan sonra daha da güclənəcəkdir. Ancaq o şəxslər ki, hər şeyi qoyublar kənara, öz məqsədlərinə nail olmaq üçün bütün dünyaya car çəkirlər ki, Azərbaycanda demokratiya yoxdur, onlar müstəqil Azərbaycan dövlətinə, Azərbaycan xalqına böyük zərbələr vururlar. Amma qoy heç də düşünməsinlər ki, bu zərbələr bizi sarsıda bilər. Biz öz işimizi bilirik, demokratiya yolu ilə gedirik, dövlət quruculuğu prosesi normal gedir və bundan sonra da gedəcəkdir.

Prezident Sarayında keçirilən müşavirədə nitqindən
(2 oktyabr 2000-ci il)

***

Biz demokratiyanın birinci mərhələsindəyik və hesab etmirik ki, demokratiya, o cümlədən seçkilərin demokratik keçirilməsi sahəsində zirvəyə çatmışıq. Amma əsas şərt odur ki, biz bu yolu gedirik.

Biz demokratiyanı təkcə seçkilərdə görmürük. Məsələn, Azərbaycanda bazar iqtisadiyyatının həyata keçirilməsi və bunun vasitəsilə iqtisadiyyatın inkişaf etdirilməsi, sosial problemlərin həll olunması da demokratiyanın bir hissəsidir.

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) ölkəmizdə Milli Məclisə seçkiləri müşahidə etmək üçün Bakıya gəlmiş nümayəndə heyəti ilə görüşdə söhbətindən
Prezident sarayı
(4 noyabr 2000-ci il)

***

Konstitusiyamız ümumbəşəri dəyərlərə və mütərəqqi milli ənənələrə söykənərək, bu günün reallıqlarını, dövlətin, cəmiyyətin inkişaf perspektivlərini əks etdirir.

Azərbaycanın hər bir vətəndaşı, onun ərazisində fəaliyyət göstərən hər bir ictimai-siyasi qurum özünü dövlət və xalq qarşısındakı Konstitusiya ilə müəyyən edilmiş vəzifə və borcunu da vicdan və ləyaqətlə yerinə yetirməli, vətənini, dövlətini sevməli, onu qorumalı və tərəqqisinə çalışmalıdır.

12 noyabr Konstitusiya günü münasibətilə Azərbaycan xalqına təbrikindən
(11 noyabr 2000-ci il)

***

Bəziləri güman etdiyi kimi, demokratiya xaos, hərc-mərclik, özbaşınalıq deyildir. Demokratiya ictimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə yaranıb inkişaf edə bilər. Demokratiyanın hüdudları genişdir. Odur ki, o hər xalqın mentalitetinə uyğun olaraq inkişaf edir.

Yeni minillikdə dünya xalqlarının ən böyük istəyi sülh və əmin-amanlıqdır. İnsanlar dağıdıcı müharibələrə, qaçqın-köçkünlüyə qətiyyətlə yox deyir...

Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir.

Yeni Əsr və Üçüncü Minillik Münasibətilə Azərbaycan xalqına müraciətindən
(29 dekabr 2000-ci il)

***

Ölkəmizdə qəbul edilən qanunlar Avropa Şurası ekspertlərinin bilavasitə iştirakı ilə hazırlanır. Hüquq islahatları nəticəsində hər bir insan şəxsiyyət azadlığı və toxunulmazlığına, barəsində qaldırılmış işin müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətlə və açıq şəkildə araşdırılmasına, hüquq müdafiəsinə təminat almışdır. Ölkədə çoxpartiyalı sistem fəaliyyət göstərir, siyasi plüralizm, söz və vicdan azadlığı, azlıqların hüququ, qanun qarşısında bərabərlik və təqsirsizlik prezumpisiyası təmin edilir.

Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır.

Biz ölkəmizin Avropa Şurasına qəbulunu yalnız indiyə qədər gördüyümüz işlərə, həyata keçirdiyimiz islahatlara verilən qiymət kimi deyil, həm də ölkəmizə və xalqımıza doğru uzadılan dost əli kimi qiymətləndiririk və ona görə də bir sıra problemlərin vahid Avropa ailəsi daxilində həllini tapacağına inanırıq.

Biz bundan sonra da Azərbaycan xalqının və dövlətinin humanizm, insanpərvərlik ideyalarına və prinsiplərinə, demokratiyaya, qanunun əliliyinə, insan hüquqlarına və əsas azadlıqlara hörmət bəslənilməsinə əsaslanan dəyərlərə sadiqliyini nümayiş etdirəcəyik.

Avropa Şurası Parlament Assambleyasının Sessiyasında çıxışından
Strasburq,
(25 yanvar 2001-ci il)

***

Əgər sülh və təhlükəsizlik təmin olunmasa, nə demokratiya, nə iqtisadi inkişaf, nə də insanların rahatlığı ola bilər.

Avropa İttifaqının Nümayəndə Heyəti – hazırda bu beynəlxalq təşkilata sədrlik edən İsveç Krallığının Xarici İşlər Naziri Xanım Anna Lind, Avropa İttifaqının Baş Katibi Havyer Solana, bu ittifaqın komissarı Kristofer Patten və onları müşayiət edən şəxslərlə görüşdə söhbətindən
Prezident sarayı
(21 fevral 2001-ci il)

***

Azərbaycanda həqiqi demokratiya yaranıbdır, onu yaradan da Azərbaycanın iqtidarıdır, onun Prezidentidir.

Siyasi plüralizm, söz azadlığı, vicdan azadlığı, sərbəst iqtisadiyyat, hər bir insanın tam azad olması, demokratik seçkilərin keçirilməsi, demokratiya prinsipləri əsasında dövlət təsisatlarının yaranması və müxtəlif islahatların həyata keçirilməsi. Demokratiya mücərrəd anlayış deyildir, bunlardan ibarətdir. Biz bunları etmişik və edirik. Əgər biz bunları etməsəydik, Azərbaycan ötən dövrdə ağır vəziyyətdən çıxıb indi bu səviyyəyə qalxa bilərdimi? Ona görə də həqiqi demokratiya iqtidarın yaratdığı demokratiyadır. Həqiqi demokratiya Yeni Azərbaycan Partiyasına mənsubdur.

Azərbaycanda müxalifətdə olan partiyalar daim demokratiya haqqında danışırlar. Sən hələ Azərbaycan üçün bir iş görməmisən. Azərbaycanda demokratiyanı yaradan, inkişaf etdirən biz, Azərbaycanda islahatları həyata keçirən biz, Azərbaycanı dünyada tanıdan biz, bütün azadlıqları verən biz, indi necə oldu ki, siz demokrat oldunuz, iqtidar və Yeni Azərbaycan Partiyası antidemokratik oldu?

Yeni Azərbaycan Partiyasının II Qurultayında nitqindən
(22 noyabr 2001-ci il)

***

Mən demişəm və deyirəm, Azərbaycanda demokratiya var, demokratiya inkişaf edir və inkişaf edəcəkdir. Heç kəs bu məsələdən sui-istifadə etməsin. Heç kəs də Azərbaycana bu barədə öz müxtəlif imkanları ilə təsir

edə bilməz. Bizim Azərbaycanın öz yolu var. Xalqımızın öz mentaliteti var. Heç kəs güman etməsin ki, burada - Azərbaycanda bu gün Fransadakı kimi demokratiya olacaqdır. Onun üçün çox illər yaşamaq lazımdır.

Azərbaycan Respublikası Milli Məclisinin növbəti iclasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid məsələnin müzakirəsində nitqindən
(23 fevral 2001-ci il)

***

Hər adam fikirini deyə bilər. Hər adam öz dünya baxışlarını bildirə bilər. Bunların heç birisi qadağan deyil və bizi narahat etmir. Biz özümüz demokratiyanı inkişaf etdiririk. Amma demokratiyanı istismar edib Azərbaycanda ictimai-siyasi vəziyyəti pozmağa çalışan, bundan sui-istifadə edən adamlara biz yol verməyəcəyik.

Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm kəndinin bir qrup sakini ilə görüşdə söhbətindən
Prezident sarayı
(28 fevral 2001-ci il)

***

Qanun, hamı üçün qanundur. Həm adi vətəndaş üçün, həm hakimiyyət məmuru üçün, həm dövlət məmuru üçün, həm əlil üçün, həm də şəhid ailəsi üçün.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş mənzillərin istifadəyə verilməsi mərasimində nitqindən
(30 iyun 2001-ci il)

***

Demokratik, hüquqi dövlət qurarkən biz eyni zamanda əmin olmalıyıq ki, beynəlxalq aləmdə beynəlxalq hüquq normaları da təmin edilir və onların pozulmasına yol verilmir.

Amerika Birləşmiş Ştatlarının milli bayramı – İstiqlaliyyət Günü münasibətilə ABŞ-ın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqindən
(4 iyul 2001-ci il)

***

Demokratiyanın bütün tələblərini tətbiq etmişik və edəcəyik. Ancaq Azərbaycanın milli-mənəvi dəyərlərinə qarşı, Azərbaycanın milli mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin hamısının qarşısı alınacaqdır və qanun çərçivəsində lazımi ölçülər götürüləcəkdir.

Milli–mənəvi dəyərlər və ənənələr Azərbaycan prezidenti Heydər Əliyevin bəyanatından
(14 avqust 2001-ci il)

***

Hansısa partiyanın, qüvvənin hakimiyyətə gəlməsinə heç kəs mane olmur. Ancaq bu, demokratiya yolu ilə, seçki yolu ilə olmalıdır. Amma o adamlar ki, indi qəzetlərdə müraciət edib insanları itaətsizliyə dəvət edirlər, dövlətə qarşı çıxışlar edirlər, onlar demokrat hesab oluna bilərmi? Onlar təxribatçıdırlar, cinayətkardırlar.

Sərhəd qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(18 avqust 2001-ci il)

***

Bizim ümumi məqsədimiz mətbuata daha çox azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir.

Mətbuat Azərbaycan iqtidarı üçün çox önəmli bir sahədir. Biz demokratiya yolu ilə gedərək, söz azadlığını təmin edərək, bu yolda nöqsanları ardıcıl surətdə aradan qaldırmalıyıq və qaldıracağıq, mətbuata, söz azadlığına bütün imkanları yaradacağıq.

Azərbaycanda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdə nitqindən
(18 dekabr 2001-ci il)

***

Beynəlxalq Prokurorlar Assosiasiyası qeyri - dövlət təşkilatı kimi böyük işlər görür. Azərbaycan müstəqil dövlət kimi gənc olsa da, qısa tarixi zamanda ölkə həyatının bütün sahələrində, o cümlədən məhkəmə-hüquq sistemi sahəsində xeyli işlər görübdür. Bizim məhkəmə sistemi, prokurorluq, demək olar ki, beynəlxalq standartlara uyğunlaşıbdır.

Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti Nikolas Kouderi başda olmaqla bu təşkilatın icraiyyə komitəsinin nümayəndə heyəti ilə görüşdə söhbətindən
Prezident sarayı
(17 may 2002-ci il)

***

İnsanın daxili dünyası, onun dünyagörüşü, onun təhsili, elmi, mədəniyyəti, onun varlığını və daxili aləmini müəyyən edən bir çox amillər, o cümlədən onun hüquqları cəmiyyət tərəfindən daim qorunmalıdır. İlk növbədə isə biz hər bir insanın həyatına cavabdehik. Əgər terrorizm insan həyatını təhlükəyə məruz edirsə, deməli, bizim sivilizasiya təhlükə altındadır.

"Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq konfransın açılış mərasimində nitqindən
(10 oktyabr 2002)

İQTİSADİYYAT HAQQINDA

Xanbulançay dəryaçası tikilib. O tikinti bütün bölgənin iqtisadiyyatının, xüsusən kənd təsərrüfatının inkişafına nə qədər təsir elədi. Masallıda Viləşçay dəryaçası. Axı bu dəryaçaların tikilməsi üçün dövlətdən, Sovetlər ölkəsindən nə qədər vəsait alındı, nə qədər adamlar bu bölgədə işlədi, hamısı bu bölgədən ötrü idi. Çay fabrikləri tikildi, Lənkəranda ilk dəfə aeroport tikdik, Lənkərana təyyarələr uçdu. Moskvadan, Rusiyanın başqa yerlərindən gələn qonaqlar Lənkərana təyyarə ilə gedib-gəlirdilər.

Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı Və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə çıxışından
(13 avqust 1993-cü il)

***

Bir həqiqət də ondan ibarətdir ki, son dövrdə, xüsusən 60-70-ci illərdə Azərbaycanın neft sənayesinin potensialı çox güclü inkişaf etmişdir. Neft sənayesi indi iri həcmli əsas fondlara malikdir, alimlərimiz, geoloqlarımız, neftçilərimiz quruda və dənizdə yeni-yeni zəngin neft yataqları aşkar ediblər. Bu sərvətlərdən istifadə olunması, şübhəsiz ki, birinci növbədə, Azərbaycan xalqının, müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafını təmin etmək üçün çox mühüm amildir.

Azərbaycanın neftçiləri – həm alimləri, həm də neft sənayesində çalışanlar böyük sovetlər ölkəsinin hər yerində fəaliyyət göstəriblər və öz təcrübələrini, bilik və bacarıqlarını yeni-yeni neft yataqlarının aşkara çıxarılmasına sərf ediblər və bununla da, Azərbaycan neftçilərinin şan-şöhrətini aləmə yayıblar.

Bütün dünyaya məlumdur ki, ilk dəfə dənizdə qara qızıl çıxarılması Azərbaycan neftçilərinin fəaliyyəti nəticəsində həyata keçmişdir. 1949-cu ildə Neft daşlarında ilk quyunun fontanından sonra dənizdə neft çıxarılması təcrübəsindən bütün dünya istifadə etmişdir. Bu sahədə Azərbaycan neftçilərinin xarici ölkələrdə fəaliyyəti tarixdən heç vaxt silinməyəcəkdir.

Sirr deyildir ki, Sovet İttifaqı 1920-1940-cı illərdə yeni bir dövlət kimi öz sənayesini məhz Azərbaycan, Bakı neftinin sayəsində inkişaf etdirə bilib. İkinci dünya müharibəsində Sovet İttifaqının döyüş qüdrətini təmin etmək üçün neft və neft məhsulları strateji rol oynayırdı və o vaxt ölkənin bu məhsullara olan ehtiyacının 75 faizdən çoxunu Bakı verirdi.

Təxminən XIX əsrin ikinci yarısında, XX əsrin əvvəllərində Azərbaycanın neft yataqları əsasən Avropa şirkətləri tərəfindən istismar olunurdusa, sonrakı dövrdə neft dövlət sektoruna keçdi və indi də dövlətin əlindədir. Ancaq üçüncü mərhələdə biz yenidən xarici şirkətlərlə əlaqə qurub neft sənayesini inkişaf etdirməyə başlayırıq. Çalışmalıyıq ki, bu mərhələ müstəqil Azərbaycan Respublikası üçün faydalı olsun.

Tam məsuliyyət hissi ilə deyə bilərəm ki, bu meyl ondan ibarətdir ki, neftdən xəbəri olmayan, neft terminini bilməyən, neft sənayesindən bixəbər, meydanlarda qışqıran, çayxanada vaxt keçirən adamlar neftin taleyini həll edirlər. Bu adamlar neftdən necə istifadə olunmasını, neft sənayesini hansı yollarla inkişaf etdirməyi anlamırlar. Ona görə də neft sənayesi özbaşına buraxılıbdır. Təxirəsalınmaz əsas vəzifəmiz mövcud imkanlardan, bugünkü neft sənayesi potensialından istifadə edib neft və qaz çıxarılmasını artırmaq, neft sənayesini inkişaf etdirməkdir.

Mən salonda hörmətli alimlərimizi, Azərbaycanın adlı-sanlı neftçilərini görürəm. Bu adamların ömrü Azərbaycanın neft sənayesinin inkişafı ilə bağlıdır. Onların ömür yolları bizim hamımızın gözünün qabağındadır. 1950-60-cı illərdə, hətta 70-ci illərdə neft sənayesinə dövlət tərəfindən, bütün ictimaiyyət tərəfindən böyük diqqət vardı. Neftçilərin adı hörmətlə, şərəflə çəkilirdi və onlar böyük qayğı ilə əhatə olunmuşdular. Bəs indi? Hanı o şöhrət, hanı o qayğı? Naşı adamlar belə böyük sahəyə, böyük bir elmə, böyük bir sənayeyə rəhbərlik edə bilməzdilər. Məhz onlar bizi belə bir vəziyyətə gətirib çıxarıblar.

Aparıcı neft şirkətlərinin və korporasiyalarının nümayəndələri ilə görüşdə çıxışından

(17 avqust 1993-cü il)

***

Ölkənin sənayesi, kənd təsərrüfatı inkişaf etmişdir. Bu dövrü tarixdən silmək olarmı? Hansı siyasi-iqtisadi sistemin, ideologiyanın olmasının fərqi yoxdur. Şübhəsiz, bu dövrün çox qaranlıq səhifələri də var – 37-38-ci illər, elə 20-ci illərin əvvəlləri, 30-cu illər, repressiya illəri, qanunsuzluq, insan hüquqlarının pozulması, Azərbaycan xalqına böyük zərbələr vurulması. Bunlar həqiqətdir. Eyni zamanda o da həqiqətdir ki, bu dövrdə əzab-əziyyətlərlə, çətinliklərlə yanaşı, Azərbaycan xalqı öz iqtisadiyyatını yaratmışdır. Əgər 70 il ərzində yaranmış bu iqtisadiyyat olmasaydı, indi Azərbaycan Respublikası müstəqil dövlət kimi yaşaya bilərdimi?

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından
(21 sentyabr 1993-cü il)

***

İndi biz azad bazar iqtisadiyyatı yolu ilə gedirik. Bu formaların hamısı Azərbaycanda öz yerini tuta bilər. Biz bunların heç birinə mane olmayacağıq. Ancaq hansı formalar ümummilli mənafedən Azərbaycan gənclərinin təhsil səviyyəsini qaldıra biləcəksə, yaxşı nəticələr verəcəksə, biz bunlar haqqında düşünməliyik.

Biz bəyan etmişik və bu gün bir daha bildirirəm ki, bütün dövlətlərlə əlaqələrimiz – həm iqtisadi əlaqələr, həm insani əlaqələr, həm də elmi-texniki əlaqələr normal olmalıdır. Bütün bu əlaqələrdən Azərbaycan Respublikası iqtisadiyyatının inkişafı üçün və müstəqilliyinin təmin olunması üçün səmərəli istifadə etməliyik.

Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışından
(22 sentyabr 1993-cü il)

***

Azərbaycanın müstəqil dövlət kimi yaşaması, inkişaf etməsi, onun vətəndaşlarının güzəranının, həyat tərzinin yaxşılaşması üçün əsas şərtlərdən biri də, şübhəsiz ki, respublikanın iqtisadi potensialıdır. Bu gün biz böyük iftixar hissi ilə qeyd edə bilərik ki, Azərbaycan Respublikasının müstəqil dövlət kimi yaşaması üçün yaxşı, gərəkli və etibarlı iqtisadi potensialı var və onun əsasını sənaye təşkil edir. Ata-babalarımızdan, nəsillərdən-nəsillərə keçən və müasir dövrdə Azərbaycanın zəhmət adamlarının gücü ilə, əməyi ilə, ağlı ilə yaranan zavodlar, fabriklər, digər sənaye müəssisələri respublikanın iqtisadi potensialının əsasını təşkil edir və mən yaxşı bilirəm ki, bu, çox güclü potensialdır. Əgər ondan səmərəli, tam gücü ilə istifadə edə bilsək, iqtisadiyyatımız çox sürətlə inkişaf edəcək və Azərbaycan vətəndaşlarının həyat tərzini yaxşılaşdırmaq üçün yaxşı şərait yaranacaqdır. Mən buna əminəm.

Başqa respublikalarla müqayisədə Azərbaycanın sənaye potensialı respublikanın müstəqil dövlət kimi inkişaf etməsinə böyük şərait yaradan bir potensialdır. Siz isə, yəni sənaye sahəsində çalışan adamlar – bu zavodları, fabrikləri, digər sənaye müəssisələrini yaradan, onları işlədən adamlar böyük iş görürsünüz. Siz Azərbaycanın müstəqilliyini təmin etmək üçün böyük fəaliyyət göstərirsiniz. Bu fəaliyyətinizə, indiki böhran vəziyyətində zavodları, fabrikləri tam gücü ilə olmasa da, işlətdiyinizə görə və öz peşənizdən, sənətinizdən uzaqlaşmadığınıza görə, öz işinizə, əməyinizə sədaqətli olduğunuza görə hamınıza minnətdarlığımı bildirirəm. Hamınızı bu əmək fədakarlığına görə ürəkdən təbrik edirəm.

Bakı kondisioner zavodu Azərbaycanda sənayenin, xüsusən müasir texnologiyalı maşınqayırma istiqamətli sənayenin inkişafına böyük təsir etdi. Bundan sonra bir neçə böyük zavod – həm elektrotexnika, həm radiotexnika, həm də elektronika zavodları, maşınqayırma və başqa sahələrdə zavodlar yarandı. O cümlədən Bakıda dərin özüllər zavodu tikildi və bu da o dövrdə sənayenin inkişafına az təsir etmədi. Bütün bunlar isə həm sənayenin inkişafı, həm də müasir texnologiyanın, özü də gələcəyi təmin edən texnologiyanın tətbiq edildiyi sənaye müəssisələrinin yaradılması istiqamətində apardığımız siyasətin nəticəsi idi. Bunların hamısı indi Azərbaycanda iqtisadi potensialı çox yüksəldibdir.

Bakı Kondisioner zavodunda paytaxtın sənaye müəssisələri əmək kollektivləri nümayəndələrinin mitinqində çıxışından
(28 sentyabr 1993-cü il)

***

On illər boyu yaranmış iqtisadi-sosial sistemdən sərbəst iqtisadiyyat sisteminə keçmək böyük çətinliklərlə bağlıdır. Bu sahədə son illərdə buraxılan səhvlər vəziyyəti daha da gərginləşdirmişdir. Ancaq biz bu yolla getməliyik, başqa yol yoxdur. Bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına, ənənələrinə uyğun olaraq təşkil edilməlidir. Bu yola keçərkən əlimizdə olan iqtisadi potensialdan səmərəli istifadə etməliyik, onun bundan sonra dağılmasına yol verməməliyik. Çalışmalıyıq ki, bu potensial bütün Azərbaycan xalqının sərvəti kimi bundan sonra da respublikamızın bütün vətəndaşlarının, bütün təbəqələrin həyat tərzinin yaxşılaşması üçün şərait yaratsın.

Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir.

Azərbaycan Respublikasının Prezidentinin Andiçmə mərasimində nitqindən
(10 oktyabr 1993-cü il)

***

Mən birmənalı deyirəm: biz sərbəst iqtisadiyyata keçməliyik və bu yolda cürbəcür bəhanələr axtarmamalıyıq. Ola bilər ki, bu yolda itkilərimiz, çətinliklərimiz olsun. Ancaq bu yolu keçməliyik.

Prezident Sarayında bank-maliyyə, tədiyə sistemlərinin və idxal-ixrac əməliyyatlarının vəziyyətinə və onu yaxşılaşdırmaq sahəsində vəzifələrə həsr olunmuş ümumrespublika müşavirəsində çıxışından
(19 noyabr 1993-cü il)

***

Azərbaycan bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu ilə gedəcəkdir. Lakin bu yolu da sivilizasiyalı qaydada keçmək lazımdır. Bu yol o demək deyildir ki, oğurluq edəsən, cürbəcür fırıldaqlarla dövlətin, xalqın sərvətini mənimsəyəsən. Bu günlərdə biz respublikanın 50 milyon dollar vəsaitinin heç bir iqtisadi imkanı olmayan "Aran" korporasiyasına verildiyini öyrəndik. Biz bunun qarşısını aldıq. Lakin ola bilər ki, gələcəkdə belə hallar yenə qarşıya çıxsın. Bazar iqtisadiyyatı qanunların çərçivəsində, onlara əməl etməklə fəaliyyət göstərməlidir...

Cəbhəyanı bölgədə – İmişli, Füzuli Beyləqan, Şəmkir, Ağcabədi rayonlarında və gəncə şəhərində görüşlər zamanı çıxışından
(11-12 dekabr 1993-cü il)

***

Neft sənayesi Azərbaycan iqtisadiyyatında mühüm yer tutur. Müstəqil Azərbaycanın gələcək iqtisadiyyatının inkişafı neft sənayesindən çox asılıdır. Ona görə də dövlət bu sahəyə xüsusi fikir verir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərləri, neftçi alim və mütəxəssislərilə görüşdə çıxışından
(5 fevral 1994-cü il)

***

Azərbaycanın iqtisadiyyatı azad iqtisadiyyat yolu ilə gedəcəkdir. Azərbaycan böyük iqtisadi-sosial islahatlar keçirmək əzmindədir. Azərbaycan dünyada sınanmış, artıq öz müsbət nəticələrini vermiş olan iqtisadi-sosial və ictimai-siyasi sistem yolu ilə gedəcəkdir.

Türkiyə Böyük Millət Məclisində çıxışından
(9 fevral 1994-cü il)

***

İqtisadiyyat sahəsində bizim yolumuz sərbəst iqtisadiyyat yoludur, iqtisadi islahatlar keçirməklə Azərbaycanı dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatına yaxınlaşdırmaq yoludur.

Ankarada dünya ölkələrinin türkiyədəki səfirləri və diplomatik heyətlərinin üzvləri ilə görüşdə çıxışından
(9 fevral 1994-cü il)

***

Azərbaycanın iqtisadi potensialı, yeraltı və yerüstü sərvətləri, elmi, intellektual potensialı ilə yanaşı, onun digər dövlətlərlə iqtisadiyyat sahəsində əməkdaşlığı üçün daha əlverişli şərait yaradan cəhətlərdən biri də ölkəmizin coğrafi-siyasi mövqeyidir. Azərbaycanın dövlət quruluşu, daxili siyasəti müstəqil dövlətə xas olan quruluş və siyasətdir, yəni Azərbaycan artıq müstəqil bir dövlətdir və öz müstəqilliyini bundan sonra heç vaxt əldən verməyəcəkdir. Bu sahədə zəruri tədbirlər həyata keçirilir. Ona görə də Azərbaycan Respublikası ilə başqa ölkələr, o cümlədən İngiltərə arasında iqtisadi əlaqələr qurulmasına indi daha əlverişli əsaslar yaranmışdır.

Azərbaycan iqtisadiyyatı sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedəcəkdir və bu, müstəqil Azərbaycan Respublikasının iqtisadi sahədə strateji yoludur. Biz bu yolu seçmişik və onu seçərkən dünya təcrübəsindən istifadə etmişik, bundan sonra da istifadə edəcəyik. Başqa bir ölkənin, o cümlədən də İranın, yaxud hər hansı bir qonşu dövlətin bizim bazar iqtisadiyyatına heç bir təsiri ola bilməz. Ümumiyyətlə, dünya bazar iqtisadiyyatı yolu ilə gedir. Bildiyiniz kimi, son vaxtlaradək yalnız Sovet İttifaqında iqtisadiyyat sosializm quruluşuna əsaslanırdı, halbuki digər ölkələrdə sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı tətbiq edilirdi. İndi biz də bu yolla gedirik. Odur ki, buna başqa bir ölkənin nə təsiri, nə də etirazı ola bilər.

Böyük Britaniya Sənayeçiləri Konfederasiyasında çıxışından
(22 fevral 1994-cü il)

***

Sosial-iqtisadi inkişaf sahəsində Azərbaycan bazar iqtisadiyyatının, azad sahibkarlığın inkişaf etdirilməsi, iqtisadi həyatın sərbəstləşdirilməsi, xarici kapitalın, xarici investisiyaların Azərbaycana cəlb olunması, xarici investorlar üçün əlverişli şərait yaradılması xəttini qəti şəkildə götürmüşdür. Sözün qısası, söhbət azad bazar iqtisadiyyatından gedir. Bununla əlaqədar mən Azərbaycanla iqtisadi əməkdaşlığa maraq göstərənlərin hamısını respublikamıza dəvət etmişəm, onu nəzərdə tuturam ki, Azərbaycan hər cəhətdən bütün dünya üçün açıqdır, xüsusən investisiyalar üçün, iqtisadi münasibətlər üçün Azərbaycan Birləşmiş Krallığın işgüzar aləminin üzünə açıqdır. Mən demişəm və sizin qarşınızda bir daha bildirirəm ki, Azərbaycan iqtisadi əməkdaşlıq üçün, investisiyalar üçün əlverişli imkanlara malikdir, respublikanın rəhbərliyi, dövlətimiz investisiyaların müdafiəsinə, Azərbaycanla əməkdaşlığa başlayacaq xarici firmaların mənafelərinin müdafiəsinə təminat verir.

Böyük Britaniyaya rəsmi səfərin yekunlarına dair mətbuat konfransında bəyanatından

(24 fevral 1994-cü il)

***

Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının böyük bir hissəsidir, demək olar ki, yarısından çoxudur. Əhalinin yarısı, ola bilər ki, yarısından bir qədər azı kənddə yaşayır, kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğuldur. Ona görə də kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatında, bir tərəfdən böyük yer tutur, digər tərəfdən isə, iqtisadiyyatımıza həm mənfi, həm də müsbət təsir göstərə bilir. Sənayenin də bir hissəsi, ola bilsin, böyük bir hissəsi kənd təsərrüfatı məhsulları istehsalı ilə bağlı olduğuna görə kənd təsərrüfatının Azərbaycan iqtisadiyyatı üçün böyük əhəmiyyəti var.

Respublikamız artıq müstəqil bir ölkədir, dövlətdir. Kənar yerdən bizə nə ət, nə yağ gələcək, nə taxıl məhsulları, nə də başqa şeylər gələcək. Biz öz ərazimizin, təbiətimizin imkanlarından, Allahın respublikamıza, xalqımıza verdiyi bu nemətlərdən səmərəli istifadə edərək xalqımızı yaşatmalıyıq. Sizə qəti deyirəm ki, xalqımızın öz torpağından, iqlimindən, təbiətindən istifadə edərək rahat və yaxşı maddi səviyyədə yaşaması üçün Allah ölkəmizə hər şey verib. Biz bundan, yenə də deyirəm, səmərəli istifadə etməliyik, bu işi planlı, ardıcıl şəkildə aparmalıyıq. Azərbaycanın kənd təsərrüfatı potensialı bərpa edilməlidir. Torpaqlarımız, hava, su, ərazimiz Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artırılmasına yönəldilməli, istifadə olunmalıdır.

İndi biz müstəqil dövlətik, iqtisadi imkanlarımız məhduddur. Çünki böhran içərisindəyik, müharibə aparırıq. Müharibə isə bildiyiniz kimi, çox böyük xərc tələb edir. İndi hər şeyi ölçüb-biçməliyik. Rayonların, təsərrüfatların rəhbərləri gərək qənaətcil ailə başçısı kimi fikirləşsinlər ki, təsərrüfat işlərini aparmaq üçün nə lazımdır və onu hansı vəsaitlə almaq mümkündür. Yalnız bu yolla, qənaət və iqtisadi səmərəlilik yolu ilə, təsərrüfatçılıq yolu ilə işləmək lazımdır. Mən qəti fikirdəyəm ki, bundan ötrü Azərbaycan Respublikasının hər bir rayonunda, hər bir təsərrüfatında böyük imkanlar var. Bunlardan istifadə olunmalıdır.

Prezident Sarayında kənd təsərrüfatı problemlərinin həllinə həsr olunmuş müşavirədə nitqindən
(4 mart 1994-cü il)

***

Bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat, şübhəsiz ki, insanlara təşəbbüs göstərmək imkanı verir, hər bir kəsin var-dövlətə malik olmasına təminat yaradır. Lakin bütün bunlar oğurluq, əyrilik, fırıldaq, başqasının dövlətini, xalqın malını oğurlamaq yolu deyil, qanun çərçivəsində, doğru-düzgün yolla, ədalət yolu ilə olmalıdır.

Pambıqçılıq müstəqil Azərbaycan üçün çox böyük gəlir mənbəyidir, istər iqtisadiyyatı qaldırmaq, istərsə də xalqın rifahını yüksəltmək üçün olduqca geniş imkanlar açır.

Prezident Sarayında pambıqçılıqda mövcud vəziyyət və səpin kampaniyasına hazırlıqla əlaqədar problemlərin həlli yollarına həsr olunmuş müşavirədən

(30 mart 1994-cü il)

***

Bəli, çoxmərtəbəli yaşayış binaları, mehmanxana, şəhərin abadlaşması, tarixi abidələrin bərpası, məscidlərin bərpası, dahi şairimiz Molla Pənah Vaqifin məqbərəsi, xan qızı Natəvanın evinin bərpası, Bülbülün, Üzeyir Hacıbəyovun ev- muzeylərinin yaradılması... Görülən işlər çoxdur. Şuşalılar bunların hamısını yaxşı bilir. Bütün bu işlər o illərdə sizlə bizim birgə fəaliyyətimizin nəticəsidir. Bir Şuşada bu qədər iş görülmüşdü, indi görün Azərbaycanın başqa regionlarında nə qədər işlər görülmüşdü, böyük potensial yaranmışdı. Sənaye və kənd təsərrüfatı müəssisələri, elektrik stansiyaları tikilmiş, kanallar, su hövzələri, şose və dəmir yolları çəkilmişdi. Bəli, həmin Ağdama, Xankəndiyə, ondan sonra Balakənə, Şəkiyə dəmir yolları çəkildi. Nə qədər işlər görüldü.

Zuğulbadakı Pansionatda müvəqqəti məskunlaşan qaçqınlarla görüşdə çıxışından
(21 may 1994-cü il)

***

Sovet İttifaqında əslində bütün yataqların kəşfi və işlənməsi Azərbaycan alimləri və neftçilərinin əməyi, səyləri ilə bağlıdır.

Ölkəmizin neft sənayesinin qədim və zəngin tarixi var. Təqribən 150 il bundan əvvəl Azərbaycanda sənaye üsulu ilə neft çıxarılmasına başlanması məlumdur. O vaxtdan ötən dövrdə Azərbaycan xalqının səyləri, xarici şirkətlərin köməyi ilə böyük yol keçilmişdir. Respublikanın yataqlarından 1 milyard 300 milyon tondan çox neft və külli miqdarda qaz çıxarılmışdır. Lakin ötən tarixi dövr və mütəxəssislərimizin tədqiqatları göstərir ki, Azərbaycanda indi də çox böyük neft və qaz ehtiyatı var. Deməli, Azərbaycan Respublikasının bu qiymətli sərvətlərindən istifadə sahəsində qarşıda bizi daha böyük perspektiv gözləyir. Ötən tarixi dövrdə nə edilmişsə, şübhəsiz ki, bizim çox böyük nailiyyətimiz, zəngin təcrübə, gələcək işlər üçün yaxşı bünövrədir.

Bakıda Xəzər dənizində neft-qaz hasilatına dair birinci beynəlxalq sərginin açılışında çıxışından
(24 may 1994-cü)

***

Azərbaycanın iqtisadi potensialı, geopolitik coğrafi vəziyyəti respublikamız, xalqımız üçün böyük, gözəl, xoşbəxt gələcək təmin edir.

Prezident Sarayında respublika iqtisadiyyatının vəziyyətinə həsr olunmuş geniş müşavirədən
(11 avqust 1994-cü il)

***

Azərbaycanın neft yataqları xalqımızın ən böyük milli sərvətidir və ondan bu gün də, gələcəkdə də çox ehtiyatla istifadə etmək lazımdır. Düşünmək lazımdır ki, bizim sərvətlərimiz təkcə bugünkü nəsillər üçün deyil, nəvə-nəticələrimiz, gələcək nəsillərimiz üçün də gərəkdir.

Suraxanı neft yatağının sənaye üsulu ilə istismarına başlanmasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxışından
(26 avqust 1994-cü il)

***

Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdirdik.

Hər bir iqtisadi müqavilə eyni zamanda siyasi nəticələr verir.

Xəzər Şelfində yataqların birgə işlənməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalanması mərasimində nitqindən "Gülüstan" sarayı
(20 sentyabr 1994-cü il)

***

Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizin sahibi olaq və bu sərvətlərdən istifadə edərək xalqımız daha yaxşı yaşasın. Əgər müstəqilliyimiz sadəcə olaraq formal xarakter daşıyacaqsa, yaxud müstəqillik dövründə iqtisadiyyatımız gündən- günə geriləyəcəksə, əhalinin yaşayış səviyyəsi pisləşəcəksə, onda bu müstəqillik nəyə lazımdır.

Müstəqillik əsrlər boyu bizim arzumuz olmuşdur. İkincisi, bizim ölkəmiz - Azərbaycan öz sərvətlərindən istifadə edərək, iqtisadiyyatını yaxşı qura və əhalisinin, vətəndaşlarının rifahını daha da yaxşılaşdıra bilər. Sovetlər İttifaqının dağılması prosesi gedərkən bir çox iqtisadçılar bunu təhlil etmiş və hələ o zaman belə nəticəyə gəlmişdilər ki, 15 sovet respublikasından ikisi- üçü müstəqillik dövründə özünü tam yaşada bilərsə, bunlardan biri də Azərbaycandır. Bunu hələ o zaman həm sovet alimləri, həm də qərb sovetoloqları demişlər. Bu havadan götürülmüş fikirlər deyildir, Azərbaycanın həm təbii sərvətləri, həm də iqtisadi potensialı ilə bağlıdır.

Prezident Sarayında respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş müşavirədən
(5 noyabr 1994-cü il)

***

Azərbaycan dövlətinin iqtisadi sahədə siyasəti iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə qurmaqdan və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatı ilə bağlamaqdan ibarətdir.

Respublikada özəlləşdirmənin həyata keçirilməsi məsələlərinə həsr olunmuş müşavirədə çıxışından
Prezident Sarayı

(7 mart 1995-ci il)

***

Dövlətin əlində olan mülkiyyət, iqtisadi potensial xalqın zəhməti, vəsaiti ilə yaranmışdır, xalqa məxsusdur.

Milli Televiziya Və Radio İlə xalqa müraciətindən
(15 mart 1995-ci il)

***

Əgər biz istəyiriksə, doğrudan da, həqiqətən respublikamızın təbiətindən, torpağından, suyundan, havasından, kənd təsərrüfatı imkanlarından maksimum istifadə edək, xalqımızın rifahını yaxşılaşdıraq, iqtisadiyyatı yüksəldək, kənd əhalisinin rifahını yaxşılaşdıraq, onda biz bazar iqtisadiyyatı yolu ilə getməliyik. Başqa üçüncü yol yoxdur.

Respublikada aqrar islahatların gedişi və kənd təsərrüfatında vəziyyətə həsr olunmuş müşavirədən
Prezident sarayı
(14 aprel 1995-ci il)

***

Biz bazar iqtisadiyyatı yolu ilə cəsarətlə getməliyik!

Respublika Nazirlər Kabinetinin geniş iclasında çıxışından
Nazirlər Kabineti
(3 may 1995-ci il)

***

Biz düz yolla, haqq yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır.

Zəvvarların Həcc ziyarətindən qayıtması münasibətilə keçirilən mərasimdə nitqindən
Səttarxan adına maşınqayırma zavodu
(20 may 1995-ci il)

***

Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi, regionlaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir. Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz.

Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı Üzvlərinin dövlət
və hökumət başçılarının Zirvə toplantısında çıxışından
Buxarest
(30 iyun 1995-ci il)

***

Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlarına, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmləndirmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır.

1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən Heydər Əliyevə "Səs" qəzeti vasitəsilə müraciət etmiş Azərbaycan ziyalıları ilə görüşdə çıxışından
Prezident Sarayı
(9 sentyabr 1995-ci il)

***

Bazar iqtisadiyyatına keçmək, sərbəst iqtisadiyyata keçmək illər boyu milyonlarla insanın əlinin qabarı, zəhməti ilə, alın təri ilə yaradılmış bu sərvətləri ayrı-ayrı quldurlar tərəfindən, ayrı-ayrı oğrular tərəfindən dağıtmaq demək deyildir.

Respublikamızın, xalqımızın xoşbəxtliyi ondan ibarətdir ki, zəngin təbii sərvətlərimiz var, böyük iqtisadi potensialımız var, intellektual potensialımız var.

Azərbaycan neft-qaz sənayesi kollektivlərinin nümayəndələri ilə görüşdən
Prezident sarayı
(20 sentyabr 1995-ci il)

***

Gələcəkdə Azərbaycan inkişaf etmiş demokratik bir dövlət olacaqdır. Azərbaycan heç vaxt keçmişə dönməyibdir və dönməyəcəkdir. Azərbaycan irəli, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedəcəkdir, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlayır və bağlayacaqdır.

Türkiyə Respublikasının Baş naziri Məsud Yılmazla Azərbaycan ictimaiyyəti nümayəndələrinin görüşündə nitqindən
Respublika Sarayı
(14 aprel 1996-cı il)

***

Heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz.

İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan ölkələrin dövlət başçılarının dördüncü zirvə toplantısında çıxışından
Aşqabat
(14 may 1996-cı il)

***

Azərbaycanın bu gün müstəqil yaşaması üçün o illər böyük əsas yaratmışdır. Azərbaycanın iqtisadiyyatı inkişaf etmişdir. Azərbaycanda iqtisadi, sənaye potensialı yaranmışdır. Azərbaycanda yeni şəhərlər yaranmış, kəndlər, qəsəbələr abadlaşmış, insanların rifah halı xeyli yaxşılaşmışdır....

Azərbaycanın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır. Azərbaycan bu mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir.

Milli Bayram – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika Sarayı
(26 may 1996-cı il)

***

Azərbaycan nefti təkcə Azərbaycanın, keçmiş Rusiyanın, keçmiş Sovetlər İttifaqının deyil, dünyanın bir çox ölkələrinin də iqtisadiyyatının inkişafında böyük rol oynamışdır.

Azərbaycan xalqı heç vaxt indiki kimi öz sərvətlərinin sahibi olmayıb və heç vaxt da özü belə iri, cəsarətli, iradəli addımlar atmaq imkanına malik olmayıbdır.

...Dünyada ilk dəfə olaraq məhz Bakıda, Azərbaycanda 1848-ci ildə neft fontan vurmuşdur. Dünyada ilk dəfə olaraq məhz Azərbaycanda dənizdə neft yataqlarının istismarına başlanmışdır. 1849-cu ildən etibarən Xəzər dənizinin Azərbaycan sektorunda zəngin neft və qaz yataqları fəal istismar edilir. Bütün bunlar birlikdə götürüldükdə, belə deməyə əsas verir ki, Azərbaycan Odlar yurdu, neft diyarıdır.

Bakıda "Xəzərneftqaz-96" üçüncü beynəlxalq sərgisinin açılış mərasimində çıxışından
(4 iyun 1996-cı il)

***

Bir Prezident kimi mən iqtisadiyyatda dövlət siyasətini müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır.

Respublikada aqrar islahatların gedişi vəziyyətinə və torpaq islahatı haqqında qanun layihəsinin müzakirəsinə həsr olunmuş müşavirədən
Prezident Sarayı
(24 iyun 1996-cı il)

***

Yer üzərindəki təbii sərvətlər təbiət, İlahi tərəfindən yaradılıbdır. Ancaq torpağın, yerin, kürreyi-ərzin üzərində yüz illərlə, min illərlə qurulanlar insanların zəhməti, iradəsi, zəkası onların əlləri ilə yaradılıbdır.

Bakıda yeni Teleqüllənin təntənəli açılışı mərasimində çıxışından
(6 iyul 1996-cı il)

***

Özəl sektorun inkişafı dövlət mülkiyyətinin dağıdılması yolu ilə yox, dövlət mülkiyyətinin qanun-qayda ilə, ədalətlə özəlləşdirilməsi yolu ilə getməlidir.

Respublikamızda yaranmış sənaye potensialı Azərbaycanın müstəqil yaşaması üçün yaxşı əsas verir. Əgər bunlar olmasaydı, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra çox ağır və çətin vəziyyətdə qalardı. İndi isə biz neft müqavilələri ilə, - «Əsrin müqaviləsi» - 1995-ci ildə imzalanmış neft müqaviləsi ilə Azərbaycan xalqının 30-40 illik gələcəyi üçün çox gözəl bir iqtisadi əsas yaratmışıq. Bu müqavilələri bu gün üçün yox, sabah üçün yox, hətta 5 il üçün yox, 10-15-20 il bundan sonra Azərbaycan Respublikasının müstəqil yaşaması üçün və Azərbaycan vətəndaşlarının rifah halının lazımi səviyyədə olması üçün imzalamışıq. Mən əminəm ki, bunlar öz nəticəsini verəcək və Azərbaycanın gələcək nəsilləri bizim gördüyümüz işləri layiqincə qiymətləndirəcəklər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Respublikada sosial-iqtisadi sahənin inkişafına həsr olunmuş geniş iclasında giriş sözündən
Prezident Sarayı
(18-19 iyul 1996-cı il)

***

Mən sahibkarlığa, sərbəst ticarətə, alış-verişə, bizim iş adamlarının bütün ölkələrlə ticarət əlaqələrinə dəstək verirəm, eyni zamanda xəbərdar edirəm ki, onların hamısı Azərbaycanın qanunları çərçivəsində işləməli, respublikamızın qanunlarına əməl etməli, ən əsası isə, şübhəsiz ki, öz mənafeyini təmin etməklə yanaşı, dövlətin, ölkənin, xalqın mənafeyini də unutmamalıdırlar.

Bakıda "İmproşop" Ticarət Mərkəzinin açılış mərasimində çıxışından
(14 sentyabr 1996-cı il)

***

Hər bir iqtisadiyyat eyni zamanda milli mentalitetlə, milli-mənəvi dəyərlərlə də əlaqədardır.

Türk dünyası yazıçılarının III qurultayında nitqindən
Azərbaycan Elmlər Akademiyası
Rəyasət Heyətinin İclas Salonu
(6 noyabr 1996-cı il)

***

Dünya iqtisadiyyatının inteqrasiyası, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətlidir və ümumiyyətlə, dünyada daha da yüksəlmək üçün bu, yeganə bir yoldur.

Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz.

Respublikanın sosial-iqtisadi vəziyyətini inkişaf etdirmək üçün biz xarici ölkələrlə və dünyanın bütün şirkətləri ilə sıx əməkdaşlıq etməyi, Azərbaycan ilə xarici ölkələr arasında müştərək iş görməyi iqtisadiyyat sahəsində əsas istiqamətlərdən biri hesab edirik.

Azərbaycanda Amerika Ticarət Palatasının açılışı mərasimində çıxışından
"Hyatt-Recensi-Naxçıvan" mehmanxanası
(13 dekabr 1996-cı il)

***

Bizim iqtisadi siyasətimiz məlumdur. O, Azərbaycanda bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına sıx surətdə bağlamaq məqsədi daşıyır.

Bakıda Yeni Sellülyar Rabitə Sisteminin təntənəli açılışı mərasimində nitqindən
(15 dekabr 1996-cı il)

***

Bu gün bir daha bəyan edirəm ki, bazar iqtisadiyyatının inkişaf etdirilməsi üçün Azərbaycan dövləti, hökuməti tərəfindən bundan sonra da lazımi tədbirlər görüləcəkdir....

Respublikamızda iqtisadi islahatlar həyata keçirilir və insanların təşəbbüskarlıq, sahibkarlıq addımları dövlət və hökumət tərəfindən bəyənilir, onların həyata keçirilməsi üçün lazımi imkanlar yaradılır.

Azərbaycan-Türkiyə müştərək müəssisəsinin – Çaypaketləmə
fabrikinin açılışı mərasimində çıxışından
Bakı, Bakıxanov qəsəbəsi
(28 dekabr 1996-cı il)

***

Bütün XXI əsr Azərbaycan iqtisadiyyatının, ən əvvəl neft və qaz sənayesinin coşqun inkişafı əsri olacaqdır.

Fransa Ticarət-Sənaye Palatasında keçirilən görüşdə çıxışından
Paris
(14 yanvar 1997-ci il)

***

Torpaq şəxsi mülkiyyətdə olanda həmin torpağın sahibi onu göz bəbəyi kimi qoruyacaqdır.

Respublikanın mövcud sərvətlərini qoruyub saxlamaq, dağıntının qarşısını almaq, dağıntıya yol verməmək, ölkənin mülkiyyətini qoruyub saxlamaq yolu ilə islahatları həyata keçirib, dövlət mülkiyyətini xalqın, vətəndaşların mülkiyyətinə çevirmək lazımdır. Bu prosesdə dağıntının, özbaşınalığın qarşısı alınmalıdır.

Azərbaycanda iqtisadi islahatların gedişinə, eyni zamanda kənd təsərrüfatında
carı işlərin vəziyyətinin müzakirəsinə həsr olunmuş müşavirədən

Prezident sarayı
(16 aprel 1997-ci il)

***

Ümidvaram, Azərbaycan iqtisadiyyatını yüksəldəcəyik və Azərbaycanın böyük təbii sərvətləri, xüsusən neft-qaz yataqları, başqa təbii sərvətləri, iqtisadi potensialı, elmi intellektual potensialı xalqımızın rifahı naminə istifadə olunacaqdır.

Azərbaycan Prezidentinə "9 Eylül" universitetinin fəxri doktoru adı verilməsi mərasimində nitqindən
İzmir
(7 may 1997-ci il)

***

Azərbaycanda iqtisadi islahatlar ağıllı, səriştəli, təmkinli, planlı, ardıcıl surətdə həyata keçirilir və bunlar öz nəticələrini verir.

Azərbaycanda 1997-ci ilin birinci yarısında sosial-iqtisadi inkişafın yekunları, aqrar islahatı və özəlləşdirmənin gedişi, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məsələlərinə həsr olunmuş müşavirədən
Prezident sarayı
(19 iyul 1997-ci il)

***

Xəzər dənizində neft-qaz yataqlarını ilk dəfə kəşf edən Azərbaycan alimləri, neftçiləridir.

Hyüstonun Meri Robert Lanyer ilə görüşdə söhbətdən
Hyüston, Merin iqamətgahı
(1 avqust 1997-ci il)

***

Azərbaycanın öz təbii sərvətlərindən istifadə etməsi ilə əlaqədar apardığı strateji siyasət Azərbaycanın milli mənafeyinə tamamilə cavab verən siyasətdir.

"Kürdaşı dəniz blokunun və "Cənub-Qərbi Qobustan", "Kürsəngi-Qarabağlı" bloklarının birgə işlənilməsi haqqında ARDNŞ ilə xarici neft şirkətləri arasında müqavilələr imzalanarkən Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
(2 iyun 1998-ci il)

***

Allah Azərbaycan xalqına zəngin təbii sərvətlər bəxş etmişdir. Azərbaycan xalqının ən dəyərli insanları, böyük alimləri, fədakar neftçiləri və başqa mütəxəssisləri bu zəngin sərvətlərin Vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüşdür.

Azərbaycan neftçiləri, alimləri, geoloqları öz xalqının təbii sərvətlərinin aşkar edilməsi üçün dəyərli işlər görmüş, böyük neft və qaz yataqları açmışlar və bunlar da indi müstəqil Azərbaycan dövləti üçün böyük proqramlar tərtib etməyə əsas yaradır.

«İstiqlal» qazma qurğusunun işə salınmasına həsr olunmuş təntənəli mərasimdə nitqindən
Azərbaycan Dövlət Neft Şirkətinin gəmi təmiri zavodu
(2 sentyabr 1998-ci il)

***

Azərbaycanın ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda kəşf edilmiş zəngin neft və qaz yataqlarının mövcud olması bizim bugünkü və gələcək işlərimizin əsasını təşkil edir.

Böyük İpək Yolu keçmişdən başlansa da, gələcəyə doğru gedən yoldur.

Tarixi İpək Yolunun bərpası üzrə Bakıda keçirilmiş Beynəlxalq Konfransda
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından
(8 sentyabr 1998-ci il)

***

Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün, iqtisadi islahatların həyata keçirilməsi ilə yanaşı, xarici investisiyanın Azərbaycana gəlməsi, xarici investorlara Azərbaycanda əlverişli şərait yaradılması və Azərbaycanda özəl sektorun inkişafı üçün imkan, əlverişli şərait yaradılması bizim hamımızın qarşısında duran əsas vəzifədir və bu vəzifəni həyata keçirmək lazımdır.

Azərbaycan Respublikasi Nazirlər Kabinetinin ölkənin iqtisadi
və sosial inkişafının yekunlarına həsr olunmuş geniş iclasından
(6 noyabr 1998-ci il)

***

Biz Xəzər dənizinin enerji ehtiyatlarını ilk dəfə dünyaya təqdim etmək təşəbbüsü göstərmişik. Bu, Azərbaycan dövlətinin dünya birliyi qarşısında xüsusi xidmətidir.

Azərbaycanın dünya birliyi qarşısında xidmətlərindən biri də odur ki, Azərbaycan qədim Böyük İpək Yolunun bərpasında təşəbbüskar olubdur.

Vaşinqtonda Amerika-Azərbaycan Ticarət Palatasında Rəsmi Qəbulda Nitqindən
(26 aprel 1999-cu il)

***

Bizim bu işimizə indi də mane olmağa çalışanlar vardır, ancaq heç kəs bir şeyə nail ola bilməyəcəkdir. Azərbaycan dövlətinin yeni neft strategiyası müəyyənləşdirilibdir. Biz bu strategiyanı bundan sonra da qətiyyətlə həyata keçirəcəyik.

1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin, təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağında əldə edilmiş nəticələrin təqdimat mərasimində nitqindən
(12 iyul 1999-cu il)

***

Xəzər dənizində neft və qaz yataqlarının olması, onların kəşfi və indi dünyaya təqdim edilməsi Azərbaycan xalqının, alimlərinin, neftçilərinin böyük xidmətidir.

Azərbaycan indi, XX əsrin sonunda, XXI əsrə gedərək Xəzər dənizinin bütün enerji sərvətlərindən, ehtiyatlarından təkcə Azərbaycan üçün yox, bütün dünya üçün, o cümlədən bütün Xəzəryanı dövlətlər üçün istifadə edilməsinin əsasını qoyubdur. Biz bu gün bununla fəxr edirik.

Biz iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan neftçiləri, alimləri Rusiyada "İkinci Bakı", "Üçüncü Bakı", "Dördüncü Bakı" kimi neft mədənlərinin va yataqlarının açılmasında iştirak ediblər və onların çoxu o vaxtdan indiyə qədər o diyarlarda - Sibirdə, Tümendə yaşayır və bu gün də neft hasilatı ilə məşğuldurlar.

Məhz böyük dövlətlərin, böyük ölkələrin, onların neft şirkətlərinin müstəqil Azərbaycan dövlətinə göstərdiyi etimadın nəticəsində "Əsrin müqaviləsi" imzalanmışdır. Ondan sonra isə tərəfdaşlarımızla, Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan şirkətlərlə və başqa xarici şirkətlərlə bizim gördüyümüz işlər dünyaya bir daha sübut etdi ki, birincisi, Xəzər dənizi, onun Azərbaycan sektoru zəngin neft rə qaz yataqlarına malikdir, ikincisi, Azərbaycan dövləti ilə uzunmüddəti, etibarlı iş görmək olar.

Azərbaycan yalnız dövlət müstəqilliyini əldə etdikdən sonra öz aqibətinin, öz sərvətlərinin sahibi olmuş və ölkəmizin ən zəngin sərvəti olan qaz və neft ehtiyatlarından müstəqil, sərbəst istifadə etmək imkanı əldə etmişdir.

Biz ölkəmizi iqtisadi cəhətdən inkişaf edən ölkə etmək istəyirik. Biz ölkəmizin vətəndaşlarına firavan həyat yaratmaq istəyirik. Biz müstəqil dövlət kimi daim yaşamaq istəyirik. Bütün bu işlər - təkcə neft sahəsində deyil, Azərbaycan iqtisadiyyatının, həyatının bütün başqa sahələrində də gördüyümüz işlər məhz bu məqsədi daşıyır.

Azərbaycan dövlətinin neft strategiyası artıq öz müsbət nəticələrini verib, dünyada tanınıb və XXI əsrdə Azərbaycanın müstəqil, azad inkişaf etməsinin əsasını təşkil edən amillərdən biridir.

Azərbaycan Xəzər dənizində neft yataqlarının aşkar olunmasında, bu yataqların sənaye üsulu ilə istismar edilməsində dünyada birinci yerdə olmuşdur.

Azərbaycanın milli mənafelərinə cavab verən yeni-yeni müqavilələrin imzalanması və onların həyata keçirilməsi üçün bundan sonra daha da böyük imkanlar, daha da yaxşı şərait yaranacaqdır. Biz böyük işin başlanğıcındayıq. Bu gün gördüyümüz bütün işlər, "Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır.

Gülüstan sarayında "Əsrin Müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş rəsmi qəbulda nitqindən
(20 sentyabr 1999-cu il)

***

Bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat Azərbaycan iqtisadiyyatının bu günü və gələcəyini təşkil edir.

Bakıda Binə Beynəlxalq Aerovağzalının yeni kompleksinin açılış mərasimində nitqindən
(30 sentyabr 1999-cu il)

***

Azərbaycanın ən böyük sərvəti Xəzərdən külli miqdarda çıxarılmış neft və qaz deyil. Məhz neftçıxarmanın müxtəlif sahələri üzrə toplanmış zəngin təcrübə, təşəkkül tapmış böyük alim və mütəxəssis ordusu, insan potensialı olmuşdur.

Neft Daşları XX əsrdən XXI əsrə atılmış bir körpüdür.

Biz yeni əsrə müstəqil Azərbaycanın yeni neft starategiyası ilə qədəm qoyuruq. Həmin strategiyanın maddi və elmi təməli isə məhz Neft Daşları ilə qoyulmuşdur. O illərdə qazanılmış nailiyyətlər bu gün müstəqil Azərbaycanda uğurla yerinə yetirilən "Əsrin müqaviləsi"ndə öz parlaq ifadəsini tapmışdır.

Azərbaycan dəniz neft sənayesi işçiləri ilə görüşündə nitqindən
(6 noyabr 1999-cu il)

***

Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir.

ATƏT-in Zirvə görüşünün yekunlarına həsr olunmuş toplantıda nitqindən
(24 noyabr 1999-cu il)

***

Azərbaycan dövləti sahibkarlığın sürətlə inkişaf etdirilməsini ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab edir.

Azərbaycan Sahibkarlar Assosiasiyası Konfransının iştirakçılarına müraciətindən
(2 mart 2000-ci il)

***

Azərbaycan Xəzər dənizində iri bir liman olaraq Şərqdən Qərbə doğru gedən İpək Yolu proqramının həyata keçirilməsi üçün qapıdır.

Tbilisidə Gürcüstan ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən
(22 mart 2000-ci il)

***

Azərbaycanın öz iqtisadiyyatının bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməsi üçün imkanlar yaradılıb və bir çox nailiyyətlər əldə olunubdu. Azərbaycan bir dövlət kimi möhkəmlənib, Azərbaycanın Silahlı Qüvvələri, ordusu yaranıb, güclənib, inkişaf edibdir və o, bu gün müstəqil Azərbaycanın milli mənafelərini, torpaqlarını, onun hüdudlarını qorumağa qadir ordudur.

Hər bir ölkənin, xalqın həm yaşaması, həm də dövlətinin mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır.

Dövlətimizin qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, vətəndaşlarımızın rifahını yaxşılaşdırmaqdan ibarətdir.

Xəzər dənizinin zəngin ehtiyatları - neft və qaz yataqları hələ uzun müddət - on illər, yüz illər dünya iqtisadiyyatını cəlb edəcək və Xəzər dünyanın neft və qaz hasil edən ən böyük regionlarından birinə çevirilcəkdir. Biz iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan bütün bu prosesin təşəbbüskarıdır.

28 May – Respublika Günü Münasibətilə keçirilən təntənəli mərasimdə nitqindən
(27 may 2000-ci il)

***

Azərbaycan öz nefti, neftçiləri, yüksək səviyyəli mütəxəssisləri ilə dünyada böyük şöhrət qazanıbdır.

Rusiyada, ondan sonra isə Sovetlər İttifaqında, demək olar ki, bütün dünyada neftin çıxarılması və hasil edilmiş neftin emalı təcrübəsi Azərbaycandan başlanmışdır.

Bakının Xətai rayonunda "Azərneftyağ" İstehsalat Birliyinin işçiləri üçün tikilmiş yeni yaşayış binalarının istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə nitqindən
(3 iyun 2000-ci il)

***

1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir.

Xəzərin Azərbaycan sektorundakı «Şahdəniz» yatağında əldə edilmiş nəticələrin təqdimat mərasimində nitqindən
Prezident sarayı
(12 iyul 1999-cu il)

***

Biz böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz- Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün çox böyük səylər göstəririk, yerinə yetirə bilmələri üçün onlara lazımi imtiyazların yaradılmasına səy göstəririk.

Nyu-Yorkda Minilliyin Zirvə görüşündə çıxışından
(7 sentyabr 2000-ci il)

***

Xəzər dənizində indi bizim apardığımız işlər təkcə ondan ibarət deyil ki, biz oradan çoxlu neft, qaz götürəcəyik. Bu ondan ibarətdir ki, biz Xəzər dənizini dünyaya açdıq. Bizim yaratdığımız bu nümunə Xəzər dənizinin sərvətlərindən Xəzəryanı dövlətlər tərəfindən ədalətli istifadə olunması üçün böyük imkanlar açır.

İpək Yolunun istifadə olunması, Xəzəryanı ölkələrin dünyanın başqa şirkətləri ilə birlikdə Xəzərin ehtiyatlarını istifadə etməsi Avropa ilə Asiya arasında həm iqtisadi, həm elmi, həm də mədəni əlaqələrin inkişaf etməsi üçün yeni bir mərhələ açıbdır. Biz Azərbaycan olaraq qürur hissi keçiririk ki, bu işin yaranmasında təşəbbüslər göstərmişik, cəsarətli hərəkətlər etmişik və başqa dövlətlərin də bu yolla getməsi üçün nümunə göstərmişik və bundan sonra da göstərəcəyik.

Vaşinqtonda Amerika-Azərbaycan Ticarət Palatası tərəfindən təşkil olunmuş
"Azərbaycan Avrasiyanın qapısı, strateji və iqtisadi alyanslar ölkəsidir"
mövzusunda keçirilmiş beynəlxalq konfransda çıxışından
(11 sentyabr 2000)

***

Azərbaycan Sovetlər İttifaqının tərkibində olan zaman ölkəmizdə böyük elektrik enerjisi potensialının yaranması bizim tarixi nailiyyətimizdir və bu günümüzün, sabahımızın müstəqil Azərbaycanın müstəqil yaşaması üçün əsas şərtlərdən biridir.

1 nömrəli Bakı İstilik-Elektrik Mərkəzinin birinci növbəsinin
istifadəyə verilməsi mərasimində nitqindən
(19 oktyabr 2000-ci il)

***

Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Şərq və Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir.

...Xalqımızın XXI əsrdə tam rahat, firavan yaşamağa, öz dövlətinə, öz torpağına, öz sərvətlərinə tam sahib durmağa haqqı vardır!

XX əsrdə əldə edilmiş bütün elmi-texniki nailiyyətlərin təməlində məhz neft durur.

Neft özü-özlüyündə bizim üçün heç də məqsəd deyildir. O, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi, yeni sahələrin yaradılması, xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədlərimizin uğurla həyata keçirilməsi üçün güclü bir vasitədir, əlverişli bir mənbədir.

Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən
(29 dekabr 2000-ci il)

***

Mən inanıram ki, Azərbaycan milli birlik, milli həmrəylik səviyyəsinə çataraq, özünün böyük iqtisadi, intellektual potensialından, çox əhəmiyyətli coğrafi-stra- teyi vəziyyətindən daha da səmərəli istifadə edəcəkdir.

Azərbaycan xalqına Yeni il təbrikindən
(31 dekabr 2000-ci il)

***

Azərbaycanın iqtisadiyyatı bütün sahələrdə ildən- ilə inkişaf edir. Torpaq islahatının keçirilməsi, torpağın şəxsi mülkiyyətə verilməsi, özəlləşdirmə proqramının yerinə yetirilməsi və sahibkarlığa imkan yaradılması, nəhayət, torpaq almış sahibkarlara, kəndlilərə o torpaqdan istifadə etmək üçün maksimum imkanlar yaradılması - bunların hamısı iqtisadiyyatın tədricən inkişafını təmin etdi.

28 May Respublika Gününə həsr olunmuş təntənəli mərasimdə çıxışından
(26 may 2001-ci il)

***

Biz bu qərarı qəbul etmişik. Bu qərarı Türkiyə qəbul etmişdi. Bu qərarı Gürcüstan qəbul etmişdi. Məmnuniyyət hissi ilə demək istəyirəm ki, Azərbaycanda işləyən böyük neft şirkətləri və onların mənsub olduğu ölkələr – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Fransa, başqa ölkələr, – Avropa ölkələri məhz bu marşrutun həyata keçirilməsini dəstəkləmişlər

Bakıdakı İdman-Sərgi Kompleksində "Xəzərneftqaz - 2001"
Səkkizinci Beynəlxalq Sərgi konfransının açılış mərasimində çıxışından
(5 iyun 2001-ci il)

***

Bu gün kimya məhsulundan, kimya materialından olmayan bir şeyi təsəvvür etmək mümkün deyildir. Məişətdə də kimya, sənayedə də kimya, kənd təsərrüfatında da kimya, hər yerdə, hər yerdə kimya. Yəni kimya sənayesinin yaranması və belə sürətlə inkişaf etməsi XX əsrdə dünyanın əldə etdiyi ən böyük nailiyyətlərdən biridir.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndə burada yaranmış böyük kimya kompleksinin Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu biz hamımız dərk etdik. Əgər bu kompleks yaranmasaydı, bu gün müstəqil Azərbaycan bu sərvətlərə malik olmayacaqdı.

Sumqayıtdakı Etilen-Polietilen zavodunda buxar-generator qurğusunun istifadəyə verilməsi mərasimində nitqindən
(7 iyul 2001-ci il)

***

Xəzərin enerji ehtiyatlarının istifadə olunmasının ikinci mərhələsinin də təşəbbüskarı Azərbaycandır. Bunu biz Azərbaycanın yeni neft strategiyası, neft doktrinası adlandırmışıq.

Amerika Birləşmiş Ştatlarının dövlət katibinin Avropa və Avrasiya ölkələri üzrə köməkçisi Elizabet Consun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən söhbətindən
(26 avqust 2001-ci il)

***

Bizim iqtisadiyyatımızın, iqtisadi siyasətimizin əsas istiqaməti, ana xətti bütün bu islahatların sosial yönümlüyüdür.

Bakının Nəsimi rayonunda paytaxtda ilk özəl ümumtəhsil məktəb kompleksinin istifadəyə verilməsi mərasimində nitqindən
(1 sentyabr 2001-ci il)

***

Əgər 1993-cü ildə Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunmasına başlamasaydıq və ona nail ola bilməsəydik, təbiidir ki, indi Azərbaycanda çalışan neft şirkətləri buraya gəlməzdilər. Bizim yeni neft strategiyamız da ancaq fərziyyə kimi, yaxud nəzəriyyə kimi qala bilərdi. Ona görə də bizim gördüyümüz bu işlər Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etdi. Bizə inandılar. Bizə etibar etdilər. Azərbaycana axın başlandı.

Neftin və qazın Avropa istiqamətində ixrac olunması - təkcə iqtisadi, kommersiya məsələsi deyildir. Bu, siyasi məsələdir. Bu, bizim Qərb ilə inkişaf etmiş ölkələrlə inteqrasiyamızın əsasıdır. Bu, eyni zamanda bizim bölgəmizdə təhlükəsizliyin təmin olunmasının əsasıdır. Demək, bu eyni zamanda böyük bir siyasi məsələdir.

Azərbaycanın yeni neft strategiyası və Azərbaycan neftinin, qazının dünya bazarlarına çıxarılması Azərbaycanın müstəqilliyinin daimi olması üçün əsas şərtlərdən biridir. Bu müstəqilliyimizin təminatıdır. Ona

görə də hər bir vicdanlı Azərbaycan vətəndaşı hansı şəraitdə yaşamasından asılı olmayaraq, bilməlidir ki, o xoşbəxt adamdır. Çünki o, artıq azaddır, öz ölkəsinin sahibidir, heç bir başqa ölkənin müstəmləkəsi, yaxud da ki, bir hissəsi olmayan müstəqil dövlətdə yaşayır. Bu, tarixi nailiyyətdir. Biz bunu qiymətləndirməliyik. Hər bir vətəndaş bunu qiymətləndirərək Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün öz töhfəsini verməlidir.

"Neftçilər Günü"nə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(22 sentyabr 2001-ci il)

***

İqtisadiyyatı irəliyə aparmaq üçün dünyanın mürəkkəb maliyyə sisteminə, iqtisadi sisteminə qoşulmaq üçün bizə müasir, hazırlıqlı, xarici dilləri bilən, dünya təcrübəsini mənimsəmiş gənclər lazımdır.

Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyinə
həsr olunmuş təntənəli mərasimdə nitqindən
(13 iyun 2002-ci il)

***

Vaxtilə təsəvvür etmək mümkün olmazdı ki, Xəzər dənizindən Qara dənizə gələcəyik və oradan da Aralıq dənizinə qədər gedəcəyik. İki min kilometr uzunluğunda böyük bir neft kəməri çəkilir. Bu, həqiqətən əfsanədir.

Üç dənizin əfsanəsi həqiqətən böyük bir əfsanədir. Biz bu əfsanənin yaradılmasının iştirakçılarıyıq və bu əfsanəni reallığa çevirmişik. Artıq bu, əfsanə deyil, reallıqdır. Reallıq odur ki, Xəzər dənizindən neft və qaz hasil olur.

İstanbulda keçirilən "Üç dənizin əfsanəsi" konfransının açılış mərasimində çıxışından
(25 iyun 2002-ci il)

***

Bizim iqtisadiyyatımızın aparıcı qüvvəsi özəl sektordur, sahibkarlardır.

"Azərbaycan polisi günü"nə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(3 iyul 2002-ci il)

***

Azərbaycanda təbii sərvətlər xalqa məxsusdur, xalqındır. Xalqdan başqa heç kəsin deyil və xalqın etimad etdiyi dövlət, iqtidar bu təbii sərvətlərin xalqa məxsusluğunu daim gözünün önündə saxlamalıdır və onlardan ancaq xalqın, yalnız xalqın tələbatını təmin etmək üçün istifadə edilməlidir.

Biz Azərbaycanda neft strategiyasını hazırlayıb həyata keçirməyə başlayarkən qarşımıza əsas bir böyük məqsəd və vəzifə qoymuşuq: Azərbaycanın zəngin təbii sərvətləri olan neft və qaz yataqlarının xarici şirkətlərlə, onların investisiyalarının cəlb olunması vasitəsilə müştərək işlənilməsini təşkil etmək, bunun nəticəsində zəngin yataqlarımızda neft və qaz hasilatını təmin etmək və təbiidir ki, bunların hamısını

Azərbaycanın milli mənafelərinin təmin olunmasına yönəltmək. Yəni bütün bu strategiya yalnız və yalnız Azərbaycanın milli mənafeləri üçün həm işlənib hazırlanıb, həm də həyata keçirilir.

Azərbaycan Dövlət Neft Fondunun Müşahidə Şurasnn birinci iclasında nitqindən
(16 iyul 2002-ci il)

***

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri bizim ən böyük nailiyyətlərimizdən biridir.

Azərbaycanın dövlət müstəqilliyinin 11-ci ildönümünə həsr olunmuş
"Gülüstan" sarayında təntənəli mərasimdə nitqindən
(17 oktyabr 2002-ci il)

***

Bakı Metropoliteni Azərbaycan xalqının milli sərvətidir. Deyə bilərəm ki, ən dəyərli sərvətlərindən biridir.

Bakı Metropoliteninin 35 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(6 noyabr 2002-ci il)

***

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri təkcə iqtisadi xarakter daşımır. O, eyni zamanda Qafqazda, xüsusən Cənubi Qafqazda, Türkiyədə təhlükəsizliyi və sabitliyi təmin etmək üçün əsas vasitələrdən biridir.

Azərbaycanın yeni neft strategiyası, onun qarşıya qoyduğu məsələlər, Azərbaycanın iqtisadiyyatı və bunun gələcəyi, demokratik, hüquqi, dünyəvi dövlət kimi ilbəil inkişaf etməsi, bazar iqtisadiyyatı ilə irəliləməsi - bunlar hamısı bizim əsas prinsiplərimizdir.

Vaşinqtonda keçirilən "Şərq-Qərb Enerji Dəhlizi reallıqdır" mövzusunda beynəlxalq konfransda nitqindən
(25 fevral 2003-cü il)

DİL HAQQINDA

Türk və Azərbaycan dilləri qohum dillərdir, elə bunun özü də yaxınlığın labüdlüyünü qabaqcadan müəyyənləşdirir.

"Nezavisimaya qazeta"ya müsahibəsindən
(30 avqust 1993-cü il)

***

Fəxr edə bilərik ki, bizim zəngin, böyük söz ehtiyatına malik olan Azərbaycan dilimiz var.

Bakı şəhərinin təhsil işçiləri ilə görüşdən
(31 avqust 1994-cü il)

***

Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.

Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz ana dilimizlə, Azərbaycan dili ilə fəxr edirik.

Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən
Respublika Sarayı
(26 noyabr 1994-cü il)

***

Dilimizin böyük qrammatikası yaranıbdır. Böyük dərsliklər, əsərlər var. Respublikamızda böyük Dilçilik institutu mövcuddur. Bizim böyük dilçilərimiz var, - yadımdadır, akademik Şirəliyev, Dəmirçizadə,- mən o vaxtkı adamları deyirəm, indi yaşayan alimlər adlarını demədiyimə görə məndən inciməsinlər. Bəli, bizim böyük alimlərimiz var.

Azərbaycan Respublikasının Yeni Konstitusiya Layihəsində dövlət dili haqqında maddənin geniş müzakirəsində nitqindən
Respublika Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonu
(31 oktyabr 1995-ci il)

***

Əlbəttə, ötən dövrün repressiyaları haqqında demək olar, insanlara edilmiş zülm haqqında demək olar, ədalətsizlik haqqında demək olar. Bunları demək olar. Bu, bizim tariximizdir. Tarixi həqiqəti həmişə demək lazımdır. Ancaq bununla yanaşı, əldə olan nailiyyətlərimizi niyə unudursunuz? Bu nailiyyətlərin içərisində - burada deyildi və mən də bunu təsdiq edirəm; bu, şəxsən mənim də fikrimdir, - Azərbaycan dili, indi bunu nə adlandırırsınız adlandırın, Azərbaycan dili bütün tarixi ərzində bu qədər zənginləşməyibdir, nəinki bu 6 ilin içərisində; bu qədər zənginləşməyib, bu qədər inkişaf etməyib.

Azərbaycan Respublikasının Yeni Konstitusiya Layihəsini hazırlayan komissiyanın iclasından
Prezident sarayı,
(2 noyabr 1995-ci il)

***

Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə. Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb.

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iclasından
Prezident Sarayı
(5 noyabr 1995-ci il)

***

Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun.

Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvər duyğuları, hissiyyatı olmayacaqdır.

Azərbaycan dilini mənimsəmək lazımdır. Bu dildə yaxşı danışmaq lazımdır, bu dili ana dili kimi daim duymaq lazımdır, bu dili sevmək lazımdır.

Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda nitqindən
Respublika Sarayı
(2 fevral 1996-cı il)

***

Dövlət dilimiz, ana dilimiz - Azərbaycan dili ölkəmizdə hakim dildir. Nəinki azərbaycanlılar, respublikamıza xaricdən gələn qonaqlarımız, dostlarımız, həmkarlarımız da bu dilə hörmət edirlər, bu dili öyrənmək, bu dildə danışmaq istəyirlər. Bu, çox sevindirici haldır. Bu, eyni zamanda müstəqil respublikamızın əsas atributlarından biri olan Azərbaycan dilinin inkişaf etməsini göstərir.

"Dədə Qorqud" qazma qurğusunun fəaliyyətə başlamasına həsr olunmuş mitinqdə nitqindən
(24 avqust 1996-cı il)

***

Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir.

Türk dünyası yazıçılarının III qurultayında nitqindən
Azərbaycan Elmlər Akademiyası
Rəyasət Heyətinin İclas Salonu
(6 noyabr 1996-cı il)

***

Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqindən
Respublika sarayı
(8 noyabr 1996-cı il)

***

Dil birliyimiz, türkdilli ölkələr, türk dövlətləri qrupuna daxil olmağımız üzərimizə çox vəzifələr qoyur.

Azərbaycan Prezidenti adından Qırğızıstan Respublikasını Prezidenti Əsgər Akayevin şərəfinə verilmiş rəsmi ziyafətdə nitqindən
"Gülüstan " sarayı
(23 aprel 1997-ci il)

****

Mənim xatirimdədir, keçmiş zamanda ədəbiyyat tarixini öyrənərkən fəxr edirdik ki, vaxtilə Lermontov bir müddət Azərbaycanda olmuş, Quba zonasında yaşamışdır. O, öz dostuna yazmışdı ki, mən burada Azərbaycan dilini öyrənirəm. Avropada fransız dili kimi, Qafqazda da Azərbaycan dili çox məşhur və mötəbər bir dildir. Hətta Lermontovun belə bir yazısı da var. Biz bunu böyük iftixar hissi ilə qeyd edirdik ki, görün, Lermontov burada yaşayıb, dilimizə belə böyük hörmət edib və bizim dilimizi öyrənməyə çalışıb. Bunun özü tarixdə nadir bir hadisədir.

Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu və onların valideynləri ilə görüşdə giriş nitqindən
Prezident sarayı
(29 avqust 1997-ci il)

****

... Vaxt var idi ki, biz dilimizi bugünkü kimi işlədə bilmirdik. ...Yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi.

Ona görə ki, mən orada birinci növbədə Azərbaycan dilində danışmışdım. Dedim ki, əziz qardaşlar, axı burada elə bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir. Mən bunu anladım. Çünki dövlət adamları bu dildə danışmamışdılar. Bu dil məişət dili olmuşdu və bir də ədəbiyyatın dili olmuşdu. Amma dövlət dili olmamışdı. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Baxmayaraq ki, elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik. İndi bizim çox gözəl dilimiz var.

Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnməyən millət, millət ola bilməz.

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycanın dilini əbədi edib və bu gün ana dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun.

Xalqı xalq edən, milləti millət edən onun ana dilidir.

Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir.

Azərbaycan yazıçılarının X qurultayında nitqindən
Prezident sarayı
(30 oktyabr 1997-ci il)

***

Milli-mənəvi dəyərlərimiz bizim ana dilimizdir, Azərbaycan dilidir, bizim dinimizdir, bizim adət-ənənələrimizdir, bizim mənəvi-əxlaqi mentalitetimizdir. Bunların hamısı ilə biz fəxr edirik və fəxr etməliyik. Bizim bütün təbliğatımız, bütün elmi işlərimiz insanlarda bu milli-mənəvi dəyərlərə görə qürur hissi, iftixar hissi doğurmaq və bu milli-mənəvi dəyərlərə sədaqət aşılamaqdan ibarət olmalıdır.

Respublika sarayında Yeni Azərbaycan Partiyasının yaradılmasının
altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(21 noyabr 1998-ci il)

***

Müxtəlif dillərə mənsub olan insanlar Azərbaycan dilini sadəcə eşidərək, onun mənasını o qədər bilməyərək, Azərbaycan dilinin nə qədər şeirə bənzədiyini, xoş ahəngli olduğunu dəfələrlə qeyd ediblər. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik.

Azərbaycan dili! Bu gün iftixar hissi ilə deyə bilərik ki, Sovet hakimiyyəti illərində biz Azərbaycan dilini qoruduq, saxladıq və inkişaf etdirdik. Azərbaycan dili indi çox yüksək səviyyədə, yəni onun qrammatik quruluşu, başqa sahələri yüksək səviyyədə olan bir dildir.

Yeni dərs ilinin başlanması və Bilik günü münasibətilə Bakının Nərimanov rayonunda yerləşən 82 saylı pilot orta məktəbdə keçirilən təntənəli toplantıda nitqindən
(1 sentyabr 2000-ci il)

***

Biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dili son bir əsrlik dövr ərzində böyük inkişaf yolu keçərək lüğət tərkibini zənginləşdirmiş, qrammatik quruluşunu cilalamış və dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur.

Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən
(29 dekabr 2000-ci il)

***

Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir.

Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir.

Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir.

Milyonlarla azərbaycanlının hazırda mədəni inkişaf vasitəsi olan bu dil tarixən nəinki Qafqazda yayılmışdır, hətta müəyyən dövrlərdə daha geniş məkanda müxtəlif dilli xalqların da istifadə elədikləri ümumi bir dil olmuşdur.

Qədim və zəngin tarixə malik türk dil ailəsinin Oğuz qrupuna daxil olan Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi anlaşma vasitəsi olan bu dil IV -V əsrlərdən etibarən ümumxalq danışıq dili kimi fəaliyyət göstərməyə başlamışdır.

Dilimizin özəyini ta qədimlərdən Azərbaycan torpaqlarındakı türkəsilli boyların və soyların dili təşkil etmişdir.

Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə bilavasitə bağlıdır.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı

(18 iyun 2001-ci il)

***

1978-ci ildə biz Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük.

Azərbaycanın Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktının qəbul olunmasının 10-cu ildönümünə həsr olunmuş Zirvə tədbirində – təntənəli mərasimdə nitqindən
Respublika sarayı
(17 oktyabr 2001-ci il)

***

Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz ehtiyatına malikdir.

Dünya Azərbaycanlılarının I qurultayında nitqi
(10 noyabr 2001-ci il)

***

1978-ci ildə bizim Konstitusiyamızda Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili kimi həkk olundu. Ancaq demək olmaz ki, Konstitusiyada qəbul etdirəndən sonra biz həqiqətən bunu dövlət dili kimi işlədə bildik. Çünkü o vaxtlar bu, sadəcə, o dövlətin sisteminə görə mümkün deyildi. Amma eyni zamanda biz insanlarda milli şüur, milli əhval-ruhiyyə, öz dilimizə doğma münasibət, sevgi hissiyyatları yaratdıq.

Yeni Azərbaycan Partiyasının II qurultayında nitqindən
(22 noyabr 2001)

***

Bizim Azərbaycan dili şeir dilidir.

Dil, dil, bir də dil... Dili inkişaf etdirməliyik. Mən demişəm və bu gün də deyirəm. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan.

TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirləri Daimi Şurasının XIX toplantısının iştirakçılarını qəbulu zamanı çıxışından
(6 fevral 2003-cü il)

TƏHSİL VƏ ELM HAQQINDA

Müstəqil Azərbaycanın həm dövlətini, həm siyasətini, həm iqtisadiyyatını, həm də elm və mədəniyyətini yalnız həqiqi ali təhsil, həqiqi bilik almış adamlar inkişaf etdirib irəlilədə bilərlər.

Prezident Sarayında Respublikanın ali və orta ixtisas məktəblərinə qəbulla əlaqədar keçirilən müşavirədən
(2 avqust 1994-cü il)

***

Cəmiyyət haradan olur-olsun, nədən olur-olsun, kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir.

Təhsil işçilərinin bir qrupu ilə görüşdən
Prezident sarayı
(12 fevral 1995-ci il)

***

Nə qədər yeni ali təhsil ocaqları, özəl universitetlər yaransa da, Bakı Dövlət Universiteti Azərbaycan xalqının, millətinin ən yüksək səviyyədə duran ali təhsil ocağıdır.

Qırğızıstan Prezidenti Əsgər Akayevə M. Ə. Rəsulzadə adına BDU-nun fəxri doktoru diplomunun təqdim edilməsi mərasimində nitqindən
(23 aprel 1997-ci il)

***

İnsanlar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq elm yüksək qiymətləndirilib və elmi kəşf etmiş dahilər insan cəmiyyətinin inkişafına imkan yaratmışlar.

Cəmiyyətdə müxtəlif adamlar olur, amma elm adamları müstəsna adamlardır. Onlar insanlara əməksevərliklə, fədakarlıqla və bütün digər keyfiyyətlərlə yanaşı, cəmiyyətdə bu və ya digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdırlar. Əlbəttə, bu insanlar ən böyük hörmətə layiqdirlər.

Rusiya Elmlər Akademiyasının üzvləri ilə görüşdə nitqindən
(3 iyul 1997-ci il)

***

Dövlət müstəqilliyimizin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq öz təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq.

Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır.

Azərbaycanın ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanması münasibətilə Bakıdakı 18 nömrəli məktəbdə keçirilmiş mitinqdə nitqindən
(1 sentyabr 1997-ci il)

***

Özünü elmi axtarışlara, elmə həsr etmiş insanlar və bu gün ölkəmizin mürəkkəb dövründə bütün çətinliklərə sinə gərərək elmlə məşğul olan insanlar cəmiyyətimizdə hörmətə layiqdirlər.

Biz fəxr edirik ki, qədim zamanlarda, orta əsrlərdə Azərbaycanın dünya şöhrətli görkəmli alimləri olubdur. Onlar dünya elmini, bəşər mədəniyyətini zənginləşdiriblər və eyni zamanda Azərbaycan xalqını tanıdıblar, adını ucaldıblar.

Azərbaycan Prezidenti Heydər Əliyevin Bakıda akademik Yusif Məmmədəliyevin abidəsinin açılışı mərasimində nitqindən
(16 sentyabr 1998-ci il)

***

XX əsrdə sözün geniş mənasında ölkəmizdə Azərbaycan məktəbi yaranıbdır. Azərbaycan dilində, xalqımızın öz ana dilində uşaqlara, gənclərə təhsil verən və millətimizi təhsilləndirən məktəb yaranıbdır. Bu, ən böyük nailiyyətlərimizdən biridir. İqtisadiyyat da, həyatın başqa sahələri də bunun üzərindədir. Əgər bizim yüksək səviyyəli məktəbimiz olmasaydı, əgər bütün gənclər, uşaqlar icbari təhsilə cəlb edilməsəydi, əgər ilbəil yüksək səviyyəli müəllim, professor kadrları hazırlanmasaydı, əgər elmimiz inkişaf etməsəydi, biz indi nə bu iqtisadi potensiala, nə elmi potensiala, nə sosial potensiala, nə də təhsil potensialına malik ola bilməzdik. Ona görə də bunları unutmaq olmaz və onları qiymətləndirmək, onlarla fəxr etmək lazımdır.

Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Biz bu yolla gedirik.

Təhsil çox həssas sahədir. Burada cürbəcür kombinasiyalara, manipulyasiyalara yer ola bilməz.

İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır.

Biz keçmişlərdən fərqli olaraq, indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri,

tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər. Onlar gərək Azərbaycan dövlətinə, millətinə, Azərbaycanın gələcəyinə sadiq vətəndaşlar olsunlar. Bu da hamısı məktəblərdə, universitetlərdə formalaşmalıdır.

Respublikanin təhsil işçiləri və 1999-cu ildə ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə nitqinən
(31 avqust 1999-cu il)

***

Qazax Müəllimlər Seminariyasının xalqımızın mədəni həyatında oynadığı böyük rol danılmazdır. Onun təməli üzərində neçə-neçə təhsil ocaqları yaranıb inkişaf etmişdir. Bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir.

Qazax Müəllimlər Seminariyasının yaradılmasının 80 illik yubileyinə həsr olunmuş konfrans iştirakçılarına göndərdiyi təbrik məktubundan
(27 dekabr 1999-cu il)

***

Bakı Dövlət Universiteti öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş bir mərkəz rolunu oynamışdır.

Bakı Dövlət Universitetinin yaradılmasının 80 illiyi ilə əlaqədar ali məktəb kollektivinə göndərdiyi təbrik məktubundan
(28 dekabr 1999-cu il)

***

Məktəb illəri hər bir insanın gələcək həyatında ən məsuliyyətli, ən əhəmiyyətli, ən dəyərli illərdir. Ona görə də bizim övladlarımıza, balalarımıza, bu gün məktəbə qədəm qoyan uşaqlara, məktəblərdə oxuyan bütün gənclərə, imtahan verib ali məktəblərə daxil olan tələbələrə tövsiyə edirəm ki, bu illərdən, günlərdən səmərəli istifadə edin, onları itirməyin. Dünən nə isə itirdiniz, bu gün onun yerini doldura bilməyəcəksiniz.

Yeni dərs ilinin başlanması və Bilik günü münasibətilə Bakının Nərimanov rayonunda yerləşən 82 saylı pilot orta məktəbində keçirilən təntənəli toplantıda nitqindən
(1 sentyabr 2000-ci il)

***

Valideynlər gərək məktəblə həmişə sıx əlaqə saxlasınlar. Gəlsinlər, uşağın dediyi ilə yox, müəllimlə haradasa görüşməklə yox, məktəbdə uşağının necə oxumasını, məktəbdə olan şəraiti görsünlər. Beləliklə, onlar öz uşaqlarının yaxşı oxuması üçün yaxşı fəaliyyət göstərə bilərlər, eyni zamanda məktəblə əlaqə insanı daha da cavan saxlayır.

Bilik günü və yeni dərs ilinin başlanması münasibətilə Bakının Səbail rayonundakı Tofiq İsmayılov adına Riyaziyyat və informatika təmayüllü 6 saylı məktəb–liseydə keçirilən mərasimdə nitqindən
(1 sentyabr 2001-ci il)

***

Təhsil sahəsi müqəddəs sahədir. Çünki təhsil sahəsi uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis etmək üçün mövcuddur. Əgər özəl universitetlər, özəl məktəblər yaradan şəxslər başqa məqsəd daşıyırlarsa, yəni onlar bundan özləri üçün mənfəət götürmək məsələsinə üstünlük verirlərsə, bəzən də və çox hallarda təhsilin keyfiyyəti bizim dövlət universitetlərindən, dövlət məktəblərindən aşağıdırsa, bu, həm xalqa, həm uşaqlara, həm də millətimizə xəyanətdir. Buna qətiyyən yol vermək olmaz!

Bakının Nəsimi rayonu ərazisində paytaxtda ilk özəl ümumtəhsil məktəb kompleksinin istifadəyə verilməsi mərasimində nitqindən
(1 sentyabr 2001-ci il)

***

Məni narahat edən ümumi təhsil, yəni bizim gənclərin ilkin təhsili, orta məktəblərdəki vəziyyət, orta məktəbin verdiyi təhsil və bu məktəbləri qurtaran uşaqların bilik səviyyəsidir. Məni narahat edən budur. Bu, ümumiyyətlə, bizim xalqın bilik səviyyəsini göstərir. Çünki çox yüksək nəticələr əldə edən ayrı-ayrı insanlar, yaxud da ki, tələbələr, elmi işlə məşğul olanlar hələ xalqın, millətin ümumi bilik səviyyəsini göstərə bilməz. Onun göstəricisi ola bilməz. Bu göstərici orta məktəblərdədir.

Azərbaycanda 2002/2003-cü tədris ilində ali məktəblərə ən yüksək balla daxil olmuş tələbələrlə Prezident sarayında görüşdə nitqindən
(30 avqust 2002-ci il)

***

Müəllimlik şərəfli bir sənətdir. Azərbaycan müəllimləri bu yüksək adı ləyaqətlə daşıyırlar.

Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir.

Azərbaycan müəllimlərinin XII qurultayında nitqindən
(3 oktyabr 2003-cü il)

MƏDƏNİYYƏT, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT HAQQINDA

Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər də, ali məktəblər də inkişaf etməlidir. Ancaq bunlarda qayda-qanun olmalıdır. Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər. Biz isə bu sahəyə hər cür kömək edəcəyik və mədəniyyətimiz, elmimiz, təhsilimiz, o cümlədən ali təhsilimiz, sosial sahənin bütün istiqamətləri inkişaf edəcəkdir.

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından
(21 sentyabr 1993-cü il)

***

Biz mədəniyyətimizə, dinimizə, milli əxlaqımıza, bütün milli ənənələrimizə, tariximizə sadiqik.

Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışından
(17 noyabr 1993-cü il)

***

Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz.

Prezident sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə dövlət komissiyasının iclasından
(1 avqust 1994-cü il)

***

Azərbaycanda milli azadlıq hərəkatının yaranması, meydana çıxması, inkişaf etməsi tariximizin səhifələrinin təxribatdan, təhrifdən qorunması, əsrlərdən-əsrlərə xalqımızın böyük tarixə, böyük mədəniyyətə malik olması, böyük mənəviyyat sahibi olması - bunlar hamısı XX əsrdə alimlərimizin, müəllimlərimizin, ali təhsil ocaqlarında çalışanların fəaliyyəti nəticəsində olmuşdur.

Yeni-yeni təhsil ocaqlarının, ali məktəblərin, universitetlərin yaranması indi müstəqil Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olmasının əsasını qoymuşdur.

Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən
Respublika Sarayı
(26 noyabr 1994-cü il)

***

Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır.....

Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz.

Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

Prezident sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə dövlət komissiyasının iclasından (1 avqust 1994-cü il)

***

Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax, bu, xalqın ən böyük faciəsidir.

Azərbaycan rəssamlıq məktəbi çox yüksək səviyyəyə malikdir. Mədəniyyətimizin nailiyyətlərindən biri də XX əsrdə Azərbaycanda böyük rəssamlıq məktəbinin yaranması, çox görkəmli rəssamlarımızın, heykəltəraşlarımızın, memarlarımızın yetişməsi və onların yaratdığı əsərlərdir.

"Qanlı Yanvar" rəssamlıq sərgisinin açılışında çıxışından Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi (18 yanvar 1995-ci il)

***

Azərbaycanın klassik, professional musiqisi, bəstəkarlarımızın yaratdığı bu əsərlər Şərq aləmində demək olar ki, ilk professional, klassik musiqi nümunələridir və burada Azərbaycan birinci yerdədir.

Görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun müəllif gecəsində çıxışından Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi (5 fevral 1995-ci il)

***

XX əsrdə mədəniyyətimiz yeni bir inkişaf mərhələsi keçibdir. Xüsusən, incəsənətimizin böyük bir sahəsi olan musiqidə professional musiqi yaranıbdır. Bu sahədə də, dünya miqyasında yüksək zirvələrə çatmış professional musiqi nümunələrindən istifadə edən, eyni zamanda, fitri istedada malik olan şəxsiyyətlərimiz tərəfindən böyük bir məktəb yaradılmışdır.

Dünya miqyasında yüksək zirvələrə çatmış professional musiqi nümunələrindən istifadə edən, eyni zamanda, fitri istedada malik olan şəxsiyyətlərimiz tərəfindən böyük bir məktəb yaradılmışdır.

Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.

Bizim musiqimiz - xüsusi musiqi, folklor musiqisi çox rəngarəngdir, çox zəngindir.

Bizim böyük və dahi şairlərimiz, yazıçılarımız, mütəfəkkir adamlarımız, dünya mədəniyyətini zənginləşdirmiş insanlar xalqımızın öz kökü, öz geni ilə böyük mədəniyyətə malik olduğunu sübut edir.

Beynəlxalq Müsabiqələr laureatları və diplomantları ilə görüşdə çıxışından
Üzeyir Hacıbəyov adına Musiqi Akademiyası
(8 aprel 1995-ci il)

***

Biz öz hərəkətlərimizlə, öz münasibətimizlə, öz tədbirlərimizlə gərək ziyalının cəmiyyətdə rolunu qaldıraq. Bu adamları təhqir etmək, onlara hörmət etməmək son illərdə cəmiyyətimizdə olan əcaiblikdir. Biz bunlara son qoymalıyıq.

İnsanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikrinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur.

Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir....

İnsanların ürəyinə, qəlbinə təsir edə bilən ədəbiyyatımız olubdur, şeirimiz olubdur və həmin şeirlər, həmin sözlər doğrudan da, xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində, bizdə milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil, yəni, bir sənəd, bir kitab, bir proqram yoxdur. Amma bu olmalıdır və biz bunun üzərində işləyirik.

Xalq Şairi Məmməd Arazın "Azərbaycan – dünyam mənim" yaradıcılıq
gecəsindən sonra ziyalılarla görüşdə çıxışından
M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası
(16 aprel 1995-ci il)

***

Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər.

Görkəmli Azərbaycan yazıçısı və kinodramaturqu
Maqsud İbrahimbəyovun 60 illik yubileyi gecəsində çıxışındaqn

"Gülüstan" sarayı
(14 may 1995-ci il)

***

Azərbaycanın mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır.

Respublika Günü münasibətilə keçirilən təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(27 may 1995-ci il)

***

Kitabxana - millət, xalq, cəmiyyət üçün müqəddəs bir yer, mədəniyyət, bilik, zəka mənbəyidir.

"Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabının təqdimat-sərgisində çıxışından
M. F. Axundov adına Azərbaycan Dövlət Kitabxanası
(3 iyun 1995-ci il)

***

Teatr və incəsənət sahəsində çalışanlar çox fədakar insanlardır. Səhnədə onlara baxdıqda çox vaxt hər biri qayğısız, xoşbəxt insan kimi görünür, həmişə şəndirlər. Ancaq onların həyatının səhnə arxasında necə olmasını çoxları bilmir, heç təsəvvürlərinə də gətirmir. Mən bunları bilirəm. Ona görə də incəsənət adamlarını cəmiyyətimizdə çox yüksəkdə tuturam.

Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır.

Mədəniyyətimizin xalqa verdiyi töhfələr, göstərdiyi xidmətlər bəlkə o qədər də gözə çarpmır, ancaq onun qiyməti çox böyükdür. Ona görə də mən sizin hər birinizin xidmətini bir vətəndaş kimi, tamaşaçı, eyni zamanda prezident kimi yüksək qiymətləndirirəm...

Xalqı həmişə mədəniyyət birləşdirir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.

Azərbaycanın xalq artisti Amalya Pənahovanın 50 illik yubileyi gecəsində çıxışından
Respublika Sarayı
(8 iyul 1995-ci il)

***

Ədəbiyyat və incəsənət, memarlıq, fəlsəfə və dəqiq elmlər sahəsində xalqımızın yetirməsi olan korifeylərimizin dahi əsərləri bütün bəşəriyyətin tərəqqisinə, onun mənəvi həyatına və maddi mədəniyyətinə böyük təkan vermişdir.

Türkdilli dövlətlər başçılarının 3-cü zirvə toplantısında çıxışından
Bişkek,

(28 avqust 1995-ci il)

***

Azərbaycan tarixi mədəniyyət, elm, ədəbiyyat, memarlıq sahəsində çox zəngindir. Bizim çox əsrlik ədəbiyyatımız var - Nizami, Xaqani, Füzuli, Nəsimi, Vaqif və bunlardan sonra gələn dahilər. Bizim qədim memarlıq abidələrimiz var. Bizim qədim rəssamlıq sənəti nümunələrimiz var. Azərbaycan xalqı dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr vermişdir.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun anadan olmasının 110 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində nitqindən
Respublika sarayı
(18 sentyabr 1995-ci il)

***

Azərbaycanda türkologiya da çox inkişaf edibdir. Keçmiş Sovetlər İttifaqının ərazisində türkologiyaya, demək olar ki, Azərbaycan qədər fikir verən olmayıbdır. Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə «Türkologiya» jurnalı Azərbaycanda nəşr edilirdi.

Azərbaycan Respublikasının Yeni Konstitusiya layihəsində dövlət dili haqqında maddənin geniş müzakirəsində nitqindən
Respublika Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonu
(31 oktyabr 1995-ci il)

***

Biz müstəqil dövlət kimi dünyada artıq öz yerimizi tutmuşuq. Ona görə, hansı qərar qəbul eləyəcəyiksə, gərək bu, milli mənliyimizə, milli qürurumuza toxunmasın. Bunu da bilmək lazımdır. Bunu da unutmaq olmaz. Nizaminin sözləri də bizim üçün əzizdir, Füzulinin sözləri də bizim üçün əzizdir, Cəlil Məmmədquluzadənin, Mirzə Fətəli Axundovun sözləri də, Sabirin sözləri də bizim üçün əzizdir, – hamısı bizim üçün əzizdir.

Azərbaycan Respublikasının Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasından
Prezident sarayı,
(2 noyabr 1995-ci il)

***

Hər şey dəyişsə də, kino hər insan üçün çox mühüm incəsənət növü, mənəvi həyatın mühüm sahəsi olaraq qalır.

MDB və Baltiya ölkələrinin "Filmfest-96" festivallar festivalının açılış mərasimindən sonra festival iştirakçıları ilə görüşdə çıxışından
Respublika Sarayı
(23 oktyabr 1996-cı il)

***

Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır

Türk dünyası yazıçılarının III qurultayında nitqindən
Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin İclas Salonu
(6 noyabr 1996-cı il)

***

Televiziya işçilərinə qarşı çox böyük tələblər də var. Onlar gərək ekranda hər bir vətəndaş üçün nümunə olsunlar - həm özlərinin danışığı ilə, həm görünməsi ilə, həm ekranda özlərini aparmaları ilə.

Biz müstəqil ölkəmizdə öz elmimizi, mədəniyyətimizi, nailiyyətlərimizi və tarixi keçmişimizi daha geniş təbliğ etməliyik. Azərbaycan televiziyası bu prosesin önündə getməlidir.

Azərbaycan Milli Televiziyasının 40 illiyi münasibətilə təntənəli yubiley gecəsində çıxışından
Respublika Sarayı
(17 fevral 1996-cı il)

***

Azərbaycan xalqının içindən respublikamızın mədəniyyətini, elmini inkişaf etdirən görkəmli simalar çıxmış, yaşamış və yaratmışlar.

Milli Bayram – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika Sarayı
(26 may 1996-cı il)

***

Keçmişə nəzər salsaq, «Leyli və Məcnun» mövzusu Şərq aləminə məxsus olan mövzudur. Ancaq bu mövzu Azərbaycanın dahi şəxsiyyətlərinin yaradıcılığı nəticəsində əsərlərdə öz əksini tapıb. Nizami də, Füzuli də «Leyli Məcnun» yazıb. Bəşər tarixində, Şərq aləminin tarixində, İslam aləminin tarixində «Leyli Məcnun» mövzusunda məhz Məhəmməd Füzulinin poeması əsasında dahi bəstəkar Üzeyir Hacıbəyov tərəfindən opera yazılıbdır. Biz bəzən bunu tariximizdə adi bir hadisə hesab edirik. Ancaq bu, adi hadisə deyildir. Birincisi, ona görə ki, ümumiyyətlə, Şərq aləmində Üzeyir Hacıbəyovdan əvvəl opera yazan olmayıb. Bu operanı yaradan Üzeyir Hacıbəyovdur...

Əsas və mühüm məsələ Füzulinin yaradıcılığı və onun qoyub getdiyi irsdir. Onun necə yaşaması, həyatının necə keçməsi o qədər də vacib deyildir. Vacib olan budur ki, o, necə bir irs qoyub və 500 ildən sonra biz bu irsdən nə qədər bəhrələnir və faydalanırıq...

Qara Qarayevin «Leyli və Məcnun» simfonik əsəri çox dəyərli bir əsərdir. Mən onu dəfələrlə dinləmişəm. Yadımdadır, biz Qara Qarayevin 60 illik yubileyini qeyd edəndə həm Moskvada, həm də Bakıda məhz bu əsəri ifa etdilər. Ancaq bu mövzuda balet yazmaq lazımdır. Arif Məlikov «Məhəbbət əfsanəsi» adlı çox gözəl bir

əsər yaradıb. Bu əsər dünyanın ən böyük teatrlarında tamaşaya qoyulub və bu gün də qoyulur. Ancaq gərək bir başqa bəstəkarlarımız da «Leyli və Məcnun» baleti yaradaydı. Bunu Arif Məlikovun özü də edə bilərdi. Çünki onun yaratdığı birinci balet çox uğurlar qazanıb, bir çox teatrlarda bu gün də uğurla gedir....

Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir - bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə dövlət komissiyasının növbəti iclasında çıxışından
Prezident Sarayı
(23 iyul 1996-cı il)

***

Hər şey dəyişsə də, kino hər insan üçün çox mühüm incəsənət növü, mənəvi həyatın mühüm sahəsi olaraq qalır.

MDB və Baltiya ölkələrinin "Filmfest-96" festivallar festivalının açılış mərasimindən sonra festival iştirakçıları ilə görüşdə çıxışından
Respublika Sarayı
(23 oktyabr 1996-cı il)

***

1939-cu ildən indiyə qədər yazılan kitabların hamısı kiril əlifbası ilə buraxılıb. Bu illərdə bizim ədəbiyyatımızda, mədəniyyətimizdə, tariximizdə, elmimizdə çox böyük nailiyyətlər, ixtiralar əldə olunmuşdur. Bunların hamısı öz əksini kitablarda tapıbdır. Bizim kitabxanalar belə kitablarla doludur. Şübhəsiz ki, bunlardan bu gün də, on illər sonralar da istifadə etməli olacaqlar....

Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır...

Biz yeni əlifbaya-latın əlifbasına keçmişik. Mən hiss edirəm ki, latın əlifbasının tətbiqi çox ləng gedir. Hesab edirəm ki, bu işləri də sürətləndirmək lazımdır. Yaşlı nəsil kiril əlifbası ilə oxuduğuna görə latın əlifbasını oxumaqda çətinlik çəkir. Bildirmək istəyirəm ki, burada heç bir çətin iş yoxdur. Latın əlifbası ilə kiril əlifbası arasında fərq o qədər də böyük deyildir. Sadəcə, mən yaşlı nəslə müraciət edib deyirəm ki, bir balaca özünüzü əziyyətə salın və tezliklə bu kiril əlifbasından xilas olun.

Azərbaycanın ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanması münasibətilə Bakıdakı 18 nömrəli məktəbdə keçirilmiş mitinqdə nitqindən
(1 sentyabr 1997-ci il)

***

...1969-cu ildən tale mənim üzərimə böyük bir vəzifə, böyük bir məsuliyyət qoymuşdur. Mən o məsuliyyəti dərk edərək, o vəzifəni layiqincə həyata keçirməyə çalışaraq həmişə hesab etmişəm, indi də hesab edirəm ki, ədəbiyyata, mədəniyyətə diqqət yetirmək lazımdır, ədəbiyyatdan, mədəniyyətdən həyatın başqa sahələrində işin müvəffəqiyyətlə həyata keçirilməsi üçün istifadə etmək lazımdır.

Azərbaycanda dissident olmayıbdır. Amma sizin çoxlarınız yaxşı mənada dissident olmusunuz. Yaxşı ki, dissident olmusunuz. Əgər dissident olmasaydınız, Azərbaycan xalqında bu milli ruhu, əhval-ruhiyyəni qaldıra bilməzdiniz. ...Əgər o vaxtlar milli ruhlu yazarlarımız təqib olunmayıbsa, onları nədənsə məhrum etməyiblərsə, demək, bu da bizim nailiyyətimizdir, bu, bizim o vaxtlar, çətin dövrdə apardığımız düzgün siyasətin nəticəsidir.

Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir.

Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir.

Azərbaycan yazıçılarının X qurultayında nitqindən
Prezident sarayı
(30 oktyabr 1997-ci il)

***

Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə öyünməyə haqqı var.

Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Onun əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır.

Dünya azərbaycanlılarına müraciətindən
(25 dekabr 1997-ci il)

***

Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir.

Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir.

Azərbaycan yazıçılarının X qurultayında nitqindən
Prezident sarayı
(30 oktyabr 1997-ci il)

***

Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Onun əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır.

Dünya azərbaycanlılarına
(25 dekabr 1997-ci il)

***

Şirvanşahlar sarayı Azərbaycan xalqının iftixar etdiyi tarixi memarlıq abidəsidir. Bu, həm bizim memarlığımızın ən yüksək səviyyədə olduğunu göstərir, həm də dövlətçiliyimizin tarixini əks etdirən bir abidədir, kompleksdir və şübhəsiz ki, dünyada da məşhurdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Novruz bayramı münasibətilə İçərişəhərdə və Şirvanşahlar Sarayı muzeyinin həyətində ziyalılar, ədəbiyyat və incəsənət xadimləri, musiqiçilər ilə görüşdən
(21 mart 1998-ci il)

***

Fəxr edirik ki, bizim böyük bəstəkarlarımız, musiqiçilərimiz, müğənnilərimiz, mədəniyyət xadimlərimiz var. Məhz onların yaradıcılığı əsrlər boyu Azərbaycan xalqını ruhlandırmış və onu yeni nailiyyətlər, yeni hünərlər səviyyəsinə qaldırmışdır.

"Utrennyaya Zvezda" ("Dan Ulduzu") "Baki-98" musiqi bayramında çıxışından Respublika sarayı
(22 sentyabr 1998-ci il)

***

"Koroğlu" operası əzəmətli bir əsərdir və bizim opera sənətində ən yüksək zirvədə duran bir əsərdir.

Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasının yeni quruluşda ilk tamaşasına baxdıqdan sonra yaradıcı kollektivin üzvləri ilə görüşdə söhbətdən
(4 dekabr 1998-ci il)

***

Bizim dahi şairlərimiz, söz ustalarımız həmişə xalqımıza mənəvi qida veriblər, xalqımızı ruhlandırıblar, xalqımızı həvəsləndiriblər, xalqımızı döyüşə həvəsləndiriblər, xalqımızı zəhmətə həvəsləndiriblər, xalqımızı vətəni sevməyə həvəsləndiriblər, şair sözü çox təsirli olur. Şeirlə deyilən sözün təsiri bütün başqa sözlərin hamısından təsirli olur. Ona görə də şair Azərbaycanda həmişə sevilib, şair həmişə hörmətli olubdur. Bu gün də sevilir, bu gün də hörmətlidir.

Respublika sarayında keçirilən şair Zəlimxan Yaqubun yaradıcılığına həsr olunmuş poeziya məclisi başa çatdıqdan sonra Azərbaycanın incəsənət ustaları ilə görüşdə söhbətindən
(19 dekabr 1998-ci il)

***

Xalqımızın mədəniyyətini, dilini, milli adət-ənənələrini yaşatmaq, inkişaf etdirmək və bütün dünyada təbliğ etmək hər birimizin üzərinə düşən çox məsuliyyətli bir yükdür.....

Hal-hazırda qarşımızda duran ən vacib və taleyüklü vəzifələrdən biri əl-ələ verərək dünya azərbaycanlılarının hər hansı bir ölkədə və mühitdə yaşamaq, fəaliyyət göstərmək, özünün milli-mənəvi dəyərlərini qorumaq, inkişaf etdirmək, beynəlxalq aləmdə mədəni, istedadlı, qədim tarixə və demokratik dövlətə malik olan xalq kimi təmsil olunmaq hüququnu təmin etməkdir.

Dünya azərbaycanlilarina
(24 dekabr 1998-ci il)

***

"Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsidir.

"Kitabi-Dədə Qorqud" dastanının fövqələdə əhəmiyyəti ondan ibarətdir ki, o, bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Bunlar bizim hamımız üçün, xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətlidir.

"Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqına, bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır.

Prezident sarayında keçirilən "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının iclasında yekun nitqindən
(16 fevral 1999-cu il)

***

"Dədə Qorqud" dastanı bu gün türk xalqlarını yaxınlaşdırır, birləşdirir, buna bizim ehtiyacımız vardır və bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, biz artıq böyük türk dünyası, türk xalqları, türkdilli xalqların ümumi kökləri, müştərək mədəniyyəti, tarixi haqqında danışırıq.

«Kitabi-Dədə Qorqud» dastaninin 1300 illik yubileyi üzrə dövlət komissiyasının növbəti iclasında nitqindən
Prezident sarayı
(8 aprel 1999-cu il)

***

Ədəbiyyatımızı bilmək lazımdır. Ədəbiyyatını bilməyən adam dilini yaxşı bilməyəcəkdir. Ədəbiyyatı bilməyən adam yüksək mədəni səviyyəyə çata bilməyəcəkdir.

Respublikanın təhsil işçiləri və 1999-cu ildə ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə nitqindən
(31 avqust 1999-cu il)

***

Teatrı heç nə əvəz edə bilməz. Heç nə. Ona görə ki, teatrda insan canlı adamlarla - bu və ya digər vəziyyəti səhnədə canlandıran aktyorlarla bilavasitə ünsiyyətdə olur. Bunu kinematoqraf haqqında da demək olar. İncəsənətin yeni nə kimi növləri meydana gəlsə də, kinematoqraf öz əhəmiyyətini itirməyəcəkdir. Odur ki, bədii kino, bədii əsərlər televiziya ilə, digər üsullarla yaradılan, qalan bütün lentlərdən, şübhəsiz, qat-qat yüksəkdir. Sənədli kino xüsusi əhəmiyyətə malikdir.

Gürcüstan Kinematoqrafçılar İttifaqının katibi, kinooperator Lomer Axvlediani ilə Prezident saraynda görüşdə söhbətindən
(27 sentyabr 1999-cu il)

***

İnsanlar bu mədəniyyəti - demokratiya mədəniyyətini, iqtidar mədəniyyətini mənimsəməlidirlər. Bunun üçün zaman və bir də istək lazımdır.

Azərbaycan Respublikasinin Prezidenti Heydər Əliyevin ABŞ Ticarət Nazirliyinin yeni müstəqil dövlətlər üzrə müsaviri, enerji məsələləri üzrə səlahiyyətli şəxs Yan Kalitskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən söhbətindən
Prezident sarayı
(3 mart 2000-ci il)

***

“Kitabi-Dədə Qorqud” dastanı Azərbaycan xalqının ən qədim mədəniyyət, ədəbiyyat, mənəviyyat abidəsidir. Ona görə də, demək, bu, bizim ana kitabımızdır. Bu kitabın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir.

“***Kitabi–Dədə Qorqud***” ***dastanının 1300 illik yubileyi üzrə Prezident sarayında keçirilən dövlət komissiyasının iclasında nitqindən***
(11 mart 2000-ci il)

***

“Kitabi-Dədə Qorqud” bizim ana kitabımızdır. Dədə Qorqud bizim ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, “Kitabi-Dədə Qorqud” kimi tarixi abidəmiz vardır, fəxr edirik ki, “Kitabi-Dədə Qorqud” kimi ulu əcdadımız vardır.

Respublika sarayında “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitqindən
(9 aprel 2000-ci il)

***

Biz fəxr edirik ki, “Kitabi-Dədə Qorqud” kimi böyük abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Biz fəxr edirik ki, Dədə Qorqud elində yaşayırıq.

Fəxr edirik ki, biz "Kitabi-Dədə Qorqud"un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələrlə verəcəyik.

"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə həsr olunmuş Gülüstan sarayında keçirilən rəsmi qəbulda nitqindən
(9 aprel 2000-ci il)

***

"Kitabi-Dədə Qorqud" hamımızındır, bütün türkdilli dövlətlərin, türkdilli millətlərin milli və əvəzedilməz bir sərvətidir.

"Dialoq Avrasiya" dərgisinin təqdimat mərasimində nitqindən
(13 iyun 2000-ci il)

***

Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur....

Biz nadir bir irsin varisləriyik, hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır....

Bizim təhsilimiz də, mədəniyyətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir.

Yeni Əsr və Üçüncü Minillik münasibətilə azərbaycan xalqına müraciətindən
(29 dekabr 2000-ci il)

***

Mədəniyyət, incəsənət, ədəbiyyat elədir ki, dayana bilməz, gərək həmişə inkişaf etsin. Ona görə də biz Azərbaycanda başqa sıxıntılarımıza, problemlərimizə baxmayaraq, mədəniyyətə, incəsənətə, ədəbiyyata - bütün bu sahələrə xüsusi diqqət göstəririk.

TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələri ilə Prezident sarayında görüşdə söhbətindən
(16 yanvar 2001-ci il)

***

Dünyanın ən qədim şeirlərinin yarandığı bir məkan varsa, o da Azərbaycandır.

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əbdülrəhim Qəvahi ilə görüşdə söhbətindən
(17 fevral 2001-ci il)

***

Azərbaycan mədəniyyətinin yüksəlməsi və Azərbaycanın da Avropanın ən qabaqcıl ölkələrinin yüksək dünyəvi mədəniyyəti səviyyəsinə çatması bizim XX əsrdə əldə etdiyimiz nailiyyətdir.

28 May Respublika Gününə həsr olunmuş təntənəli mərasimdə çixişindan
(26 may 2001-ci il)

***

Mədəniyyət, musiqi xalqımızın ən dəyərli sərvətlərindən biridir. Mədəniyyət hər bir xalqı dünyada daha da çox tanıdan, onu təbliğ edən vasitələrdən biridir. Biz isə xoşbəxtik ki, xalqımızın belə zəngin mədəniyyəti, musiqisi, incəsənəti var və bunlar həm xalqımızın özünə mənəvi qida verir, həm də onu dünya xalqları içərisində fərqləndirir, tanıdır, başını ucaldır.

Dünya şöhrətli dirijor və görkəmli bəstəkar Niyazinin anadan olmasının 90 illiyinə həsr olunmuş Respublika sarayında keçirilən yubiley gecəsində nitqindən
(6 dekabr 2002-ci il)

***

Opera sənəti, klassik musiqi həm xüsusi istedad tələb edir, həm xüsusi səs tələb edir, həm də o səsin hazırlanmasını tələb edir.

Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri Fidan və Xuraman Qasımovaların yaradıcılığının 25 illiyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(20 dekabr 2002-ci il)

BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN HAQQINDA

Dünya təcrübəsi, tarix əsrlər boyu göstərmişdir ki, mənəvi və fiziki sağlamlıq xalqın ümumi sağlamlığı, ümumi saflığı, millətin bu günü və gələcəyidir.

Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışından
(22 sentyabr 1993-cü il)

***

Bədən tərbiyəsi ilə geniş məşğul olan xalq, ölkə həmişə fiziki və mənəvi cəhətdən sağlam olur. Xalqımızın sağlamlığını təkcə səhiyyə və adət-ənənələrimiz vasitəsilə yox, eyni zamanda bədən tərbiyəsi ilə qoruyub saxlamalıyıq, möhkəmləndirməliyik və gələcək nəsillərə çatdırmalıyıq.

İdman, bədən tərbiyəsi hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir.

Azərbaycan milli yığma komandalarının 26-cı Yay Olimpiya oyunlarına (atlanta şəhəri, 1996) hazırlığını nümayiş etdirmək məqsədilə keçirilmiş idman baxışında çıxışından
Bakı Əl Oyunları Sarayı
(5 mart 1995-ci il)

***

Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir.

XXVI Yay Olimpiadasında (Atlanta, ABŞ) iştirak edəcək
Azərbaycan idmançıları ilə görüşdə çıxışından
Zuğulba, "Gənclik" beynəlxalq kompleksi
(29 iyun 1996-cı il)

***

İnsanların fiziki, mənəvi sağlamlığı, şüurunun inkişaf etməsi idmanla, bədən tərbiyəsi ilə sıx bağlıdır.

Əsrlərdən-əsrlərə Azərbaycan pəhləvanları xalqımızda nə qədər fiziki güc, qüdrət, iradə olduğunu sübut etmişlər.

İdman eyni zamanda insanlarda vətənpərvərlik hissini yüksəldən amillərdən biridir, xalqımızın döyüş qabiliyyətini artıran amillərdən biridir.

"Neftçi" idman-sağlamlıq mərkəzinin 60 illiyi və mərkəzin
olimpiya qurğusunun açılışı mərasimində çıxışından
(25 yanvar 1997-ci il)

***

Bədən tərbiyəsi hər bir gəncin həyatının ayrılmaz hissəsi olmalıdır. Səmərəli işləmək, xalqa, ölkəyə xidmət etmək üçün Azərbaycanda hər bir gənc gərək sağlam olsun.

Azərbaycan Gəncləri gününün ilk ildönümü münasibətilə keçirilən bədii-idman bayramında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən (2 fevral 1998-ci il)

***

İdman, bədən tərbiyəsi hər bir insan üçün zəruri olan bir fəaliyyətdir. İdman cəmiyyətdə sağlamlığı təmin edən və cəmiyyətin inkişaf etməsi üçün çox vacib olan bir amildir. Ona görə də idmanın, bədən tərbiyəsinin inkişafı üçün görülən işlər və gələcəkdə görəcəyimiz işlər bizim dövlət, hökumət siyasətimizin əsas istiqamətlərindən birini təşkil edir.

Bakıda "Dinamo" İdman-Sağlamlıq Mərkəzinin - İdman Kompleksinin açılış mərasimində nitqindən (30 dekabr 1998-ci il)

***

İdman, bədən tərbiyəsi millətin, xalqın fiziki sağlamlığıdır.

Avstraliyanın Sidney şəhərində keçiriləcək XXVII Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan idmançılarının yolasalma mərasimində nitqindən (25 avqust 2000-ci il)

***

Ən qədim zamanlardan idman bəşəriyyətin sevdiyi və çox hörmət etdiyi bir sahədir. İdman, bədən tərbiyəsi çox böyük məna daşıyır. Təsadüfi deyildir ki, hələ çox qədim zamanlarda idman icad olunub, ona qayğı göstərilibdir. Bütün bunların nəticəsində dünyada birinci Olimpiya oyunları mövcud olubdur. Ona görə də idman, bədən tərbiyəsi Azərbaycan gənclərinin hamısı üçün lazımdır. Bu, bizim millətimizin fiziki sağlamlığı, müstəqil Azərbaycanın gələcəyi üçün lazımdır.

Avstraliyanın Sidney şəhərində keçirilmiş XXVII Yay Olimpiya Oyunlarında iştirak etmiş idmançılarımızla Prezident sarayında görüşdə yekun nitqindən (18 oktyabr 2000-ci il)

***

İnsana sağlam həyat tərzi, mübarizlik, vətənpərvərlik ruhu aşılamaq, onun intellektual və fiziki imkanlarını üzə çıxarıb inkişaf etdirmək baxımından idmanın və bədən tərbiyəsinin rolu danılmazdır.

Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən (29 dekabr 2000-ci il)

***

İnsanlar, xalq, millət fiziki cəhətdən nə qədər sağlam olsa, bizim ölkəmiz bir o qədər sağlam olacaq, inkişaf edəcək və gələcəyə böyük-böyük uğurlarla gedəcəkdir.

Biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik, bu, Azərbaycan vətəndaşının hərtərəfli gələcəyi üçün təməldir.

Milli Olimpiya Komitəsinin yeni inzibati binasının istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə nitqindən
(27 mart 2001-ci il)

***

İdman hər bir sivilizasiyalı ölkədə vətəndaşların həyat tərzinin mühüm bir hissəsi hesab olunur. Əhalinin fiziki sağlamlığının qorunub saxlanmasında və möhkəmləndirilməsində, xüsusilə yeni nəslin daha sağlam və güclü olmasında bədən tərbiyəsi və idmanın müstəsna rolu vardır.

Yeniyetmələr arasında boks üzrə Birinci Dünya Çempionatının iştirakçılarına müraciətindən
(12 oktyabr 2001-ci il)

***

Biz idmanın, bədən tərbiyəsinin kütləviliyini təmin etməliyik. Bu, bizim hamımızın vəzifəsidir. Bu, bütün hakimiyyət orqanlarının vəzifəsidir. Amma təkcə onların da yox, cəmiyyətin vəzifəsidir. Vətənini sevən hər bir vətəndaşın vəzifəsidir.

Bakının Maştağa qəsəbəsində Müasir Olimpiya İdman Mərkəzinin təntənəli açılış mərasimində nitqindən
(29 dekabr 2001-ci il)

***

İdman birinci növbədə gənc nəslin fiziki və zehni cəhətdən sağlam böyüməsində, tərbiyə olunmasında, inkişaf etməsində xüsusi yer tutur, xüsusi rol oynayır. İdman millətimizin səhhətində, sağlamlığında xüsusi yer tutur.

İdman mədəniyyətdir. İdman hər bir xalqın mədəniyyətinin hansı səviyyədə olduğunu göstərir. Bizim idmanımızın səviyyəsi qalxdıqca, onunla bərabər Azərbaycan xalqının, Azərbaycanın mədəniyyəti də yüksəlir.

İdman belə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur.

Avropa "Top-komanda" kuboku uğrunda yarışların qalibi olan "Azərreyl" qadın voleybol klubunun üzvləri ilə Prezident sarayında görüşdə nitqindən
(14 mart 2002-ci il)

***

İdman da gənclərə incəsənət, mədəniyyət qədər, mahnı kimi, musiqi, rəqs kimi, bəlkə onlardan da artıq lazımdır. Gənclər idmansız biz istəyən səviyyədə böyüyüb ərsəyə gələ bilməzlər. İdman hər bir insanın sağlamlığıdır. Ona görə də biz idmana çox böyük yol açmışıq.

Uşaqların beynəlxalq televiziya və radio günü münasibətilə keçirilən şənlikdə nitqindən
(8 dekabr 2002-ci il)

EKOLOGİYA HAQQINDA

Çox böyük zəhmət bahasına Bakıda yaşıllıqlar yaradılmışdır. Əgər zərurət üzündən kim isə bir ağacı kəsirsə, əvəzində gərək onunu əksin.

Suraxanı Neft Yatağının sənaye üsulu ilə istismarına başlanmasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxışından (26 avqust 1994-cü il)

***

Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsildiyini görərkən elə bildim ki, mənim bədənimin bir hissəsini kəsiblər, elə bildim məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm - kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.

Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o öz ailəsinə, özü-özünə xəyanət edir.

Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir.

Bakının Nizami rayonunda – 8-ci kilometr qəsəbəsinin Cəmşid Naxçıvanski küçəsində Heydər Əliyev parkının açılışı mərasimində nitqi (10 may 1997-ci il)

***

Xəzər dənizində neft-qaz hasilatı ilə əlaqədar görülən işlərdə şübhəsiz ki, Xəzər dənizinin ekologiyası hər şeydən üstün tutulmalıdır. Xəzər dənizinin təbii sərvətlərinin qorunması, saxlanması, Xəzərin təmizliyinin qorunması və dənizdə olan bioloji ehtiyatların qorunub saxlanması və hətta onların inkişaf etdirilməsi üçün lazımi tədbirlərin görülməsi də Xəzəryanı ölkələrin və bu işə cəlb olunan bütün şirkətlərin ən ümdə borcu, vəzifəsi olmalıdır.

"Xəzərneftqaz-97" dördüncü beynəlxalq sərgisinin və konfransının açılışı mərasimində nitqindən Bakı İdman-Konsert Kompleksi (3 iyun 1997-ci il)

***

MƏNƏVİ DƏYƏRLƏR HAQQINDA

Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlığı hər bir kəs özü seçir.

"Mən xalqa minnətdaram". "Rossiyski fermer" qəzetinin müxbiri ilə söhbətindən
(3 avqust 1993-cü il)

***

Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər.

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından
(21 sentyabr 1993-cü il)

***

Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına islam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda islam dini vasitəsilə nəsildən-nəslə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır.

Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqindən
Bakı, "Respublika" Sarayı
(10 oktyabr 1993-cü il)

***

Kim bizim əxlaqımıza, mənəviyyatımıza, milli ənənələrimizə zidd olan yollarla gedəcəksə, o cür həyat tərzi ilə yaşayacaqsa, onların Azərbaycanda yaşamaq hüququ yoxdur.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı milli televiziya və radio ilə xalqa müraciətindən
(2 noyabr 1993-cü il)

***

Biz bütün qüvvələrimizi toplasaq, ziyalılardan, din xadimlərindən, alimlərdən, hörmətli adamlardan istifadə etsək, onlar bu işi mütəşəkkil apara bilsələr, hərbi hissələrdə lazımi iş görərək tərbiyə, əxlaq, mənəviyyat məsələlərini döyüşçülərə aşılaya bilsələr, bu, bizim həm siyasi, həm də ideoloji işimiz olacaqdır. Lakin bu işlər nəzəri şəkildə deyil, mütəşəkkil aparılmalıdır.

Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışından
(17 noyabr 1993-cü il)

***

Bəşəriyyət üçün sülhə, barışığa nail olmağın yolu Tanrı nuruna tapınmaqdan, mənəvi, ruhani kamillikdən keçib gedir.

İstanbul Beynəlxalq "Sülh və səbr" konfransının iştirakçılarına
Bakı şəhəri
(7 fevral 1994-cü il)

***

İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə dəvət etmişdir.

İstanbulda "Sülh və səbr" beynəlxalq dini konfrans nümayəndələri qarşısında çıxışından
(10 fevral 1994-cü il)

***

Ramazan bayramı hər bir müsəlmanın, adət-ənənələrimiz riayət edən hər bir şəxsin qəlbində olan bayramdır.

Orucluq bayramı günü müqəddəs yerlərə ziyarətində çıxışından
(14 mart 1994-cü il)

***

Azərbaycan xalqının ən böyük sərvəti ondan ibarətdir ki, o, əsrlər boyu qəhrəman, cəfakeş, dözümlü analar yetirmişdir....

Ana hər bir insan üçün müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də Ana Vətən deyirik, torpağa da.

Müharibədə vuruşan qəhrəman cəsur Azərbaycan övladlarını boya-başa çatdıran bütün analar, qadınlar cəmiyyətimizdə xüsusi yer tuturlar.

Novruz Bayramı münasibətilə xalqa müraciətindən
(20 mart 1994-cü il)

***

Xalqımız beş il, on il, bəzən əsrlərlə əsarətə, əziyyətə, məhrumiyyətə dözüb, ancaq mənliyini, inamını, milli qürurunu itirməyib.

Zuğulbadakı pansionatda müvəqqəti məskunlaşan qaçqınlarla görüşdə çıxışından
(21 may 1994-cü il)

***

İslam dini əsrlər boyu mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir.

«Qurani-Kərim»in bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir.

Mövlud Bayramı münasibətilə Bakıda Təzəpir Məscidində təntənəli mərasimdə çıxışından

(26 avqust 1994-cü il)

***

Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.

Respublikanın ali məktəblərinə daxil olmuş birinci kurs tələbələri ilə görüşdə nitqindən
(14 sentyabr 1994-cü il)

***

Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər adama lazımdır.

Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqindən
Şəhriyar adına mədəniyyət mərkəzi
(19 noyabr 1994-cü il)

***

Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir.

Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən
Respublika Sarayı
(26 noyabr 1994-cü il)

***

Mən dəfələrlə demişəm, heç kəsə damğa vurmaq olmaz. Əgər bir adam dünən səhv etmişdirsə, yolunu azmışdırsa və bu gün düz yolla gedirsə, xalqla birlikdədi rsə, qanuna riayət edirsə, - buna söz yoxdur.

Ümumxalq nümayəndələri toplantısından
Respublika sarayı
(28 noyabr 1994-cü il)

***

Çoxəsrlik tarixi. zəngin mənəvi və maddi irsi olan Azərbaycan xalqı hələ miladın yeddinci əsrindən İslam dünyasının bir hissəsini təşkil edir. Avropa ilə Asiya arasında, Qafqaz ilə Yaxın Şərq arasında mühüm coğrafi-siyasi məkanda yerləşən Azərbaycan həmişə bir çox dövlətlərin diqqət mərkəzində olmuş, müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynamışdır.

İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Kasablanka Zirvə toplantısında çıxışından
(13 dekabr 1994-cü il)

***

Hər bir şəhid bizdən ötrü böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır.

Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax, bu, xalqın ən böyük faciəsidir.

"Qanlı Yanvar" rəssamlıq sərgisinin açılışında çıxışından
Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi
(18 yanvar 1995-ci il)

***

Novruz bahar bayramı olmaqla yanaşı, həm də Azərbaycanın müstəqillik və dövlətçilik rəmzidir.

Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikindən
(20 mart 1995-ci il)

***

İslam bu dinə itaət edənləri həmişə mənəvi saflığa, ədalətə, düzlüyə, bütün müsbət keyfiyyətləri özündə toplamağa dəvət edir.

Zəvvarların Həcc ziyarətindən qayıtması münasibətilə keçirilən mərasimdə nitqindən
Səttarxan adına maşınqayırma zavodu
(20 may 1995-ci il)

***

... Biz gərək milli mənliyimizi həmişə saxlayaq. Bilirsiniz, mən uzun həyat yolu keçmişəm, bu gün də yaşayıram, sizinlə birlikdə işləyirəm. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə mən istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək.

Azərbaycan Respublikasının Yeni Konstitusiya Layihəsini hazırlayan komissiyanın iclasından
Prezident sarayı,
(2 noyabr 1995-ci il)

***

Xalq üçün, millət üçün rüşvətxorlardan xain düşmən yoxdur.

Azərbaycan Respublikasının Yeni Konstitusiya layihəsini
hazırlayan komissiyanın iclasında çıxışından
Prezident sarayı
(10 noyabr 1995-ci il)

***

İnsanlar bir-birinə doğrudan da səmimi münasibət bəsləyirlərsə, bu münasibət daimi olmalıdır.

Əgər yaxşı şəraitdə münasibət varsa və ağır şəraitdə həmin münasibətlər qırılırsa, bu insanların yüksək keyfiyyətə malik olmadığını göstərir.

Yazıçı Yusif Səmədoğlunun 60 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxışından
"Gülüstan" Sarayı
(19 dekabr 1995-ci il)

***

Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Nə qədər var-dövlət olsa da, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır.

Nə qədər var-dövlət olsa da, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz.

İslam dini bizim müqəddəs dinimizdir, Qurani-Kərim müqəddəs kitabımızdır. İslam dininin, Quranın Azərbaycan xalqına bəxş etdiyi mənəvi dəyərlər bizim üçün əzizdir və xalqımızın, gənclərimizin bu gün də, gələcəkdə də tərbiyəsi üçün çox əhəmiyyətlidir.

Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda nitqindən
Respublika Sarayı
(2 fevral 1996-cı il)

***

Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır - vəhşiliyin görünməmiş bir təzahürüdür..

Xocalı Soyqırımının dördüncü ildönümü ilə əlaqədar Xocalı sakinlərinin bir qrupu ilə görüşdən
Prezident Sarayı
(24 fevral 1996-cı il)

***

İnsan mənəviyyatı üçün yaşamalıdır.

Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 3-cü ildönümü ilə əlaqədar rayon sakinlərinin nümayəndələri ilə görüşdən
Prezident Sarayı
(1 aprel 1996-cı il)

***

Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz.

İqdır nümayəndələrini dinlədikdən və məktubla tanış olduqdan sonra çıxışından
(21 iyun 1996-cı il)

***

Mən istərdim ki, hər bir şəxs öz mənəviyyatını hər şeydən üstün tutsun. Qeyri-qanuni toplanılan sərvət, mal – bunlar heç vaxt insanlara, yenə də deyirəm, şöhrət gətirməyib....

Mənəvi paklıq, saflıq həmişə insanları ucaldıbdır, həmişə insanlara hörmət gətiribdir. Ola bilər, belə insanlar əziyyət, zillət içində yaşayıblar. Ola bilər, cürbəcür məhrumiyyətlərə məruz qalıblar. Ancaq mənəvi ucalıq onlar üçün hər bir şeydən qiymətli olubdur.

Bizim hər birimiz - mən bunu özüm üçün də hesab edirəm, daim xalqımız qarşısında borcluyuq. Əgər xalq, dövlət bizim hər birimizə bu etimadı göstəribsə və biz bu salonda yığışıb, Azərbaycan Respublikasının, Azərbaycan xalqının ən mühüm məsələlərini müzakirə ediriksə, demək, biz anlamalıyıq ki, xalqın qarşısında bizim nə qədər borcumuz var. Mən hesab edirəm ki, ömrümün sonuna qədər bu borcdan çıxa bilməyəcəyəm. Amma bəziləri hesab edirlər ki, bilirsiniz, hələ xalq ona borcludur, o, xalqa borclu deyil.

Vəzifədən sui-istifadə etmək halları, rüşvətxorluq, korrupsiya, - bu, bizim cəmiyyətimizin ən böyük bəlasıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Respublikada
sosial-iqtisadi sahənin inkişafına həsr olunmuş geniş iclasından
Prezident Sarayı
(18-19 iyul 1996-cı il)

***

Cəmiyyətimizi Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı, milli ənənələri prinsipləri əsasında tərbiyə etmək lazımdır.

Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının üçüncü ildönümü
ilə əlaqədar Ağdam rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən
Prezident Sarayı
(2 avqust 1996-cı il)

***

Orduya çağırılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci
ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitqindən
Şəhriyar adına Mədəniyyət Mərkəzi

(7 oktyabr 1996-cı il)

***

Mən hər bir kəsə tövsiyə edirəm ki, göstərilən etimadı qiymətləndirsin, etimada sədaqətlə xidmət etsin....

Vəzifədən ötrü yaşayan adamlar bədbəxt adamlardır.

Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir, o, həmişə məğlub olur.

O insanlar ki, sədaqətlidirlər, saf mənəviyyatla, amallarla yaşayırlar, xalqına, millətinə, torpağına xidmət edirlər, dövlətin qanun-qaydalarına tabe olurlar, bu qanun-qaydaları qoruyurlar və onların həyata keçirilməsinə çalışırlar - belə adamlar həmişə mənim silahdaşlarımdır.

Mən heç kəsin həyatda puç olmasına, yaxud da itib-batmasına razı deyiləm. Yaranan hər bir insan həyatda yaşamalıdır, inkişaf etməlidir, öz yerini tapmalıdır. Amma öz yerini, özünə məxsus olan yerini tapmalıdır. Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir, o həmişə məğlub olur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üzvləri ilə görüşdə nitqindən
Naxçıvan
(31 oktyabr 1996-cı il)

***

Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik.

Türk dünyası yazıçılarının III qurultayında nitqindən
Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin İclas Salonu
(6 noyabr 1996-cı il)

***

Həqiqəti gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclasında nitqindən
(27 noyabr 1996-cı il)

***

Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir, hər bir azərbaycanlı müsəlmanın həyat tərzinin əsas qanunu olubdur. Bu, bizim üçün böyük bir tarixi hadisədir və biz bunu yüksək qiymətləndirməliyik. Xalqımızı, millətimizi, gənc nəsli, bütün cəmiyyətimizi İslamın

yüksək mənəvi dəyərləri əsasında yaşatmalı, tərbiyə etməliyik, həyatımızı bu mənəvi dəyərlər əsasında qurmalıyıq.

Məbəs Bayramı – Məhəmməd Salavatullaha Peyğəmbərlik verilən gün münasibətilə keçirilən mərasimdən
Təzəpir məscidi
(9 dekabr 1996-cı il)

***

Mütərəqqi islami dəyərlərə qayıdış, milli-dini ənənələrin dirçəldilməsi cəmiyyətimizin əxlaqi-mənəvi yüksəlişində, xalqımızın bütövlüyü və birliyində misilsiz rol oynayan amillərdəndir.

Orucluq Allah üçündür və müqəddəs dinimiz qarşısında mənəvi borcdur.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olunduğu mübarək Ramazan ayı xeyirxah niyyətlər, mənəvi zənginlik, fiziki-ruhi kamillik və əxlaqi saflıq ayıdır. Bu bayram xeyirin şər, mənəvi ucalığın nəfs üzərində təntənəsinin bayramıdır.

Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikindən
(7 fevral 1997-ci il)

***

Mübarək Qurban bayramı, adətən, insanlar arasında umu-küsülərin, kin-küdurətin aradan qaldırılması, yaxınların yad olunması, cəmiyyətdə mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl münasibət olmuşdur.

Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikindən
(19 mart 1997-ci il)

***

Novruz bayramı insanları, xalqımızı həmişə sevindirib, ən çətin anlarda, ən ağır günlərdə də onlarda xoş, nikbin əhval-ruhiyyə yaradıbdır. Ona görə də bu bayram hər bir azərbaycanlı üçün əziz bayramdır. Bu, eyni zamanda hər bir şəxsin qəlbinin bayramıdır, hər bir ailənin bayramıdır.

Azərbaycan Prezidenti tərəfindən şəhid övladları və kimsəsiz uşaqlar üçün təşkil edilmiş novruz şənliyində çıxışından
"Gülüstan " sarayı
(20 mart 1997-ci il)

***

Xalqımızın milli mənafeyini, kimliyindən asılı olmayaraq, ayrı-ayrı adamların şəxsi mənafeyinə qurban vermək olmaz. Milli mənafeyimiz, xalqın aqibəti bizim üçün hər şeydən əzizdir, hər şeydən üstündür. Kim günahkardırsa, o bilinməli, cəzalanmalı, onun haqqında ölçü götürülməlidir.

Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 4-cü ildönümü ilə əlaqədar Nərimanov rayonundakı yataqxanada məskunlaşmış Kəlbəcər qaçqınları ilə görüşdə nitqi
(2 aprel 1997-ci il)

***

Müdriklik insanın kökündə, əməllərindədir.

Qurban Bayramı günü lerikli fermer Xanış Şahıyevlə görüşdə çıxışından
(18 aprel 1997-ci il)

***

İkinci Dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur.

İkinci Dünya Müharibəsində alman faşizmi üzərində qələbənin 52-ci ildönümü münasibətilə iki dəfə sovet ittifaqı qəhrəmanı, tank qoşunları general mayoru Həzi Aslanovun məzarı önündə keçirilən mərasimdə nitqindən
(9 may 1997-ci il)

***

Hər bir insanın daxilində, vücudunda cəmlənən, həm də ailədə aldığı tərbiyə nəticəsində cəmlənən mənəvi dəyərlər, potensial var ki, onu heç vaxt öldürmək mümkün deyildir. O yaşayır, bütün çətinliklərdə də yaşayır. Bəlkə də insanları o çətinliklərə dözməyə, onların üstündən məharətlə keçməyə kömək edən amillərdən biri odur ki, insanlar milli dəyərlərdən ayrılmırlar.

Daşkənddə Azərbaycan səfirliyi binasında soydaşlarımızla – Özbəkistandakı Azərbaycan Diasporunun nümayəndələri ilə görüşdə çıxışından
(19 iyun 1997-ci il)

***

Vəzifə insana heç bir şey vermir, sadəcə olaraq səlahiyyət verir, qalan hər bir şey onun ağlından, zəkasından, biliyindən, mədəniyyətindən asılıdır.

Respublikanın Milli Təhlükəsizlik Orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəl yığıncaqda nitqindən
(5 iyul 1997-ci il)

***

Azərbaycanın müstəqil yaşaması, Azərbaycanın milli azadlığı, xalqımızın öz taleyinin sahibi olması, özünün milli-mənəvi, dini dəyərlərinə sahib olması tarixi bir hadisədir.

İslam dininin banisi Həzrəti Məhəmməd Əleyhissəlamın müqəddəs mövlud günündə Bakının Şıx kəndində Bibiheybət məscidinin bərpasına başlanması mərasimində çıxışından
(23 iyul 1997-ci il)

***

Öz şəxsi məqsədlərinə nail olmaq üçün milləti ləkələmək, millətə böhtan atmaq lazım deyil. Milli mənafe hər şeydən üstün olmalıdır. Birinci milli mənafedir, sonra şəxsi mənafe.

Amerikadakı Azərbaycan mədəniyyət cəmiyyətinin nümayəndələri ilə görüşdə nitqindən
Çikaqo
(4 avqust 1997-ci il)

***

Müəllim vəzifəsi ona görə şərəflidir ki, o cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli vətəndaşlar hazırlayır.

Azərbaycanın ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanması münasibətilə Bakıdakı 18 nömrəli məktəbdə keçirilmiş mitinqdə nitqindən
(1 sentyabr 1997-ci il)

***

Vətənin müdafiəsində iştirak etmiş insanların hamısı cəmiyyətimizin diqqət mərkəzində olmalıdır, dövlət orqanları onlara qayğı göstərməlidir. Onlar cəmiyyətdə həmişə hörmətlə qarşılanmalıdırlar. Şəhid ailələri bizim hamımızın - həm dövlətin, hökumətin, həm də cəmiyyətin daimi qayğısı altında olmalıdır.

Bakının 6-cı mikrorayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa edilmiş yaşayış binasının istifadəyə verilməsi münasibətilə keçirilmiş təntənəli mərasimdə nitqindən
(15 noyabr 1997-ci il)

***

Qadınların adları və xidmətləri bizim tariximizin səhifələrində qızıl hərflərlə yazılmışdır. Ancaq XX əsrdə Azərbaycan qadınının əldə etdiyi nailiyyətlər həqiqətən dünya miqyasında bizim üçün iftixar mənbəyinə çevrilmişdir. ...İndi biz hədsiz iftixar hissi ilə deyə bilərik ki, cəmiyyətimizin hər bir sahəsində qadınlar böyük rol oynayır.

8 Mart Beynəlxalq Qadınlar gününə həsr olunmuş təntənəli gecədə nitqindən
Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
(7 mart 1998-ci il)

***

Novruz bayramı bizim xalqımızın qədim milli bayramıdır. Novruz bayramı hər bir azərbaycanlının qəlbinin bayramıdır, hər bir insanın, ailənin bayramıdır, bizim müstəqil Azərbaycan torpağının, Azərbaycan Respublikasının bayramıdır.

Novruz dostluq, mehribanlıq, mənəviyyat, mədəniyyət bayramıdır, xalqımızın qəhrəmanlığını, rəşadətini, şücaətini nümayiş etdirən bayramdır. Novruz bayramı bizim xalqımızı bir-birilə həmişə daha da sıx birləşdirib, insanlarımız arasında dostluq, mehribanlıq əlaqələri yaradıb, insanları bir-birinə dost edibdir.

Azərbaycan Respublikasının "Gənclər" meydanında Qoşa qala qapısı önündə keçirilən Novruz bayramı şənliyində nitqindən
(21 mart 1998-ci il)

***

Bizim bütün milli və dini adət-ənənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhval-ruhiyyədə tərbiyə etməkdən ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qurban bayramı münasibətilə Mirmövsüm ağanın ziyarətgahında keçirilən görüşdə nitqindən
(8 aprel 1998-ci il)

***

Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən nəsillərə keçib, yaşayıb, gəlib bu günlərə çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir.

Bibiheybət Məscid-Ziyarətgah kompleksinin açılışı mərasimində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin nitqindən
(12 iyul 1998-ci il)

***

Biz müsəlmanlar fəxr edirik ki, mənsub olduğumuz din - İslam dini dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir.

Demokratiya - yüksək mədəniyyət deməkdir. Demokratiya - yüksək mənəviyyat deməkdir. Bu yüksək mənəviyyatı, yüksək mədəniyyəti hər bir Azərbaycan vətəndaşında yaratmaq üçün, gənc nəsli bu əsaslarla tərbiyələndirmək üçün İslam dininin mənəvi dəyərləri çox gərəklidir.

İslam dini yüksək mənəvi dəyərlərə malik olan bir dindir. İslam dininin bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhfələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir, misilsizdir.

Sizinlə açıq danışıram, - o vaxt deyə bilmirdim ki, bu, islam dininin mənəvi dəyərləridir. Çünki biz hamımız o vaxtlar islam dinini qadağan edən adamlar idik. Amma bu gün deyirəm ki, bu, həqiqətən islam dininin bəşəriyyətə və islam aləminə bəxş etdiyi çox yüksək dəyərlərdir.

Bakıda keçirilən Beynəlxalq Konfransda və Qafqaz Müsəlmanları Qurultayında nitqindən
(29 sentyabr 1998-ci il)

***

Din həmişə bizim mənəvi dəyərlərimizin qoruyucusu olubdur, mənəvi dəyərlərimizi yaşadan olubdur. Mənəvi dəyərlərimizin əksəriyyəti keçmişdə İslam dininin dəyərləri əsasında, müqəddəs kitabımız Qurani-Şərifin ayələri əsasında, surələri əsasında yaranıbdır. Ona görə də dinimizə yenidən qayıtmaq, yenidən müqəddəs kitabımızın, Həzrəti Məhəmməd Peyğəmbərin qoyduğu yolla getmək və Qurani-Şərifin tələblərinə riayət etmək, şübhəsiz, insanları həmişə saflığa, təmizliyə, saf mənəviyyata aparır, düz yola, doğru yola aparır.

Azərbaycan Prezidenti Heydər Əliyevin Mingəçevirdə məscid kompleksinin açılışı mərasimində nitqindən
(8 oktyabr 1998-ci il)

***

Biz Avropa qitəsinə daxilik. Amma eyni zamanda Avropa ilə Asiya arasında biz öz ölkəmizdə, öz xalqımızın tarixində, milli mədəniyyətində, tarixi köklərində və mentalitetində Şərqlə Qərbin, Avropa ilə Asiyanın sintezini təşkil edirik. Ona görə də öz tarixi missiyamızı dərk edirik və bunu həyata keçirmək üçün indiyə qədər lazımi işlər görmüşük.

Azərbaycan Respublikasının prezidenti seçilməsi münasibətilə andiçmə mərasimində nitqindən
(18 oktyabr 1998-ci il)

***

Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Şərifdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət-ənənələrimizdir. Bu, bizim milli əxlaqi mentalitetimizdir. Bu, bizim bütün başqa mənəvi dəyərlərimizdir.

Mən bu gün bir azərbaycanlı kimi, özündə həm milli-mənəvi dəyərləri, həm də ümumbəşəri dəyərləri cəm edən bir insan kimi deyirəm ki, bizim xalqımızın mənəvi-əxlaqi mentaliteti onun ən böyük sərvətidir, xalqımızın milli-mənəvi dəyərləri onun milli sərvətidir. Biz bunları qiymətləndirməliyik.

Biz müstəqillik əldə etdikdən sonra islam dinini özümüzə qaytardıq.

Biz müstəqillik əldə edəndən sonra islam dinimizi özümüzə qaytardıq. Yəni bu din insanların qəlbində həmişə yaşayırdı, ancaq rəsmi deyildi. Bu, rəsmi qayıtdı, bərpa olundu.

Biz tarixi köklərimizi həmişə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik.

Öz milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq.

Ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin vəhdəti, sintezi bizim milli ideologiyamızın bu günü və gələcəyidir.

Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə
həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(21 noyabr 1998-ci il)

***

Heç kəs hesab etməməlidir ki, əldə olunan nailiyyətlər, görülən işlər kiməsə vəzifəsindən sui-istifadə etməyə hüquq verir, qanun pozmağa hüquq verir, rüşvət almağa hüquq verir.

Azərbaycan Respublikasi Prokurorluq orqanlarının 80 illiyinə
həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
(28 noyabr 1998-ci il)

***

Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz İslam dininə, İslam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik.

Azərbaycanda islamşünaslıq sahəsində XX əsr demək olar, tamam itirilmişdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır.

Başqa dinlərdə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda, Qafqazda da öz əksini tapıbdır.

İnsanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar.

Bizim müqəddəs kitabımız Qurani-Şərif heç vaxt fundamentalizmin əsasını qoymayıbdır. Kimsə bu fundamentalizm, ekstremizm meyllərini İslam dinindən istifadə edərək yaradır və inkişaf etdirirsə, hesab edirəm ki, onlar İslamın əsas prinsiplərindən müəyyən qədər uzaqlaşırlar. Biz İslam mədəniyyətini, İslam

mənəvi dəyərlərini müqəddəs kitabımız Qurani-Kərimdən olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dillə desək, günahdır. Biz istəmirik ki, kimsə günaha batsın.

Azərbaycan Milli Elmlər Akademiyası rəyasət heyətinin binasında keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun açılışı mərasimində nitqindən
(9 dekabr 1998-ci il)

***

Azərbaycan İslam mədəniyyətinin, İslam milli- mənəvi ənənələrinin ümumbəşəri dəyər vəhdətindən doğulan bugünkü Azərbaycandır.

«İslam sivilizasiyasi Qafqazda» mövzusunda beynəlxalq simpoziumun iştirakçilarinin böyük bir qrupu ilə görüşdə çıxışından
Prezident sarayı
(10 dekabr 1998-ci il)

***

Təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatı, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda, təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Amma keçid dövrünü yaşayan ölkələr, bir ictimai-siyasi sistemdən başqasına keçən ölkələr bu işə daha da diqqətli olmalı, daha da ciddi və həssas yanaşmalıdırlar.

Azərbaycan Respublikasında Təhsil Sahəsində İslahatlar Üzrə Dövlət Komissiyasının iclasında nitqindən
Prezident sarayı
(17 mart 1999-cu il)

***

Hər bir insan üçün vətənə, torpağa sədaqət ən ülvi xüsusiyyətdir.

Biləsuvar rayonunda məskunlaşmış qaçqınlar və məcburi köçkünlərlə görüşdə çıxışından
(19 mart 1999-cu il)

***

Həcc ziyarətini edən hər bir şəxs nəinki özü mənəviyyatca zənginləşir, o, aldığı mənəvi zənginlikdən bəhrələnərək öz ətrafına, ailəsinə, öz dostlarına da təsir edir, kömək edir, onları daha da düz yola, Allah yoluna dəvət edir.

Həcc ziyarətinə gedən bir qrup zəvvarlarla Prezident sarayında görüşdəki söhbətindən
(20 mart 1999-cu il)

***

Biz heç vaxt öz dinimizi, tariximizi, milli-mənəvi dəyərlərimizi unutmamalıyıq. Onları yaşatmaq, onlardan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir.

İndi Azərbaycan müstəqil dövlətdir, öz taleyini özü həll edir. Bundan sonra biz heç vaxt imkan verməyəcəyik ki, yadellilər, dinimizə, imanımıza, mənəviyyatımıza zidd olan hansısa qüvvələr gəlib bizə hakim olsunlar və mənəvi dəyərlərimizə yenidən xəsarət gətirsinlər.

Bakının Bibiheybət ziyarətgahında Qurban bayramı mərasimində çıxışından
(28 mart 1999-cu il)

***

Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var.

Vicdan azadlığı toxunulmazdır.

Azərbaycandakı dini konfessiyaların başçıları ilə Prezident sarayında görüşdə söhbətindən
(16 noyabr 1999-cu il)

***

Bizim Azərbaycanda kişi sözü çox tutumlu sözdür... Sözün əsl mənasında "kişi" o deməkdir ki, bu adam sözü bütöv adamdır, sözünün sahibidir, kişilərə xas hər cür ləyaqətə, keyfiyyətlərə malikdir, sözü ilə əməli birdir.

Dahi musiqiçi Mstislav Rostropoviç ilə Prezident sarayında görüşdə söhbətindən
(22 noyabr 1999-cu il)

***

Mənəviyyat insana xas olan xüsusiyyətlərin hamısından yüksəkdir. Nə qədər böyük alim olursansa-ol, nə qədər böyük mütəxəssis olursansa-ol, nə qədər böyük dövlət xadimi olursansa-ol, əgər mənəviyyatca şikəstsənsə, sənin heç bir qiymətin yoxdur.

Azərbaycan Tibb Universitetinin 70 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitqindən
(19 iyun 2000-ci il)

***

Orduda gərək hər kəs Azərbaycan dövlətçiliyinə, Ali Baş Komandana tam sədaqətli olsun. Burada ikili mövqe tutmaq olmaz. Hamımız Azərbaycan, onun gələcəyi haqqında düşünməliyik.

İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində alman faşizminə qarşı döyüşlərdə Azərbaycan oğulları, xalqımızın övladları, azərbaycanlılar da döyüşmüş, vuruşmuş, alman faşizmi üzərində qələbəyə öz payını vermişlər.

Silahli qüvvələr gününə həsr edilmiş təntənəli mərasimdə nitqindən
(26 iyun 2000-ci il)

***

Azərbaycanda hakimiyyət iddiası ilə yaşayaraq, Azərbaycanın müstəqilliyini, suverenliyini, bütövlüyünü, Azərbaycanın vəziyyətini öz şəxsi ambisiyalarına qurban verən adamlar özlərini Azərbaycan vətəndaşı hesab edə bilməzlər.

Milli Məclisin 24 fevral tarixli iclasında nitqindən
(24 fevral 2001-ci il)

***

Öz ağırlığına, miqyasına və nəticələrinə görə xalqımızın başına gətirilən müsibətlər həm də bəşəriyyətə qarşı cinayətlər kimi xarakterizə olunmalı, beynəlxalq hüquqi-siyasi qiymətini almalı, onun ideoloqları və təşkilatçıları layiqincə cəzalandırılmalıdır, hamı əmin olmalıdır ki, müasir dünyada «Günəş altında daha geniş yer» axtaranlar, «Böyük Ermənistan» xülyası ilə başqa xalqlara nifrət və total müharibə ideologiyasını təbliğ edənlər, qonşularına qarşı təcavüzkar siyasət yeridənlər nə zamansa tarix və bəşəriyyət qarşısında cavab verməli olacaqlar.

31 mart – Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciətindən
(27 mart 2001-ci il)

***

Bizim qarşımızda duran bir vəzifə də var. O da şəhid ailələrinə qayğı göstərmək, döyüşlərdə xəsarət almış, əlil olmuş insanlara qayğı göstərməkdir.

Şəhid olmaq hər bir insan üçün ən yüksək zirvəyə çatmaqdır. Ancaq istəməzdik ki, bizim gənclərimiz şəhid olsunlar. O qəhrəmanlar ki, o insanlar ki, vuruşlarda, döyüşlərdə şəhid olublar, canlarını qurban veriblər, onlar bizim ordumuz üçün, hər bir əsgər üçün örnək olmalıdır.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri gününə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(25 iyun 2001-ci il)

***

Bizim millətimizdə, xalqımızda, azərbaycanlılarda namus-qeyrət ən mühüm keyfiyyət hesab olunubdur.

Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik.

Milli–mənəvi dəyərlər və ənənələr ilə bağlı bəyanatından
(14 avqust 2001-ci il)

***

İnsanlar həyatdan gedəndən sonra qiyməti daha da artır, obyektivləşir.

Dahi sənətkar Rəsid Behbudovun xatirə gecəsində nitqindən

(13 oktyabr 2001-ci il)

***

İnsan həyatda gərək elə yaşasın ki, o, həmişə öz mənəviyyatı ilə fəxr etsin. Hər bir şeyi itirmək olar. Amma uşaq da, böyük də, hər bir insan gərək mənəviyyatını, iradəsini itirməsin, bütün çətinliklərin qarşısını alsın, onların qarşısında əyilməsin, sınmasın. Öz iradəsi ilə yaşasın, böyüsün, cəmiyyətə fayda versin.

Uşaqların beynəlxalq televiziya və radio günü münasibətilə Azərbaycan dövlət teleradio verilişləri şirkətinin YUNİSEF-lə birlikdə Teleteatrda təşkil etdiyi şənlikdə nitqindən
(9 dekabr 2001-ci il)

***

Novruz bayramı heç bir tarixi hadisə, yaxud heç bir şəxsiyyətin adı ilə, onun fəaliyyətilə bağlı deyildir. Bu bayram təbiətin qanunları ilə, kainatın qanunları ilə əlaqədar olan bir bayramdır. Gündüz ilə gecənin bərabərləşməsi günü, baharın ilk günü Novrıuz bayramdır. Bunlara görə Novruz bayramı bir çox başqa bayramlardan fərqlənir və bu, bizim,
məhz Azərbaycan xalqının bayramıdır. Qədim zamanlardan bəri və bu gün də bu bayramı ən çox sevən, ən uca tutan Azərbaycan xalqıdır.

Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində nitqindən
(21 mart 2002-ci il)

***

Hamı öz yerində, öz vəzifəsinə uyğun məsuliyyət daşıyır. Hamı təvazökar olmalıdır. Heç kəs vəzifəsindən sui-istifadə etməməlidir. Heç kəs xüsusi status iddiasında olmamalıdır.

Naxçıvan MR Ali Məclisində giriş sözü və yekun nitqindən
(18 iyun 2002-ci il)

***

Mənim üçün ən əziz nemət Azərbaycan uşaqlarıdır, Azərbaycan gənclərıdir. Çünki Azərbaycan prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də gənclərdən və uşaqlardan asılıdır.

Bakının Suraxanı rayonundakı 275 nömrəli məktəbdə bilik gününə və yeni dərs ilinin başlanmasına həsr olunmuş mərasimdə nitqindən
(2 sentyabr 2002-ci il)

***

Heç kəsin payı inkar olunmamalıdır, heç kəsin rolu inkar olunmamalıdır. Amma heç kəsin də fəaliyyəti, necə deyərlər, şişirdilməməlidir. Hər şey düzgün, doğru, obyektiv olmalıdır.

Azərbaycanin Dövlət Müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş müşavirədə nitqindən
(2 oktyabr 2001-ci il)

***

Avropa ilə Asiyanın qovuşağında, Böyük İpək Yolunun üstündə yerləşən Azərbaycanda zərdüştilik, atəşpərəstlik kimi qədim dini inanclar öz izlərini qoymuş, islam, xristian və yəhudi dinləri əsrlər boyu dialoq və qarşılıqlı anlaşma mühitində dinc yanaşı yaşamış və gördüyümüz kimi, indi də yaşamaqdadır.

"Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq konfransın açılış mərasimində nitqindən
(10 oktyabr 2002-ci il)

***

Azərbaycanda heç vaxt dini zəmində heç bir münaqişə, heç bir toqquşma olmamışdır.

Bakıda Rus Pravoslav Kilsəsinin yenidən tikilmiş baş kafedral kilsəsinin açılış mərasimində nitqindən
(24 mart 2003-cü il)

AZƏRBAYCAN XALQI HAQQINDA

Biz hamımız azərbaycanlıyıq, hamımızın dilimiz var, hamımız da bu azərbaycanlılığı anadangəlmə qəbul etmişik.

Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdən
(13 avqust 1993-cü il)

***

Xalqın iradəsini heç vaxt, heç bir silahla qırmaq olmaz.

Xalqın gücünün qarşısında heç bir qüvvə dayana bilməz.

Azərbaycan Milli Televiziyası ilə xalqa müraciətindən
(23 avqust 1993-cü il)

***

Azərbaycan xalqı öz torpaqlarını geri qaytarmalıdır, ərazi bütövlüyünü bərpa etməlidir. Xalqımız öz suverenliyini, öz müstəqilliyini qorumağa qadir xalqdır.

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından
(21 sentyabr 1993-cü il)

***

Azərbaycan xalqını əsrlər boyu yaşadan, bu günə qədər gətirib çıxaran onun gələcəyə həmişə nikbinliklə baxması olmuşdur.

Nikbinlik əhval-ruhiyyəsi, özündə olan gücü, qüdrəti yeri gələndə son həddə qədər toplayıb hərəkətə gətirmək imkanları — bunlar Azərbaycan xalqını həmişə ağır vəziyyətlərdən çıxarmışdır.

Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışından
(22 sentyabr 1993-cü il)

***

Azərbaycan xalqı qəhrəman xalqdır. Onun tarixində igidlik ənənələri həmişə güclü olmuşdur.

Azərbaycan xalqının potensialı — həm qəhrəmanlıq, həm döyüşkənlik, həm də intellektual potensialı böyükdür.

Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, onun suverenliyini, müstəqilliyini qorumaq hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı milli televiziya və radio ilə xalqa müraciətindən
(2 noyabr 1993-cü il)

***

Azərbaycan xalqı öz torpağını qorumağa qadirdir.

Azərbaycanın milli qəhrəmanları və vətənimizin azadlığı uğrunda şəhidlərin ailə üzvləri ilə görüşdə çıxışından
(27 dekabr 1993-cü il)

***

Azərbaycan xalqı öz tarixinə, öz milli ruhuna, öz milli ənənələrinə sadiq qalmış və bu duyğuları, bu hissləri qəlbində qoruyub saxlamışdır.

Türkiyə Böyük Millət Məclisində çıxışından
(9 fevral 1994-cü il)

***

Azərbaycan xalqı bütün türk dünyasının bir hissəsi olaraq böyük və zəngin elm, mədəniyyət tarixinə malikdir.

Bilkənd Universiteti idarə heyətinin sədri İhsan Doğramaçı ilə görüşdə çıxışından
(9 fevral 1994-cü il)

***

Əsrlər boyu başına gəlmiş bəlaların hamısından xalqımız öz gücü, cəsarəti, qəhrəmanlığı sayəsində çıxmışdır.

Xalqımızın çox gözəl xüsusiyyətləri, ənənələri var, qədim tarixi var. Ancaq qüsurlu cəhətləri də var. O da bundan ibarətdir ki, bir-birimizlə möhkəm əlaqə saxlaya bilmirik.

Londonun "Hilton" otelində Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə çıxışından
(23 fevral 1994-cü il)

***

Azərbaycan xalqını əzab-əziyyətdən, bəlalardan xilas etmək üçün birləşmək, bir yolla - haqq, ədalət yolu ilə getmək lazımdır! Əsas məqsədlərə, xalqımız üçün ali məqsədlərə nail olmaqdan ötrü hamı əl-ələ verməlidir!

Novruz bayramı münasibətilə xalqa müraciətindən
(20 mart 1994-cü il)

***

...Azərbaycan xalqının qəlbində milli azadlıq ruhu, müstəqillik ruhu daim yaşamışdır.

Azərbaycanın dövlət müstəqilliyi gününə həsr olunmuş təntənəli yığıncaqda çıxışından
(17 oktyabr 1994-cü il)

***

Xalqımız sayıq olmalıdır, xalqımız bilməlidir ki, biz müstəqil dövlət kimi öz taleyimizin, öz dövlətimizin sahibiyik və özümüz-özümüzü qorumalıyıq, xalqımızı qorumalıyıq, cəmiyyətimizi qorumalıyıq.

Azərbaycan xalqına Yeni İl təbrikindən
(31 dekabr 1994-cü il)

***

Xalq həmişə azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.

"Qanlı Yanvar" rəssamlıq sərgisinin açılışında çıxışından
Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi
(18 yanvar 1995-ci il)

***

Azərbaycan xalqı öz mənliyini müdafiə etməyə qadirdir. Azərbaycan xalqı öz müstəqilliyini müdafiə etməyə qadirdir.

20 Yanvar faciəsinin 5-ci ildönümü ilə bağlı çıxışından
Şəhidlər Xiyabanı
(20 yanvar 1995-ci il)

***

Azərbaycan xalqı öz genetik əsaslarına görə gözəl fiziki və mənəvi cəhətdən sağlam xalqdır. Tarixi, milli və dini adət və ənənələr xalqımızı həmişə fiziki və mənəvi cəhətdən sağlam həyat tərzi keçirməyə sövq edibdir.

Azərbaycan Milli Yığma Komandalarının 26-cı yay olimpiya oyunlarına (Atlanta şəhəri, 1996)
hazırlığını nümayiş etdirmək məqsədilə keçirilmiş idman baxışında çıxışından
Bakı Əl Oyunları Sarayı
(5 mart 1995-ci il)

***

Hər hansı bir xalq öz çərçivəsinə qapanıb yaşasa, dünyanı görməsə, dünya ilə əlaqəsi olmasa, çox inkişaf edə bilməz.

Brüsseldə soydaşlarımızla görüşdə çıxışından
Brüssel
(17 aprel 1995-ci il)

***

Azərbaycan xalqı indi öz taleyinin sahibidir və müstəqil dövlət qurub, yaradıb yaşaya bilir. Bu, xalqımızın tarixlər boyu yaşadığı dövrlərdə ən yüksək səviyyəyə çatdığımız bir dövrdür.

Əsrimizin əvvəlində - 1918-ci ildə Azərbaycanda ilk dəfə dövlət müstəqilliyi elan olunub ki, Azərbaycan Demokratik Respublikası yaranıbdır. Bu respublika Azərbaycanda xalqın, millətin milli təfəkküründə oyanması, dirçəlməsi, inkişafı üçün yollar açıb, şərait yaradıbdır.

Xalqımız sərbəstdir, azaddır, dövlət müstəqilliyini əldə edib və biz müstəqil dövlət kimi, dünyanın bütün dövlətləri ilə bərabər hüquqlu bir dövlət kimi yaşayırıq.

Hər bir azərbaycanlı bunu anlamalı, bilməlidir. Biz bir daha müstəmləkə ola bilmərik, bir daha qul ola bilmərik. Biz azad olmuşuq, Azərbaycan xalqı azad yaşamalıdır.

Dindarlarla görüşdə çıxışından
Təzəpir məscidi
(18 avqust 1995-ci il)

***

Azərbaycan xalqı əsrlər boyu milli azadlıq uğrunda mübarizə edib, çarpışıb, bu arzularla yaşayıb. Ozünün müstəqil dövlətinin olmasını, dövlət müstəqilliyi əldə etməsini istəyibdir.

Əsrimizin əvvəlində - 1918-ci ildə Azərbaycanda ilk dəfə dövlət müstəqilliyi elan olunub ki, Azərbaycan Demokratik Respublikası yaranıbdır. Bu respublika Azərbaycanda xalqın, millətin milli təfəkküründə oyanması, dirçəlməsi, inkişafı üçün yollar açıb, şərait yaradıbdır.

Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə çıxışından
Prezident Sarayı
(18 oktyabr 1995-ci il)

****

Xalqımız nə qədər tez birləşərsə, Azərbaycan xalqı bir-biri ilə nə qədər həmrəy olsa, nə qədər hamının sözü bir olsa, o qədər torpaqlarımızı tez geri qaytaracağıq, azad edəcəyik ərazi bütövlüyümüzü təmin edəcəyik.

Bakının gənclər meydanında – Qoşa Qala Qapısı önündə Novruz şənliyində çıxışından
(21 mart 1996-cı il)

***

Əgər bir azərbaycanlı ilə bir ermənini təkbətək meydana salsan, azərbaycanlı heç vaxt kürəyini yerə verməz, heç vaxt.

Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 3-cü ildönümü ilə əlaqədar rayon sakinlərinin nümayəndələri ilə görüşdən

Prezident Sarayı
(1 aprel 1996-cı il)

***

Öz aramızda səmimi, dost, mehriban olmalıyıq, bir-birimizə kömək etməliyik, bir-birimizin qayğısına qalmalıyıq. Bu, Qurani-Şərifin bizə verdiyi nəsihətlərdir, xalqımızın, millətimizin əsrlər boyu, tarixdən gələn ənənələridir, azərbaycanlıların ən yüksək keyfiyyətləri, xüsusiyyətləridir.

Norveçdə Azərbaycan Diasporunun nümayəndələri ilə görüşdə çıxışından
(24 aprel 1996-cı il)

***

Azərbaycanlılar çox vətənpərvər və qonaqpərvərdirlər.

Almaniyadakı Azərbaycan Diasporunun nümayəndələri ilə görüşdə çıxışından
Bonn
(1 iyul 1996-cı il)

***

Biz hamımız azərbaycanlıyıq, hamımız bir millətik. Hamımızın bir dilimiz - Azərbaycan dilimiz var, hamımız bir dinə mənsubuq, hamımız bir millətin övladlarıyıq.

Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının üçüncü ildönümü ilə əlaqədar Ağdam rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdən
Prezident Sarayı
(2 avqust 1996-cı il)

***

Azərbaycan xalqının ən yüksək xüsusiyyətlərindən biri onun dözümlülüyü, dəyanətliliyi və yüksək iradəsidir.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin H. Rəsulbəyov adına Rabitə Kollecinin yataqxanasında müvəqqəti məskunlaşmış qaçqınlarla görüşündə çıxışından
(16 sentyabr 1996-cı il)

***

Azərbaycan xalqı həmişə Tanrıya tapınan, qəlbində daim iman və inam gəzdirən xalqdır. Öz tarixi köklərinə, milli-dini keçmişinə sadiq olan xalqımızın mərd oğul və qızlarının yüksək vətəndaşlıq qeyrəti, Vətənə, torpağa bağlılığı, milli müstəqilliyimiz uğrunda sarsılmaz mübarizə əzmi də məhz belə ülvi, mənəvi, dəyərlərdən qaynaqlanır.

Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikindən
(7 fevral 1997-ci il)

***

Azərbaycan xalqının çoxəsrlik qədim və zəngin tarixi, böyük mədəniyyəti, özünəməxsus milli-mənəvi ənənələri var.

BMT-nin Yaxın və Orta Şərqdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə nəzarət və bununla bağlı problemlər üzrə yardımçı komissiyasının 32-ci sessiyasında nitqi
"Gülüstan" sarayı
(17 fevral 1997-ci il)

***

Xalqımız itkilər də, qurbanlar da, şəhidlər də verib, ancaq heç vaxt sınmayıbdır, iradəsindən dönməyibdir, iradəsini itirməyibdir. Xalqımız məğrur xalqdır.

Qırğızıstan Prezidenti Əsgər Akayevin M. Ə. Rəsulzadə adına BDU-nun tələbə şəhərciyində müvəqqəti yerləşdirilmiş qaçqınlarla görüşündə çıxışından
(23 aprel 1997-ci il)

***

Azərbaycan xalqı yüksək mədəniyyətə, elmə, biliyə malik olan xalqdır və milli-mənəvi dəyərlərimizin ümumbəşəri dəyərləri ilə birləşməsi, sintezi xalqımızın simasını təşkil edir. Ona görə də indi Azərbaycan milli, eyni zamanda dünyəvi, sivilizasiyalı ölkədir.

Türkiyədə Böyük Millət Məclisinin üzvləri ilə görüşdə çıxışından
Ankara
(6 may 1997-ci il)

***

Xalqımız həqiqətən çox istedadlı xalqdır, xüsusən ədəbiyyat, mədəniyyət sahəsində çox istedadlı xalqdır.

Azərbaycan Yazıçılarının X Qurultayı ərəfəsində gənc nəsildən olan yazıçı və şairlərin bir qrupu ilə görüşdən
Prezident sarayı
(29 oktyabr 1997-ci il)

***

Bizim xalqımız həmişə dostluğu, qardaşlığı, mehribanlığı möhkəmləndirməyə cəhd göstərmiş, insanların dini mənsubiyyətindən asılı olmayaraq, onların arasında sülh və əmin-amanlıq, mehribanlıq əlaqələrinin olmasına çalışmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Bakıda keçirilən Beynəlxalq Konfransda və Qafqaz Müsəlmanları Qurultayında nitqindən
(30 sentyabr 1998-ci il)

***

Azərbaycan xalqı tarixən digər dinlərə həmişə dözümlü olmuş və onlara hörmətlə yanaşmışdır. Bu, Azərbaycan xalqının milli xüsusiyyətidir.

Rus Pravoslav Kilsəsi Bakı-Xəzəryanı Yeparxiyasının başçısı yepiskop Aleksandr ilə Prezident sarayında görüşdə söhbətindən
(15 fevral 1999-cu il)

***

Azərbaycan xalqı son dərəcə təvazökarlığı ilə fərqlənən bir xalqdır. Biz heç vaxt öyünən deyilik və əsrlərdən bəri belə olmuşdur. Biz öz məziyyətlərimizi göstərə bilmirik, bəzən də hətta onları gizlədirik. Bu, xalqımıza xas xüsusiyyətdir.

Məşhur Rusiya rəssamı Nikas Safronov ilə Prezident sarayında görüşdə söhbətindən
(29 iyun 1999-cu il)

***

Azərbaycan bütün müsəlman Şərqində nümunədir, burada Azərbaycana bərabər elə bir ölkə yoxdur ki, dünyəvi həyat tərzi belə erkən meydana gəlməyə başlasın və tez bir zamanda bütün xalq üçün, bütün cəmiyyət üçün həyat normasına çevrilmiş olsun.

Rusiya Federasiyasının Azərbaycandakı səfiri Aleksandr Bloxinlə Prezident saraynda görüşdə söhbətindən
(17 dekabr 1999-cu il)

***

İndi Azərbaycanı dünyanın hər yerində tanıyırlar. İndi hər bir azərbaycanlı qürur hissi keçirə bilər ki, mən azərbaycanlıyam, mənim millətimin dövləti, mənim millətim, ölkəm vardır.

İsveçrədəki Azərbaycan cəmiyyəti idarə heyətinin bir qrup üzvü ilə Davosda görüşdə çıxışından
(30 yanvar 2000-ci il)

***

Bizim millətimiz məğrur, cəsur, qəhrəman millətdir. Bizim millətimiz eyni zamanda çox dərdə dözümlü millətdir. Bunların hamısı ilə birlikdə, bizim millətimiz öz iradəsinə inanan və öz məqsədlərinə nail olmağa inanan millətdir.

Bakıda Qoşaqala qapısı önündə keçirilən Novruz bayramı şənliyində nitqindən
(21 mart 2000-ci il)

***

XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır.

Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən
(29 dekabr 2000-ci il)

***

Azərbaycan xalqı öz Şərq köklərindən ayrılmayaraq, Qərb sivilizasiyasının sintezinə əsaslanan nadir bir mədəniyyət yaratmış, Qərbin mütərəqqi dəyərlərini Qafqazda, Yaxın və Orta Şərqdə yaymışdır.

Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar Strasburqda təntənəli mərasimdə çıxışından
(25 yanvar 2001-ci il)

***

Azərbaycan xalqı təkcə indi yox, hələ o vaxtlarda da ümumbəşəri dəyərlərlə, Avropa dəyərləri ilə Azərbaycanın milli-mənəvi dəyərlərinin inteqrasiyasına çalışmışdır.

Bakıda TRASEKA-nın daimi katibliyi ofisinin açılış mərasimində nitqindən
(21 fevral 2001-ci il)

***

Azərbaycan xalqı bütün bəşəriyyət qarşısında, dünya qarşısında sübut etdi ki, bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq, müstəqil yaşaya bilər, öz taleyinin sahibidir.

İçərisəhərdə ümumxalq Novruz bayramı şənliyində nitqindən
(21 mart 2001-ci il)

***

Bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının öz müstəqilliyini qorumaq əzmindən asılıdır. Xalqımız üçün qürur hissini yaradan, iftixar hissini verən odur ki, o, artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var.

Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümü münasibətilə təşkil olunmuş rəsmi qəbulda nitqindən
(18 oktyabr 2001-ci il)

***

Azərbaycan xalqı özünəməxsus və nadir bir mədəniyyət yaratmışdır. Bu mədəniyyətin əsasında müsəlman və xristian sivilizasiyalarının sintezi dayanır.

Roma papası II İohann Pavelin Azərbaycanın din, elm və incəsənət xadimləri ilə Prezident sarayında görüşdə nitqindən
(22 may 2002-ci il)

***

Biz - xalqımız, millətimiz Avropa dəyərlərini qəbul edib bu istiqamətdə inkişaf etmək istəyirik. Avropa dəyərləri çox böyük sahəni əhatə edir. Bunun ən böyük hissəsi insanların yaşayışıdır, ev şəraitidir və yaşadığı yerlərə göstərilən münasibətdir.

Azərbaycanın enerji təchizatı problemlərinə həsr olunmuş geniş müşavirədə yekun nitqindən
(19 dekabr 2002-ci il)

***

Dünyada Azərbaycan xalqı var, qədim tarixə malik olan, özü də çox zəngin tarixə malik olan Azərbaycan xalqı var. Dünyada müstəqil Azərbaycan dövləti var. Bizim xalqımızın, dövlətimizin hər şeyi var. Ölkəmizin gözəl təbiəti, təbii sərvətləri var.

Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri Fidan və Xuraman Qasımovaların yaradıcılığının 25 illiyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(20 dekabr 2002-ci il)

***

Azərbaycan xalqı dünyanın ən qabaqcıl xalqları sırasında öz layiqli verini tutub. Onun zəngin mənəvi aləmi, dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi özünə məxsus töhfələr, sivil dünya dəyərlərinə yiyələnmək qabiliyyəti artıq hamıya məlumdur.

Prezident seçkiləri ilə əlaqədar Azərbaycan xalqına müraciətindən
(1 oktyabr 2003-cü il)

VƏTƏNPƏRVƏRLİK VƏ ŞƏHİDLİK HAQQINDA

İndi gərək hər kəs Vətən, torpaq, namus yolunda öz payını versin, öz borcunu versin. Hamı borcludur. Heç kəs deyə bilməz ki, borclu deyil. Xalqın övladları bu torpaqda doğulub dünyaya gəliblərsə, atalarımızın, babalarımızın ruhu bizim üçün müqəddəs və əzizdirsə, öz borcumuzu verməliyik Bu, hamının borcudur.

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından
(21 sentyabr 1993-cü il)

***

Hamımız üçün bir böyük məfhum var. Azərbaycan respublikası - Azərbaycan xalqı. Bu məfhum ətrafında hamı sıx birləşməlidir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı milli televiziya və radio ilə xalqa müraciətindən
(2 noyabr 1993-cü il)

***

Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir.

Azərbaycandan başqa Vətənimiz yoxdur.

Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxışından
(4 noyabr 1993-cü il)

***

Azərbaycan öz oğullarına - təcrübəli hərbi mütəxəssislərə bu gün həmişəkindən daha çox möhtacdır. Elə mütəxəssislərə ki, həmvətənlərini öz arxasınca aparmağa, düşmənin qarşısında igidliklə durmağa, onu pərən-pərən salıb doğma torpaqdan qovmağa qadirdirlər.

Cəbhəyanı bölgədə – İmişli, Füzuli Beyləqan, Şəmkir, Ağcabədi rayonlarında və Gəncə şəhərində görüşlər zamanı çıxışlarından
(11-12 dekabr 1993-cü il)

***

Torpağın, Vətənin müdafiəsi hər birimiz üçün ən ülvi, ən uca, ən müqəddəs vəzifədir.

«Vətəndaş» sözü böyük sözdür, müqəddəs sözdür. «Vətəndaş» sözü o deməkdir ki, hər bir vətəndaş öz Vətəninə sadiq olmalıdır, onu göz bəbəyi kimi qorumalıdır və Vətəninin uğrunda, torpağının uğrunda, anasının, atasının müdafiəsi yolunda şəhid olmağa hazır olmalıdır.

Azərbaycanın milli qəhrəmanları və vətənimizin azadlığı uğrunda şəhidlərin ailə üzvləri ilə görüşdə çıxışından
(27 dekabr 1993-cü il)

***

Bütün valideynlərə müraciət edirəm: övladlarınıza daha yaxşı tərbiyə verin. Onları vətənpərvərlik əhval-ruhiyyəsi ilə tərbiyələndirin. Uşaqlarınıza valideyn kimi öz təsirinizi göstərin və bildirin ki, Vətəni qorumaq ən yüksək, şərəfli vəzifədir. Bu vəzifəni həyata keçirmək üçün hər bir Azərbaycan vətəndaşı canını qurban verməyə hazır olmalıdır.

Hərbi hissələri özbaşına tərk etmiş və ya çağırışdan yayınmış gənclərin bir qrupu, onların valideynləri və yaxın qohumları ilə görüşdə çıxışından
(2 yanvar 1994-cü il)

***

Respublikanın bu ağır dövründə hər bir azərbaycanlı, damarlarında azərbaycanlı qanı axan hər bir insan gərək Vətənin bu gününə yansın, münasibətini bildirsin, kömək etsin.

Xaricdə yaşayan soydaşlarımızın bir qrupu ilə görüşdə çıxışından
(9 yanvar 1994-cü il)

***

İlk şəhidlərimiz burada, indi Şəhidlər Xiyabanı adlanan yerdə (keçmişdə biz ona Dağüstü Park deyirdik) dəfn ediliblər. Onlar Yanvar faciəsinin şəhidləridir. Ora müqəddəs yerdir, hər birimiz üçün ziyarətgahdır və müqəddəs yer kimi də tariximizdə qalacaqdır.

Bakıda 1990-cı ilin faciəli yanvar hadisələri zamanı şəhid olanların ailə üzvləri və həmin günlərdə yaralanıb əlil olanların bir qrupu ilə görüşdə çıxışından
(19 yanvar 1994-cü il)

***

Azərbaycan vətəndaşı olmaq böyük şərəfdir.

Türkiyənin ali məktəblərində təhsil almağa yola düşən azərbaycanlı tələbələrlə görüşdə çıxışından
(7 fevral 1994-cü il)

***

Əgər sən bir yerdə yaşayırsansa, sənin bir evin, koman varsa, onun sahibisənsə, onu qorumalısan. Əgər qoruya bilirsənsə, demək, sən namuslu, şərəfli adamsan, həm də doğrudan da vətənpərvər insansan. Əgər qoruya bilmirsənsə, sənin heç yaşamaq haqqın da yoxdur.

Türkiyədə rəsmi səfərdə olarkən orada yaşayan azərbaycanlılarla görüşdə çıxışından
(10 fevral 1994-cü il)

***

Şəhidlər vermişik, Allahın əmri ilə onların hamısı cənnətdədir. O şəhidlərin hamısı xalqımızın qəlbindədir. Onları heç vaxt unutmayacağıq.

Orucluq bayramı günü müqəddəs yerlərə ziyarətdə çıxışından
(14 mart 1994-cü il)

***

Biz Vətənə də Ana Vətən deyirik, torpağa da. Ana hər bir insan üçün müqəddəsdir. Azərbaycan xalqının ən böyük sərvəti ondan ibarətdir ki, o, əsrlər boyu qəhrəman, cəfakeş, dözümlü analar yetirmişdir.

Novruz bayramı münasibətilə xalqa müraciətindən
(20 mart 1994-cü il)

***

Gərək hamımız dərk edək ki, müstəqillik qazanmışıq, xalqımız azaddır, öz taleyini həll etmək imkanı var, Azərbaycan müstəqil dövlət kimi yaşamalı və inkişaf etməlidir. Bunun üçün hər bir kəsdə vətəndaşlıq hissi, Vətənin taleyi ilə yaşamaq hissi yüksək səviyyədə olmalıdır.

Əgər bu torpaqda yaşayan adam öz Vətəninin müdafiəsindən boyun qaçırırsa, onun burada yaşamağa haqqı yoxdur.

Prezident Sarayında pambıqçılıqda mövcud vəziyyət və səpin kampaniyasına hazırlıqla əlaqədar problemlərin həlli yollarına həsr olunmuş müşavirədə çıxışından
(30 mart 1994-cü il)

***

Xalqımız 5 il, 10 il, bəzən əsrlərlə əsarətə, əziyyətə, məhrumiyyətə dözüb. Ancaq mənliyini, inamını, milli qürurunu itirməyib.

Zuğulbadakı pansionatda müvəqqəti məskunlaşan qaçqınlarla görüşdə çıxışından
(21 may 1994-cü il)

***

Müharibə dövründə Vətənin müdafiəçilərinin bir qismi döyüşlərdə aldığı yaralardan şikəst, əlil olmuşdur. Onlar cəmiyyətimizdə ən hörmətli adamlardır. Bu adamlara qayğı göstərmək, onların problemlərini həll etmək hamının borcudur.

Vətənimizi qorumaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün Azərbaycanın hər bir namuslu, qeyrətli vətəndaşı öz köməyini əsirgəməməlidir.

Suraxanı Neft Yatağının sənaye üsulu ilə istismarına başlanmasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxışından
(26 avqust 1994-cü il)

***

Müharibə dövründə Vətənin müdafiəçilərinin bir qismi döyüşlərdə aldığı yaralardan şikəst, əlil olmuşdur. Onlar cəmiyyətimizdə ən hörmətli adamlardır. Bu adamlara qayğı göstərmək, onların problemlərini həll etmək hamının borcudur.

Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, xalqımızın milli azadlığı uğrunda şəhid olanların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Allah onlara rəhmət eləsin! Şəhid ailələri hər birimizin qayğısını hiss etməlidir.

Mövlud bayramı münasibətilə Bakıda Təzəpir Məscidində təntənəli mərasimdə çıxışından
(26 avqust 1994-cü il)

***

Bakıdakı Şəhidlər Xiyabanı, şəhər və qəsəbələrimizdəki, kəndlərimizdəki şəhid məzarları gənclərimizin qəhrəmanlığının nişanəsidir, onların Vətən yolunda, xalq yolunda, müstəqil Azərbaycan uğrunda şəhid olduqlarını göstərən abidələrdir.

Bakıdakı 23 saylı orta məktəbdə Azərbaycanın milli qəhrəmanı Tahir Həsənovun xatirə lövhəsinin açılışına həsr olunmuş mitinqdə çıxışından
(3 sentyabr 1994-cü il)

***

Düşmənin Azərbaycanı parçalamaq, dağıtmaq, torpaqlarımızın bir qismini ələ keçirmək planlarının qarşısını almaq üçün, bu planları pozmaq, Azərbaycanı qorumaq üçün hamının bir məqsədi olmalıdır.

Ümumxalq nümayəndələri toplantısından
Respublika sarayı
(28 noyabr 1994-cü il)

***

Azərbaycanın kənd zəhmətkeşləri - kəndlisi, torpaqla bağlı olan hər bir insanı həmişə namuslu, qeyrətli insan olubdur. Xalqımızın içərisində torpaqla bağlı olan adamlar həmişə Vətənə daha çox sədaqətli olan adamlardır. Onlar Vətənə daha bağlı olublar. Çünki torpağa bağlıdırlar.

Aqrar bölmədə iqtisadi islahatlara həsr olunmuş geniş müşavirədən
Prezident Sarayı
(23 dekabr 1994-cü il)

***

Xalq həmişə azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.

Qəhrəman Azərbaycan balalarının tankın altına düşüb əzilməsi faktını göstərməklə kifayətlənməyib, onların qəhrəmanlığını, cəsurluğunu, ölümün gözünə dik baxaraq təcavüzkarın qarşısına çıxmalarını da təsvir etmək lazımdır. Bəlkə də bu, daha çox lazımdır. Təəssüf ki, buradakı əsərlərin arasında mən belələrini görmədim. («Qanlı Yanvar» rəssamlıq sərgisindən söhbət gedir). Ola bilər bu ondan irəli gəlir ki, biz Yanvar hadisələri baş verəndən indiyədək bununla əlaqədar ancaq ağlayırıq. Şübhəsiz ki, kədərimiz, qəm-qüssəmiz böyükdür. Ancaq kədərlənməklə yanaşı, xalqımız göstərdi ki, Azərbaycanın qəhrəman oğulları o böyüklükdə Sovet İttifaqının ordusu qarşısında dayanmağa qadirdirlər.

"Qanlı Yanvar" rəssamlıq sərgisinin açılışında çıxışından
Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi
(18 yanvar 1995-ci il)

***

...Cəmiyyət haradan olursa-olsun, nədən olursa- olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir.

Təhsil işçilərinin bir qrupu ilə görüşdən
Prezident sarayı
(12 fevral 1995-ci il)

***

Hər bir vətəndaş Vətənimizin, xalqımızın taleyi ilə yaşamalıdır.

"15-17 Mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyət" mövzusuna
həsr olunmuş ümumxalq nümayəndələri toplantısında nitqindən
Respublika Sarayı
(23-24 iyun 1995-ci il)

***

Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, torpağa, millətə sədaqət, Vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.

Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər
törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə çıxışından
Prezident Sarayı
(18 oktyabr 1995-ci il)

***

Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-

mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır....

Azərbaycançılıq hissiyyatını gənclərdə yaratmaq lazımdır. Azərbaycanı sevmək azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir. Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycan dövlətləri daha da geniş ərazidə olmuşdur. İndi bizim Azərbaycandan savayı, dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Amerika qitəsində də, Avropa qitəsində də, Asiya qitəsində də azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlıdırlar, onlar da azərbaycançılıq hissləri yaşamalıdır, onlar da özlərini azərbaycanlı kimi hiss etməlidirlər, onlar Azərbaycanla bağlı olmalıdırlar.

Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda nitqindən
Respublika Sarayı
(2 fevral 1996-cı il)

***

Biz Azərbaycanın hər bir yerini doğma Vətən kimi sevməliyik. «Kim haralıdır, oranı sevir» kimi əhval-ruhiyyəni aradan götürmək lazımdır. Vətən hamımız üçün Vətəndir. Vətənin hər bir yeri, hər bir nöqtəsi bizim üçün Vətəndir.

Şuşa və Laçın rayonları sakinlərinin bir qrupu ilə görüşdən
Prezident Sarayı
(6 may 1996-cı il)

***

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü yolunda, torpaqlarımızın müdafiəsi yolunda canlarını qurban vermiş Azərbaycan övladlarının xatirəsini qəlbimizdə əbədi olaraq yaşadacağıq. Eyni zamanda biz o igidlik nümunələrindən istifadə edərək xalqımızda qəhrəmanlıq əhval-ruhiyyəsini daha yüksəklərə qaldırmalıyıq. Bu, bizim müstəqilliyimizi, ərazi bütövlüyümüzü qorumaq üçün əsas şərtdir, əsas amildir.

Milli Bayram – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika Sarayı
(26 may 1996-cı il)

***

Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir.

Almaniyadakı Azərbaycan cəmiyyətlərinin sədrləri və Azərbaycan cəmiyyətləri federasiyasının nümayəndələri ilə görüşdə çıxışından
Bonn
(1 iyul 1996-cı il)

***

Şəhidlər vətənini sevən əsl Azərbaycan gəncləri olublar.

Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir metrini də, bir qarışını da heç kəsə verməyəcəyik.

Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalının üçüncü ildönümü ilə əlaqədar həmin bölgələrin ictimaiyyətinin nümayəndələri ilə görüşdən
Prezident Sarayı
(7 sentyabr 1996-cı il)

***

Əminəm ki, hər bir Azərbaycan vətəndaşı yaxşı bilir - Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir.

Naxçıvanın sərhəd dəstəsinin əsgər və zabitləri ilə görüşdə çıxışından
(30 oktyabr 1996-cı il)

***

20 Yanvar gününü xatırlayarkən hər birimiz eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi.

Ümumxalq hüzn gününə, şəhidlərin anılmasına həsr olunmuş xatirə gecəsi başa çatdıqdan sonra ədəbi-bədii kompozisiyanın iştirakçıları – incəsənət ustaları ilə görüşdə çıxışından
Respublika Sarayı
(20 yanvar 1997-ci il)

***

Respublikamızın müstəqilliyini qoruyub saxlamaq üçün lazım olan tədbirləri görərək daim gənclərə arxalanırıq, güvənirik.

Müstəqil Azərbaycan Respublikası gənclərinin 1-ci forumunun birinci ildönümü münasibətilə forum nümayəndələrinin bır qrupu ilə görüşdən
Prezident Sarayı
(1 fevral 1997-ci il)

***

Harada yaşamasından asılı olmayaraq, heç bir azərbaycanlı öz Vətənini, ulu babalarını, dilini unutmamalıdır. Harada yaşayırsansa-yaşa, yaxşı da, pis də yaşasan, gərək ürəyin öz Vətəninlə, torpağınla döyünsün. Gərək nəbzin Vətənin nəbzi ilə vursun. Bu vətənpərvərlik hissi bizim hər birimizdə olmalıdır.

Ukraynadakı Azərbaycan Diasporunun nümayəndələri ilə görüşdə çıxışından
(25 mart 1997-ci il)

***

Əminəm ki, bizim bugünkü nəsil və gələcək nəsillər indiyə qədər yaşamış, yaratmış, qurmuş, mübarizə aparmış, döyüşmüş əcdadlarımızdan, bizdən əvvəlkilərdən daha da qəhrəman, sədaqətli olacaq, öz vətənlərinə, xalqına, müstəqil Azərbaycana canla-başla xidmət edəcəklər.

İkinci Dünya Müharibəsində alman faşizmi üzərində qələbənin 52-ci ildönümü münasibətilə iki dəfə sovet ittifaqı qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarı önündə keçirilən mərasimdə nitqindən
(9 may 1997-ci il)

***

Hər bir gənc ailəsindən, ata-anasından, tutduğu vəzifəsindən, yaxud da maddi vəziyyətindən asılı olmayaraq, Azərbaycan milli ordusunda xidmət etməlidir.

Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən Respublika sarayı
(27 may 1997-ci il)

***

Hər bir azərbaycanlı fəxr etməlidir ki, nəhayət, Azərbaycan xalqının dünya birliyinə daxil olan müstəqil dövləti vardır. Bu, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir.

Amerikadakı Azərbaycan mədəniyyət cəmiyyətinin nümayəndələri ilə görüşdə nitqindən Çikaqo
(4 avqust 1997-ci il)

***

Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar Vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar.

Azərbaycan Respublikasının "Gənclər" meydanında Qoşa qala qapısı önündə keçirilən Novruz bayramı şənliyində nitqindən
(21 mart 1998-ci il)

***

Vətənin, ölkəmizin müdafiəsi uğrunda şəhid olmuş insanların adı daim qəlbimizdədir, onların xatirəsi bizim üçün əzizdir, onlar bizim üçün unudulmazdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycanın milli qəhrəmanlarına və şəhid olmuş milli qəhrəmanların ailə üzvlərinə, valideynlərinə "Qızıl ulduz" medallarının təqdim edilməsi mərasimindən
Prezident iqamətgahı
(5 may 1998-ci il)

***

Qarşımızda duran ən vacib və taleyüklü vəzifələrdən biri əl-ələ verərək dünya azərbaycanlılarının hər hansı bir ölkədə və mühitdə yaşamaq, fəaliyyət göstərmək, özünün milli-mənəvi dəyərlərini qorumaq, inkişaf etdirmək, beynəlxalq aləmdə mədəni, istedadlı, qədim tarixə və demokratik dövlətə malik olan xalq kimi təmsil olunmaq hüququnu təmin etməkdir.

Dünya azərbaycanlilarina
(24 dekabr 1998-ci il)

***

Biz fəxr edirik ki, Azərbaycan xalqının milli mənliyini qorumaq üçün öz canından keçməyə hazır olan övladları vardır.

Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikindən
(18 yanvar 1999-cu il)

***

Azərbaycanın suverenliyi, milli azadlığı, müstəqilliyi, torpaqların müdafiəsi yolunda şəhid olmuş insanlar bizim ən əziz insanlarımızdır. Onların qəhrəmanlıqları, onların Azərbaycan xalqı qarşısındakı böyük xidmətləri heç vaxt unudulmayacaqdır və Azərbaycan xalqının qəlbində onların xatirəsi daim yaşayacaqdır.

Mən vətənin müdafiəsi uğrunda döyüşlərdə şikəst, əlil olmuş insanlarla dəfələrlə görüşərkən o qənaətə gəlmişəm ki, bu insanlar nəinki qəhrəmandırlar, nəinki Azərbaycan qarşısında böyük xidmətlər ediblər, o cümlədən də bununla bərabər, onlar bugünkü cəmiyyətimizin çox dəyərli üzvləridirlər və Azərbaycanın bugünkü həyatında, cəmiyyətində
böyük rol oynayırlar.

Bakının Qaradağ rayonu, Lökbatan qəsəbəsində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilmiş yaşayış evinin istifadəyə verilməsi mərasimində nitqindən
(30 iyun 1999-cu il)

***

Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Gərək dövlətinə sadiq, xalqına sadiq vətəndaş olsun!

Respublikanın təhsil işçiləri və 1999-cu ildə ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə nitqindən
(31 avqust 1999-cu il)

***

Türk həmişə öz vətənini sevir, öz torpağını sevir, öz bayrağını sevir və vətən yolunda, torpaq yolunda həmişə şəhid olmağa hazır olubdur.

Türkiyənin Ankara şəhərində Gülhanə Hərbi Tibb Akademiyasında Xüsusi Cərrahiyyə şöbəsinin ayrı-ayrı palatalarında müalicə olunan zabit və əsgərlərlə görüşdə söhbətindən
(2 noyabr 1999-cu il)

***

Mən şəhidlərin ruhu qarşısında, xatirəsi qarşısında and içirəm ki, bizim müstəqilliyimiz yaşayacaq, inkişaf edəcək və əbədi olacaqdır.

“20 Yanvar Fondu”nun sədri Nəsib Azər (Ələkbərov), “20 Yanvar Cəmiyyəti”nin sədri Fərman Məmmədov, şəhid valideynləri İsmayıl Qasımov və Müzəffər Salahovla Prezident sarayında görüşdə söhbətindən
(20 yanvar 2000-ci il)

***

Bizim vətənimiz Azərbaycandır, o bizim doğma torpa imizdir. Bu vətən nə dünən, nə də ki, bu gün meydana gəlibdir. Bu vətən çoxəsrlik tarixə malikdir, bu vətən çoxəsrlik zəngin mədəniyyətə malikdir, bu vətəndə zəngin ənənələri, adətləri, öz xarakteri olan xalq yaşayır. Bu, xalqın xüsusiyyətidir, millətin xüsusiyyətidir. Bu olmasa, millət də olmaz. Millət isə olmasa, insan nə dərəcədə ağıllı olsa da, hər halda naqis insandır.

Moskvada Azərbaycanlıların Ümumrusiya Konqresinin təsis yığıncağında nitqindən
(22 iyun 2000-ci il)

***

Gərək orduda yüksək vətənpərvərlik ruhu, sağlam münasibətlər olsun. Gərək bizim orduda Azərbaycan dövlətçiliyinə, dövlətinə, Azərbaycan Ali Baş Komandanına daim sədaqət olsun.

Vətəni, torpağı, dövləti qorumaq peşəsi hər bir peşədən şərəflidir.

Silahlı qüvvələr gününə həsr edilmiş təntənəli mərasimdə nitqindən
(26 iyun 2000-ci il)

***

Hər bir azərbaycanlı düşünməlidir ki, o yaşadığı ölkənin layiqli vətəndaşı olmaqla yanaşı, həm də Azərbaycanı, onun mədəniyyətini, milli xüsusiyyətlərini təmsil edir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə müraciətindən
Bakı
(26 dekabr 2000-ci il)

***

Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir....

Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.

Siyasi baxışından və cəmiyyətdə mövqeyindən asılı olmayaraq, gərək hər bir vətəndaş düşünsün ki, müxtəlif yerlərdə Azərbaycana qarşı bəzi xəbis niyyətlər və bəd münasibətlər vardır. Bunların qarşısını almaq üçün Azərbaycanın daxilində birlik, həmrəylik yaranmalıdır.

Yeni Əsr və Üçüncü Minillik münasibətilə Azərbaycan xalqına müraciətindən
(29 dekabr 2000-ci il)

***

Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir.

31 Mart – Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciətindən
(27 mart 2001)

***

Hər kəs Azərbaycanın müstəqilliyini sevirsə, həqiqətən azərbaycanlıdırsa, həqiqətən Azərbaycanda fəaliyyət göstərmək istəyirsə, o öz doğma ana dilini - Azərbaycan dilini bilməlidir, o dildə yazıb-oxumalıdır və qəbul olunmuş latın əlifbasını mənimsəməlidir.

Azərbaycan Respublikasinin Silahli Qüvvələri gününə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(25 iyun 2001-ci il)

***

Vətən yolunda, torpaq yolunda, xalq yolunda şəhid olmaq bir tərəfdən ailə üçün, o insan üçün vaxtsız bir itkidirsə, ikinci tərəfdən bu, insanlığın və insan mənəviyyatının ən yüksək zirvəsinə çatmaq deməkdir.

Şəhid olan insan öz vətənpərvərliyi ilə, öz arzusu ilə, öz yüksək mənəviyyatı ilə torpaqlarımızı, vətənimizi qorumaq üçün döyüşlərə giribdir, şəhid olubdur. Yəni bu, onun özünün mənəvi istəyidir, özünün vətənpərvərlik hissiyyatlarıdır. Amma eyni zamanda biz bunu yüksək qiymətləndiririk. Baxmayaraq ki, döyüşlərə gedərkən o bilirdi ki, şəhid də ola bilər, əlil də ola bilər, xəsarət də ala bilər, onun ailəsi başsız da qala bilər. Ancaq Vətəni, torpağı qorumaq və şəhidliyi gözünün önünə alıb vuruşa getmək - bunlar hamısı onun daxili mənəviyyatının bəhrəsidir. Biz bunları qiymətləndirməliyik.

Hər bir şəhid millətin mənəvi ucalığıdır. Şəhidlik milləti yüksəldən, milləti millət edən amillərdən biridir. Biz bunu yüksək qiymətləndirərək, şəhid olan insanın xatirəsini qəlbimizdə daim yaşatmalıyıq və eyni zamanda onun ailəsinə yardımımızı göstərməliyik.

Bakının Mehdiabad qəsəbəsində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş mənzillərin istifadəyə verilməsi mərasimində nitqindən
(30 iyun 2001-ci il)

***

Şəhidsiz Vətən yoxdur, şəhidsiz millət yoxdur, şəhidsiz xalq yoxdur.

Sərhəd Qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(18 avqust 2001-ci il)

***

Şəhidlərin xatirəsi bizim üçün həmişə əzizdir. Eyni zamanda onların şəhidliyi, qəhrəmanlığı hər bir Azərbaycan gənci, hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan əsgəri üçün nümunə olmalıdır.

Azərbaycan Ali Hərbi Məktəbinin birinci buraxılışına həsr olunmuş mərasimdə nitqindən
(25 avqust 2001-ci il)

Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.

Dünya azərbaycanlilarinin I qurultayında nitqindən
(10 noyabr 2001-ci il)

MİLLİ MÜNASİBƏTLƏR HAQQINDA

Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır.

Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışından
(15 iyun 1993-cü il)

***

Azərbaycan çoxmillətli respublikadır, çoxmillətli ölkədir. Burada əsrlər boyu bir çox millətlər birgə yaşayıblar, yaşayırlar və bundan sonra da yaşayacaqlar.

Azərbaycanın milli qəhrəmanları və vətənimizin azadlığı uğrunda şəhidlərin ailə üzvləri ilə görüşdə çıxışından
(27 dekabr 1993-cü il)

***

Azərbaycan çoxmillətli dövlətdir, milli mənsubiyyətindən asılı olmayaraq, onun bütün vətəndaşları bərabər hüquqlara malikdirlər.

Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər institutunda çıxışından
(23 fevral 1994-cü il)

***

Azərbaycan çoxmillətli dövlətdir. Onun bütün vətəndaşları milli mənsubiyyətindən, dini etiqadından və siyasi əqidələrindən asılı olmayaraq, bərabər hüquqlara malikdirlər. Hər bir Azərbaycan vətəndaşının özünü azad və bərabərhüquqlu hiss etməsi üçün ən əlverişli şərait yaradılır.

Çinə rəsmi səfər zamanı Pekində mətbuat konfransında bəyanatından
(8 mart 1994-cü il)

***

Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır.

Azərbaycanın İstiqlal bayramına – Respublika Gününə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(27 may 1994-cü il)

***

Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, kürd də, talış da, udin də, kumik də, başqası da hamısı bütünlükdə azərbaycanlıdır. Bu, "azərbaycanlı" sözü bizi həmişə birləşdirib.

Prezident sarayında Azərbaycanda yaşayan ləzgilərin nümayəndələri ilə görüşündən
(20 fevral 1995)

***

Azərbaycan Respublikası çoxmillətli respublikadır. Azərbaycanda yaşayan bütün xalqlar milli mənsubiyyətindən, dinindən, dilindən, siyasi dünyabaxışından asılı olmayaraq, hamısı eyni hüquqa malikdir və Azərbaycanın dövlət strukturlarında, ictimai təşkilatlarında bərabər hüquqla iştirak edir.

Bolqarıstan Xalq Məclisində çıxışından
Sofiya
(29 iyun 1995-ci il)

***

Azərbaycan vətəndaşları, Azərbaycan xalqı deyəndə, biz Azərbaycanda yaşayan bütün millətlərin birliyini dərk edirik.

Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda nitqindən
Respublika Sarayı
(2 fevral 1996-cı il)

***

Azərbaycanın zəngin beynəlmiləlçilik ənənələri var. Burada həmişə bir çox millətlərin nümayəndələri yaşamışdır və bu gün də yaşayırlar. Biz bunu Azərbaycanın sərvəti sayırıq, bunu qiymətləndiririk və qoruyub saxlamaq istəyirik.

Həştərxan televiziyasının müxbiri ilə müsahibəsindən
(15 fevral 1996-cı il)

***

Ən vacib borcumuz millətçiliyə, separatizmə, şovinizmə gedən yolları kəsmək, bunun qarşısını almaqdır.

Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiya dövlət başçılarının, habelə
Rusiya Federasiyasının subyektləri olan Şimali Qafqaz respublikaları,
diyarları və vilayətləri rəhbərlərinin görüşündə çıxışından
Kislovodsk
(3 iyun 1996-cı il)

***

Heç kəs düşünməsin ki, Ermənistanla Azərbaycan arasında daim düşmənçilik münasibətləri olmalıdır. Belə ola bilməz ki, qonşu ölkələr daim düşmən olsunlar. Avropada nə qədər ölkələr bir-biri ilə müharibə aparıblar. İllərlə, on illərlə müharibə aparıblar, yüz il müharibə aparıblar. Ancaq yenə də sülhlə qurtarıblar və sülh şəraitində də yaşayırlar.

Ağdam Rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının üçüncü ildönümü ilə əlaqədar Ağdam rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdən
Prezident Sarayı
(2 avqust 1996-cı il)

***

Azərbaycan çoxmillətli dövlətdir. Milli mənsubiyyətindən asılı olmayaraq, bütün adamların dini etiqad azadlığı, vicdan azadlığı və hüquq bərabərliyi bizdə tamamilə təmin edilmişdir.

BMT-də akkreditə olunmuş dünya dövlətlərinin daimi nümayəndələri – səfirləri ilə görüşdə çıxışından
(Nyu-York, BMT-nin binası)
(29 iyul 1997-ci il)

***

Azərbaycan demokratik bir ölkədir, demokratiya yolu ilə gedir və gedəcəkdir. Ölkəmizdə insan haqlarının qorunması Azərbaycan dövlətinin əsas məqsədlərindən biridir, siyasi plüralizm, mətbuat, din, vicdan azadlığı təmin olunubdur. Azərbaycan çoxmillətli ölkədir, bizdə milliyyətindən, dinindən, dilindən asılı olmayaraq, bütün vətəndaşlar eyni hüquqlara malikdirlər və bərabər hüquqla yaşayır, fəaliyyət göstərirlər.

Corctaun Universitetinin professor-müəllim heyəti, tələbələr, Amerika ictimaiyyətinin nümayəndələri, görkəmli siyasi və dövlət xadimləri, diplomatları ilə görüşdə çıxışından
Vaşinqton
(30 iyul 1997-ci il)

***

Azərbaycan bir çox əsrlər yəhudilər üçün də doğma vətən olubdur, yaşayış yeri olubdur. Yəhudilər azərbaycanlılarla birlikdə Azərbaycanda əsrlər boyu dostluq, mehribanlıq şəraitində yaşayıblar. Bu gün də yəhudilər Azərbaycanın tam bərabər hüquqlara malik vətəndaşlarıdır və Azərbaycan onlar üçün doğma vətəndir.

İsrailin Baş Naziri Benyamin Netanyahunun şərəfinə Azərbaycan Prezidentinin adından təşkil olunmuş rəsmi qəbulda nitqindən
Zuğulba, Prezident iqamətgahı
(29 avqust 1997-ci il)

***

Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra biz bəyan etmişik ki, respublikamız Azərbaycanda yaşayan bütün vətəndaşların milliyyətindən, dinindən, irqindən asılı olmayaraq, doğma vətənidir.

Xalqın azsaylısı, çoxsaylısı yoxdur. Xalqın hamısı xalqdır. Ona görə də Azərbaycanda yaşayan xalqların hamısı xalqdır, biz heç kəsi azsaylı xalq hesab etmirik, hamısı Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır, hamısı da birlikdə vahid Azərbaycan xalqıdır.

Şeyx Şamilin 200 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqindən
Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
(4 noyabr 1997-ci il)

***

Azərbaycanda əsrlər boyu azərbaycanlılarla yanaşı, yəhudilərin rahat və sərbəst yaşaması bizim bir xalq kimi xeyirxah, sülhsevər xalq olduğumuzu nümayiş etdiribdir. Azərbaycanda yəhudilərin azərbaycanlılar arasında mövcud olan və tarix boyu hökm sürmüş dostluq münasibətləri buna əyani sübutdur. Bizim ölkəmizdə - müstəqil Azərbaycanda yaşayan hər bir kəs dilindən, dinindən, milliyyətindən asılı olmayaraq, bərabər hüquqlara malik Azərbaycan vətəndaşıdır. Azərbaycanda yaşayan yəhudilər Azərbaycan xalqının bu tarixi ənənələrindən həmişə bəhrələnmişlər, indiki zamanda isə müstəqil Azərbaycan dövlətinin qayğısı altındadırlar.

İsrail dövlətinin 50 illiyi münasibətilə təşkil olunmuş qəbulda
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən
(30 aprel 1998-ci il)

***

Azərbaycan hələ qədimdən bununla məşhurdur ki, müxtəlif millətlərə və dinlərə mənsub olan insanlar bu torpaqda özlərinə ikinci vətən tapmışlar.

Azərbaycanın Rus İcması Qurultayının nümayəndələrinə müraciətindən
(17 dekabr 1998-ci il)

***

Gürcü və Azərbaycan xalqları əbədi olaraq qardaşdır və biz bu qardaşlıq münasibətlərini gələcək nəsillərə ötürəcəyik.

Tbilisidə Gürcüstan ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən
(22 mart 2000-ci il)

****

Yəhudilər Azərbaycanda əsrlər boyu sərbəst yaşamış, öz həyatlarını qurmuş, Azərbaycanın həyatının bütün sahələrində fəaliyyət göstərmiş və Azərbaycanın inkişafında fəal iştirak etmişlər. Bu gün də müstəqil dövlətimizdə yəhudilər Azərbaycanın bərabər hüquqlu vətəndaşları kimi yaşayırlar.

İsrailin milli bayramı şərəfinə təşkil olunmuş rəsmi qəbulda nitqindən
(11 may 2000-ci il)

ERMƏNİ SEPARATİZMİ HAQQINDA

“Siyasi Bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadiyyat üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbeqyan Parisdə keçirdiyi bir mətbuat konfransında «Dağlıq Qarabağ Ermənistana verilməlidir» - demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdı. Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm. Azərbaycanın bu milli məsələsi ilə əlaqədar Qorbaçov, onunla mümkün olmasa, Liqaçov, Viktor Çebrikov və DTK sədri, eyni zamanda Siyasi Büro üzvü Kryuçkovla danışmaq istəyirdim. «Əlimdə sənədlər, sübutlar var, Qarabağ Azərbaycanın öz torpağıdır» - deyirdim. Onların mənə cavabı isə bu idi: «Biz Qarabağdakı erməni - azərbaycanlı münaqişəsi ilə bağlı problemi özümüz həll edəcəyik”.

“Teatralnaya jizn” jurnalının şöbə müdiri Andrey Karaulovla söhbətindən.
Moskva
(9 fevral 1990-cı il)

***

“Hadisələr 1987-ci ilin axırlarında baş vermişdi. Azərbaycanlıları Ermənistandan 1988-ci ilin əvvəllərində çıxartdılar. Həmin ilin fevral ayında Sumqayıt hadisəsi baş verdi. SSRİ Ali Sovetinin Rəyasət heyəti isə bu məsələnin müzakirəsinə yalnız iyul ayında başladı... Çox uzatdılar, bu iclası keçirtdilər və... əslində heç bir şeyi həll etmədilər.

DQMV haqqında məsələ Moskvada müxtəlif səviyyələrdə çoxlu müzakirə olunub, lakin heç bir nəticəsi olmayıb, vəziyyət isə orada getdikcə kəskinləşib. Əlbəttə, günahın çox hissəsi Azərbaycan və Ermənistanın rəhbərlərinin üzərinə düşür.

Azərbaycan KP MK-nın birinci katibi Vəzirov mürəkkəb vəziyyətdə özünü çox zəif göstərdi. Onun bu vəzifəyə təyin olunması ən böyük səhvdir. Onun partiya işi sahəsində lazımi təcrübəsi və siyasi hazırlığı yox idi. Uzun illər xaricdə işlədiyi üçün respublikadakı vəziyyətdən xəbərsiz idi.

Vəzirovu Azərbaycana gecə Liqaçov apardı. Səhərisi isə təqdim etdi və o, Azərbaycan KP MK-nın birinci katibi "seçildi". Respublikada heç kim onun namizədliyini irəli sürməmişdi. Büro üzvləri, partiya fəalları ilə əvvəlcədən məsləhətləşmə olmamışdı. Halbuki respublikada bu vəzifəyə layiq adamlar var idi. Sov.İKP-nin həmin kadr səhvi nəticəsində Azərbaycanın və DQMV-nin bütün iqtisadiyyatı dağıldı, vəziyyət dözülməz oldu.

Ermənistan Ali Sovetinin sessiyasının DQMV-nin plan və büdcəsini Ermənistanın 1990-cı il planına daxil etmək qərarı görünməmiş bir fakt idi. Məgər bu, Sov. İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin həmin işə ciddi surətdə qarışmasına əsas vermirdimi? Bəs nə oldu? Qərar qəbul olundu ki, Ermənistanın qərarı SSRİ

Konstitusiyasına ziddir. Ermənistan isə öz qərarını ləğv etmədi. Bu isə Azərbaycanda yeni narazılıq dalğası oyatdı, vəziyyət kəskinləşdi, dəmiryolunun dayanmasına səbəb oldu...”

“Naçalo” qəzetinə müsahibəsi
Aleksandr Şumski,
Aleksey Mitrofanov
"Şərq qapısı" qəzeti,
(2 sentyabr 1990-cı il)

***

“O vaxtlar doğrudan da, Qarabağ məsələsi qaldırılmışdı. Xatirimdədir, bir dəfə hətta yenə məcbur etmək istəyirdilər ki, Qarabağ məsələsinə baxılsın. O, bir neçə dəfə mənimlə məsləhətləşdi. Bu məsələnin qarşısı alındı. Ancaq sonra, – Cəmil Quliyev onu burada dedi, – bir neçə erməni, eləcə də Ermənistan çalışırdı ki, Azərbaycanın Ermənistanla sərhəd rayonlarında bəzi torpaqlarımızı öz torpaqları kimi əllərinə keçirsinlər. Onlar köhnə xəritələri – 28-ci ilin, yaxud da 29-cu ilin xəritələrini ortaya çıxarmışdılar. İki-üç il danışıqlar getdi. Bu danışıqları tək Vəli Axundov deyil, Məmməd İsgəndərov, Ənvər Əlixanov, ikinci katib Yelistratov birlikdə aparırdılar. Təəssüf ki, bu danışıqlar nəticəsində 1969-cu ilin may ayında Azərbaycanın Ali Soveti elə bir qərar qəbul etmişdi ki, həmin sərhədyanı torpaqlar guya Ermənistana mənsubdur və ona verilməlidir. Mən iyul ayında Azərbaycana rəhbər seçilən kimi bu məsələni bir ay müddətində təhlil etdim və həmin qərardan imtina etdim. Çox çalışdılar ki, bu qərar həyata keçirilsin, lakin mən buna imkan vermədim. Bu qərarın o vaxt necə qəbul olunduğunu da bilirəm. İndi bunu danışmağa ehtiyac yoxdur. Amma bununla onu demək istəyirəm ki, Şübhəsiz, o da həmin torpaqların verilməsini istəməmişdi. Ancaq həm yuxarıdan, Moskvadan olan təzyiqlər, həm sağdan, həm də soldan olan təzyiqlər birlikdə bu cür qərarın qəbul edilməsinə gətirib çıxarmışdı. İşlədiyi son illərdə Vəli Axundovun səhhəti zəifləmişdi. Bəzi Şəxslər bundan istifadə edərək onu vəzifədən götürməyə çalışırdılar. Çünki hər birisi hesab edirdi ki, Vəli Axundov vəzifədən götürülsə, onun yerinə o keçəcəkdir. Bax, bu, bizim bəlamızdır. O vaxtlar mən müşahidə edirdim və bu barədə Vəli Axundovla söhbət aparırdım. Mən ona böyük ürək ağrısı ilə dedim ki, bizim adamlar öz şəxsi məqsədləri üçün belə yollara gedirlər.”

Görkəmli alim və dövlət xadimi Vəli Yusif oğlu Axundovun
80 illiyinə həsr olunmuş yubiley yığıncağında nitqindən
(21 iyun 1996-cı il)

***

“Bəli, 1968-ci ildə, 1969-cu ildə Ermənistan Azərbaycana qarşı yenə də torpaq iddiaları ilə çıxış edibdir. Onlar Zaqafqaziya Kartoqrafiya İdarəsinin, gərək ki, 1932-ci ildə yaratdığı xəritələrdən o vaxt istifadə etmişdilər. Məlumdur, - gərək ki, bunu Həsən Həsənov da bilir – o vaxt o xəritələri yaradanların da hamısı ermənilər olmuşdular və Şübhəsiz ki, həmin xəritələri saxtalaşdırmışdılar. Təəssüf ki, bizim tərəf bu barədə sayıq olmayıbdır. Elə bizim millətimizə zərər vuran xüsusiyyətimiz bir də bundan ibarətdir ki, belə hallarda biz nəinki sayıq olmuruq, çevik də olmuruq. Amma təəssüf ki, müqabil tərəf bizdən sayıq da, çevik də olur, bəzən bizdən güclü də olur. Onlar bu xəritələri götürərək Azərbaycanın cürbəcür hissələrindən, Ermənistanla

sərhəd olan hissələrin-dən torpaqların iddiasına başlamışdılar. Mənim xatirimdədir, o vaxt mən respublikanın rəhbəri deyildim, amma rəhbər vəzifə tuturdum. Respublikanın o vaxtkı rəhbərləri Ermənistanın rəhbərləri ilə bir neçə dəfə görüşlər keçirdilər. 1968-ci ildə bir protokol da imzalamışdı. O protokol da indi arxivdə var, dünən onu mənə bir də göstərdilər. Ermənilər Naxçıvanın Ermənistanla sərhədində Sədərək rayonunun ərazisindən bir qisim torpaqları, sonra Ordubad tərəfdən Mehri ilə sərhəddə olan torpaqları, Gədəbəy rayonundakı – mənim xatirimdədir, orada bir Tağlar kəndi var idi, – Tağlar kəndini, sonra Qazax, Qubadlı və Laçın rayonlarından bir neçə hissə torpaqları iddia edirdilər. Təəssüflər olsun ki, Azərbaycanın o vaxtkı rəhbərləri də bununla razılaşmışdılar, protokol da imzalamışdı. 1969-cu ilin may ayında Azərbaycan Respublikasının Ali Sovetinin Rəyasət Heyəti, onun sədri mərhum İsgəndərov fərman imzalamışdı ki, o torpaqlar verilsin. Bunun icrası bir balaca ləngidi. Yaxşı ki, ləngidi. Bilirsiniz ki, 1969-cu ilin iyul ayında mən Azərbaycanın ovaxtkı Mərkəzi Komitəsinin birinci katibi seçildim. İndi mən o günləri xatırlayıram. Bir neçə gün idi ki, işləyirdim, bu məsələni gətirib mənim qarşıma çıxartdılar. Moskvadan da çox böyük təzyiq edirdilər ki, qərar qəbul olunub, tez edin, icrasına sərəncam verin. Dedim, bilirsiniz, bu qərar mayda qəbul olunub, əgər iyul ayına qədər icra edilməyibsə, imkan verin, mən onu bir araşdırım. Şübhəsiz ki, mən araşdırandan sonra gördüm ki, buna razılıq verə bilmərəm. Mən razılıq vermədim. Bu da məlumdur. Nə qədər ki, mən Azərbaycanda işlədim, o qərar həyata keçmədi. 1985-ci ildə Ermənistan tərəfi o qərarın həyata keçirilməsinə nail olmuşdur: Yenidən komissiyalar təyin edilmişdi, yenidən protokollar yazılmışdı, həmin o torpaqları, o cümlədən Naxçıvandan bir qisim torpaqları Ermənistana vermişdilər.”

“Bunları bilmək lazımdır. Mən hesab edirəm ki, əldən gedən torpaqlar nə vaxtsa qayıtmalıdır. Azərbaycanın tarixi torpaqları qayıtmalıdır. Xalqımız da daim bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur, hansılar nə vaxtsa əlimizdən gedibdir, nəyə görə əlimizdən gedibdir və Şübhəsiz ki, bunlar qayıtmalıdır. Biz də qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqlar. Ermənistanın Azərbaycana qarşı bu siyasəti XX əsrdə həmişə davam edibdir. Mən bu torpaqlarla əlaqədar məsələni dedim. 50 il bundan əvvəl, 1948-1953-cü illərdə azərbaycanlılar Ermənistandan deportasiya olunublar. O, Azərbaycan torpaqları idi də. Həmin torpaqlardan, hansılar ki, o vaxtlar – 1918, 1919, 1920-ci illərdə mübahisə nəticəsində Ermənistanın əlinə keçdi, ondan sonra – 40-50 il yaşayandan sonra – 1948-ci ildə hesab elədilər ki, azərbaycanlıları oradan tamamilə çıxartmaq lazımdır, sonra heç kim deməsin ki, bunlar Azərbaycan torpağı olubdur.”

Azərbaycan Respublikası konstitusiya komissiyasının iclasında nitqindən
(14 yanvar 1998-ci il)

***

“Konkret olaraq haqqında danışdığınız məsələyə gəldikdə, mən nə deyə bilərəm? Bizim ölkəmiz münaqişədən və separa¬tizmdən, ədalətsizlikdən hamıdan çox əziyyət çəkir. Hələ 11 il bundan əvvəl Azərbaycanda münaqişə – Dağlıq Qarabağla bağlı olan və Azərbaycan ərazisinin bir hissəsinə göz dikən Er¬mə¬nistan tərəfindən törədilmiş münaqişə başlandıqda, adamlar və dövlət xadimləri, o cümlədən və ələlxüsus Sovetlər İttifaqının rəhbərliyi çox uzaqgörməz oldular. Çox uzaq¬gör¬məz. Onlar görə bilmədilər ki, o vaxtlar təkcə Sovetlər İttifaqı məkanında deyil, həm də dünyada birinci olan bu münaqişə çox ağır

nəticələrə gətirib çıxara bilər. Çünki sepa¬ratizm çox yoluxucu təzahürdür. Əgər separatçılar bir yerdə nəyəsə nail ola bilirsə, eynilə bu cür əhval-ruhiyyəli, eynilə bu cür niyyətli adamlar digər yerdə də baş qaldırırlar."

Rusiya prezidentinin Yuqoslaviyada böhranin aradan qaldirilmasi üzrə xüsusi nümayəndəsi Viktor Çernomirdin və onu müşayiət edən şəxslərlə görüşdə söhbətindən
(20 aprel 1999-cu il)

***

"Biz həmişə separatizmin əleyhinə ol¬mu¬şuq və əleyhinəyik. Azərbaycan 12 ildir erməni separatiz¬min¬dən əzab çəkir, bu separatizm nəticəsində müharibə baş¬lanmış və ərazimizin 20 faizi artıq işğal olunmuşdur, bir mil¬yon vətəndaşımız müsibətli vəziyyətdədir, onlar çadırlarda yaşayırlar.

Lakin belə bir fakt barədə də deməliyəm. Biz MDB-nin iclaslarında sənədə separatizmin pislənməsi haqqında müd¬dəalar daxil olunmasında təklif edərkən Ermənistanın etirazı ilə rastlaşırıq və təəssüf ki, digər dövlət başçıları buna qarşı çıxa bilmirlər. Həmin müddəa sənəddən çıxarılır. Axı onlar o zaman düşünmədilər ki, bu separatizm Rusiyaya da çox böyük zərər vuracaqdır. Azərbaycan üçün separatizm bax, budur – bu, bizə müsibət gətirmişdir. Məgər biz se¬paratçıları – Rusiyanı parçalamaq istəyən adamları dəstək¬ləyə bilərikmi? Bu separatçılıq hərəkətləri ölkəmizi parça¬layırdı, ərazisizin 20 faizi işğal altındadır. Məgər biz bunu dəstəkləyə bilərikmi?"

Rusiyanın yanacaq və energetika naziri Viktor Kalyujnı ilə görüşdə söhbətindən
(21 sentyabr 1999-cu il)

***

"Biz həmişə bunu əsas tutmuşuq və bu gün də əsas tuturuq və bəyan etmişik ki, hər bir dövlətin ərazi bütövlüyünə tərəfdarıq. Artıq 12 ildir ki, biz erməni separatizmindən əzab çəkirik, bunlar başımıza gəlmişdir və bu gün də gəlir. Azərbaycanın ərazi bütövlüyünün pozulmasından, Azərbaycan ərazisinin 20 faizinin erməni silahlı birləşmələri tərəfindən işğal olunmasından uzun illərdən bəri əzab-əziyyət çəkirik. Biz bundan əzab-əziyyət çəkirik ki, bir milyon azərbaycanlı işğal edilmiş torpaqlardan qovulmuşdur, 6-7 ildir çadırlarda yaşayır. Biz bundan əzab-əziyyət çəkirik. Bu nə deməkdir? Bu, ekstremizm, separatizm, terrorizm deməkdir, bu, nəhayət, beynəlxalq hüququn pozulması, Azərbaycanın ərazi bütövlüyünün pozulması deməkdir. Ona görə də biz bu mövqelərdə möhkəm dayanmışıq, möhkəm."

Rusiya Federasiyası hökuməti sədrinin birinci müavini Nikolay Aksyonenko başda olmaqla Rusiyanın hökumət nümayəndə heyəti ilə görüşdə söhbətindən
Prezident sarayı
(5 noyabr 1999-cu il)

***

"Mən 14 il Azərbaycana başçılıq eləmişəm. Dağlıq Qarabağ muxtariyyətinin 1923-cü ildən yaranmasının tarixini çox yaxşı bilirəm. 1923-cü ildə Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycanın başına bir bəla olub, bilin. Düzdür, o vaxtlar buranı Ermənistana vermək istəyirdilər. Azərbaycanın rəhbərləri çalışıblar və nəhayət, nail olublar ki, o, Azərbaycanda qalsın. Qalmalı idi, amma muxtariyyət yox!

1923-cü ildə verilən o muxtariyyət Azərbaycanın içinə qoyulmuş bir bombadır, nə vaxtsa partlamalı idi. Sovet hakimiyyəti vaxtı bu, dəfələrlə qaldırılıbdır. Mənim xatirimdədir, - hələ burada başçı deyildim, Dövlət Təhlükəsizliyi Komitəsində idim, Vəli Axundov burada başçılıq edirdi, - bu məsələni iki dəfə qaldırmışdılar. Mən bu işlərdə iştirak edirdim, biz bunun qarşısını böyük çətinliklə aldıq. Çünki ildə bir dəfə, yaxud da, nə bilim, iki dəfə Ermənistanın 100–150 ən görkəmli adamları dünyada, Moskvada yaşayan adamları yazırdılar ki, «Dağlıq Qarabağı Ermənistana vermək lazımdır».

Yadımdadır, 1966-cı, ya 67-ci ildə idi, Moskvadan bir qərar gəldi. O vaxt Axundov məni çağırdı. Sov. İKP MK-nın qərarı idi, yazmışdılar ki, «Azərbaycan KP MK-ya – Axundova, Ermənistan KP MK-ya – Koçinyana tapşırılsın ki, bu məsələni müzakirə edib məruzə etsinlər». Bu, nə deməkdir? Deməli, Azərbaycanın məsələsini həll etməyi Ermənistana tapşırırlar. Elə bununla da onu həll edirdilər, - yəni «siz gedin, onlarla bu məsələni həll edin». O deyəcək ki, mənim olmalıdır, biz də deyəcəyik ki, yox.

Oturduq, məsləhətləşdik. Mən ona dedim ki, bilirsiniz, siz Moskvaya getməli və Brejnevlə görüşməlisiniz. Getdi və Brejnevi başa saldı. Brejnev anladı və özü o qərarı ləğv elədi. Bu, 67-ci ildə olan hadisədir.

1967-ci ildə Stepanakertdə, - indi biz ona Xankəndi deyirik, - üç nəfər azərbaycanlını maşının içində, şəhərin ortasında avtomobili yıxıb üstünə benzin tökərək yandırdılar. Mən onda KQB-nin sədri kimi oraya getmişdim, Nazirlər Sovetinin sədri Əlixanov da qrupa başçılıq edirdi. Mən 15 gün orada qalmışam, o vəziyyəti görmüşəm. Başa düşürsünüzmü? Amma nə oldu? Heç bir şey etmək mümkün olmadı. Dağlıq Qarabağ həmişə Azərbaycanda xüsusi bir statusa malik idi və həmişə də Ermənistana daha çox tabe idi, nəinki Azərbaycana.

Mən işlədiyim zaman bir çox tədbirlərin nəticəsində bu vəziyyəti dəyişdirdim. Məsələn, mən oraya dəmir yolu çəkdirdim. Sonra, mən burada olmayanda, bəzi adamlar məni günahlandırırdılar ki, Heydər Əliyev niyə dəmir yolu çəkdirdi. Dəmir yolu Ağdama qədər gəlmişdi, oradan da 11 kilometr dəmir yolunu çəkmirdilər. Bu, nə demək idi? Demək, onların əlinə əsas vermək lazım idi. Bir neçə fabrik tikmişdik. Dedilər ki, institut açaq, açdıq, amma o şərtlə açdım ki, orada erməni, rus fakültələri ilə bərabər, Azərbaycan fakültəsi də olsun.

Bu şeylərlə mən onların Azərbaycana bağlılığını müəyyən qədər təmin edirdim və mənim də orada təsirim çox böyük idi. Ancaq mən Azərbaycandan gedəndən sonra, təəssüf ki, 88-ci ildə olan hadisələrdən sonra xırda-xırda başladılar Dağlıq Qarabağa nəzarəti azaltdılar və onlar da bunu etdilər."

"İndi ilə o vaxt arasında fərq var. O vaxt sovet hökuməti idi, özü də onun güclü dövlət strukturu vardı, onu dəyişmək mümkün deyildi. Bir faktı də sizə deyim. 77-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunurdu. Konstitusiya komissiyası təyin olunmuşdu, sədri Brejnev idi, biz də onun üzvü idik, mən də Azərbaycanın nümayəndəsi idim.

Vaxtaşırı komissiyanın müzakirələri keçirdi. Bunları da o vaxt Mərkəzi Komitənin katibi vardı – akademik Ponomaryov – o aparırdı. Brejnev o qədər iştirak eləmirdi. Bir dəfə Moskvaya, komissiyanın iclasına gəldim. Gördüm, xeyli ərizə gəlib ki, «Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır». Gördüm ki, Ponomaryov deyir bunu komissiyanın müzakirəsinə qoymaq lazımdır – ermənilər ona da təsir göstərirdilər. Elə bu faktın özü ki, komissiyanın müzakirəsinə buraxılsın, başa düşürsüzmü, bu nə deməkdir?

Hələ komissiyanın iclasından bir gün qabaq mən buna nə qədər etiraz elədim, gördüm yox... Yenə də getdim rəhmətlik Brejnevin yanına. Ona dedim ki, bu nədir, belə şey ola bilməz! O, telefonu götürüb Ponomaryova zəng elədi ki, çıxar onu.

Nə qədər belə hallar, belə şeylər olubdur. Başa düşürsünüzmü? Mən Dağlıq Qarabağın vəziyyətini 50-ci illərdən özüm görürəm. Amma o vaxta qədər, 23-cü ildən 50-ci ilə kimi olan tarixi də mən yaxşı bilirəm. 14 il burada rəhbərlik edib, 5 il də Moskvada olduğum zaman bunların hamısını bilirəm. Bu, asan məsələ deyildir. Onları həmişə müdafiə ediblər – həm Rusiya, həm Avropa, həm Amerika.”

Azərbaycan yazıçılarının bir qrupu ilə görüşdə söhbətindən
Prezident sarayı
(10 noyabr 1999-cu il)

***

Bilirsiniz ki, separatizmin müxtəlif rəngi yoxdur, separatizm separatizm olaraq qalır. Azərbaycan xalqı üçün ağır faciəyə gətirib çıxaran Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsi deyilən münaqişənin səbəbi məhz erməni separatizmi olmuşdur. Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuşdur, bir milyondan çox azərbaycanlı öz yaşayış yerlərindən didərgin salınmışdır və onlar artıq 7-8 ildir çadırlarda yaşayırlar və biz bu münaqişəni indiyədək həll edə bilmirik. Bu, nəyin nəticəsində olmuşdur? Separatizm nəticəsində. Dağlıq Qarabağ Azərbaycanın tərkibində muxtar vilayət idi. Bu muxtar vilayət 1923-cü ildən mövcud idi. Dağlıq Qarabağ əhalisi ermənilər və azərbaycanlılar orada əsrlərdən bəri yaşayırlar. Hətta XIX əsrdən bəri. Doğrudur, ermənilər oraya köçürülüb gətirilmişlər. Yeri gəlmişkən, sizin bilməyiniz üçün deyim ki, ermənilər oranın aborigen, yerli sakinləri deyillər. Ermənilər oraya Rusiyanın İrandakı səfiri Qriboyedov tərəfindən təxminən 170-180 il əvvəl köçürülmüşlər. Çünki təqribən 1980-ci illərdə ermənilərin özləri Dağlıq Qarabağda İrandan bu torpaqlara köçüb gəlmələrinin 150 illiyini qeyd etmiş, hətta bu münasibətlə abidə də ucaltmışdılar. Yəni onlar bu yerlərin əzəli sakinləri deyillər. Buna baxmayaraq, çar imperiyası dövründə bu imperiya insanları istədiyi kimi məskunlaşdırdı. Belə olmuşdur. Amma insanlar normal yaşayırdılar. Doğrudur, münaqişələr baş verirdi, amma sonra onlar sakitləşirdi.

1988-ci ildə bu münaqişə meydana çıxdı. Bu, Dağlıq Qarabağ ermənilərinin separatizmi, lakin o vaxtlar Azərbaycan kimi, hələ Sovetlər İttifaqının müttəfiq respublikası olan Ermənistan tərəfindən idarə edilən və həm də Sovetlər İttifaqının rəhbərliyi, xüsusən Qorbaçov tərəfindən dəstəklənən separatizmdir. Biz bu separatizmdən əzab-əziyyət çəkirik. Məgər biz separatizmi dəstəkləyə bilərikmi? Biz dəfələrlə təkid etmişik ki, MDB sənədlərində yazılsın: separatizm əleyhinə mövqe. Amma Ermənistan çıxarır. Çıxarmasa da yazır ki, sənədi qeyd-şərtlə imzalayır. Ermənistan bu ifadə ilə razı deyildir.

"Həqiqət anı" televiziya proqramının aparıcısı Andrey Karaulov ilə müsahibəsindən
(21 iyun 2000-ci il)

***

"80-ci illərin ortalarından SSRİ rəhbərliyinin xüsusi himayəsi sayəsində erməni ekstremizmi və separatizmi yeni və daha təhlükəli şəkildə tüğyan etməyə başladı. Sonradan genişmiqyaslı müharibəyə çevrilmiş bu avantürist separatizmin nəticəsində on minlərlə dinc insan faciəli şəkildə məhv edilmiş, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün kimi qeyri-insani şəraitdə yaşamağa məhkum edilmişdir. 1990-cı ilin yanvarında SSRİ-nin o zamankı rəhbərliyi erməni separatçılarının yedəyində gedərək, xalqımıza qarşı qanlı qırğın törətdi. 1992-ci ilin fevralında erməni hərbi birləşmələri sovet qoşunlarının köməyi və birbaşa iştirakı ilə Xocalını yerlə-yeksan etdi. Heç bir hərbi zərurət olmadan minlərlə dinc sakin qəddarcasına öldürüldü, işgəncələrə məruz qaldı, əsir alındı.

Soyqırımı Azərbaycan xalqına böyük siyasi, maddi və mənəvi zərbələr vurmuşdur. Bütövlükdə XX əsr ərzində 2 milyona yaxın azərbaycanlı deportasiya və soyqırımı siyasətinin ağır nəticələrini öz üzərində hiss etmişdir.

Erməni millətçiləri və şovinistləri «böyük Ermənistan» xülyalarını həyata keçirmək üçün lap əvvəldən xalqımıza və ölkəmizə qarşı ustalıqla və davamlı surətdə informasiya və təbliğat müharibəsi aparmışlar. Total qarayaxma kampaniyası, çirkin təbliğat müharibəsi bu gün də davam edir. Ən müxtəlif üsul və vasitələrdən istifadə edən erməni şovinistləri dünya ictimai fikrini çaşdırır, Azərbaycanın və bütün Qafqazın tarixini saxtalaşdırır, azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparır, dünya ictimaiyyətinin nəzərində «əzabkeş, məzlum erməni xalqı» obrazı yaradırlar. Erməni icmaları, erməni lobbisi bu istiqamətdə onilliklər boyu ardıcıl iş aparır. Nəticədə ermənilərin Azərbaycan xalqına qarşı bu gün törətdiyi işğal və soyqırımı faktlarına biganə qalan dünya dövlətlərinin parlamentləri guya yüz il əvvəl baş verdiyi iddia edilən hadisələr barədə yanlış, siyasi konyunkturaya uyğunlaşdırılmış qərarlar qəbul edir və faktiki olaraq, öz hərəkətləri ilə təcavüzkarı şirniklendirirlər. Öz müvəqqəti və aldadıcı uğurlarından vəcdə gəlmiş erməni siyasətçiləri və ideoloqları, bütöv xalqlara nifrət ideologiyasının açıq və maskalanmış daşıyıcıları beynəlxalq hüquq normalarına meydan oxuyur, planetimizdə bərqərar olmuş sivil birgəyaşayış normalarını kobudcasına pozurlar."

31 mart – azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciətindən
27 mart 2001-ci il

***

"Azərbaycan xalqı terrorizmdən ən çox zərər görmüş və ən çox əziyyət çəkmiş xalqlardan biridir. Dağlıq Qarabağda təcavüzkar separatizmin meydana çıxması, onunla bərabər terrorizmin meydana çıxması və nəhayət, bunun böyük münaqişəyə, Ermənistan-Azərbaycan münaqişəsinə, müharibəsinə çevrilməsi – bunların hamısı dünyaya məlum olan faktlardır. Azərbaycanın indiyə qədər belə hadisələrdən nə dərəcədə zərər çəkdiyini yaxşı göstərir. "

Fransanın milli bayramı, Bastiliyanın alınması günü münasibətilə keçirilən rəsmi qəbulda nitqindən

14 iyul 2002-ci il

***

"1988-ci ildən ermənilərin Dağlıq Qarabağda başladıqları avantürist millətçi separatizmin qarşısı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi üzündən vaxtında alınmadı. 1990-1993-cü illərdə respublikamızda yaranmış siyasi və hakimiyyət böhranından, idarəsizlik və qarmaqarışıqlıqdan istifadə edən Ermənistan ordusu Azərbaycanın torpaqlarını işğal etdi, bir milyondan çox soydaşımızı qaçqın və köçkün vəziyyətinə saldı. Daxildə ölkə vətəndaşları bir-birinə qarşı silahlı toqquşmaya, qarşıdurmaya təhrik edildi, dövlətimizi və dövlətçiliyimizi məhv etməyə, dağıtmağa nə qədər səylər göstərildi. Biz bütün bunların qarşısını aldıq. Lakin xaos və anarxiya dövründə Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qaçqın və köçkünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik. Mən əminəm ki, biz bu məsələni də mütləq həll edəcəyik."

Azərbaycan xalqına müraciətindən
1 oktyabr 2003-cü il

ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ VƏ QAÇQINLAR HAQQINDA

Müstəqillik təkcə siyasi xarakter daşımır. Müstəqillik tək ondan ibarət deyildir ki, bizi beynəlxalq təşkilatlar tanıyıblar. Müstəqillik birinci növbədə odur ki, işğal olunmuş torpaqlarımız geri qaytarılsın. Ona görə də hamı birləşməlidir. Hamı ayağa qalxmalıdır, hamı səfərbər olmalıdır.

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından
(21 sentyabr 1993-cü il)

***

Biz işğal olunmuş torpaqlarımızı geri qaytarmalıyıq. Müstəqil dövlət kimi öz dövlətimizin hüdudlarını qorumalıyıq, öz müstəqilliyimizi qorumalıyıq.

Bakı Kondisioner zavodunda paytaxtın sənaye müəssisələri
əmək kollektivləri nümayəndələrinin mitinqində çıxışından
(28 sentyabr 1993-cü il)

***

Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz Vətənimizi qoruyuruq.

Səttarxan adına zavodun işə salınmasının 100 illiyi münasibətilə
zavodun kollektivi ilə görüşdə çıxışından
(24 iyun 1994-cü il)

***

Hər bir müharibənin sonu olmalıdır. Müharibənin sonu isə sülhdür. Amma sülh ədalətli olmalıdır. Bizim üçün sülh o deməkdir ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilməli, erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmalı, respublikamızın suverenliyi, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır.

Suraxanı neft yatağının sənaye üsulu ilə istismarına başlanmasının
90 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxışından
(26 avqust 1994-cü il)

***

Biz torpaqlarımızın azadlığını, ərazi bütövlüyümüzü təmin edəcəyik, müstəqil Azərbaycanın hüdudlarını bərpa edəcəyik.

Bakının gənclər meydanında – Qoşa Qala qapısı önündə Novruz şənliyində çıxışından
(21 mart 1996-cı il)

***

Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olur-olsun, canımızın, qanımızın bahasına da olsa, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik. Bu, qarşımızda duran vəzifədir və biz onu nəyin bahasına olur-olsun, yerinə yetirəcəyik.

Norveçdə azərbaycan diasporunun nümayəndələri ilə görüşdə çıxışından
(24 aprel 1996-cı il)

***

Biz heç vaxt Azərbaycan torpaqlarının bir qarışını, bir metrini də əlimizdən verməyəcəyik.

Naxçıvan hərbi qarnizonunun əsgər və zabitləri ilə görüşdə nitqindən
(30 oktyabr 1996-cı il)

***

Azərbaycanla Ermənistan daim düşmən olacaq - bu, mümkün deyil, belə olmayacaqdır. Zaman keçəcək, biz sülh əldə edəcəyik, qonşuluq münasibətlərimiz, ticarət və iqtisadiyyat sahəsində əlaqələr bərpa olunacaqdır. Bu həm Ermənistan, həm də Azərbaycan vətəndaşlarının, həm erməni xalqının, həm də Azərbaycan xalqının rifahı naminə olacaqdır.

ATƏT-in Lissabon zirvə toplantısının yekunları ilə əlaqədar respublika ictimaiyyətinin nümayəndələrilə görüşdən sonra Azərbaycanın və xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün bəyanatından
Prezident sarayı
(6 dekabr 1996-cı il)

***

Xalqımızın haqq işi qalib gələcəkdir. Şəhid balalarımızın ruhlarının şad olacağı gün - Vətən torpağının mənfur düşmən tapdağından tamamilə azad ediləcəyi və taleyinə qaçqınlıq, köçkünlük düşmüş həmvətənlərimizin öz doğma yerlərinə qayıdacaqları gün uzaqda deyildir.

Qurban Bayramı münasibətilə Azərbaycan xalqına təbrikindən
(16 aprel 1997-ci il)

***

Biz heç vaxt ərazimizin bir qarışının da belə heç kəsə verilməsinə razı olmayacağıq. İşğal olunmuş torpaqlarımız nəyin bahasına olur olsun, azad ediləcək, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunacaq.

Qırğızıstan Prezidenti Əsgər Akayevin M. Ə. Rəsulzadə adına BDU-nun tələbə şəhərciyində müvəqqəti yerləşdirilmiş qaçqınlarla görüşündə çıxışından
(23 aprel 1997-ci il)

***

Biz Azərbaycanın ərazi bütövlüyünün pozulmasına yol verə bilmərik ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılsın.

Rusiya Elmlər Akademiyasının üzvləri ilə görüşdə nitqindən
(3 iyul 1997-ci il)

***

İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan — İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Mən güman etmirəm ki, o torpaqlardan İslam əbədi olaraq silinibdir, - mən belə hesab etmirəm. İslam harada olubsa, ora bir də gələcəkdir. Mən buna inanıram. İnanıram ki, o yerlərin sahibləri - müsəlmanlar, azərbaycanlılar oraya qayıdacaqlar. Ona görə o yerləri İslamın xəritəsindən heç vaxt silmək olmaz.

"İslam Sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun iştirakçılarının Prezident sarayında böyük bir qrupu ilə görüşdə çıxışından
(10 dekabr 1998-ci il)

***

Hər dəfə xocalılarla görüşərkən mən qürur hissi keçirirəm. Bu qədər faciəli günlər keçirmiş, o dəhşətli, müdhiş gecəni yaşamış, ən əziz adamlarını gözlərinin qabağında itirmiş insanlar məğrurdurlar, mərddirlər. Hər biri vətən qayğısı, vətən, torpaq eşqi ilə yaşayır. Bu, xalqımızın nə qədər yüksək mənəviyyata malik olduğunu göstərir.

"Şevron Oversiz Petroleum İnk" şirkətinin prezidenti Riçard Matske ilə Prezident sarayında görüşdə söhbətindən
(22 fevral 1999-cu il)

***

İnanıram ki, ölkəmizdə sülhün və əmin-amanlığın tam bərqərar olacağı, işğal edilmiş torpaqlarımızın azad ediləcəyi, qaçqın və köçkün düşmüş soydaşlarımızın öz ev-eşiklərinə qayıdacaqları gün uzaqda deyildir.

Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikindən
(7 yanvar 2000-ci il)

***

Xüsusi qəddarlığı ilə seçilən təcavüz aktı təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı misli görünməmiş cinayət idi.

Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətindən
(24 fevral 2001-ci il)

***

Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və Ermənistan-Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin olunması əsasında, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər.

Azərbaycan xalqına Yeni il təbrikindən
(31 dekabr 2001-ci il)

***

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamı və ən qanlı səhifəsidir.

Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində anloqu az olan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları uzağa gedən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi.

Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətindən
(25 fevral 2002-ci il)

***

Bizim hamımızın bir böyük dərdi var - Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz elinə, obasına qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və bölgədə sülh yaratmaq.

Bakı şəhərinin Nizami rayonunda paytaxt sakinləri qarşısında nitqindən
(21 avqust 2002-ci il)

***

Biz heç vaxt yol verməyəcəyik ki, Azərbaycan torpaqları işğal altında qalsın. Biz buna heç vaxt yol verməyəcəyik! Nəyin bahasına olursa-olsun, Azərbaycanın işğal altındakı torpaqları azad ediləcəkdir!

Gəncə Olimpiya İdman Kompleksinin açılış mərasimində nitqindən
(12 sentyabr 2002-ci il)

TERRORİZM, EKSTREMİZM, RÜŞVƏTXORLUQ VƏ CİNAYƏTKARLIQ HAQQINDA

Bizim mənəviyyatımızı pozan rüşvətxorluq olub.

Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışından
(17 noyabr 1993-cü il)

***

Azərbaycanda müstəqil dövlət var. Azərbaycanın güclü dövləti var. Kim xalqına, dövlətinə sədaqətlə xidmət etmək istəyirsə, ona burada yer var, hamıya yer var. Azərbaycanda hər bir kəs üçün ver var. Amma kimsə xalqına xəyanət edəcəksə, rüşvətxorluq edəcəksə, vəzifəsindən sui-istifadə edəcəksə, cürbəcür çirkin yollara gedəcəksə, ayrı-ayrı mafioz qruplarla birləşəcəksə, gedib orada-burada yenə də vəzifə uğrunda mübarizə aparacaqsa, onlara bizim cəmiyyətdə yer yoxdur.

Respublikada aqrar islahatların gedişi və kənd təsərrüfatında vəziyyətə həsr olunmuş müşavirədən
Prezident sarayı
(14 aprel 1995-ci il)

***

Dünyanın bir çox bölgələrində ölkələri, insanları, xalqları narahat edən problemlər separatizm problemidir, terrorizm problemidir, hərbi münaqişələr problemidir. Biz bütün dünyada, dünyanın hər bir bölgəsində separatizmin əleyhinə olmuşuq və onun əleyhinə olmuşuq və onun əleyhinəyik.

Narkotiklərə nəzarət, narkomaniya və narkobiznes ilə mübarizə əsrimizin son illərində dünyada ümumbəşəri bir problem olmuşdur. Bu mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və şüuri sağlamlığı uğrunda aparılan mübarizədir.

Hər bir ölkədə narkomaniyanın qarşısının alınması üçün çox ciddi təşkilatı profilaktik tədbirlər görülməli, lazımi izahat işi aparılmalı, səhiyyə, təbliğat orqanları narkomaniyanın insan üçün, bəşəriyyət, cəmiyyət üçün nə qədər təhlükəli, faciəli olduğunu hərtərəfli açıb göstərməli və insanları bu xəstəliyə qurşanmaqdan çəkindirməlidirlər.

Narkotik maddələrin gizli, qeyri-qanuni istehsal olunması, onların qanunsuz dövriyyəsi, satılması, istehsal edilən ölkələrdən başqa ölkələrə gizli surətdə, qeyri-qanuni yollarla daşınması kimi hallar narkotik maddələrin, narkomaniya xəstəliyinin yayılmasına səbəb olan əsas amillərdir.

Azərbaycanın hüquq-mühafizə orqanları narkomaniya ilə və xüsusən narkobizneslə, o cümlədən narkotik maddələrin Azərbaycan ərazisindən daşınması halları ilə ciddi mübarizə aparmalı və onlar da bu vəzifələri özlərinin birinci dərəcəli vəzifəsi kimi qəbul etməlidirlər.

BMT-nin Yaxın və Orta şərqdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə nəzarət və bununla bağlı problemlər üzrə yardımçı komissiyasının 32-ci sessiyasında nitqindən
"Gülüstan" sarayı
(17 fevral 1997-ci il)

***

Dövlətlər bir-birinin daxili işlərinə qarışmamalıdırlar, heç nəyi zor gücünə həll etmək olmaz, hər bir ölkənin ərazi bütövlüyü qorunmalı və təmin edilməlidir, separatçılığa, təməlçiliyə, terrorçuluğa yol verilməməlidir.

Özbəkistan Prezidenti adından Azərbaycan Prezidentinin şərəfinə təşkil edilmiş rəsmi qəbulda nitqindən
(18 iyun 1997-ci il)

***

...Bütün həyatımızda insanlara mane olan rüşvətxorluq, vəzifədən sui-istifadə etmək, korrupsiya - bunlara qarşı qanunlar vasitəsilə mübarizə, bizim dövlət prinsipləri vasitəsilə mübarizə aparılmalıdır.

Azərbaycanda 1997-ci ilin birinci yarısında sosial-iqtisadi inkişafın yekunları, aqrar islahatı və özəlləşdirmənin gedişi, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məsələlərinə həsr olunmuş müşavirədən
Prezident sarayı
(19 iyul 1997-ci il)

***

Terrorizmlə, ekstremizmlə, dini fanatizmlə, davakar separatizmlə mübarizə hazırda bizim hamımız üçün xüsusi əhəmiyyət kəsb edir.

MDB ölkələrinin Müdafiə Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçıları ilə görüşdə söhbətindən
(15 may 2001-ci il)

***

Terrorçuluq təhlükəsinin tamamilə aradan qaldırılması və gələcəkdə heç bir xalqın, heç bir dövlətin belə dəhşətli sınaqlara və sarsıntılara məruz qalmaması üçün beynəlxalq ictimaiyyət, bütün dünya xalqları və dövlətləri səylərini birləşdirməli, terrorçuluğa qarşı barışmaz mübarizə əzmini əməli işdə və sıx əməkdaşlıqda sübuta yetirməlidirlər.

ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində baş vermiş dəhşətli terror hadisələri ilə bağlı bəyanatından
(11 sentyabr 2001-ci il)

***

Terrorçunun nə milliyyəti var, nə də dini var.

Küveyt–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Camal Hüseyn Fahat əl-Ömərin başçılıq etdiyi nümayəndə heyəti ilə Prezident sarayında görüşdə söhbətindən
(27 sentyabr 2001-ci il)

***

Terrorizmin meydana gəlməsinin səbəbi təcavüzkar separatizmdir. Təcavüzkar separatizm demək olar ki, terrorizmin anasıdır.

ABŞ-ın ATƏT-in Minsk qrupundakı həmsədri Rudolf Perina ilə Prezident sarayında söhbətindən
(25 oktyabr 2001-ci il)

***

Bu gün terrorizm müxtəlif cür dini pərdələr arxasında gizlənərək, diqqəti öz pozucu və dağıdıcı məqsədlərindən daha mahir bir şəkildə yayındırmağa cəhd göstərir. Bu pərdə, bu libas, bu xarici görkəm bizi çaşdırmamalıdır. Bütün bu libaslar altında terrorizmin əsl vəhşi sifəti görünür.

Terrorizmə "yox" deyən bəşəriyyət bütün səylərini səfərbər edərək onun mənəvi, iqtisadi, siyasi köklərini məhv etməyə can atmalıdır.

Terrorizm bəşəriyyətə qarşı yönəldilmiş qəddar əməllərin və niyyətlərin gerçəkləşməsinə xidmət etdiyi üçün onunla aparılan mübarizə də ardıcıl, mütəşəkkil və amansız olmalıdır.

Məhz bütün insanların gələcəyi naminə, bəşər sivilizasiyasının gələcəyi naminə biz hamımız mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoqunda ümumi dil taparaq ekstremizmə, terrorizmə, təcavüzkar separatçılığa dəstək verən qara, şər, pozucu qüvvələrin niyyətlərini puça çıxara bilərik.

"Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq konfransın açılış mərasimində nitqindən
(10 oktyabr 2002-ci il)

QADIN VƏ AİLƏ HAQQINDA

Qadın cəmiyyətin ən hörmətli üzvüdür. Hamı qadının qarşısında baş əyməlidir, hamı qadına hörmət etməlidir.

Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz. Azərbaycan qadınları da öz ağıllarına, zəkalarına görə, biliklərinə, istedadlarına görə, eyni zamanda gözəlliklərinə görə dünya qadınları içərisində özünəməxsus və çox yüksək yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik.

Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən təntənəli bayram mərasimində təbrik nitqindən
Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrı
(8 mart 1995-ci il)

***

Şərq aləmində ilk dəfə 20-ci illərin əvvəllərində Azərbaycan qadınının azad olması və kişilərlə bərabər hüquqlara malik olması elan edilibdir. Azərbaycan qadınının çadradan xilas olması xalqımızın həyatında tarixi bir hadisə olmuşdur.

Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(27 may 1997-ci il)

***

Azərbaycan qadınının tarixi çox böyükdür, zəngindir. Ancaq XX əsrdə Azərbaycan qadınının keçdiyi yol, əldə etdiyi nailiyyətlər həqiqətən dünya miqyasında bizim üçün böyük iftixar mənbəyinə çevrilmişdir.

Qadın çox ülvi bir məfhumdur. Qadına hörmət hər bir insanın ən yüksək mənəvi keyfiyyətə malik olmasını göstərir. Hər bir insan dünyada həyatına görə, bütün varlığına görə anaya borcludur. «Ana» sözü müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də «Ana Vətən» deyirik, torpağa da «Ana torpaq» deyirik. Hər bir insan üçün Vətəndən əziz heç bir şey yoxdur. Hər bir insan üçün onun doğma torpağından qiymətli heç bir şey yoxdur. Bu anlayışlar ana anlayışı ilə bərabərdir və biz Vətənə «Ana Vətən» deyəndə, vətənin nə qədər əziz, nə qədər qiymətli, müqəddəs olduğunu bir daha qeyd edirik. Anaya hörmət, hər bir insanın həyatda ana qarşısında borcunu yerinə yetirməsi onun ali vəzifəsi olmalıdır.

Azərbaycan qadınları eyni zamanda cəmiyyətimizi gözəlləşdirirlər, insanlarda sevinc, məhəbbət, nikbinlik hissləri yaradırlar.

8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş təntənəli gecədə nitqindən
Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
(7 mart 1998-ci il)

***

Azərbaycan tarixinin bütün dövrlərində böyük fitri istedada, dərin zəkaya, möhkəm iradəyə malik şair, hökmdar, döyüşçü qadınlar fəaliyyət göstərmişlər.

Azərbaycan qadınları qurultayına müraciətindən
Bakı şəhəri
(14 sentyabr 1998-ci il)

***

Azərbaycan qadını azadlıq əldə edəndən sonra sürətlə özü də inkişaf etmiş və cəmiyyətin də inkişaf etməsinin səbəbkarı, böyük iştirakçısı olmuşdur.

Qadın Azərbaycanda cəmiyyətin ən şöhrətli, ən hörmətli üzvüdür.

Beynəlxalq Qadınlar Gününə həsr olunmuş təntənəli gecədə nitqindən
(6 mart 1999-cu il)

***

Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynamışdır.

Azərbaycan gerçəkliyi şair və mütəfəkkirlərə qadınları həyat mənbəyi və müdriklik mücəssəməsi kimi vəsf etmək üçün zəngin tarixi material vermişdir.

Görkəmli Memar Əcəmi Naxçıvani tərəfindən ucaldılmış Möminə Xatun türbəsi əzəmətli memarlıq abidəsi olmaqla yanaşı, xalqımızın qadına göstərdiyi ehtiramın parlaq təcəssümüdür.

1921-ci il Azərbaycan tarixinə qadınların ilk qurultayı ili kimi daxil olmuşdur. Nəriman Nərimanovun məruzə ilə çıxış etdiyi bu qurultayın əsas qayəsini qadın azadlığı ideyaları təşkil edirdi.

Azərbaycan qadınları XX əsrdə qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keçmişlər. Onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir.

Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında prezidentin fərmanından
(6 mart 2000-ci il)

***

Azərbaycan qadını öz ağlı, zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə bizim xalqımızı, millətimizi daim ucaldıbdır.

“Gülüstan” sarayında 8 Mart - Beynəlxalq Qadınlar bayramına həsr olunmuş təntənəli mərasimdə nitqindən

(7 mart 2000-ci il)

***

Ana o deyil ki, uşağı dünyaya gətiribdir. Ana odur ki, uşağa tərbiyə verib, böyüdüb, uşağa təhsil verib, uşağa vətəndaşlıq vəsiqəsi veribdir.

"***Bakı SOS Uşaq Kəndi"nin istifadəyə verilməsinə həsr olunmuş mərasimdə nitqindən***
(2 noyabr 2000-ci il)

UŞAQ VƏ GƏNCLƏR HAQQINDA

Həm elm sahəsində, həm təhsil sahəsində, ədəbiyyat, mədəniyyət sahəsində və bizim mənəvi mənbəyimiz olan din sahəsində, İslam dini sahəsində tarixi ənənələrimizdən istifadə edərək gənclərimiz üçün bütün dünyaya geniş yol açmaq lazımdır.

Azərbaycanın genofondu gənclərdir. Biz onları hərtərəfli qorumalıyıq.

Gənclərimizin borcudur ki, Azərbaycan daim müstəqil dövlət olsun, Azərbaycan xalqı bir millət kimi dünyada öz yerini tuta bilsin, gələcəyə daha da uğurla gedə bilsin, dünya millətləri, xalqları arasında aşağı səviyyədə durmasın, ümumdünya səviyyəsində olsun.

Azərbaycanda milli azadlıq hərəkatı geniş yayılmışdır və bunun aparıcı qüvvəsi gənclər olmuşdur.

Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışından
(22 sentyabr 1993-cü il)

***

Müstəqil Azərbaycanın gələcəyi gənclərin əlindədir, gənclərə veriləcəkdir. Ona görə də məktəbdə gənclərimizi nə qədər yaxşı, hərtərəfli hazırlasalar, müstəqil Azərbaycanın gələcəyi də o qədər müvəffəqiyyətli, uğurlu, parlaq olacaqdır.

Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə çıxışından
(31 avqust 1994-cü il)

***

Azərbaycanın gəncləri, uşaqları ölkəmizin, xalqımızın milli sərvətidir, gələcəyidir və ümididir. Ona görə də uşaqlara qayğı göstərmək hər bir vətəndaşın borcudur.

Biz uşaqlarımızı yaxşı tərbiyə etməliyik, yaxşı şəraitdə yaşatmalıyıq. Uşaqlarımıza təhsil verməliyik. Onları gələcək üçün hazırlamalıyıq.

Əziz balalarım, siz oxuyub, təhsil alıb özünüzü cəmiyyətdə işləmək, xalqa xidmət etmək üçün hazırlamalı, düşünməlisiniz ki, Azərbaycanın müstəqilliyini gələcəkdə siz irəli aparacaqsınız, Azərbaycanın gələcəyini siz təmin edəcəksiniz.

Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin və BMT-nin Beynəlxalq Uşaq Fondu – YUNİSEF təşkilatının birgə təşkil etdiyi "uşaqlar dünyanın sevincidir" xeyriyyə telemarafonu münasibətilə televiziya studiyasında uşaqlarla görüşdə çıxışından
(11 dekabr 1994-cü il)

***

Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir.

Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır.

Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir.

Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir.

Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir.

Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda nitqindən
Respublika Sarayı
(2 fevral 1996-cı il)

***

Nə qədər çox sülh, əmin-amanlıq olarsa, gələcək nəslimiz daha yaxşı, daha firavan yaşayacaq, yaxşı təhsil, tərbiyə alacaq, gələcək üçün hazırlaşacaqdır.

Gərək hər bir xeyirxah, imkanlı adam uşaq evinə qayğı göstərməyi, kömək etməyi, orada təlim-tərbiyə alan, yaşayan uşaqların vəziyyətini yüngülləşdirməyi özü üçün şərəfli bir vəzifə hesab etsin.

Şəhid uşaqları və kimsəsiz uşaqlar üçün təşkil olunmuş novruz şənliyində çıxışından
"Gülüstan" Sarayı
(20 mart 1996-cı il)

***

Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi necə tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır. Ona görə də bu, bizim müqəddəs borcumuzdur.

Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə uşaq musiqi
festivalı qaliblərinin yekun konsertində çıxışından
Azərbaycan Dövlət Opera və Balet Teatrı
(1 iyun 1996-cı il)

***

Uşaqlara, gənclərə qayğı və diqqət Azərbaycan dövlətinin, hökumətinin, prezidentinin ümdə vəzifəsidir və əsas borcudur.

Bakı Şəhər İcra Hakimiyyətinin şəhid övladları və kimsəsiz uşaqlar üçün keçirdiyi yeni il şənliyində çıxışından
Respublika Əl Oyunları stadionu
(31 dekabr 1996-cı il)

***

Gənclik dövründə boş, mənasız keçirilən bir gün sonra böyük itkilərə gətirib çıxarır.

Hər gündən, dəqiqədən səmərəli istifadə olunmalıdır ki, gənc nəslimiz yaxşı bilik, təhsil alsın, elmin, həyatın bütün sahələrində olan təcrübəni mənimsəsin, həyatda, cəmiyyətdə həm özü, həm də ölkə xalq üçün faydalı olsun.

Milli ideologiya konsepsiyası haqqında danışanda gəncləri birinci növbədə Azərbaycanın müstəqilliyi prinsiplərinə sadiq olmaq ruhunda tərbiyə etmək lazımdır.

Milli, mənəvi, ümumbəşəri dəyərlərin hamısı birlikdə bütün vətəndaşlarımızın və xüsusən gənclərimizin mənəvi kodeksini təşkil etməlidir.

Müstəqil Azərbaycan Respublikası gənclərinin 1-ci forumunun birinci ildönümü münasibətilə forum nümayəndələrinin bir qrupu ilə görüşdə çıxışından
Prezident Sarayı
(1 fevral 1997-ci il)

***

Mən inanıram ki, Azərbaycanın bu gün yetişən gənc nəsli bütün keçmiş nəsillərdən daha da yüksəklərə qalxacaqdır. Çünki siz müstəqil Azərbaycanda, öz azad Vətəninizdə yaşayırsınız.

Azərbaycan Prezidenti tərəfindən şəhid övladları və kimsəsiz uşaqlar üçün təşkil edilmiş novruz şənliyində çıxışından
"Gülüstan " sarayı
(20 mart 1997-ci il)

***

Uşaqlar hər bir insana ən böyük xoşbəxtlik gətirir. Hər bir insan istəyir ki, onun uşağı olsun. Hər bir insan uşağını sevir, ona tərbiyə verir, uşağını böyüdür, oxudur, gələcəyə hazırlayır. Belə insanlar, ailələr xoşbəxt insanlardır, ailələrdir.

Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə keçirilən bayram şənliyində çıxışından
Azərbaycan Dövlət Opera və Balet Teatrı
(1 iyun 1997-ci il)

***

Azərbaycandan kənara - başqa ölkələrə təhsil almağa gedən gənclərə xüsusi tövsiyəm ondan ibarətdir ki, siz hansı ölkədə olursunuz olun, birinci vəzifəniz yüksək təhsil almaqdan, o təhsil ocağının bütün imkanlarından istifadə edib hərtərəfli, hazırlıqlı bir vətəndaş olmaqdan ibarətdir. Eyni zamanda siz respublikamızı xarici ölkələrdə təmsil edən insanlar, gənclər olacaqsınız. Siz, sadəcə olaraq, təhsil almaqla kifayətlənməməlisiniz, Azərbaycan ləyaqətlə təmsil etməlisiniz, ölkəmizin həqiqətlərini təhsil alacağınız universitetlərdə, təhsil müəssisələrində yaymalısınız, təbliğ etməlisiniz. Buna çox böyük ehtiyac var.

Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu və onların valideynləri ilə görüşdə giriş nitqindən
Prezident sarayı
(29 avqust 1997-ci il)

***

Hər bir gəncin həyatda uğurla yaşaması üçün kökünə sadiqliyi ən əsas amildir.

Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var.

Azərbaycan Gəncləri gününün ilk ildönümü münasibətilə keçirilən bədii idman bayramında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
(2 fevral 1998-ci il)

***

Bizim gənclər gərək hazırlaşsınlar ki, XXI əsrdə Azərbaycanın inkişafını təmin edə bilsinlər. Bunun üçün biliklənmək, təhsil almaq, sağlam həyat tərzi keçirmək, mənəvi, milli dəyərlərimizə daim söykənmək və ümumbəşəri dəyərlərdən səmərəli istifadə etmək lazımdır. Mən əminəm ki, bizim gənclərimiz Azərbaycanın gələcəyini bizdən elə yaxşı təmin edəcəklər. Çünki bizim çox zəkalı, çox bacarıqlı, istedadlı gənclərimiz vardır. Mən ümidvaram ki, gənclər bugünkü təcrübədən yaxşı bəhrələnəcəklər və Azərbaycanın gələcəyini təmin edəcəklər.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyevin YAP-ın Gənclər Birliyi nümayəndələrinin ümumrespublika toplantısında nitqindən
(21 fevral 1998-ci il)

***

Uşaqlar hər bir insanın sevincidir. Uşaqlar həmişə insanları sevindirib, qəmdən, kədərdən, faciədən xilas etməyə yardım edirlər. Hər bir insan öz həyatının mənasını və gələcəyini uşaqlarda görür. Uşaqlar hər bir ailəyə xoşbəxtlik bəxş edir. Uşaqlar cəmiyyətin gülüdür, çiçəyidir. Uşaqlar hamımızın həm bu günüdür, həm də gələcəyidir.

Mən inanıram ki, indiki gənclər, indiki uşaqlar bizim nəsillərdən də qabiliyyətlidir, istedadlıdır. Mən inanıram ki, Azərbaycanın bugünkü gəncləri, bugünkü uşaqları Azərbaycanın xoşbəxt gələcəyini təmin edəcəklər. Biz bunun təməlini qoyuruq, əsasını qoyuruq. Siz isə gələcəkdə bunları qurub yaratmalısınız, inkişaf etdirməlisiniz.

Uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə "Uşaqlar dünyanın sevincidir" devizi altında keçirilən mərasimdə çıxışından
(13 dekabr 1998-ci il)

***

Gənclərin qarşısında duran vəzifələr birinci növbədə cəmiyyətdə öz yerini tutmaqdan, maariflənməkdən, təhsilini artırmaqdan, cəmiyyət üçün faydalı olmaqdan ibarətdir.

Əziz gənclər! Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanı XXI əsrdə yaşadanlarsınız, quranlarsınız, inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!

Respublika gənclərinin II forumunda nitqindən
(4 mart 1999-cu il)

***

Mən bütün Azərbaycanın uşaqlarını öz uşaqlarım hesab edirəm, övladlarım hesab edirəm, nəvələrim hesab edirəm.

Respublika İdman Oyunları Sarayında valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün təşkil edilmiş Yeni il şənliyində nitqindən
(31 dekabr 1999-cu il)

***

Biz bu gün hansı gənc nəsli yetişdirə bilsək, Azərbaycanın gələcəyi ondan çox asılı olacaqdır. Əgər bugünkü gənc nəsil Azərbaycan xalqının bütün qayğılarına qalmaq iqtidarına malik olacaqsa, yüksək biliyə, təcrübəyə malik olacaqsa, təbiidir ki, biz Azərbaycanın gələcəyi haqqında narahat olmamalıyıq.

Azərbaycanın bir qrup tanınmış idmançıları və yığma komandanın baş məşqçiləri ilə Prezident sarayında görüşdə söhbətindən
(2 fevral 2000-ci il)

***

İndi müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq, öz xalqının, millətinin, qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, o, həqiqi vətənpərvər ola bilməz. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, öz millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz. Ancaq təkcə tarix deyil, bizim zəngin ədəbiyyatımız var. Azərbaycan

ədəbiyyatı qədim dövrlərdən indiyədək öz zənginliyi ilə bütün dünya xalqları içərisində öncül yerlərdə olubdur. Demək, bu həm bizim tariximizdir, həm mənəviyyatımız, həm də milli mənliyimizdir.

Yeni dərs ilinin başlanması və Bilik günü münasibətilə Bakının Nərimanov rayonunda yerləşən 82 saylı pilot orta məktəbdə keçirilən təntənəli toplantıda nitqindən
(1 sentyabr 2000-ci il)

***

Millət üçün, dövlət üçün, ölkə üçün, xalq üçün uşaq, gənclik hər şeydən qiymətlidir. Uşağın dünyaya gəlməsi, onun sağlam böyüməsi, gənc nəslin yaxşı təhsil alması hər bir millətin, xalqın ən dəyərli sərvətidir. Çünkü o, millətin, xalqın gələcəyidir, millətin, xalqın daimiliyidir, əbədiliyidir.

Türk dünyasının görkəmli oğlu, dünya şöhrətli alim, Azərbaycan xalqının böyük dostu İhsan Doğramacının 85 illik yubileyinə həsr olunmuş Respublika sarayında keçirilən təntənəli mərasimdə nitqindən
(24 aprel 2000-ci il)

***

Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir.

Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən
(29 dekabr 2000-ci il)

***

Biz yol verə bilmərik ki, din pərdəsi altında, fanatizm yolu ilə təxribatlar aparılsın, bizim insanlarımız, xüsusən gənclərimiz belə təhlükəli və dəhşətli işlərə cəlb olunsun. Çünki belə hallar bizim xalqımıza vurulan zərbədir və bizim dövlətçiliyimizə vurulan zərbədir. Biz bunların qarşısını almalıyıq.

Biz xalqımızın sağlamlığını qorumalıyıq, xüsusən gənclərin narkotik maddələrdən istifadə etməsi meyllərinin qarşısını almalıyıq.

Sərhəd Qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(18 avqust 2001-ci il)

***

Gənclərə tövsiyəm odur ki, onlar sağlam fiziki və mənəvi həyat tərzi keçirsinlər. Belə olan halda siz həm daha da sağlam vətəndaş olacaqsınız, həm daha da yaxşı bilik alacaqsınız, belə olanda həm də Azərbaycanın gələcəyinin həqiqi qurucuları olacaqsınız.

Ən yüksək bal toplayaraq ali məktəblərə qəbul olunmuş gənclərlə görüşdə yekun nitqindən
(3 sentyabr 2001-ci il)

***

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət etmək hər bir Azərbaycan vətəndaşı üçün, hər bir gənc üçün böyük bir iftixar mənbəyidir, şərəfli bir vəzifədir. Orduda xidmət etmiş, öz vətəndaşlıq borcunu yerinə yetirmiş hər bir gənc bizim cəmiyyətdə, həyatımızın bütün sahələrində ən dəyərli insan hesab olunmalıdır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə təbrikindən
(25 iyun 2002-ci il)

***

Hərbi xidməti keçməyən gənc Azərbaycanda, bizim cəmiyyətdə heç vaxt hörmət qazana bilməz.

Gəncədəki "N" saylı hərbi hissədə keçirilən görüşdə nitqindən
(12 sentyabr 2002-ci il)

***

Gənclərdə, gənc nəsildə vətənpərvərlik hissini, vətənə xidmət etməyi, orduda xidməti şərəf bilmək və Vətən yolunda həlak olmağa, özünü qurban verməyə daim hazır olmaq hisslərini daha da yüksəklərə qaldırmalıyıq.

Heydər Əliyevin Goranboy rayonu ictimaiyyəti nümayəndələrinin mitinqində nitqindən
(13 sentyabr 2002-ci il)

***

Çadırlarda doğulmuş uşaqlar gələcəkdə öz torpaqlarının sahibi olacaq, öz torpaqlarında böyüyəcəklər, öz elində-obasında yaşayacaqlar.

Bizim xalqımızın gələcəyi gənclərdir. Gənclər isə gərək həm fiziki cəhətdən sağlam olsunlar, həm də yüksək şüura, yüksək biliyə, yüksək əxlaqa, yüksək tərbiyəyə, yüksək elmə malik olsunlar. Bunlar hamısı bir-birinə sıx bağlıdır.

Uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə keçirilən şənlikdə nitqindən
(8 dekabr 2002-ci il)

***

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır.

Azərbaycan Respublikası gənclərinin üçüncü forumunda nitqindən
(13 oktyabr 2003-cü il)

ZİYALILAR VƏ TARİXİ SƏXSİYYƏTLƏR HAQQINDA

Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq.

İndi Hüseyn Cavidin əsərləri xalqa hava, su kimi lazımdır. Təkcə abidə baxımından deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu bəlkə də Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir sənətkardır. Hüseyn Cavidin «İblis»i heç də Hötenin «Faust»undan geri qalmır. Ancaq biz belə inciləri lazımi qədər qiymətləndirə bilmirik.

Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir. Amma onu da bilin ki, Nəriman Nərimanov müstəqil, demokratik dövlətin xadimlərinin hamısını qoruyub saxlayan adamlardan olmuşdur.

Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir.

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından
(21 sentyabr 1993-cü il)

***

Türkiyə Cümhuriyyətinin banisi, iyirminci əsrin bəşəriyyətə verdiyi böyük dühalardan Mustafa Kamal Atatürkün azadlıq və demokratiya ideallarına sonsuz məhəbbəti, sərkərdəlik və dövlətçilik məharəti sayəsində türk xalqı tarixin çətin sınaqlarından çıxıb qurtuluş tapdı. Dünya Türkiyə Cümhuriyyəti adlı azad və məğrur bir məmləkəti tanımalı oldu.

Atatürkün məşhur «Yurdda sülh, cahanda sülh» ideyasından doğan işığa doğru irəliləyən müasir Türkiyə dövlətinin yeritdiyi daxili və xarici siyasətin, sosial-iqtisadi və mədəni tərəqqi təcrübəsinin elmi-nəzəri tədqiqat obyektinə çevrilməsi, öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

"Türkiyə Cümhuriyyəti - 70" elmi-praktik konfransının iştirakçılarına
Bakı
(26 oktyabr 1993-cü il)

***

Süleyman Dəmirəl Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı qarşısında böyük xidmətlər göstərmiş, böyük nüfuz qazanmışdır. O, eyni zamanda Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının hörmət və ehtiramını qazanmışdır. Azərbaycan Respublikasının müstəqilliyini bütün dünyada tanıtmaq üçün onun böyük xidmətləri

olmuşdur. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq və bu, Azərbaycanın tarixinə, müstəqil Azərbaycan dövlətinin tarixinə artıq həkk olunmuşdur.

Ankarada "Çankaya" Köşkündə Azərbaycan Prezidentinin şərəfinə ziyafətdə nitqindən
(8 fevral 1994-cü il)

***

XX əsrdə Azərbaycan dünya mədəniyyətinə, dünya elminə böyük töhfələr vermişdir. Bizim böyük alimlər, yazıçılar, şairlər, memarlar, rəssamlar, bəstəkarlar, musiqiçilər həm Azərbaycan xalqının elmini, mədəniyyətini, təhsilini zənginləşdirmiş, həm də bütün dünya mədəniyyətinə, elminə böyük töhfələr vermişlər.

Türkiyə Böyük Millət Məclisində çıxışından
(9 fevral 1994-cü il)

***

Füzuli azərbaycanlıdır, Azərbaycan köklüdür, onun yaradıcılığı Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bəhrəsidir.

Prezident Sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi
ilə əlaqədar yubiley üzrə dövlət komissiyasının iclasından
(1 avqust 1994-cü il)

***

Azərbaycan xalqı qarşısında Niyazinin əvəzsiz xidmətləri vardır. O, Azərbaycan professional musiqisinin yaranmasında və inkişafında böyük səylər göstərmiş və bu xidmətləri xalqımız heç vaxt unutmayacaqdır.

Böyük dirijor və bəstəkar Niyazinin ev-muzeyinin təntənəli açılışında çıxışından
(18 sentyabr 1994-cü il)

***

Səttar Bəhlulzadənin yaradıcılığı bizim üçün mənəviyyat mənbəyidir. Xalqımızın mədəniyyətinin, rəssamlıq məktəbinin professional səviyyəsinin nə qədər yüksək olduğunu bütün dünyaya göstərir. Eyni zamanda xalqımızın rəssamlıq məktəbinin yeni, orijinal üslubda əsərlər yaratmağa qadir olduğunu sübut edir. Bu bizim fəxrimizdir. Bu, xalqımızın gələcəyi üçün, mədəniyyətimizin inkişafı üçün böyük bir əsasdır.

Azərbaycan xalqının mədəniyyəti böyük tarixə malikdir. Qədim əsrlərdə xalqımızın yaratdığı rəssamlıq sənəti, miniatür sənəti, Sultan Məhəmmədin miniatür məktəbi, ondan sonrakı dövrlərdə Azərbaycan rəssamlarının, Azərbaycan memarlarının yaratdıqları əsərlər xalqımızın mədəni-mənəvi irsidir.

Böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin anadan olmasının
85 illiyinə həsr olunmuş sərginin açılışında çıxışından
Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi
(17 dekabr 1994-cü il)

***

Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir.

Xalqımızın milli şüurunun formalaşmasında məhz «Molla Nəsrəddin» jurnalının və Mirzə Cəlil fəaliyyətinin rolu misilsizdir.

Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr edilmiş yubiley gecəsində nitqindən
Respublika sarayı
(28 dekabr 1994-cü il)

***

Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir. Mən bunu heç də şişirtmədən, tam qətiyyətlə deyirəm. Biz onu qorumalıyıq, ona qayğı göstərməliyik. Onun imkanları çoxdur. Arif bundan sonra da yaratmalıdır. Şübhəsiz ki, o da bu fikirlərlə, hisslərlə yaşayır. Bizim bugünkü görüşümüz, bu müəllif gecəsi şübhəsiz ki, ona da çox ilham verəcək və o yeni əsərlər yaradacaq.

İstedadlı adamlar həmişə qəribə olurlar. Onlar adi deyillər, adi olsalar, istedadlı ola bilməzlər. İstedadlı olanların hər birinin özünəməxsus xüsusiyyəti var.

Görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun müəllif gecəsində çıxışından
Rüstəm Mustafayev adına
Azərbaycan Dövlət İncəsənət Muzeyi
(5 fevral 1995-ci il)

***

Cəmiyyət böyükdür. İndi bizdə yeddi milyon əhali var. Bunlar hamısı bizim cəmiyyətdir. Amma xalqın içərisindən çıxan ziyalılar tək-tükdür. Bunlar kütləvi deyil. Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir - bunlar fitri istedada malik olan nadir adamlardır.

Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir.

Xalq şairi Məmməd Arazın "Azərbaycan – Dünyam mənim" yaradıcılıq gecəsindən sonra ziyalılarla görüşdə çıxışından
M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası
(16 aprel 1995-ci il)

***

Hüseyn Cavid bizim üçün doğrudan da əzizdir. O, tariximizdə böyük bir şəxsiyyətdir və böyük bir irs qoyub. Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcək.

Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məqbərəsinin
və ev-muzeyinin aradılması ilə bağlı müşavirədə çıxışından
Prezident Sarayı
(10 iyun 1995-ci il)

***

Teatr və incəsənət sahəsində çalışanlar çox fədakar adamlardır.

Azərbaycanın xalq artisti Amalya Pənahovanın 50 illik yubileyi gecəsində çıxışından
Respublika Sarayı
(8 iyul 1995-ci il)

***

Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun anadan olmasının
110 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində nitqindən
Respublika sarayı
(18 sentyabr 1995-ci il)

***

Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur. Adamlar üçün vacib olan bir sahə və onların sağlamlığının qorunması, insanların xəstəliklərdən xilas olması, sağlam insan yetişdirilməsi cəmiyyət üçün həm keçmişdə, həm indi, həm də gələcəkdə mühüm olan bir sahədir. Mustafa bəy Topçubaşovun öz fəaliyyətini bu sahəyə həsr etməsi heç də təsadüfi deyildir. Bu onun daxili mənəviyyatı ilə bağlıdır. Bütün həyatı, yaradıcılığı, fəaliyyəti göstərir ki, o, şüurlu olaraq bu sənətdən başlayıbdır. Ancaq yaşadıqca, yaratdıqca onun fəaliyyət dairəsi genişlənib, böyük alim, ictimai-siyasi xadim olubdur. Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtulmasında, elmimizin, təhsilimizin inkişaflarında böyük xidmətlər göstəribdir.

Görkəmli alim və cərrah Mustafa bəy Topçubaşovun anadan olmasının
100 illiyi yubileyinə həsr olunmuş təntənəli gecədə çıxışından
Azərbaycan Dövlət Opera və Balet teatrı
(14 oktyabr 1995-ci il)

***

Xalq öz içində illər boyu, əsrlər boyu istedadlı, bacarıqlı insanları, yüksək təhsilə və yüksək tərbiyəyə malik olan insanları hazırlayır, yetişdirir və onlar xalqın tanınmış, hörmətli ziyalı adamları hesab olunur. Ziyalı sözü məhz bu mənanı daşıyır

Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqindən
(24 noyabr 1995-ci il)

***

Səməd Vurğunu da biz təkcə şair kimi, alim kimi, yazıçı kimi yox, eyni zamanda böyük bir ictimai-siyasi xadim kimi həmişə xatırlayırıq və o, tariximizə belə daxil olubdur.

Yazıçı Yusif Səmədoğlunun 60 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxışından
"Gülüstan" Sarayı
(19 dekabr 1995-ci il)

***

Füzuli təkcə Azərbaycanın, Şərqin deyil, bütün bəşəriyyətin dahi mütəfəkkiridir.

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə
Dərbənd şəhərində keçirilən Beynəlxalq Elmi Konfransın iştirakçılarına
(15 iyul 1996-cı il)

***

Yusif Məmmədəliyev xalqımızın tarixinə böyük alim, maarifçi, təşkilatçı, görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. O, öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən dünya neft kimyası elminə görkəmli töhfələr veribdir.

Akademik Yusif Məmmədəliyevin 90 illik yubileyinə həsr edilmiş gecədə nitqindən
Respublika Sarayı
(10 sentyabr 1996-cı il)

***

Şah İsmayıl görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirən insandır. Azərbaycanın qədim dövlətçiliyi Şah İsmayılın adı ilə bağlıdır.

Görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin anadan olmasının
110 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsi başa çatdıqdan
sonra mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışından
Respublika Sarayı
(18 sentyabr 1996-cı il)

***

Füzuli öz dövrünün həyatını əks etdirərək, öz mühitindən qida alaraq yaratdığı əsərləri uzaq gələcəyə istiqamətləndirmişdir.

Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq, eyni zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk, İslam dünyasına mənsubdur.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqindən
Respublika sarayı
(8 noyabr 1996-cı il)

***

Ermənistanın Azərbaycana təcavüzü başlayandan bəri Ziya Bünyadov xalqı Ermənistana qarşı mübarizəyə və torpaqlarımızın müdafiəsi uğrunda mübarizəyə səfərbər etməkdə həmişə ön sıralarda getmiş adam olubdur, həmişə mübarizə aparıbdır, həmişə öz sözünü deyibdir, heç vaxt çəkinməyib, heç vaxt kənarda durmayıb, heç vaxt gizlənməyibdir.

Görkəmli alim və ictimai xadim, akademik Ziya Bünyadovla vidalaşma mərasimində nitqindən
Şəhriyar adına Mədəniyyət Mərkəzi
(23 fevral 1997-ci il)

***

Keçmiş əsrlərdə də, XX əsrdə də Azərbaycanın böyük insanları olubdur. Ancaq bu böyük insanların xatirəsini əbədiləşdirmək lazımdır. Gələcək nəsillər onların həyat yolunu, yaradıcılığını, gördükləri işi, yaratdıqlarını daim bilməlidirlər.

Xalq Şairi Səməd Vurğunun ev muzeyində çıxışından
(6 mart 1997-ci il)

***

Səməd Vurğun şeirinin böyüklüyü, eyni zamanda gözəlliyi ondan ibarət idi ki, onun hər kəlməsi, hər sətri hər bir azərbaycanlının qəlbinə çatırdı, onun beynini fəth edirdi, onu öz təsiri altına salırdı. Səməd Vurğunun şeiri bu gün də müasirlərimizə, gənc nəslə ilham, ruh verir, onları coşdurur, daha da vətənpərvər edir, onlara Vətəni, milləti, torpağı sevməyi öyrədir.

Xalq Şairi Səməd Vurğunun 90 illik yubileyinə həsr edilmiş gecədə nitqindən
Respublika sarayı
(7 mart 1997-ci il)

***

Ömər Eldarovun yaratdığı heykəltəraşlıq əsərləri Azərbaycan xalqının mədəni, mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmişdir.

Məşhur heykəltəraş, xalq rəssamı Ömər Eldarovun görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın xatirəsinə həsr etdiyi "elegiya" əsərinin – mərmər abidənin və bu abidədən bəhs edən albomun təqdimat mərasimində çıxışından

Bakı İncəsənət Mərkəzi
(15 aprel 1997-ci il)

***

Müdriklik insanın fitri istedadıdır, müdriklik həm də insanın həyatı dərk etməsi, gedən proseslərə düzgün qiymət verə bilməsi və ondan özü üçün lazımi faydalar götürməsidir.

Qurban Bayramı Günü lerikli fermer Xanış Şahıyevlə görüşdə çıxışından
(18 aprel 1997-ci il)

***

Rostropoviç nəinki böyük musiqiçi, bəstəkar, dirijordur, həm də öz vətəndaşlıq hərəkətləri ilə, azadlıq, ədalət, həqiqət, demokratiya uğrunda mübarizəsi ilə şöhrətlənmiş bir insandır.

Mstislav Rostropoviçin 70 illik yubiley şənliklərinə gələn kütləvi informasiya vasitələri nümayəndələri ilə görüşdə bəyanatından
Prezident sarayı
(1 may 1997-ci il)

***

Mustafa Kamal Atatürk bütün türk dünyasının əvəzsiz, ölməz lideridir.

Azərbaycan Prezidentinə "Fatih" Universitetinin fəxri doktoru adı verilməsi mərasimində nitqindən
İstanbul
(8 may 1997-ci il)

***

Müəllimlik vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır.

Azərbaycanın ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanması münasibətilə Bakıdakı 18 nömrəli məktəbdə keçirilmiş mitinqdə nitqindən
(1 sentyabr 1997-ci il)

***

Müslüm Maqomayev nadir və bənzərsiz müğənnidir, Allah vergisidir, ancaq eyni zamanda özünün gərgin, yorulmaq bilməyən zəhməti ilə cilalanmış istedaddır. Onu fərqləndirən bir cəhət də istedadının çoxşaxəli olmasıdır. Onun gözəl səsi, əla ifa texnikası var. O, gözəl oxuyur, musiqi alətlərində gözəl çalır, çoxlu gözəl mahnılar bəstələyib. Gözəl şəkil çəkməsinə, heykəltəraşlıq istedadına gəldikdə, bu da məlumdur. Görün, bir insanda nə qədər çoxşaxəli, böyük istedad cəmləşibdir. Sevinirik ki, bizim Azərbaycanın belə övladı, Azərbaycan musiqisinin, Azərbaycan incəsənətinin belə layiqli nümayəndəsi var və indiyədək olduğu və getdiyi bütün dünya ölkələrində özünü və bizim mədəniyyətimizi, musiqimizi və xalqımızı şöhrətləndirir.

Məşhur müğənni və bəstəkar Müslüm Maqomayevin yubiley gecəsində nitqindən

Respublika sarayı
(17 oktyabr 1997-ci il)

***

Azadlıq uğrunda 25 ildən çox vuruşan Şeyx Şamil bir daha sübut etdi ki, xalqın istiqlal amalını, iradəsini və əzmini sındırmaq, məhv etmək mümkün deyil. Azadlığı, sülhü, əmin-amanlığı qorumaq yolunda hər bir qafqazlıya Şeyx Şamil müdrikliyi, qətiyyəti və fədakarlığı arzulayıram.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Şeyx Şamilin anadan olmasının 200 illik yubileyinə həsr olunmuş toplantı iştirakçılarına müraciəti
Bakı şəhəri
(21 oktyabr 1997-ci il)

***

Böyük öndər Mustafa Kamal Atatürkün ən böyük xidmətlərindən biri də odur ki, öz qəhrəmanlığı ilə türk əsgərini qəhrəman etdi.

Vaqifin vəfatından 200 il sonra biz Şuşada onun məzarı üzərində əzəmətli bir məqbərə ucaltdıq. Bu, həm Vaqifin yaradıcılığına, həm də, ümumiyyətlə, ədəbiyyata, şeirə, mədəniyyətə olan münasibətimiz idi.

Azərbaycan Yazıçılarının X Qurultayında nitqindən
Prezident sarayı
(30 oktyabr 1997-ci il)

***

Bəxtiyar Vahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir.

Xalq şairi Bəxtiyar Vahabzadənin «Hara gedir bu dünya?!» pyesinin tamaşasından sonra yaradıcı kollektivin üzvləri ilə görüşündən
Azərbaycan Milli Dram Teatrı
(7 noyabr 1997-ci il)

***

Bülbül sənəti Azərbaycanın musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. O, Azərbaycanın professional vokal sənətinin banisidir. Onun çoxşaxəli zəngin yaradıcılığı milli muğam ifaçılığının ən yaxşı ənənələrini və dünya vokal məktəbinin nailiyyətlərini ahəngdar şəkildə özündə birləşdirir.

Vokalçıların Bülbül adına I Beynəlxalq Müsabiqəsinə
Bakı şəhəri
(17 noyabr 1997-ci il)

***

Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur.

Məhəmməd Cahan Pəhləvanın , Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın Vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə müraciətindən
(25 dekabr 1997-ci il)

***

Süleyman Rüstəmin şeirləri, əsərləri, bütün yaradıcılığı xalqımızda birinci növbədə Vətəni sevmək, Vətənə sadiq olmaq, vətənpərvər olmaq, millətimizlə, xalqımızla fəxr etmək hissləri, duyğuları yaradıb, inkişaf etdirib. Adamları insan, vətəndaş edən, insanları yüksək mənəviyyata qaldıran amillərdən biri də bizim mədəniyyətimizdir, ədəbiyyatımızdır, şeirimizdir. Süleyman Rüstəmin şeirləri, əsərləri bizim ədəbiyyatımızı, mədəniyyətimizi zənginləşdirərək XX əsrdə keçdiyi böyük, mürəkkəb, çətin yolda xalqımıza dayaq olmuş, xalqımızı irəliyə aparmış, yüksəltmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycanın xalq şairi,
görkəmli ictimai xadim Süleyman Rüstəmin anadan olmasının
90 illiyi münasibətilə təntənəli yubiley gecəsində nitqindən
Respublika sarayı
(26 mart 1998-ci il)

***

Mirvarid xanım Dilbazi Azərbaycan qadınının, anasının ən parlaq, ən gözəl nümunəsidir.

Xalq şairi Mirvarid Dilbazinin 85 illiyinə həsr olunmuş təntənəli yubiley
gecəsində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
(24 aprel 1998-ci il)

***

İnsan anadangəlmə, fitri istedada malikdirsə, Allah ona nadir fitri istedad veribsə, bu, onsuz da parlayacaqdır. Ancaq insan öz təhsili, zəhməti, əməyi, işi ilə istedadını inkişaf etdirirsə, daha da parladır və genişləndirirsə, onda belə insan böyük şəxsiyyət olur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dünya şöhrətli alim,
Türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti,
professor İhsan Doğramacı, həyat yoldaşı Ayser xanım, oğlu Əli bəy və
Qazi Universitetinin rektoru Ənvər Həsənoğlu ilə görüşdə söhbətindən
Prezident sarayı
(12 may 1998-ci il)

***

Üzeyir Hacıbəyov çox gözəl, əzəmətli Dövlət Himni yaratmışdır. Mən hər dəfə ayrı-ayrı ölkələrdə Üzeyir Hacıbəyovun musiqisi ilə yaradılmış himnin səsləndiyini duyarkən qürur hissi keçirirəm. Təkcə ona görə yox ki, müstəqil Azərbaycanın Dövlət Himni dünyanın bir çox ölkələrində səslənir və Azərbaycanın Dövlət Bayrağı qalxır. Bir də ona görə ki, həqiqətən Himnin musiqisi çox cazibədardır, gözəldir.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
(27 may 1998-ci il)

***

Mustafa Kamal Atatürk cümhuriyyəti yaratdı, amma eyni zamanda da qurdu, yaşatdı. Şübhəsiz ki, hər bir yeni işi yaratmaq asan deyil. Bu, böyük iradə, ağıl, qəhrəmanlıq tələb edir. Ancaq qurulan hər bir şey yaşaya bilmir. Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhuriyyətinin nəinki əsasını, təməlini qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, onu yaşatdı, böyük dövlət etdi, bugünkü nəsillərə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu.

Azərbaycan Prezidenti Heydər Əliyevin "Mərmərə" qrupunun Strateji və Sosial Araşdırmalar Vəqfinin keçirdiyi mərasimdə çıxışından
(30 oktyabr 1998-ci il)

***

Türkiyə Cümhuriyyətini yaratmaq özü-özlüyündə tarixi bir hadisə idi. Amma onu yaşatmaq, onu qüdrətli cümhuriyyət etmək ondan da çətin, ondan da ağır bir vəzifə idi. Bəli, əgər Mustafa Kamal Atatürk olmasaydı, bəlkə də Türkiyə Cümhuriyyəti yaranmazdı. Əgər Mustafa Kamal Atatürk olmasaydı, Türkiyə Cümhuriyyəti yaşayıb inkişaf edə bilməzdi. Bəli, Mustafa Kamal Atatürkün iradəsi, onun müdrikliyi, dahiliyi, qəhrəmanlığı Türkiyə Cümhuriyyətinin yaşamasının əsas amili olmuşdur. Bu, bizim üçün örnəkdir.

Respublika sarayında Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(21 noyabr 1998-ci il)

***

Dahi bəstəkarımız Üzeyir Hacıbəyov nə qədər milli olubsa, o qədər də ümumbəşəri olubdur.

Mirzə Fətəli Axundov İslam dəyərlərini ən gözəl bilən şəxsiyyətlərdən biri olubdur. O, İslam dəyərlərinə çox sadiq bir insan olubdur. Amma eyni zamanda o, Azərbaycanın milli-mənəvi dəyərlərini, İslam dəyərlərini ümumbəşəri, Avropa dəyərləri ilə zənginləşdirərək dahiyanə və xalqımızın inkişafına çox böyük təsir göstərmiş əsərlər yaratmışdır.

"İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumda nitqindən
(9 dekabr 1998-ci il)

***

Dahi bəstəkarımız Üzeyir Hacıbəyov nə qədər milli olubsa, o qədər də ümumbəşəri olubdur.

Azərbaycan Milli Elmlər Akademiyası rəyasət heyətinin binasında keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun açılışı mərasimində nitqindən
(9 dekabr 1998-ci il)

***

Biz Nəsimini dünyaya tanıtmaqla Azərbaycanı yenidən tanıtdıq.

Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, onun yubileyini hər il keçirmək lazımdır.

Prezident sarayında "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasinin növbəti iclasinda nitqindən
(8 aprel 1999-cu il)

***

Mustafa Kamal Atatürk bizlər üçün qəhrəmanlıq rəmzidir, müdriklik rəmzidir, dövlətçilik rəmzidir, demokratiya rəmzidir.

Ankaranın Çankaya köşkündə Türkiyənin "Nərgiz-TV" telekanalının müxbirinə müsahibəsindən
(23 may 1999-cu il)

***

Dahi bəstəkar Üzeyir Hacıbəyov 23 yaşında yaratdığı "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur.

Cəmi 23 il ömür sürmüş Asəf Zeynallı Azərbaycan musiqi mədəniyyəti tarixinə romans, simfonik musiqi və şair kimi bir sıra yeni janrların ilk nümunələrini yaratmış böyük bəstəkar kimi daxil olmuşdur.

Dövlət gənclər siyasəti haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanından
(29 iyul 1999-cu il)

***

Azərbaycan xalqı Hüseyn Cavidi çox yüksək qiymətləndirir və onun irsi əsrlər boyu yaşayacaqdır. Onun iradəsi, onun milliliyi və yaradıcılığının özünəməxsus xüsusiyyətləri gələcək nəsillər üçün də böyük örnək olacaqdır.

Naxçıvan MR-nın təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında nitqindən
(12 oktyabr 1999-cu il)

***

Əgər Cəlil Məmmədquluzadə kimi şəxsiyyət dünyaya gəlməsəydi, öz fəaliyyətini göstərməsəydi, əgər "Molla Nəsrəddin" jurnalı yatmış insanları qaranlıqdan çıxartmağa çalışmasaydı, əgər onun"Ölülər" əsəri insanların gözünü real dünyaya açmasaydı, xalqımız bu qədər inkişaf edə bilməzdi.

Naxçıvanda Görkəmli yazıçı-publisist, dramaturq, ictimai xadim Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışı mərasimində nitqindən
(13 oktyabr 1999-cu il)

***

Mustafa Kamal Atatürk bütün dünyaya sübut etmişdir ki, müsəlman ölkəsində, əsrlər boyu dinin təsiri altında dini dövlət kimi yaşayan bir ölkədə cümhuriyyət, layiq cümhuriyyət qurmaq, demokratik yolla getmək olar. O, dünyanın bəşəri dəyərlərindən istifadə edərək, xalqının mənəvi dəyərlərini bunlarla birləşdirərək öz xalqını daha da yüksəklərə qaldırmışdır.

Beynəlxalq Atatürk sülh mükafatının təqdim olunması mərasimində nitqindən
(1 noyabr 1999-cu il)

***

Lider olmaq üçün böyük həyat yolu keçmək lazımdır, zəngin biliyə, böyük əməli fəaliyyət təcrübəsinə malik olmaq lazımdır, xarakter, iradə lazımdır. Bütün bunlar olmasa, onda, əlbəttə, xalq onun milli mənafelərini qorumağa qadir liderə malik ola bilməz.

Prezident sarayında Ukrayna Prezidenti Leonid Kuçmanın Azərbaycan ictimaiyyəti ilə görüşü və ona "İstiqlal" ordeninin təqdim edilməsi mərasimində nitqindən
(17 mart 2000-ci il)

***

Cəfər Cabbarlı mədəniyyətimizin, ədəbiyyatımızın böyük, dahi insanlarından biridir.

Azərbaycan Akademik Milli Dram Teatrında Cəfər Cabbarlının anadan olmasının 100 illik yubileyi münasibətilə görkəmli dramaturqun "Aydin" pyesinin yeni quruluşda tamaşası zamanı sənətkarlarla söhbətindən
(7 may 2000-ci il)

***

Həzi Aslanov Böyük Vətən müharibəsində mərdliklə döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir. O, bu döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmiş, Azərbaycan xalqının hansı yüksək mənəvi xüsusiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirmişdir.

Böyük Vətən müharibəsində qələbənin 55-ci ildönümü münasibətilə mərasimdə çıxışından
(9 may 2000-ci il)

***

Xalq Cümhuriyyətinin rəhbərləri Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, onların silahdaşları və o illərdə müstəqillik uğrunda mübariza aparan və hakimiyyət orqanlarında fəaliyyət göstərən insanlar Azərbaycan xalqı tərəfindən heç vaxt unudulmayacaqlar. Onlar Azərbaycan xalqının tarixinə böyük və dəyərli şəxsiyyətlər kimi daxil olmuşlar.

28 may Respublika gününə həsr olunmuş təntənəli mərasimdə çıxışından
(26 may 2001-ci il)

***

Rəşid Behbudov dünyanı dolaşmış ilk Azərbaycan müğənnisidir, musiqiçisidir.

Dahi sənətkar Rəşid Behbudovun xatirə gecəsində nitqindən
(13 oktyabr 2001-ci il)

***

Nizami fəlsəfəsinin mərkəzində varlığın ən böyük sərvəti, mənəvi zənginlik və müdrikliyin tükənməz mənbəyi olan insan dayanır.

Sankt-Peterburqda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimində nitqindən
(9 iyun 2002-ci il)

***

Çar Rusiyası dövründə azərbaycanlıların hərbi məktəblərə qəbul olunması çox fövqəladə bir hadisə idi. Ancaq buna baxmayaraq, bəzi azərbaycanlılar o qədər yüksək zəka nümayiş etdiriblər, hərbi peşəyə o qədər maraq nümayiş etdiriblər ki, özlərini göstəriblər və böyük rütbələrə nail olublar. Bax, həmin bu nəslin yetirmələrindən biri də Cəmşid Naxçıvanski idi.

Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialında kursantlarla görüşdə nitqindən
(17 iyun 2002-ci il)

***

Müslüm çox mahnılar yaratmışdır, yəni o, özünü bəstəkar kimi də gözəl tanıtmışdır. Ancaq onun ən görkəmli mahnısı Azərbaycana həsr etdiyi mahnıdır. Bu mahnı Azərbaycanın himni kimi səslənir.

Görkəmli müğənni və bəstəkar Müslüm Maqomayevə "İstiqlal" ordeni təqdim edərkən nitqindən
(6 sentyabr 2002-ci il)

***

Çoxlu ifaçılar olmuşdur. Əlbəttə, onların arasında, müğənnilərimiz arasında birinci yerdə unudulmaz Bülbül durur. Azərbaycan tarixinin bütöv bir mərhələsi onun adı ilə bağlıdır.

Respublika sarayında görkəmli müğənni və bəstəkar Müslüm Maqomayevin 60 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitqindən
(7 sentyabr 2002-ci il)

***

Müslüm Maqomayev özünün gözəl mahnıları və incəsənət, mədəniyyət sahəsində görkəmli fəaliyyəti ilə Azərbaycanın tarixinə daxil olmuşdur. O, bizim mədəniyyətimizi, mahnı sənətimizi zənginləşdirmişdir, böyük məhəbbət, çox yüksək nüfuz qazanmışdır. O, Azərbaycan xalqının oğlu olaraq burada dünyaya gəlmiş və ilk addımlarını Azərbaycanda atmışdır, amma sonra, sadəcə, Azərbaycanın çərçivəsinə sığmamışdır. Bu da təbiidir. Çünki onun yaradıcılığı, onun sənəti, onun mahnıları daha geniş auditoriya, xalqla daha geniş ünsiyyət tələb edirdi.

Bakı Əyləncə Mərkəzində görkəmli müğənni və bəstəkar Müslüm Maqomayevin şərəfinə təşkil olunmuş rəsmi qəbulda nitqindən
(8 sentyabr 2002-ci il)

***

Azərbaycanda rəngkarlıq, rəsm sənəti böyük inkişaf yolu keçibdir. Bəhruz Kəngərlidən, Əzim Əzimzadədən başlayaraq, Azərbaycanda davamlı olaraq böyük rəssamlar dünyaya gəlib və böyük əsərlər yaradıblar.

Sultan Məhəmmədin əsərləri, onun miniatür sənəti 500 il bundan öncə bizim Azərbaycanın bu sənət sahəsindəki nailiyyətlərini göstərir.

Azərbaycan Dövlət İncəsənət Muzeyində İran rəssamı Vədud Müəzzinin fərdi sərgisinin açılış mərasimində nitqindən
(9 oktyabr 2002-ci il)

***

Niyazi olmasaydı, Qara Qarayevin əsərləri o cür yüksək səviyyədə təqdim edilə bilməzdi. Eləcə də Fikrət Əmirovun əsərləri. Onların hamısı bu simfonik orkestrdən və Niyazinin əlindən keçəndən sonra biz gördüyümüz səviyyəyə gəlib çatırdı.

Dünya şöhrətli dirijor və görkəmli bəstəkar Niyazinin 90 illiyinə həsr olunmuş yubiley gecəsində nitqindən
(7 dekabr 2002-ci il)

MÜXTƏLİF VƏZİFƏ VƏ PEŞƏLƏR HAQQINDA

Müstəqilliyi təmin etmək üçün bir neçə dövlət atributu mövcuddur. Əgər onlardan biri ordudursa, digəri müstəqil xarici siyasətdirsə, o birisi də Daxili İşlər Nazirliyi orqanları, polis orqanlarıdır.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində keçirilmiş müşavirədə çıxışından
(20 sentyabr 1993-cü il)

***

Neftçi sözü Azərbaycanda şöhrətli sözdür, neftçiyə Azərbaycanda həmişə baş əyilibdir, neftçi sayılmış, tanınmış adamdır.

Azərneftyağ İstehsalat Birliyində Avtomatik İdarəetmə Mərkəzinin kollektivi ilə görüşdə çıxışından
(17 sentyabr 1994-cü il)

***

Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir. Gömrük orqanlarının, gömrük xidmətinin dövlətin iqtisadiyyatında, ümumiyyətlə, dövlətçilikdə çox böyük rolu vardır.

Dövlət Gömrük Komitəsinin 1994-cü ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş müşavirədən
Prezident sarayı
(9 yanvar 1995-ci il)

***

Səhiyyə cəmiyyətimizin müqəddəs sahələrindən biridir. Səhiyyə sahəsində çalışan, öz həyatlarını tibb xidmətinə həsr edən insanlar çox şərəfli adamlardır.

Respublika ailə-sağlamlıq mərkəzinin açılışında çıxışından
(29 dekabr 1995-ci il)

***

Jurnalistlərin əməyi qeyri-adi əməkdir, olduqca böyük, zəhmətli əməkdir, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq tələb edən əməkdir, öz peşəsinə vurğunluq tələb edən əməkdir.

"Oqonyok" jurnalının Azərbaycana həsr olunmuş xüsusi
nömrəsinin təntənəli təqdimat mərasimində nitqindən
Azərbaycan Tarixi Muzeyi
(1 iyun 1996-cı il)

***

Hər bir gənc, hər bir insan özünü sərhədçi peşəsinə həsr edirsə, axıra qədər həsr etməlidir. Belə olan halda o, cəmiyyətdə özünə layiq yer tutur, belə olan halda hər bir sərhədçi cəmiyyətdə çox hörmətli bir insan olur.

Azərbaycan Respublikası sərhəd qoşunlarının yaradılmasının
beş illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Şəhriyar adına mədəniyyət mərkəzi
(16 dekabr 1996-cı il)

***

Təhlükəsizlik işçisi yüksək mədəniyyətli, keyfiyyətli işçi olmalıdır. Elə bir işçi ki, gərək şairlə də, bəstəkarla da, yazıçıyla da, alimlə də, adi vətəndaşla da danışa bilsin. Yəni belə səviyyədə olmalıdır. Əgər belə olmasa, o, ağı qaradan, pisi yaxşıdan, cinayəti səhvdən, səhvi cinayətdən ayıra bilməz.

Respublikanın Milli Təhlükəsizlik Orqanları əməkdaşlarının peşə bayramı
gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(5 iyul 1997-ci il)

***

Cəmiyyətimizdə Azərbaycan ziyalılarının içərisində müəllimlər xüsusi yer tuturlar, hörmətə layiqdirlər və xüsusi qayğı ilə əhatə olunmalıdırlar.

Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır.

Azərbaycanın ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanması
münasibətilə Bakıdakı 18 nömrəli məktəbdə keçirilmiş mitinqdə nitqindən
(1 sentyabr 1997-ci il)

***

Tariximizin hansı əsrinə, hansı səhifəsinə baxsan, orada şairlərin, yazıçıların, mədəniyyət xadimlərinin izlərini, əsərlərini görəcəksən.

Əgər şair Azərbaycanı vəsf edirsə və Azərbaycanın nə qədər gözəl, nə qədər qüdrətli, nə qədər iftixar hissi doğuran bir ölkə olduğunu öz şeirində göstərirsə, demək bu, hər bir azərbaycanlıda öz Azərbaycanına, Vətəninə, torpağına məhəbbət hissi yaradır.

Azərbaycan Yazıçılarının X Qurultayında nitqindən
Prezident sarayı
(30 oktyabr 1997-ci il)

***

Dövri-qədimdən bütün dövlətlərin tarixində diplomat peşəsi ən hörmətli, ən şərəfli peşədir. «Diplomat» deyəndə, adamın gözünün qabağına nə gəlir? Ən yüksək savadlı, ən yüksək mədəniyyətli, ən gözəl görünüşlü, yaxşı geyimli, yaxşı tərbiyəsi ilə, cəmiyyətdə özünü aparmağı ilə fərqlənən insanlar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Respublika Xarici İşlər Nazirliyinin kollektivi ilə görüşdə nitqindən
(6 mart 1998-ci il)

***

Polis peşəsi ağır, çətin peşədir. Polis peşəsinə öz həyatını sərf edən insan bir çox xüsusi keyfiyyətlərə malik olmalıdır. Polis əməkdaşı birinci növbədə ölkəsinin dövlətinə, Konstitusiyasına, qanunlarına tam sadiq olmalıdır. Polis əməkdaşı bilikli, öz sahəsində yüksək təhsilə, yaxşı təcrübəyə malik, iradəli, cəsarətli, qorxmaz olmalıdır. Polis əməkdaşı yalnız və yalnız qanun çərçivəsində fəaliyyət göstərməlidir, qanunun aliliyini daim rəhbər tutmalıdır, qanuna həmişə hörmət etməlidir. Polis əməkdaşı Vətəninə, torpağına hədsiz sədaqətli və istənilən vaxt öz vəzifəsini yerinə yetirərək həyatını belə qurban verməyə hazır olmalıdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan polisinin 80 illik yubileyinə və polis gününə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Azərbaycan Dövlət Opera və Balet Teatrı
(2 iyul 1998-ci il)

***

Hüquq-mühafizə orqanlarının əməkdaşları çox ağır bir peşə sahibləridir. Bu sahədə işə başlayan hər bir adam dərk etməlidir ki, bütün başqa sahələrə nisbətən öz üzərinə ağır bir iş götürür. Amma eyni zamanda bu peşə həm də şərəfli peşədir. Dövlətçiliyin keşiyində durmaq, insanların hüquqlarını qorumaq, cəmiyyətdə qanun-qaydanın saxlanmasını təmin etmək və insanların rahat yaşamasına xidmət etmək - bu, çox şərəfli vəzifədir.

Prokuror olmaq şübhəsiz ki, böyük intellekt tələb edir. Hüquq-mühafizə orqanlarının cürbəcür təşkilatları vardır, hər təşkilatın özünəməxsus xüsusiyyəti vardır. Ancaq prokurorluq işi yüksək intellekt tələb edən işdir, yüksək peşəkarlıq, yüksək hüquqi bilik, hüquqi təhsil tələb edən işdir.

Respublikamızın prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(28 noyabr 1998-ci il)

***

Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları xalqımıza, Azərbaycan dövlətinə, ölkəmizə hədsiz sədaqətli olmalıdırlar. Saf mənəviyyata, əxlaqa malik olmalıdırlar.

Azərbaycan milli təhlükəsizlik orqanlarının yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(27 mart 1999-cu il)

***

Həkimlik sənəti dövrü-qədimdən şərəfli sənət olmuşdur, hörmətli sənət olmuşdur. Həkimlik sənəti indi də ən şərəfli, ən hörmətli sənətlərdən biridir. Mən hesab edirəm ki, dünyada heç bir sənət tapa bilməzsən ki, o, həkimlik kimi hər bir insana lazım olsun.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu binasının açılışı mərasimində nitqindən
(26 iyun 1999-cu il)

***

Cəmiyyətdə hər bir peşə lazımdır, hörmətlidir, cəmiyyət üçün faydalıdır. Ancaq vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdir.

Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının açılışında nitqindən
(13 oktyabr 1999-cu il)

***

Müəllimlik sənəti, peşəsi cəmiyyətdə ən yüksək qiymətə layiq olan bir peşədir. Müəllim olmaq kimi şərəfli bir iş yoxdur. Çünki müəllimlər xalqın biliklənməsinin, təhsilinin inkişaf etməsinin və nəhayət, xalqın elminin inkişaf etməsinin əsasını qoyanlardır.

Yeni dərs ilinin başlanması və Bilik günü münasibətilə Bakının Nərimanov rayonunda yerləşən 82 saylı pilot orta məktəbdə keçirilən təntənəli toplantıda nitqindən
(1 sentyabr 2000-ci il)

***

Alim olmaq üçün birincisi, gərək fitri istedada malik olasan. İkincisi, gərək fitri istedadından istifadə edib, seçdiyin sənəti sevəsən və həmin elm sahəsini mənimsəmək üçün fədakarlıq göstərəsən. Üçüncüsü, gərək sən daim öz üzərində işləyəsən və bunların nəticəsində də böyük alim, müəllim ola bilərsən.

Azərbaycan Tibb Universitetinin 70 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitqindən
(19 iyun 2000-ci il)

***

Məşhur bir ifadə var ki, Vətən sərhəddən başlayır. Bu həqiqətdir. Ona görə də sərhəd hər bir müstəqil dövlət üçün çox əzizdir, vacib bir sahədir və təbiidir ki, sərhədin qorunmasında xidmət göstərən hər kəs xalqımızın, millətimizin hörmət və ehtiramına layiqdir.

Sərhəd qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(18 avqust 2001)

***

Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir, Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir, hər bir Azərbaycan vətəndaşına xidmət edir.

"Azərbaycan Polisi Günü"nə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(3 iyul 2002-ci il)

***

Hərbi peşə insandan çox şey tələb edir. Həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, Vətənə, ölkəyə, doğma torpağa əsl sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq, mətinlik.

Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasimdə nitqindən
(27 iyul 2002-ci il)

AZƏRBAYCANIN ŞƏHƏRLƏRİ VƏ BÖLGƏLƏRİ HAQQINDA

Şuşa Azərbaycanın incisi, Qarabağın gözüdür, bizim qədim abidələrimiz olan, qədim dövlətçiliyimizin şəhəridir.

Brüsseldə soydaşlarımızla görüşdə çıxışından
Brüssel
(17 aprel 1995-ci il)

***

Şuşa qalası daim məğrur bir qala olub. Onun sarayları da, hər bir daşı da, qala kimi hasarları, divarları da məğrur olubdur. Şuşa qalasını əsrlər boyu yaradan ulu babalarımız da, onu qoruyanlar da məğrur, əyilməz, qəhrəman olublar. Təəssüf ki, zaman elə gətirdi ki, Şuşa qalası nadanların əlinə düşdü.

Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə çıxışından
Prezident Sarayı
(18 oktyabr 1995-ci il)

***

Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.

Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan guşəsidir. Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik olan böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır.

Şuşa və Laçın rayonları sakinlərinin bir qrupu ilə görüşdən
Prezident Sarayı
(6 may 1996-cı il)

***

Sumqayıt şəhəri bütün Azərbaycanı təmsil edir. Azərbaycanın elə bir guşəsini tapmaq olmaz ki, oradan gəlmiş bacılarımız, qardaşlarımız — vətəndaşlarımız bu şəhərdə yaşamasın. Bu, Sumqayıtın xüsusiyyəti, əhəmiyyətidir. Ona görə də Sumqayıt Azərbaycan xalqının birlik, həmrəylik şəhəridir, ölkəmizin dayağıdır, gözəl bir guşəsidir.

BMT inkişaf proqramının rəhbəri Geyms Qustav Spetin Sumqayıtda qarşılanması mərasimində çıxışından
(2 iyun 1996-cı il)

***

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakını əsrlər boyu quranlar, yaradanlar. Bugünkü gün və gələcək nəsillər üçün gözəl bir şəhər salıblar.

Bakıda yeni teleqüllənin təntənəli açılışı mərasimində çıxışından
(6 iyul 1996-cı il)

***

Lahıc Azərbaycanın bir abidəsidir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xalq rəssamı Maral Rəhmanzadənin əsərlərindən ibarət yubiley sərgisinin açılışı mərasimində çıxışından
R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi
(3 avqust 1996-cı il)

***

Zəngilanın Azərbaycan üçün strateji əhəmiyyəti bir də ondan ibarətdir ki, Zəngilan tək Ermənistanla Azərbaycanı ayıran sərhəddə yerləşdiyinə görə yox, eyni zamanda Zəngilanla həmsərhəd olan, yəni Azərbaycanla həmsərhəd olan Qafan, Mehri rayonlarında yaşayan azərbaycanlılar üçün həmişə dayaq olubdur. Azərbaycanla orada yaşayan azərbaycanlıları bağlayan bir məntəqə olubdur.

Zəngilan rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən
Prezident Sarayı
(29 dekabr 1996-cı il)

***

Böyük əraziyə malik olan Kəlbəcər Azərbaycanın gözəl və qiymətli guşələrindən biridir. Respublikamızın ucqar rayonu olmaqla bərabər, Kəlbəcər ölkəmiz üçün həm də strateji əhəmiyyəti olan bir rayondur. Allah Kəlbəcərə hər cür nemətlər, gözəl təbiət, zəngin sərvətlər veribdir. Kəlbəcər məğrur dağları, gözəl meşələri, otluqları, çəmənləri, obaları, bulaqları olan, Vətənimizin təbiət gözəlliyini və zənginliyini özündə əks etdirən bir parçasıdır. Kəlbəcərin həm yeraltı sərvətləri, həm də yerüstü sərvətləri Azərbaycanın milli sərvətlərinin bir hissəsidir.

Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 4-cü ildönümü ilə əlaqədar Nərimanov Rayonundakı yataqxanada məskunlaşmış Kəlbəcər qaçqınları ilə görüşdə nitqindən
(2 aprel 1997-ci il)

***

Şuşa təkcə şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır, deyə bilərəm ki, Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Ona görə də Şuşa təkcə yaşayış məkanı deyildir. Şuşa bizim milli rəmzimizdir, mədəniyyətimizin, tariximizin rəmzidir.

Azərbaycan Prezidenti Heydər Əliyevin 1998-ci martın 20-də Mərdəkandakı "Abşeron" sanatoriyasında Novruz bayramı münasibətilə qaçqınlar və məcburi köçkünlər üçün keçirilən bayram şənliyində nitqindən

(20 mart 1998-ci il)

***

Təbriz həm İran üçün, həm də Azərbaycan, yəni bizim Azərbaycan üçün çox əziz, qiymətli və müqəddəs bir şəhərdir.

İran İslam Respublikasının Şərqi Azərbaycan əyalətinin ostandarı Yəhya Məhəmmədzadənin başçılıq etdiyi nümayəndə heyətini Prezident sarayında qəbul edərkən söhbətindən
(2 avqust 1999-cu il)

***

Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir, 3500 il tarixi olan Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunlar hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərib, göstərir və gələcəkdə də göstərəcəkdir.

Naxçıvan Muxtar Respublikasının muxtariyyət, dövlətçilik statusu daimidir, əbədidir.

Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir.

Naxçıvan MR-in təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında nitqindən
(12 oktyabr 1999-cu il)

***

Naxçıvanda millilik, azərbaycançılıq, türkçülük çox dərin köklərə malikdir.

Naxçıvan MR Ali Məclisində keçirilən görüşdə nitqindən
(14 oktyabr 1999-cu il)

***

Gəncə böyük mədəniyyət mərkəzidir və Azərbaycan mədəniyyətinin qədim tarixini dünyaya nümayiş etdirən bir şəhərdir.

Gəncə şəhəri sakinləri qarşısında nitqindən
(24 may 2000-ci il)

***

Möminə Xatın türbəsi 800 ildir ki, bütün dünya səyyahlarını heyran edir. Yusif ibn Küseyr, Qarabağlar türbəsi, Əlincə qalası və bir çox belə abidələr - bunlar hamısı Naxçıvanın qədim Azərbaycan torpağı və ən qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb yaratdıqlarını göstərir.

Naxçıvan Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimində nitqindən
(15 iyun 2002-ci il)

***

Gəncədə Azərbaycanın milli mənliyi, Azərbaycan xalqının azadlığı və müstəqilliyi yolunda böyük qəhrəmanlıq göstərən insanlar yaşamış, yaratmışlar və Azərbaycan xalqını ucaltmışlar.

Gəncə öz çoxəsrlik tarixində çox böyük qəhrəmanlar, şücaətli, vətənpərvər insanlar, Vətənin yolunda özünü qurban vermiş insanlar yetişdirmişdir. Ona görə bu torpaq – Nizami torpağı müqəddəs torpaqdır. Bu torpağa hamı hörmət və ehtiram etməlidir.

Gəncə Olimpiya İdman Kompleksinin açılış mərasimində nitqindən
(12 sentyabr 2002-ci il)

***

Goranboy rayonu Azərbaycanın tanınmış guşələrindən biridir. Məhsuldar torpağı, yaxşı, gözəl təbiəti və qədim zamanlardan çox dəyərli insanları olan bu rayon Azərbaycanın həyatında keçmiş tarixdə də, müasir dövrdə də çox böyük rol oynamışdır.

Goranboy rayonu ictimaiyyəti nümayəndələrinin mitinqində nitqindən
(13 sentyabr 2002-ci il)

SİYASİ PARTİYALAR VƏ MÜXALİFƏT HAQQINDA

Siyasi partiyalar geniş təbəqələrin mənafelərini əks etdirməli, onların fəaliyyətinin strategiya və taktikasının mahiyyətini, heç olmasa, yaxın perspektivi təmin etməlidir.

"Nezavisimaya qazeta »ya müsahibəsindən
(30 avqust 1993-cü il)

***

Hər bir demokratik cəmiyyətdə şübhəsiz ki, müxalifət olmalıdır. Amma müxalifətin hakimiyyətə qarşı, iqtidara qarşı prinsipləri nədən ibarət olmalıdır - bunu anlatmaq lazımdır. Əgər bu prinsiplərdə doğrudan da müxtəliflik varsa, gedib dursun müxalifətdə, çünki bu prinsiplərlə razı deyil. Ancaq bunlar, sadəcə olaraq, nəyin bahasına olur-olsun, hakimiyyətə gəlməkdən, vəzifə tutmaqdan ötrüdürsə, bu, şübhəsiz ki, sağlam müxalifət hesab edilə bilməz.

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini
hazırlayan komissiyanın geniş iclasında nitqindən
Prezident Sarayı
(16 avqust 1995-ci il)

***

Siyasi fəaliyyət heç vaxt silahla, güc ilə, zorakılıqla bir araya gələ bilməz. Siyasi fəaliyyət beynəlxalq hüquq normaları, Konstitusiyamız çərçivəsində, Azərbaycanın hüquq çərçivəsində aparılmalıdır.

Respublikanın Milli Təhlükəsizlik Orqanları əməkdaşlarının peşə bayramı
gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(5 iyul 1997-ci il)

***

Demokratiya olan yerdə müxalifət olmalıdır. Müxalifət iqtidara qarşı öz fikrini bildirməlidir. Amma bu, doğru, düzgün, ədalətli olmalıdır, böhtan yox! Böhtan yox, yalan yox, uydurma yox, saxtalaşdırma yox!

Polşadakı Azərbaycan İcmasının nümayəndələri ilə görüşdə söhbəti və çıxışından
Varşava, «Belveder"» iqamətgahı
(27 avqust 1997-ci il)

***

Ümummilli dəyərlər, ümummilli mənafe uğrunda bütün xalq - müxalifət də, iqtidar da birləşməlidir.

Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Fransada keçirilən
İkinci Zirvə Görüşünə gəlmiş Azərbaycan Prezidentini müşayiət edən Azərbaycan
nümayəndə heyətinin üzvləri və respublikamızın kütləvi informasiya
vasitələrinin təmsilçiləri ilə görüşdə söhbətdən

Strasburq, «Sofitel» oteli
(10 oktyabr 1997-ci il)

***

Biz demokratiya quraraq, demokratiya yaradaraq, demokratiyanı inkişaf etdirərək müxalifətin varlığını və mövcudluğunu dərk edirik. Onsuz demokratiya ola bilməz.

Azərbaycan Respublikasının prezidenti seçilməsi münasibətilə andiçmə mərasimində nitqindən
(18 oktyabr 1998-ci il)

***

Yeni Azarbaycan Partiyasını Azərbaycanın ictimai-siyasi həyatında ən güclü, ən səviyyəli, ən mütəfəkkir fikirli, ən tərəqqipərvər bir siyasi təşkilat kimi görürəm və Azərbaycanın gələcəyi də bu partiyanın fəaliyyətindən asılı olacaqdır.

Hər bir şəxsin, hər bir təşkilatın, qurumun, siyasi partiyanın fəaliyyəti onun şüarları, çağırışları, nəzəri fikirləri ilə yox, onun əməli işləri ilə qiymətləndirilir.

Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə
həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(21 noyabr 1998-ci il)

***

Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır.

Cəmiyyət heç vaxt bir rəngdə ola bilməz. Əgər keçmişdə kimsə bunu bir rəngdə etmək istədisə, onlar hamısı məğlub oldu. Cəmiyyət müxtəlifdir, insanların, vətəndaşların fikir müxtəlifliyi var, bu da təbiidir.

Yeni Azərbaycan Partiyasının birinci qurultayında yekun nitqindən
(20 dekabr 1999-cu il)

***

İnsanlar demokratiya mədəniyyətini, müxalifət mədəniyyətini, iqtidar mədəniyyətini mənimsəməlidirlər.

ABŞ Ticarət Nazirliyinin yeni müstəqil dövlətlər üzrə müşaviri, enerji məsələləri üzrə səlahiyyətli şəxs
Yan Kalitskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən söhbətindən
(3 mart 2000-ci il)

***

Müxalifət demokratiyanın təbii bir hissəsidir. Müxalifət olmayan yerdə demokratiya ola bilməz.

Sərhəd Qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
(18 avqust 2001-ci il)

***

Vətəndaşlarımızın ən böyük ictimai təşkilatı olan həmkarlar ittifaqları yeni cəmiyyət quruculuğunda yaxından iştirak etməli, sosial siyasətin həyata keçirilməsində önəmli rol oynamalıdır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının II qurultayına müraciətdən
(3 fevral 2003-cü il)

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ HAQQINDA

Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir. «Əkinçi»dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini biz milli mətbuatımızın səhifələrindən öyrənmişik.

22 iyul – Milli Mətbuat Günü münasibətilə təbrikindən
(21 iyul 1995-ci il)

***

Azərbaycanın milli televiziyası xalqımızın milli sərvətidir.

Azərbaycan Milli Televiziyasının 40 illiyi münasibətilə təntənəli yubiley gecəsində çıxışından
Respublika Sarayı
(17 fevral 1996-cı il)

***

Radio və televiziya insanları təsirləndirir, onların təkmilləşməsinə, mənəviyyatca inkişafına kömək edir.

Bakıda yeni teleqüllənin təntənəli açılışı mərasimində çıxışından
(6 iyul 1996-cı il)

***

Azərbaycan mətbuatı çox zəngin və şərəfli inkişaf yolu keçmiş, xalqımızın həyatının bütün sahələrini, istək və arzularını daim öz səhifələrində əks etdirmiş, milli şüurun, mənəviyyatın, mədəniyyətin formalaşmasına və inkişafına güclü təkan vermişdir.

Milli Mətbuat Günü münasibətilə təbrikindən
Bakı şəhəri
(21 iyul 1997-ci il)

***

Azərbaycan mətbuatı zəngin və şərəfli tarixi boyu həmişə böyük ictimai idealların carçısı olmuş, xalqımızın azadlıq istəyinin, müstəqillik amalının güclənməsində, mənəvi tərəqqisində, yüksək əxlaqi dəyərlərin qorunub saxlanılmasında və daha da inkişaf etdirilməsində müstəsna xidmətlər göstərmişdir.

Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gün əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində, sivil vətəndaş cəmiyyətinin formalaşmasında, islahatların həyata keçirilməsində, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir.

Azərbaycan Respublikasının mətbuat işçilərinə təbrikindən
(21 iyul 1999-cu il)

***

Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan "Əkinçi" qadın azadlığı və qadın təhsili ideyasını təbliğ edən ilk Azərbaycan qəzeti olmuşdur.

Milli demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maariflənmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün
təməl daşları rolunu oynadı.

Mollanəsrəddinçilər klassik Azərbaycan, Şərq, rus və dünya bədii-publisist irsinin ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnərək, milli mətbuat tarixində satirik jurnalistikanın bünövrəsini qoymuş, Azərbaycan publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirərək onun inkişafında misilsiz rol oynamışlar.

"Azərbaycanda milli mətbuatın yaranmasının 125 illiyi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanından
(27 mart 2000-ci il)

***

Mətbuat cəmiyyətdə olan çatışmazlıqları, nöqsanları, hakimiyyətin fəaliyyətində olan qüsurları tənqid etməklə həm iqtidara, həm də cəmiyyətin bu nöqsanlardan təmizlənməsinə kömək etməlidir.

Dövlət mətbuatı yalnız iqtidarı təbliğ etmək, iqtidarın qanunlarını, qərarlarını şərh etmək yolu ilə getməməlidir. O da bizim bütün işlərimizdə olan nöqsanları, qüsurları aşkara çıxarmalıdır, tənqid etməlidir.

Ölkədə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin rəhbərlərilə görüşdə nitqindən
(18 dekabr 2001-ci il)

***

Biz senzuranı ləğv etdik, Konstitusiya ilə təsbit olunmuş söz azadlığını, mətbuat azadlığını tamamilə təmin etdik, mətbuata geniş imkanlar yaratdıq. Mətbuat Azərbaycanda həqiqətən çox sərbəstdir, çox azaddır. Bu da o deməkdir ki, söz azaddır, fikir azaddır.

"Ruh" jurnalistləri müdafiə komitəsi tərəfindən jurnalistlərin dostu" mükafatının təqdim olunma mərasimində nitqindən
(22 mart 2002-ci il)

DÜNYA AZƏRBAYCANLILARI HAQQINDA

Hamımız üçün bir böyük məfhum var: Azərbaycan Respublikası, Azərbaycan xalqı. Bu məfhumun ətrafında hamı sıx birləşməlidir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı milli televiziya və radio ilə xalqa müraciətindən
(2 noyabr 1993-cü il)

***

Harada olursan-ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən.

Londonun "Hilton" otelində Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə çıxışından
(23 fevral 1994-cü il)

***

Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, bu, beynəlxalq hüququn sarsılmaz prinsipidir, bir dövlətin başqa dövlətin ərazi bütövlüyünə qəsd etməsinə yol vermək olmaz. Sərhədlərin toxunulmazlığı da sarsılmaz prinsipdir və sərhədləri silah gücünə dəyişdirmək cəhdi yolverilməzdir.

Pekin İctimai Elmlər Akademiyasında çıxışından
(9 mart 1994-cü il)

***

Böyük siyasət aparmaq üçün bilik, təcrübə lazımdır. Gərək dünya siyasətini dərk etməyi, təhlil etməyi, ondan nəticə çıxarmağı bacarasan.

Zuğulbadakı Pansionatda müvəqqəti məskunlaşan qaçqınlarla görüşdə çıxışından
(21 may 1994-cü il)

***

Qoy azərbaycanlılar hər yerdə yaşasınlar. Hər yerdə azərbaycanlılar olanda, Azərbaycan Respublikasının dayağı da daha çox olur.

İsveçrədə yaşayan soydaşlarımızla görüşdə çıxışından
Bern
(29 yanvar 1995-ci il)

***

Qürbətdə yaşayanlar qəriblikdə Vətənini, torpağını, xalqını, millətini, dinini, dilini, adət və ənənələrini unutmursa, insanın harada yaşaması elə böyük əhəmiyyət kəsb etmir.

Brüsseldə soydaşlarımızla görüşdə çıxışından

Brüssel
(17 aprel 1995-ci il)

***

Biz sülhsevər ölkəyik, Azərbaycan xalqı sülhsevər xalqdır. Biz bütün xalqlarla xüsusən də həmsərhəd, qonşu olduğumuz, tarixən ənənəvi əlaqələr saxladığımız ölkələrlə, xalqlarla dostluq qonşuluq və qarşılıqlı anlaşma şəraitində yaşamaq istəyirik. Bununla yanaşı, hamı bilməlidir ki, biz heç kimə bir qarış da olsun, torpağımızı güzəştə gedə bilmərik. Əgər dünya həqiqətən beynəlxalq hüquq normalarını tanıyırsa, əgər dünyada insan hüquqları real şəkildə qorunursa, onda heç kəs Azərbaycanın bu gün düşdüyü vəziyyətlə razılaşmamalıdır.

Azərbaycanda rəsmi səfərdə olan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Vladimir Şumeykonun şərəfinə təşkil edilən qəbulda nitqindən
"Gülüstan" Sarayı
(14 iyul 1995-ci il)

***

BMT-nin üzvü kimi müstəqil Azərbaycan Respublikasının amalı və məqsədi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, onu əbədi etməkdən ibarətdir.

BMT-nin 50 illiyinə həsr olunmuş təntənəli gecədə nitqindən
Respublika Sarayı
(6 oktyabr 1995-ci il)

***

Dünyada heç kəs heç kimə öz prinsiplərini, öz iradəsini zorla qəbul etdirməməlidir, heç bir dövlət digər ölkələrin hüquq və mənafelərini pozmamalıdır.

Azərbaycan – Rumıniya dövlətlərarası və hökumətlərarası sənədlər imzalandıqdan sonra birgə mətbuat konfransında bəyanatından
Prezident Sarayı
(27 mart 1996-cı il)

***

Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla, müstəqil Azərbaycanla vurmalıdır.

Norveçdə Azərbaycan Diasporunun nümayəndələri ilə görüşdə çıxışından
(24 aprel 1996-cı il)

***

Beynəlxalq hüquq normaları, millətlərarası, dövlətlərarası əlaqələr hər bir ölkənin suverenliyi, toxunulmazlığı, ərazi bütövlüyü prinsipi - bunların hamısı ölkələrin sərhədləri ilə əlaqədardır.

Azərbaycan Respublikası sərhəd qoşunlarının yaradılmasının
beş illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Şəhriyar adına mədəniyyət mərkəzi
(16 dekabr 1996-cı il)

***

Biz beynəlxalq, dövlətlərarası münasibətlərdə ədalətin olmasını istəyirik. Biz hər hansı böyük ölkənin öz nüfuzundan istifadə edərək hansısa kiçik bir ölkəyə təzyiq göstərməsinin əleyhinəyik.

Fransada akkreditə olunmuş xarici jurnalistlərin suallarına cavabından
Paris, "Bukets" kafesi
(15 yanvar 1997-ci il)

***

Bütün azərbaycanlıların Vətəni Azərbaycandır. Xoşbəxtlikdən bizim millətimizin adı da azərbaycanlı, ölkəmizin adı Azərbaycandır.

Müstəqilliyimizin bizə verdiyi ən böyük nemətlərdən, ən böyük müsbət nəticələrdən biri odur ki, indi dünyanın hər yerində yaşayan azərbaycanlılara soydaşlarımız kimi həm qayğı göstərmək, həm onlarla əlaqə yaratmaq, həm də onların hüquqlarının qorunması haqqında düşünmək və onlarla tez-tez görüşmək imkanımız var.

Daşkənddə Azərbaycan səfirliyi binasında soydaşlarımızla – Özbəkistandakı
Azərbaycan Diasporunun nümayəndələri ilə görüşdə çıxışından
(19 iyun 1997-ci il)

***

Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi Vətəni, doğma ata-baba yurdudur.

Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim, zəngin mədəniyyətə malik olan Azərbaycan kimi Vətəni vardır. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında Azərbaycan Respublikası kimi müstəqil bir dövlət durur.

Dünya azərbaycanlılarına müraciətindən
(25 dekabr 1997-ci il)

***

Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələr saxlamaq, sülhü, əmin-amanlığı qorumaq, qonşularla mehribanlıq, əmin-amanlıq, sülh şəraitində yaşamaq, bütün başqa ölkələrlə də mehriban əlaqələr yaratmaq və bütün sahələrdə geniş əməkdaşlıq etmək siyasətidir.

1998-ci il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
(27 may 1998-ci il)

***

Hal-hazırda bütün dünya azərbaycanlılarının milli-mənəvi varlığını yaşadan bir dövlət var. Bu dövlət Azərbaycan Respublikasıdır. Onun müstəqilliyini dönməz etmək, dövlətçiliyini qorumaq, ərazi bütövlüyünü, təhlükəsizliyini və sərhədlərinin toxunulmazlığını təmin etmək, bütün ölkələrlə bərabər hüquqlu, qarşılıqlı faydalı əməkdaşlığa nail olmaq tək Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının övladlıq borcudur.

Dünya azərbaycanlılarının Həmrəylik günü münasibətilə müraciətindən
(24 dekabr 1998-ci il)

***

Dünya azərbaycanlılarının birliyi müstəqil və azad Azərbaycan ideyalarının həyata keçirilməsində, ümummilli məqsədlərimizin gerçəkləşməsində, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində və dövlətçilik ənənələrimizin inkişaf etdirilməsində müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Milli Məclisinə müraciətindən
(24 dekabr 1998-ci il)

***

Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət təşkil edir.

Dünya azərbaycanlılarının Həmrəylik günü münasibətilə müraciətindən
(28 dekabr 1999-cu il)

***

Biz bütün dünyada yaşayan azarbaycanlılarla müstəqil Azərbaycanda yaşayan azərbaycanlıların həmrəyliyini, əlaqələrini çox yüksək qiymətləndiririk. Çünki biz birinci növbədə istəyirik dünyanın hər bir ölkəsində yaşayan azərbaycanlı hiss etsin ki, bu dünya birliyində onun dövləti vardır. Dövləti olmayan xalqın dünya birliyində yeri yoxdur.

İsveçrədəki Azərbaycan Cəmiyyəti İdarə Heyətinin bir qrup üzvü ilə Davosda görüşdə çıxışından
(30 yanvar 2000-ci il)

***

Azərbaycan Respublikasının hər bir uğuru dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, bütün həmvətənlərimizin də qəlblərində böyük qürur və iftixar hissi doğurur.

Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasət sahələrində fəaliyyəti, əldə etdiyi uğurlar bütün dünya azərbaycanlılarının milli şüurunu, özünüdərkini, ana torpağı Azərbaycana bağlılığını gündən-günə möhkəmləndirir.

Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin sərəncamından
(23 may 2001-ci il)

***

Rusiyada yaşayan azərbaycanlılar Rusiyanın layiqli vətəndaşları olmalıdırlar, öz hərəkətləri ilə xalqını gözdən salmamalıdırlar. Bir tərəfdən onların vəzifəsi bundan ibarətdir, digər tərəfdən isə onlar öz Vətəninin, öz torpağının, öz xalqının vətənpərvərləri olmalı, öz dilini, adətlərini unutmamalıdırlar.

Xarici ölkələrin kütləfi informasiya vasitələrinin Bakıda səfərdə olan rəhbərləri ilə qeyri-rəsmi şəraitdə görüşdə söhbətindən
(15 iyul 2001-ci il)

***

Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin.

Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir - ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımızdır, xalqımıza mənsub olan adət-ənənələrdir.

Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyıb saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir.

Dünya Azərbaycanlılarının I qurultayında nitqindən
(10 noyabr 2001-ci il)

***

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü, hər bir azərbaycanlı üçün əziz olan bu tarixi gün milli şüurumuzun və azadlıq mübarizəsinin güclənməsinin məntiqi nəticəsi olaraq meydana çıxmış, xalqımızın dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirərək, soydaşlarımızı öz tarixi vətəni, milli mənliyi, öz taleyi üçün düşünməyə dəvət edir.

Xalqımızın tarixi müqəddəratının təxirəsalınmaz vəzifəsi olan dünya azərbaycanlılarının birliyi və həmrəyliyinin əsasını azərbaycançılıq və Azərbaycan dövlətçiliyi ideyaları təşkil edir. Azərbaycançılıq ideyası hər şeydən əvvəl azərbaycanlıların milli mənlik şüurunun, milli-mənəvi dəyərlərinin, dilinin, mədəniyyətinin,

əsrlərin sınağından çıxmış adət-ənənələrinin yaşadılmasını, bu ideya əsasında azərbaycanlıların tarixi Vətənlə və öz aralarında birliyinin yaradılmasını nəzərdə tutur.

Dünya azərbaycanlılarına təbrikindən
(30 dekabr 2001-ci il)

***

Əsl soyqırım haqqında həqiqətləri real tarixi faktlar əsasında, dəlillərlə müntəzəm surətdə dünya dövlətlərinə və ictimai fikrinə çatdırmaq, bu hadisələrin ilhamçılarını və təşkilatçılarını bəşəriyyətə tanıtdırmaq bizim, indiki nəslin müqəddəs vəzifəsidir. Bu məsələdə bütün Azərbaycan xalqı, dünya azərbaycanlıları bir olmalı, eyni mövqedən çıxış etməlidirlər.

31 mart - Azərbaycanlıların Soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciətindən
(27 mart 2002-ci il)

***

Xaricdəki Azərbaycan icmalarının, diasporumuzun potensialı, istifadə olunmamış imkanları xeyli böyükdür və bu sahə əsl vətənpərvər insanlarımız üçün geniş yaradıcılıq və fəaliyyət sahəsidir.

Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə müraciətindən
(26 dekabr 2002-ci il)

DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR HAQQINDA

Rusiyanın Qafqaz bölgəsində həmişə mənafeyi olmuşdur.

"Nezavisimaya qazeta"ya müsahibəsi
(30 avqust 1993-cü il)

***

Biz dünya mədəniyyətinə, dünya elminə Rusiya vasitəsilə, rus dili vasitəsilə, rus mədəniyyəti vasitəsilə çıxmışıq.

Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışından
(22 sentyabr 1993-cü il)

***

Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, bu, beynəlxalq hüququn sarsılmaz prinsipidir, bir dövlətin başqa dövlətin ərazi bütövlüyünə qəsd etməsinə yol vermək olmaz. Sərhədlərin toxunulmazlığı da sarsılmaz prinsipdir və sərhədləri silah gücünə dəyişdirmək cəhdi yolverilməzdir.

Pekin İctimai Elmlər Akademiyasında çıxışından
(9 mart 1994-cü il)

***

Böyük siyasət aparmaq üçün bilik, təcrübə lazımdır. Gərək dünya siyasətini dərk etməyi, təhlil etməyi, ondan nəticə çıxarmağı bacarasan.

Zuğulbadakı Pansionatda müvəqqəti məskunlaşan qaçqınlarla görüşdə çıxışından
(21 may 1994-cü il)

***

Rumın xalqı öz gözəl işləri, qəhrəmanlıq tarixi, istiqlaliyyət uğrunda mübarizəsi ilə dünyada məşhurdur. Azərbaycanda Rumıniyanı, rumın xalqını yaxşı tanıyır, onun tarixinə, qədim mədəniyyətinə, ədəbiyyat və incəsənətinə yaxşı bələddirlər.

Rumıniya Prezidenti İon İliyeskunun Azərbaycan Prezidentinin
şərəfinə təşkil etdiyi rəsmi qəbulda nitqi
Buxarest
(1 iyul 1995-ci il)

***

Azərbaycanla İran arasındakı münasibətlər dərin köklərə malikdir. Bizim xalqlarımız əsrlər boyu bərabər yaşamış, bir yerdə olmuşlar. Bizim tarixi, mənəvi dəyərlərimiz eynidir.

İran İslam Respublikasına rəsmi səfər zamanı İran Xarici İşlər Nazirliyinin Siyasi Araşdırmalar Mərkəzinin Diplomatik Kurslarında təhsilini başa çatdırmış müdavimlər qarşısında çıxışından
(2 iyul 1994-cü il)

***

Azərbaycan müstəqillik əldə edəndən sonra Türkiyə Cümhuriyyəti ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr qurmuşdur və bunlar dostluq, qardaşlıq prinsiplərinə, bizim tarixi köklərimizə əsaslanır. Müstəqillik yolu ilə getdiyi bir dövrdə bu əlaqələr Azərbaycan xalqına çox kömək edir və bizim üçün çox əhəmiyyətlidir.

Türkiyə Respublikasının Baş naziri xanım Tansu Çillərin şərəfinə rəsmi ziyafətdə nitqindən
"Gülüstan" Sarayı
(10 iyul 1995-ci il)

***

Biz sülhsevər ölkəyik, Azərbaycan xalqı sülhsevər xalqdır. Biz bütün xalqlarla xüsusən də həmsərhəd, qonşu olduğumuz, tarixən ənənəvi əlaqələr saxladığımız ölkələrlə, xalqlarla dostluq qonşuluq və qarşılıqlı anlaşma şəraitində yaşamaq istəyirik. Bununla yanaşı, hamı bilməlidir ki, biz heç kimə bir qarış da olsun, torpağımızı güzəştə gedə bilmərik. Əgər dünya həqiqətən beynəlxalq hüquq normalarını tanıyırsa, əgər dünyada insan hüquqları real şəkildə qorunursa, onda heç kəs Azərbaycanın bu gün düşdüyü vəziyyətlə razılaşmamalıdır.

Azərbaycanda rəsmi səfərdə olan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Vladimir Şumeykonun şərəfinə təşkil edilən qəbulda nitqindən
"Gülüstan" Sarayı
(14 iyul 1995-ci il)

***

Çin böyük bir ölkədir. Çin xalqı böyük bir xalqdır. Çin xalqının qədim, zəngin tarixi var. Çin xalqının bəşəriyyət qarşısındakı xidmətləri daim yüksək qiymətləndirilib.

Çin Xalq Respublikası yaranmasının 46-cı ildönümü münasibətilə rəsmi qəbulda nitqindən
„Gülüstan" Sarayı
(29 sentyabr 1995-ci il)

***

Azərbaycan xalqı ilə alman xalqı arasında böyük tarixi əlaqələr var. Keçmişdə Azərbaycanda çoxlu alman yaşamışdır. Xalqımızın həyatında onların rolu olubdur. Almanların keçmişdə Azərbaycanda yaşamalarının izləri indi də durur. Bu izlər və bəzi abidələr bizim tərəfdən qorunub saxlanılır.

Almaniyanın yenidən birləşməsi günü münasibətilə AFR-in Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqindən

"Sinema klub"
(3 oktyabr 1995-ci il)

***

Pakistan xalqı ilə Azərbaycan xalqının tarixi keçmişində, adət-ənənələrində çox bənzərlik var və bizim bir dinə mənsub olmağımız xalqlarımızı daim bir-birinə yaxın edib. Bu gün bunların əsasında Pakistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və sıx əməkdaşlıq əlaqələri mövcuddur.

Pakistan Prezidenti Fərrux Əhməd xan Leqari ilə
Azərbaycan Milli Məclisi üzvlərinin görüşündə nitqindən
(10 oktyabr 1995-ci il)

***

BMT-nin üzvü kimi müstəqil Azərbaycan Respublikasının amalı və məqsədi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, onu əbədi etməkdən ibarətdir.

BMT-nin 50 illiyinə həsr olunmuş təntənəli gecədə nitqindən
Respublika Sarayı
(6 oktyabr 1995-ci il)

***

Dünyada heç kəs heç kimə öz prinsiplərini, öz iradəsini zorla qəbul etdirməməlidir, heç bir dövlət digər ölkələrin hüquq və mənafelərini pozmamalıdır.

Azərbaycan – Rumıniya dövlətlərarası və hökumətlərarası sənədlər
imzalandıqdan sonra birgə mətbuat konfransında bəyanatından
Prezident Sarayı
(27 mart 1996-cı il)

***

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir.

Türkiyə Respublikasının Baş naziri Məsud Yılmazla Azərbaycan
ictimaiyyəti nümayəndələrinin görüşündə nitqindən
Respublika Sarayı
(14 aprel 1996-cı il)

***

Türkiyə ilə Azərbaycan arasında dostluq əlaqələrinin böyük tarixi var. Bu əlaqələr bir çox əsrlər boyu formalaşıb, inkişaf edib, bugünkü xoşbəxt günlərə gəlib çatıbdır. Xalqımızın eyni kökə, eyni dinə, eyni dilə mənsub olması, adət və ənənələrimizin bir-birinə bənzərliyi, yaxud eyniliyi, milli duyğularımızın bir-biri ilə oxşar olması - hamısı birlikdə əsrlərdən-əsrlərə xalqlarımızı bir, bərabər etmişdir, xalqlarımız arasında sıx

dostluq, qardaşlıq əlaqələri yaratmışdır. Məhz buna görədir ki, biz tez-tez belə bir gözəl ifadəni işlədirik. «Biz bir xalq, iki dövlətik».

"Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının perspektivləri"
mövzusuna həsr olunmuş konfransın açılışında nitqindən
Azərbaycan Dövlət Opera və Balet Teatrı
(30 may 1996-cı il)

***

Dünyada bizim üçün, yəni azərbaycanlılar üçün ən birinci dayaq türklərdir.

Almaniyadakı Azərbaycan Cəmiyyətlərinin Sədrləri Və Azərbaycan
Cəmiyyətləri Federasiyasının nümayəndələri ilə görüşdə çıxışından
Bonn
(1 iyul 1996-cı il)

***

Beynəlxalq hüquq normaları, millətlərarası, dövlətlərarası əlaqələr hər bir ölkənin suverenliyi, toxunulmazlığı, ərazi bütövlüyü prinsipi - bunların hamısı ölkələrin sərhədləri ilə əlaqədardır.

Azərbaycan Respublikası sərhəd qoşunlarının yaradılmasının
beş illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Şəhriyar adına mədəniyyət mərkəzi
(16 dekabr 1996-cı il)

***

Biz beynəlxalq, dövlətlərarası münasibətlərdə ədalətin olmasını istəyirik. Biz hər hansı böyük ölkənin öz nüfuzundan istifadə edərək hansısa kiçik bir ölkəyə təzyiq göstərməsinin əleyhinəyik.

Fransada akkreditə olunmuş xarici jurnalistlərin suallarına cavabından
Paris, "Bukets" kafesi
(15 yanvar 1997-ci il)

***

Rus və Azərbaycan xalqları arasında uzun illərdən, onilliklərdən və əsrlərdən bəri adamlarda yaranmış dostluq və hörmət hisslərini məhv etmək olmaz. Azərbaycanlılarda bu hisslər Rusiyaya, rus xalqına, rus adamına xoş, dostluq, qardaşlıq münasibətləridir.

Azərbaycanda Rusiya Federasiyasının Mədəniyyət Günlərində Vaxtanqov
adına Moskva Akademik Teatrının Səməd Vurğun adına Azərbaycan
Dövlət Rus Dram Teatrında D. Kiltinin "Əziz yalançı" tamaşası
qurtardıqdan sonra moskvalı qonaqlarla söhbətdən
(5 aprel 1997-ci il)

***

Eyni etnik kökə, ortaq tarixi keçmişə və milli mədəni ənənələrə malik türk xalqları tarix səhnəsinə çıxdığı gündən yüz illər boyu bəşəri mədəniyyətlərin Şərqdən Qərbə, Qərbdən Şərqə daşıyıcısı kimi dünya tarixində misilsiz rol oynamış bəşər sivilizasiyasına silinməz, şərəfli səhifələr həkk etmişlər.

Türk dövlət və topluluqlarının 5-ci dostluq, qardaşlıq və işbirliyi qurultayının iştirakçılarına
(9 aprel 1997-ci il)

***

Manas qırğız xalqının böyük oğludur və eyni zamanda o, bizim hamımıza məxsusdur. Manas eyni dərəcədə bütün türkdilli xalqlara məxsusdur, elə eyni dərəcədə də Azərbaycan xalqına məxsusdur.

Qırğızıstan Prezidenti Əsgər Akayevə M. Ə. Rəsulzadə adına BDU-nun
fəxri doktoru diplomunun təqdim edilməsi mərasimində nitqindən
(23 aprel 1997-ci il)

***

Bizdən əvvəl yaşamış nəsillər də Türkiyənin həsrətində olublar, Türkiyə ilə qovuşmaq, görüşmək, əl-ələ vermək, Türkiyənin əlini sıxmaq həsrəti ilə yaşayıblar. Nəhayət, biz 1990-cı ilin əvvəllərində buna nail olduq. Bunun özü hər bir Azərbaycan vətəndaşının həyatında, o cümlədən mənim həyatımda böyük bir xoşbəxtlikdir.

Azərbaycan Prezidentinə Türkiyə Cümhuriyyətinin
"Dövlət nişanı"nın təqdim olunması mərasimində çıxışından
İstanbul, "Çankaya köşkü"
(5 may 1997-ci il)

***

Biz müstəqillik əldə edən kimi, sərhədlər açılan kimi, bir-birimizlə əlaqələr asanlaşan kimi dostluğumuz, qardaşlığımız böyük bir fəvvarə kimi püskürdü və bütün dünyaya nümayiş etdirdi ki, Türkiyə ilə Azərbaycan keçmişdə də bir olub, bu gün də birdir, gələcəkdə də bir olacaqdır.

Türkiyə Prezidenti Süleyman Dəmirəlin adından Azərbaycan
Prezidentinin şərəfinə təşkil edilmiş rəsmi ziyafətdə nitqindən
Ankara
(5 may 1997-ci il)

***

Türkiyədə yaşayan azərbaycanlı da türkdür, azərbaycanlıdır, Azərbaycanda yaşayan türk də türkdür və azərbaycanlıdır.

Türkiyə xalqından, ordusundan, türk əsgərindən vətəni sevməyi, vətənə sadiq olmağı, milləti sevməyi öyrənmək lazımdır. Mən bunu ona görə deyirəm ki, Türkiyə Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biri odur ki, onun çox güclü, qüdrətli ordusu vardır. Bir ona görə yox ki, onun güclü silahı var, çoxsaylı ordusu

var. Ona görə ki, türk ordusu, əsgəri yüksək mənəviyyatlı, vətənpərvər, vətəninə, millətinə, cümhuriyyətinə, Atatürkün qoyduğu yola sadiqdir. Bu, Türkiyə ordusunun qüdrəti, Türkiyə ordusunun gücüdür.

Türkiyə Quru Qoşunları Məktəbi ilə tanışlıq, tələbələrlə və Azərbaycan Diasporunun nümayəndələri ilə görüşdə çıxışından
Ankara
(6 may 1997-ci il)

***

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir, bizim qanımız, canımız, dinimiz, dilimiz birdir.

Türkiyənin iş adamları ilə görüşdə nitqindən
İstanbul, "Suis" oteli
(8 may 1997-ci il)

***

Gənc, müstəqil Azərbaycan Respublikası dünyanın ən böyük, qüdrətli dövləti olan Amerika Birləşmiş Ştatları ilə bərabərhüquqlu əlaqələr qurubdur. Bu əlaqələr inkişaf edir, hər iki ölkə üçün öz müsbət nəticələrini verir.

ABŞ-ın Ticarət Naziri Uilyam Deyli və Energetika Naziri Federiko Penyanın Azərbaycan Respublikası Prezidentinin şərəfinə təşkil etdikləri rəsmi qəbulda çıxışından
Vaşinqton, ABŞ Konqresinin
"Old senate suite" binası
(31 iyul 1997-ci il)

***

İtaliya dünyanın ən iri ölkələrindən biridir, ən inkişaf etmiş yeddi dövlət sırasına daxildir, zəngin tarixə, milli ənənələrə malikdir. İtaliya planetdə, o cümlədən Azərbaycanda bütün insanların diqqətini həmişə cəlb etmişdir.

İtaliya Xarici Ticarət Əlaqələri Nazirliyinin Azərbaycan Prezidentinin şərəfinə təşkil etdiyi rəsmi qəbulda çıxışından
Roma
(25 sentyabr 1997-ci il)

***

Türkiyə, Gürcüstan və Azərbaycanın – Qafqazın üç böyük və çox strateji əhəmiyyətə malik olan ölkələrinin bu cür sıx dostluq, qardaşlıq əlaqələrində olması bütün Qafqazda, onun ətrafında sülhün, əmin-amanlığın, təhlükəsizliyinin təmin edilməsi üçün çox önəmli bir amildir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyədə Dərinər su bəndinin - su elektrik stansiyasının təməlinin qoyulmasına həsr edilmiş təntənəli mərasimdə nitqindən
(26 aprel 1998-ci il)

***

Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələr saxlamaq, sülhü, əmin-amanlığı qorumaq, qonşularla mehribanlıq, əmin-amanlıq, sülh şəraitində yaşamaq, bütün başqa ölkələrlə də mehriban əlaqələr yaratmaq və bütün sahələrdə geniş əməkdaşlıq etmək siyasətidir.

1998-ci il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
(27 may 1998-ci il)

***

Ukrayna xalqı qədim tarixə, zəngin sivilizasiyaya malikdir, ümumbəşəri sivilizasiyaya böyük töhfə vermişdir.

Ukraynanın müstəqillik günü münasibətilə təşkil olunmuş rəsmi qəbulda Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışından
(24 avqust 1998-ci il)

***

Gürcüstan-Azərbaycan dostluğunun ən gözəl xüsusiyyətlərindən biri odur ki, Gürcüstanda yaşayan azərbaycanlılar öz doğma vətənlərində, torpaqlarında yaşayırlar və Gürcüstanın bərabərhüquqlu vətəndaşlarıdır.

Azərbaycan və Gürcüstan respublikalarının sərhədində tikilmiş yeni körpünün açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən
(7 oktyabr 1998-ci il)

***

Türkiyə Cümhuriyyəti Avropa ilə Asiyanın, Şərqlə Qərbin sintezindən əmələ gəlmiş və bütün müsəlman Şərq aləmi üçün örnək cümhuriyyət olmuşdur.

Türkiyə ilə Azərbaycanın əlaqələrinin qədim və zəngin tarixi var. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir. Həmin əlaqələrin mənbəyi bizim müştərək tarixi köklərimizdir, eyni kökə mənsubiyyətimiz, dilimizin, dinimizin, adət-ənənələrimizin eyni olmasıdır. Bütün bunlar əsrlər boyu bizi bərabərliyə, dostluğa, əməkdaşlığa çağırıb, bu gün də dostluğumuzun, əməkdaşlığımızın əsasını təşkil edir.

Türkiyə Azərbaycana həmişə dayaq olmuşdur. XX əsrdə 1918-ci ildə Azərbaycanda Xalq Cümhuriyyəti elan olunarkən Türkiyənin Azərbaycana etdiyi yardımlar və o illərdə ölkəmizə qarşı təcavüzün qarşısının alınmasında türk qardaşlarımızın göstərdikləri qəhrəmanlıqlar Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Türkiyə Cümhuriyyəti yaradılmasının 75-ci ildönümü münasibətilə qardaş ölkənin Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqindən
(27 oktyabr 1998-ci il)

***

Azərbaycan öz coğrafi vəziyyətinə əsasən Qərb sivilizasiyası ilə Şərq sivilizasiyasını həm coğrafi, həm də məzmun, mənəvi nöqteyi-nəzərdən birləşdirən bir ölkədir. Biz bu tarixi missiyamızı da çox yüksək qiymətləndiririk. Şərq və Qərbi, Avropa ilə Asiyanı, xristian aləmi ilə İslam aləmini birləşdirən Azərbaycan müstəqil dövlətdir və bundan sonra da müstəqil dövlət kimi yaşayacaqdır.

Azərbaycan Milli Elmlər Akademiyası rəyasət heyətinin binasında keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun açılışı mərasimində nitqindən
(9 dekabr 1998-ci il)

***

Özbəkistanla Azərhaycanı çox şeylər bağlayır, tarixi köklərimiz birdir, dilimiz, musiqimiz, dinimiz, adətlərimiz, bütün ənənələrimiz də birdir. Biz eyni köklərə mənsubuq və onları, milli xüsusiyyətlərimizi, milli mənşəyimizi indi daha çox qiymətləndiririk. Bu, müstəqil, suveren dövlətlər kimi Özbəkistanın da, Azərbaycanın da yer üzündə möhkəm durması və mövcud olması üçün onların müstəqillik və suverenliyini heç kimin poza bilməməsi üçün zəruridir.

Respublika sarayında Özbəkistanın məşhur "Yalla" dövlət əməkdar kamera-instrumental ansamblının konsertindən sonra yaradıcı kollektiv ilə görüşdəki söhbətdən
(12 dekabr 1998-ci il)

***

Fransa böyük tarixə, zəngin mədəniyyətə malik olan ölkədir. Fransa bu gün dünyanın qüdrətli və inkişaf etmiş dövlətlərindən biridir və beynəlxalq siyasətdə onun özünəməxsus yeri var.

Fransanın milli bayramı şərəfinə təşkil edilmiş rəsmi qəbulda nitqindən
(14 iyul 1999-cu il)

***

Azərbaycan xalqı Misirin qədim, zəngin mədəniyyətinə, zəngin tarixinə böyük hörmət və ehtiram bəsləyir. Bizim üçün bugünkü Misir-Azərbaycan əlaqələri çox əzizdir.

Misir Ərəb Respublikasının milli bayramı – iyul inqilabının 47-ci ildönümü münasibətilə Misirin Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqindən
(23 iyul 1999-cu il)

***

Almaniya dünyada və xüsusən Avropada çox qədim tarixə, böyük mədəniyyətə, iqtisadiyyata malik olan bir ölkədir.

Almaniyanın milli bayramı şərəfinə təşkil olunmuş rəsmi qəbulda nitqindən
(3 oktyabr 1999-cu il)

***

Sovetlər İttifaqı dağılandan sonra, türkdilli respublikalar öz dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə Cümhuriyyətinin türk dünyası qarşısında ən böyük xidmətləri ondan ibarətdir ki, türkdilli dövlətlərin birliyi yarandı. Bu birlik bu gün də davam edir, türkdilli dövlətləri bir-birinə daha da yaxınlaşdırır, əməkdaşlığı daha da inkişaf etdirir, bizim müştərək tarixi köklərimizin birlikdə araşdırılmasına və onların aşkara çıxarılmasına, dünyaya göstərilməsinə çox
kömək edir.

Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirələ "İstiqlal"
ordeni təqdim olunması münasibətilə keçirilən təntənəli mərasimdə nitqindən
(18 oktyabr 1999-cu il)

***

Polşa Avropanın ən iri ölkələrindən biridir, zəngin tarixi var. Polyak xalqı özünün bütün tarixi ərzində qəhrəmanlıq və mərdlik göstərmiş, çox çətinlikləri, çox məhrumiyyətləri aradan qaldırmış, lakin öz milli ləyaqətini qorumuş, öz mədəniyyətini inkişaf etdirmişdir.

Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevskinin
şərəfinə təşkil olunmuş rəsmi qəbulda nitqindən
(27 oktyabr 1999-cu il)

***

İlk dəfə olaraq Türkiyənin xaricindən, xarici ölkədən - yalnız Azərbaycandan torpaq gətirildi və o torpağı mən şəxsən Mustafa Kamal Atatürkün qəbrinin yanına, böyük Türkiyənin diyarlarından gətirilmiş torpaqlarla bir sırada qoydum. Bu, bizim üçün tarixi bir hadisədir. Çünki ilk dəfədir ki, Türkiyənin xaricindən buraya torpaq gətirilir. Eyni zamanda bu onu göstərir ki, Türkiyənin bütün torpaqları kimi, bütün vilayətləri kimi, bütün diyarları kimi, Azərbaycan Türkiyə ilə bağlıdır və Mustafa Kamal Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün müdrik şəxsiyyəti hesab edir.

Ankarada Gülhanə Hərbi Tibb Akademiyasında Xüsusi Cərrahiyyə Şöbəsinin ayrı-ayrı
palatalarında müalicə olunan zabit və əsgərlərlə görüşdə söhbətindən
(2 noyabr 1999-cu il)

***

Azərbaycan bu gün də, gələcəkdə də Rusiya ilə səmimi münasibətlərə, yaxşı tərəfdaşlıq münasibətlərinə malik olmalıdır.

Rusiya Federasiyasının Azərbaycandakı səfiri Aleksandr Bloxinlə President sarayında söhbətindən
(17 dekabr 1999-cu il)

***

Ukrayna olduqca zəngin iqtisadi və intellektual potensiala malik böyük ölkədir. Ukrayna çox mühüm coğrafi-strateji mövqedə yerləşir, müasir beynəlxalq həyatda, dünya siyasətində və Avropa Birliyi strukturlarında əhəmiyyətli
rol oynayır. Buna görə də Ukrayna ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın bizim üçün çox böyük əhəmiyyəti var.

Ukrayna Respublikasının Prezidenti Leonid Kuçmanın Azərbaycan ictimaiyyəti ilə görüşü və ona "İstiqlal" ordeninin təqdim edilməsi mərasimində söhbətindən
(17 mart 2000-ci il)

***

Azərbaycan ilə İsrail arasında olan dostluğun dərin kökləri var. Azərbaycanda yəhudilər əsrlər boyu yaşamış, Azərbaycanın bərabər hüquqlu insanları kimi yaşamışlar.

İsrailin milli bayramı şərəfinə təşkil olunmuş rəsmi qəbulda nitqindən
(11 may 2000-ci il)

***

Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabər hüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır.

Strasburqda Avropa Şurası Parlament Assambleyasının sessiyasında çıxışından
(25 yanvar 2001-ci il)

***

TRASECA proqramı, Böyük İpək Yolunun bərpa edilməsi bu gün üçün və XXI əsr üçün ən böyük proqramlardan biridir. Bu proqramın hərtərəfli inikişafını nə qədər təmin edə bilsək, Cənubi Qafqaz, Orta Asiya, Mərkəzi Asiya ölkələrinin Avropa ilə inteqrasiyası o qədər də surətli olacaqdır.

Bakıda TRASECA-nın Daimi Katibliyi ofisinin açılış mərasimində nitqindən
(21 fevral 2001-ci il)

***

Erməni əhalisi türk və Azərbaycan xalqına qarşı daim millətçilik, şovinizm ruhunda tərbiyə olunmuşdur.

31 mart - Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciətindən
(27 mart 2001-ci il)

***

Mədəniyyət sahəsində İtaliya ilə əməkdaşlıq etmək bütün xalqlar üçün lazımdır. Çünki İtaliya ən qədimdən dünyanın mədəniyyət mərkəzi olubdur.

Ölkəmizin Avropa Birliyinə daxil olması Avropanın mənəviyyat, ənənələr cəhətindən zənginləşdirilməsinə gətirib çıxaracaqdır. Azərbaycanın bugünkü reallığı Avropa və Şərq milli dəyərlərinin sintezindən ibarətdir. Avropa dəyərlərinin üzərinə bunu əlavə etsək, Avropa dəyərləri daha da zəngin olacaqdır.

Avropa Parlamentinin nümayəndə heyəti ilə görüşdə söhbətindən
(22 may 2001-ci il)

***

Sovet İttifaqının tərkibinə daxil olmuş respublikalar arasında ilk olaraq Rusiyanın, Rusiya Federasiyasının dövlət suverenliyi haqqında bəyannamə qəbul etməsinin və bununla da sovet respublikalarının müstəqilliyinə, azadlığına, suverenliyinə doğru yol açmasının bizim üçün xüsusi əhəmiyyəti var.

Rusiyanın milli bayramı - Rusiya Federasiyasının dövlət müstəqilliyi haqqında bəyannamənin qəbul olunması günü münasibətilə rəsmi qəbulda nitqindən
(12 iyun 2001-ci il)

***

Biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizə xüsusi əhəmiyyət veririk və müstəqil dövlətimizi quraraq, yaradaraq, inkişaf etdirərək bütün sahələrdə - dövlət quruculuğunda, demokratiyanın inkişaf etdirilməsində, bütün azadlıqların təmin olunmasında, bazar iqtisadiyyatı yolunda islahatların keçirilməsində Amerikanın təcrübəsindən daim bəhrələnirik.

Amerika birləşmiş Ştatlarının milli bayramı - İstiqlaliyyət Günü münasibətilə ABŞ-ın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqindən
(4 iyul 2001-ci il)

***

Yaponiya ilə Azərbaycan arasında yaranmış dostluq, tərafdaşlıq, işgüzar əlaqələr bizim üçün çox əhəmiyyətlidir.

Sumqayıtdakı Etilen-Polietilen Zavodunda buxar-generator qurğusunun istifadəyə verilməsi mərasimində nitqindən
(7 iyul 2001-ci il)

***

Biz hesab edirik ki, ATƏT-in prinsipləri dəyişilməz, pozulmaz olmalıdır. ATƏT-in prinsiplərini pozan Ermənistan cəzasız qalır. Hər iki ölkəyə eyni münasibət göstərilir. Baxmayaraq ki, bir ölkə təcavüzkardır, o birisi isə təcavüzə məruz qalmışdır. Əgər təcavüzkara lazımi cavab verilməsə, onun qarşısı alınmasa, yaxud təcavüzkar cəzalanmasa, təcavüzkarlar başqa yerlərdə də belə hərəkət edəcəklər.

Portuqaliya Respublikasının Xarici İşlər Naziri Joze Jaymi Matuş da Qamanın başçılıq etdiyi nümayəndə heyəti ilə Prezident sarayında görüşdə söhbətindən

(12 iyul 2001-ci il)

***

Pakistan, Pakistan xalqı bizim üçün dost və qardaş ölkə, xalqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi Pakistan ölkəmizin müstəqilliyini tanıyan ilk dövlətlərdəndir.

Pakistan İslam Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri təyin olunmuş Faiz Məhəmməd Xosonun etimadnaməsini qəbul edərkən
(23 avqust 2001-ci il)

***

İranın qonşularından, yəni sərhədyanı qonşularından tarixi nöqteyi-nəzərdən, dil, din, mənəvi dəyərlər nöqteyi-nəzərindən ona Azərbaycan kimi yaxın ölkə, Azərbaycan xalqı kimi yaxın xalq yoxdur.

Biz bu mövqeyin üzərində qəti dururuq ki, Xəzər dənizi sülh, qardaşlıq, birgə əməkdaşlıq dənizi olmalıdır.

İran İslam Respublikası xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini və İranın Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Əli Əhani ilə görüşdə söhbətindən
(28 avqust 2001-ci il)

***

Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq münasibətləri və sıx əməkdaşlıq uğurla inkişaf edir və böyük gələcəyə malikdir.

Çin Xalq Respublikası səfirliyinin yeni binasının açılış mərasimində nitqindən
(7 dekabr 2001-ci il)

***

Roma papasının Azərbaycana ziyarəti tarixi hadisədir. Onun Azərbaycanda olması, bizimlə aparılan danışıqlar və ictimaiyyətin nümayəndələri ilə, xalq kütlələri ilə görüşü bizim xalqımızın Roma papasına, ümumiyyətlə, sülhə, dostluğa münasibətini nümayiş etdirmişdir.

Respublika gününə həsr olunmuş təntənəli mərasimdə nitqindən
(27 may 2002-ci il)

***

Qars bizim üçün, azərbaycanlılar üçün tarixən çox məşhur və çox doğma, çox əziz bir diyar olubdur.

Türkiyənin Qars şəhərində Heydər Əliyev adına parkın və bulvarın açılışı zamanı nitqindən
(28 iyun 2002-ci il)

***

TÜRKSOY bəşər sivilizasiyası xəzinəsinə Dədə Qorqud, Manas, Nizami, Füzuli, Yəsəvi, Mahmud Qaşqarlı, Yusif Balasaqunlu, Uluqbəy, Yunis İmrə, Nəvai, Məhtumqulu, Abay irsi kimi nadir incilər vermiş türkdilli xalqların mədəni inteqrasiyası, bu qədim zəngin irsin araşdırılıb üzə çıxarılması, dünyada geniş təbliğ olunması, müxtəlif mədəni layihələrin gerçəkləşdirilməsində faydalı işlər aparmışdır.

Türkdilli ölkələrin Mədəniyyət nazirlərinin Daimi Şurasına müraciətindən
(16 iyul 2002-ci il)

***

Əsrlər boyu, tarixin bütün zamanlarında Gürcüstan ilə Azərbaycan arasında heç bir nifaq, münaqişə olmamış və bir-birimizlə dostluq, mehribanlıq, qonşuluq şəraitində yaşamışıq.

Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin adından dövlət başçılarının və nümayəndə heyətlərinin şərəfinə "Gülüstan" sarayında təşkil edilmiş rəsmi ziyafətdə nitqindən
(18 sentyabr 2002-ci il)

TARİX VƏ TARİXİ HADİSƏLƏR HAQQINDA

Daxilimizdə olan bu təxribatlar nəticəsində, orduda olan bəzi pozğunluqlar nəticəsində kəndlərimizin, şəhərlərimizin əldən getməsi ilə, yaxud bunun təhlükəsi ilə əlaqədar olaraq biz Ermənistanın rəhbərliyi ilə bilavasitə əlaqə saxlamışıq və ayın 23-nə qədər, yəni bax, bu günə qədər atəşin kəsilməsi və danışıqlar aparılması məsələsini irəli sürmüşük. Bəli, biz bu yola getmişik və mən hesab edirəm ki, düzgün eləmişik...

İnsanlarımız qırılır, kəndlərimiz dağılır, içimizdə olan təxribatçılar öz çirkin niyyətlərini həyata keçirmək üçün xalqa, millətə, torpağa xəyanət edirlər. Biz danışıqlar aparıb müəyyən bir sazişə gəlməyi qərara almışıq.

Azərbaycan Milli Televiziyası ilə xalqa müraciətindən
(23 avqust 1993-cü il)

***

Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya yaxşı tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq.

Dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix, insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir. Dağıdanlar həmişə tarixdən silinmişlər, yaxud da tarixə mənfi rol oynamış adamlar kimi daxil olmuşlar.

70-ci illərdə və 80-ci illərin əvvəllərində dəfələrlə onlara müraciət etmişdim ki, bizim tariximiz – həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX, XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb.

Bir adamı bütləşdirmək, ideallaşdırmaq lazım deyildir. Bu xəstəlikdən yaxa qurtarıb tarixin hər bir dövrünü olduğu kimi yazmaq lazımdır. Bu, tarixçilərimizin əsas vəzifəsidir.

Tarixi təhrif etmək olmaz. Tarixi təhrif edənlər xalqa xəyanət edir, onu çaşdırırlar.

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından
(21 sentyabr 1993-cü il)

***

Şəhidlərimiz çoxdur, lakin hər dövrdə şəhid olanların tarixdə öz yeri var və hər dövrdə baş vermiş hadisələrin öz əhəmiyyəti var. 1990-cı ilin 20 Yanvar faciəsi xüsusi əhəmiyyət kəsb edir.

Bakıda 1990-cı ilin faciəli yanvar hadisələri zamanı şəhid olanların ailə üzvləri və həmin günlərdə yaralanıb əlil olanların bir qrupu ilə görüşdə çıxışından
(19 yanvar 1994-cü il)

***

Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

Xocalı soyqırımı qurbanlarının ailələrinə
(1 mart 1994-cü il)

***

Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

Ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə belə hesab edirlər ki, o türkdür. Biz deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazaxlar, Türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun. Tarixə bəşəri şəxsiyyət kimi düşsün.

Prezident Sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin
500 illiyi ilə əlaqədar yubiley üzrə dövlət komissiyasının iclasından
(1 avqust 1994-cü il)

***

Biz keçmiş partiya nomenklaturası sisteminə qayıtmırıq və qayıtmayacağıq.

Prezident Sarayında Respublika iqtisadiyyatının vəziyyətinə həsr olunmuş geniş müşavirədən
(11 avqust 1994-cü il)

***

Tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik.

Bakı şəhərinin təhsil işçiləri ilə görüşdən
(31 avqust 1994-cü il)

***

1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur. Biz 20 yanvar hadisələrinə indiyə qədər bir faciə kimi qiymət veririk. Həmin gün tariximizə qara gün kimi daxil olmuşdur. Şübhəsiz ki, bunda həqiqət var. Ancaq faciə hansısa səbəbdən baş vermir, bu, ola bilər təbii fəlakət olsun. Amma cəmiyyətdə baş verən hadisənin şübhəsiz ki, səbəbi olur. Ona görə də bu hadisələrə geniş mənada yanaşmaq lazımdır. Getdikcə bu hadisələrin daha geniş mənasını dərk edirik.

20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir.

Tarix həmişə hər şeyi öz yerinə qoyur.

"Qanlı yanvar" rəssamlıq sərgisinin açılışında çıxışından
Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi
(18 yanvar 1995-ci il)

***

Tarixi təhrif edənlər keçmiş tariximizdən özlərinə dərs götürməlidirlər. Tarixi heç kəs təhrif etməməlidir. Heç kəs tarixi dəyişdirməyi çalışmamalıdır. Tarix necə varsa, elə də var. Həyatda nə olubsa, olubdur. Tarixin o parlaq səhifələrini bugün kimsə utana-utana, çəkinə-çəkinə xatırlamamalıdır.

Faşizm üzərində qələbənin 50 illiyinə hazırlıqla əlaqədar müharibə, əmək və silahlı qüvvələrin veteranları ilə görüşdə çıxışından
Prezident sarayı
(7 aprel 1995-ci il)

***

1990-cı ildə 20 Yanvar faciəsi Azərbaycan xalqı üçün böyük bir bəla olmuşdur. O vaxt xalqın səsini boğmaq üçün çox dəhşətli üsullara əl atılmışdır. Azərbaycana hərbi təcavüz edilmişdir və bu təcavüz əməliyyatları içərisində Azərbaycan televiziyasının enerji blokunun partladılması həmin o ağır günlərdə, mübarizə günlərində Azərbaycan xalqının iradəsini sındırmaq üçün, onu məlumatsız qoymaq üçün belə bir cinayət törədilmişdir. Bu Azərbaycan televiziyasının tarixində önəmli yer tutur. Həm də tək Moskvada yox, Azərbaycan daxilində, Azərbaycan rəhbərliyində cinayətkar qüvvələr Azərbaycan televiziyasının enerji blokunu partlatmışlar.

Azərbaycan Milli Televiziyasının 40 illiyi münasibətilə təntənəli yubiley gecəsində çıxışından
Respublika Sarayı
(17 fevral 1996-cı il)

***

Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır - vəhşiliyin görünməmiş bir təzahürüdür...

Xocalı Soyqırımının dördüncü ildönümü ilə əlaqədar xocalı sakinlərinin bir qrupu ilə görüşdən
Prezident Sarayı
(24 fevral 1996-cı il)

***

Xalqımız öz gücünü toplamalı, keçmişdən nəticə çıxarmalıdır.

Qurban Bayramı münasibətilə "Qızılqum" sanatoriyasında müvəqqəti yerləşmiş Şuşa, Xocalı, Laçın, Ağdam qaçqınları ilə görüşdə çıxışından
(28 aprel 1996-cı il)

***

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır....

O illərin (keçmiş Sovet dövrü) ağırlıqları, çətinlikləri ilə yanaşı, böyük nailiyyətlər də olmuşdur. Ən böyük nailiyyət bundan ibarət olmuşdur ki, xalqımız savadlanmış, onun mədəni səviyyəsi yüksəlmiş, Azərbaycanın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır.

1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir.

Milli bayram – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika Sarayı
(26 may 1996-cı il)

***

Tariximizin hər səhifəsi bizim üçün əzizdir.

Görkəmli alim və dövlət xadimi Vəli Yusif Oğlu Axundovun 80 illiyinə həsr olunmuş yubiley yığıncağında nitqindən
Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonu
(21 iyun 1996-cı il)

***

Keçmiş nəsillər bizi bu günlərə gətirib çıxarıbdır. Əgər belə olmasaydı, indi nə Azərbaycan var idi, nə Azərbaycan xalqı var idi, nə də Azərbaycanın milləti var idi.

Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalının üçüncü ildönümü ilə əlaqədar həmin bölgələrin ictimaiyyətinin nümayəndələri ilə görüşdən
Prezident Sarayı
(7 sentyabr 1996-cı il)

***

1990-cı il 20 Yanvar həm xalqımız üçün böyük faciədir, xalqımızın tarixinin qara səhifəsidir. Həm də xalqımızın tarixində qəhrəmanlıq səhifəsidir, xalqımızın milli azadlıq uğrunda mübarizəsinin parlaq səhifəsidir.

Müstəqil Azərbaycan Respublikası gənclərinin 1-ci forumunun birinci ildönümü münasibətilə forum nümayəndələrinin bır qrupu ilə görüşdən
Prezident Sarayı
(1 fevral 1997-ci il)

***

Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir.

Xocalı soyqırımının beşinci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətindən
(25 fevral 1997-ci il)

***

Azərbaycan xalqı 70 il sovet sosialist sistemi şəraitində yaşamışdır. Bu, XX əsrdə bizim xalqımızın həyatının böyük bir hissəsidir. Biz o vaxt dövlət müstəqilliyindən məhrum olmuşuq, ancaq respublika kimi bir çox müstəqil işlər görmək imkanına malik olmuşuq. Ona görə də bu dövrü lazımınca qiymətləndirmək zəruridir. Çünki bu dövrdə bizim xalqımız yaşamış, yaratmış, qurmuş və nəhayət, 1991-ci ildə Azərbaycan yenidən dövlət müstəqilliyini elan edərkən Azərbaycan Respublikası artıq böyük bir ölkə idi.

Azərbaycanda ilk demokratik respublikanın yaranması xalqımızın milli azadlığa, müstəqilliyə və demokratiyaya olan istək və arzularının, göstərdiyi cəhdlərin ifadəsi olmuşdur.

1937-1938-ci illərdə Azərbaycan xalqına qarşı edilən repressiya başqa respublikalardakı repressiyalardan daha da ağır, çox itkili olmuşdur. Bu həqiqətdir. Amma Azərbaycan xalqı 1948-1949-cu illərdə və sonrakı illərdə yenidən deportasiyaya məruz qalmış, demək, yenidən repressiya altında olmuşdur. Bu, bizim xalqımıza qarşı edilən ədalətsizlikdir.

Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(27 may 1997-ci il)

***

İndi məhz bunu xatırlamağa lüzum var ki, o illərdə, Sovet İttifaqının tərkibinə daxil olmuş xalqların, o cümlədən Özbəkistan və Azərbaycan xalqlarının milli azadlığı və dövlət müstəqilliyi üçün şərait yetişməyə başlayan vaxtlarda son dərəcə çox əngəllər törədilirdi. 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün başlanması da nəinki Ermənistandakı ayrı-ayrı millətçilərin və özgə ərazisini ələ keçirməyə can atan

şəxslərin əməlləri idi, həm də böyük bir siyasətin – artıq baş vermiş müsbət proseslərə maneçilik törətməyə yönəldilmiş siyasətin bir hissəsi idi.

Dünyada bütün imperiyalar müharibələr nəticəsində süquta uğramışdır. Sovetlər birliyi isə yeganə imperiya idi ki, öz-özünə dağılıb getmişdir.

Azərbaycan-Özbəkistan dövlətlərarası və hökumətlərarası sənədlər imzalandıqdan sonra birgə mətbuat konfransında bəyanatından
(18 iyun 1997-ci il)

***

Bizim keçmişdə yaranmış adət-ənənələrimiz çox gözəldir və biz onları itirməməliyik, saxlamalıyıq, onlardan bu gün də, gələcəkdə də istifadə etməliyik. «Keçmişdə nə vardısa hamısını pozmaq, yenidən yaratmaq lazımdı» kimi cılız fikirlər fəlakətdən başqa heç bir şey gətirə bilməz.

Azərbaycan Yazıçılarının X Qurultayı ərəfəsində gənc nəsildən olan yazıçı və şairlərin bir qrupu ilə görüşdən
Prezident sarayı
(29 oktyabr 1997-ci il)

***

Varislik həmişə, eyni zamanda böyük məsuliyyət demək olubdur. Hər bir varis varislik prinsipini əziz tutaraq, o dövrün, o hadisənin varisi olaraq o hadisəni, o dövrü, o quruluşu daha da yüksəklərə qaldırmalıdır.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə mayın 26-da Milli Məclisin təntənəli iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
(26 may 1998-ci il)

***

1918-ci ilin mart ayında ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən soyqırımı xalqımıza böyük zərbələr vurmuşdur.

Azərbaycan xalqı zaman-zaman tarixin amansız sınaqları ilə üz-üzə gələrək yabançı rejimlər, ağır repressiyalar şəraitində yaşamalı olsa da, öz müqəddəs varlığını, milli-mənəvi bütövlüyünü, ana dilini, dinini qoruyub saxlamış, azad və müstəqil yaşamaq haqqında malik olduğunu sarsılmaz inam və qətiyyətlə bütün dünyaya sübut etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dünya azərbaycanlılarının Vaşinqton şəhərində keçirilən II Konqresinin iştirakçılarına
Bakı şəhəri
(27 may 1998-ci il)

***

1918-ci ilin mart ayında ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən soyqırımı xalqımıza böyük zərbələr vurmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
(27 may 1998-ci il)

***

Biz müstəqillik əldə etdikdən sonra islam dinini özümüzə qaytardıq.

Yeni Azərbaycan Partiyasinin yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(21 noyabr 1998-ci il)

***

Naxçıvanın qədim və son əsrlərdəki tarixi daha da geniş təhlil olunmalıdır, yazılmalıdır. Azərbaycana torpaq iddiası ilə yaşayanlara qətiyyətli cavab verilməlidir. Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indi Ermənistan yerləşən həmin torpaqların Azarbaycana məxsus olmasını daim ardıcıl surətdə sübut etsin. Biz bunu etməliyik. Biz gələcək nəsillər üçün bir yol açmalıyıq.

Naxçıvana muxtariyyət vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan məsələ deyildi. Amma o vaxt Azərbaycanın milli mənafeyini qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm.

Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının iclasında giriş sözündən
(9 fevral 1999-cu il)

***

Tarix boyu bəşər sivilizasiyasında misilsiz rol oynamış yenilməz türk əzmini qırmaq, türk ruhunu sarsıtmaq heç kimə müyəssər olmamışdır.

Türk Dövlətləri və Topluluqlarının VII Dostluq, Qardaşlıq və İşbirliyi Qurultayına müraciətindən
(29 iyun 1999-cu il)

***

Xocalı soyqırımı Ermənistan, ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən ən dəhşətli soyqırımıdır. Bu bizim tariximizdə belə də həkk olmalıdır. Bu soyqırımın nə qədər vəhşiliklə edildiyini və nə qədər insaniyyətdən kənar bir hadisə olduğunu biz gərək daim xalqımıza anladaq, dünya ictimaiyyətinə anladaq. Bu faciəni heç vaxt unutmaq olmaz. Və zaman keçdikcə əksinə bu faciəni biz dünyaya daha da kəskin göstərməliyik, xalqımıza göstərməliyik, gənc nəsillərə göstərməliyik, hamı bilsin ki, xalqımızın başına nə kimi faciə gəlibdir və eyni zamanda xalqımız öz azadlığı, öz vətəni, öz torpağı yolunda nə qədər qurbanlar verib, nə qədər qəhrəmanlıq nümunələri göstəribdir.

Türkiyə Cümhuriyyətinin Azərbaycandaki səfiri qədri ecvet tezcan ilə görüşdə söhbətindən
Prezident sarayı
(26 avqust 1999-cu il)

***

Hər bir Azərbaycan vətəndaşı öz tarixini bilməlidir və tarixini də bilmək üçün gərək onu uşaqlıqdan bu işə cəlb edəsən, gərək orta məktəbdən cəlb edəsən. Demək, orta məktəblərdə tarixin tədrisi çox yüksək səviyyədə olmalıdır.

Respublikanın təhsil işçiləri və 1999-cu ildə ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə nitqindən
(31 avqust 1999-cu il)

***

İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbə çalınmasında Azərbaycan neftinin misilsiz rolu olmuşdur.

"Əsrin müqaviləsi" də məhz Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasından irəli gəlmiş bir tarixi hadisədir.

"Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş "Gülüstan" sarayında rəsmi qəbulda nitqindən
(20 sentyabr 1999-cu il)

***

Bu gün keçmişə, tarixə nəzər salarkən, demək olar ki, **"**Berlin divarı**"**nın dağılmasına, Almaniyanın birləşməsinə almanlar, avropalılar nə qədər seviniblərsə, o qədər də azərbaycanlılar sevinirlər. Bu hadisələr baş verəndə bəlkə də bunun əhəmiyyəti bir o qədər də dərk olunmurdu. Amma zaman keçdikcə bunun nə qədər böyük əhəmiyyəti olduğunu Azərbaycan xalqı dərk edir və sevinir.

Almaniyanın milli bayramı şərəfinə təşkil olunmuş rəsmi qəbulda nitqindən
(3 oktyabr 1999-cu il)

***

Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir. XII əsrdə Naxçıvan Azərbaycanın Atabəylər - Eldəgəzlər dövlətinin, o əsrdə Azərbaycanın ən böyük, ən qüdrətli dövlətinin paytaxtı olubdur. Atabəylər dövləti 100 ildən artıq hökm sürmüş və onun paytaxtı azərbaycançılığı qoruyub saxlamışdır.

Azərbaycanın, millətimizin, Azərbaycan xalqının qədimliyini, dərin köklərini, zəngin mədəniyyətini və ulu babalarımızdan bizə gəlib çatmış irsi daha da dərk etməyin, daha da yaxşı bilməyin, şübhəsiz ki, bugünkü və gələcək nəsillər üçün çox əhəmiyyəti vardır.

Azərbaycanın xanlıqlara bölünən dövründə hər bir xanlıq Azərbaycan dövlətçiliyinin nümunəsidir, biz bu xanlıqları tarixi nöqteyi-nəzərdən belə qəbul edirik - Naxçıvan xanlığı yaranıbdır. Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. İrəvan xanlığı, Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları – bu xanlıqlar Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar.

90-cı il noyabrın 17-də biz burada, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik elədiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Yəni bunu biz küçə və meydanda qaldırmadıq, orada bu bayraq qaldırıldı. Amma biz bir dövlət kimi Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ Kommunist Partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmalıdır. Çıxartdıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır - milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq.

Naxçıvan MR-in təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında nitqindən
(12 oktyabr 1999-cu il)

***

Möminə Xatun məqbərəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudan da böyük memarlıq məktəbi olduğunu göstərir.

Milli memarlığımızın möhtəşəm abidəsi, XII əsrdə görkəmli Memar Əcəmi Əbubəkr oğlu Naxçivaninin Naxçıvan şəhərində yaratdığı Mömünə Xatun türbəsini ziyarəti zamanı çıxışından
(14 oktyabr 1999-cu il)

***

Naxçıvanın muxtariyyət statusu alması da çox ağır, gərgin bir dövrdə, yəni gərgin mübarizələr nəticəsində olmuşdur. Bu müharizələrdə Türkiyə Cümhuriyyətinin və böyük Mustafa Kamal Atatürkün də böyük rolu olmuşdur. Xüsusən 1921-ci ildə Türkiyə, Azərbaycan, Rusiya, Ermənistan və Gürcüstan tərəfindən imzalanmış Qars müqaviləsi Naxçıvanın statusunun müəyyən edilməsinə çox böyük yardım göstərmişdir.

Türkiyənin "Samanyolu" televiziyasının müxbiri ilə Naxçıvanda müsahibəsindən
(14 oktyabr 1999-cu il)

***

Biz gərək tariximizi heç vaxt unutmayaq və tariximizi təhrif etməyək. Tarix tarixdir və o, olduğu kimi yazılmalıdır, nəsildən-nəslə verilməlidir.

20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ümumrespublika mərasimində nitqindən
(19 yanvar 2000-ci il)

***

Gəncə 1918-ci ildə xalq cümhuriyyəti yarandığı ilk aylarda, müstəqilliyini ilk dəfə bu əsrdə elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin qərargahı olubdur.

Gəncə şəhəri ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən
(24 may 2000-ci il)

***

1991-ci ilin sonunda Azərbaycanın əldə etdiyi dövlət müstəqilliyi tarixi nailiyyətdir və biz bunu qorumalıyıq, saxlamalıyıq. Bunu gələcək nəsillərə daha da möhkəm Azərbaycan dövləti kimi verməliyik.

28 May - Respublika günü münasibətilə keçirilən təntənəli mərasimdə nitqindən
(27 may 2000-ci il)

***

İkinci Dünya müharibəsində Azərbaycan övladlarının böyük bir hissəsi misilsiz qəhrəmanlıqlar göstərmiş və ən yüksək mükafatlara layiq olmuş, Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ad almışlar.

Silahli Qüvvələr Gününə həsr edilmiş təntənəli mərasimdə nitqindən
(26 iyun 2000-ci il)

***

Üzeyir Hacıbəyovun başçılıq etdiyi "Azərbaycan" qəzeti çox böyük bir qəzet olubdur. O da bizim tariximizin parlaq bir səhifəsidir.

Azərbaycanda Milli Mətbuatın yaradılmasının 125 illiyi münasibətilə jurnalistlərlə görüşündə nitqindən
(22 iyul 2000-ci il)

***

Azərbaycan nadir bir ölkədir, nadir bir ərazidir, bəşər tarixində Azərbaycan bir ərazi kimi, bir ölkə kimi və Azərbaycan xalqı bir xalq kimi böyük tarixi proseslərin iştirakçısı olubdur.

Milli Elmlər Akademiyasinin Naxçivan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə giriş nitqindən
(12 avqust 2002-ci il)

***

Azərbaycan xalqı XX əsrdə böyük təhsillənmə yolu keçibdir. Azərbaycanda təhsilin XX əsrin əvvəllərindən inkişafı, yeni-yeni məktəblərin açılması, ali təhsil ocağının, - Bakı Dövlət Universiteti 1919-cu ildə yaranmışdır, - ondan sonra onlarca digər ali təhsil müəssisələrinin və bunların davamı olaraq Azərbaycanda böyük elmi-tədqiqat müəssisələri şəbəkəsinin yaranması - bunlar hamısı xalqımızın tarixi nailiyyətidir.

Yeni dərs ilinin başlanması və Bilik günü münasibətilə Bakının Nərimanov rayonunda yerləşən 82 saylı pilot orta məktəbdə keçirilən təntənəli toplantıda nitqindən
(1 sentyabr 2000-ci il)

***

XX əsrdə türk xalqı üçün ən böyük hadisə 1923-cü ildə böyük Mustafa Kamal Atatürkün iradəsi, siyasi müdrikliyi, qəhrəmanlığı ilə yaranan Türkiyə Cümhuriyyəti olmuşdur.

Türkiyənin Milli Bayramı şərəfinə bu ölkənin səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqindən (30 oktyabr 2000-ci il)

***

Əgər bütün Azərbaycan xalqını hiddətləndirən, vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli qürur, milli oyanış, milli dirçəliş hisslərindən konstruktiv şəkildə istifadə olunsaydı, biz bu gün Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmazdıq. Xalq çox tez başa düşdü ki, onun ən ülvi, ən müqəddəs, ən pak hissləri siyasi alverə, siyasi rəqabətə, kiminsə ucuz siyasi ambisiyalarının gerçəkləşməsinə xidmət edir.

1994-cü ildə imzalanmış və "Əsrin müqaviləsi" adını almış saziş ilə XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolu müəyyən olunmuşdur.

1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.

Azərbaycan insanlığın, bəşəriyyətin beşiyi olan unikal ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış Azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübüt edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətinə aid maddi mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur.

2000-ci ildə 1300 illik yubileyini təntənə ilə qeyd etdiyimiz "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm bir abidəyə malik olmaq da onu göstərir ki, bu torpaqda hələ bizim eramıza qədərki dövrdə böyük bir mədəniyyət mövcud olmuşdur.

1896-cı ildə Bakıda Hacı Zeynalabdin Tağıyevin himayəsi ilə yaradılan qızlar məktəbi Azərbaycan qadınlarının maariflənməsində müstəsna rol oynamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı

mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu.

Mübaliğəsiz demək olar ki, İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin əldə olunmasında Bakı nefti həlledici faktorlardan biri olmuşdur.

İkinci Dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır.

1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur.

Ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə həyata keçirilmiş 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi.

Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir!

Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən
(29 dekabr 2000-ci il)

***

Avropa ilə sıx və məqsədyönlü təmasın nəticəsidir ki, XIX əsrin ortalarından başlayaraq müsəlman Şərqində ilk qəzeti, ilk Avropa tipli məktəbləri, ilk teatrı, ilk yenilikçi ədəbiyyatı və ictimai fikri, nəhayət, demokratik respublika tipli ilk dünyəvi dövləti 1918-ci ildə Azərbaycan xalqı yaratmışdır.

Strasburqda Azərbaycan Respublikasının Avropa Şurasına
üzv qəbul edilməsi ilə əlaqədar təntənəli mərasimdə çıxışından
(25 yanvar 2001-ci il)

***

On il, tarixi nöqteyi-nəzərdən az bir zamandır. Xalqımızın tarixi əsrlərlə, minilliklərlə ölçülür. Ona nisbətən on il, əlbəttə ki, az bir zamandır. Ancaq bu on ildə Azərbaycanın müstəqilliyini qorumağa qadir olması, onu qoruması və müstəqil dövlət kimi qarşısında qoyulmuş vəzifələri yerinə yetirməsi və dünya birliyində müstəqil

dövlət kimi yaşaması, təbiidir ki, böyük bir hadisədir. Bütün keçmiş dövrlərə nisbətən bu hadisənin qiyməti ən yüksəkdir.

Ümumxalq Novruz Bayramı şənliyində nitqindən
Bakı, İçərişəhər
(21 mart 2001-ci il)

***

Azərbaycanlılara qarşı müntəzəm olaraq yeridilən bədnam soyqırımı siyasətinin yüzillərlə ölçülən uzun tarixi vardır. XIX əsrin əvvəllərindən başlayaraq, ardıcıl olaraq tarixi Azərbaycan torpaqlarında ermənilər kütləvi şəkildə məskunlaşdırılmağa başlanmış, Qafqazın cənubunda Ermənistan dövlətinin yaradılması, azərbaycanlıların öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulması, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir.

Soyqırımı Azərbaycan xalqına böyük siyasi, maddi və mənəvi zərbələr vurmuşdur. Bütövlükdə XX əsr ərzində 2 milyona yaxın azərbaycanlı deportasiya və soyqırımı siyasətinin ağır nəticələrini öz üzərində hiss etmişdir.

Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırımı siyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar olmasına nail olmaq, soyqırımı siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur.

Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir.

31 mart – Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciətindən
(27 mart 2001-ci il)

***

1994-cü ilin 20 sentyabrı Azərbaycan tarixində ən parlaq səhifələrdən biridir. O, bizim nəzəri olaraq hazırlanmış neft strategiyamızın əməli surətdə həyata keçirilməsinin əsasını, başlanğıcını qoydu. Biz səhv etmədik. Biz düz yolda olduq və o vaxtdan da düz yol ilə gedirik.

Bakıdakı İdman-Sərgi kompleksində "Xəzərneftqaz – 2001" səkkizinci beynəlxalq sərgi konfransının açılış mərasimində çıxışından
(5 iyun 2001-ci il)

***

XVI əsr Azərbaycan dilinin mövqelərinin möhkəmlənməsi ilə əlamətdardır. Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan dili dövlət dili səviyyəsinə qalxaraq, rəsmi və dövlətlərarası yazışmalarda

işlədilməyə başlandı. Səfəvilər dövründə Azərbaycan dili sarayda və orduda tam hakim mövqe tutaraq dövlət dili kimi rəsmiləşdi.

1926-cı ildə Bakıda birinci beynəlxalq türkoloji qurultay çağırıldı. Bu, türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan bir hadisə idi. Qurultayın Bakıda keçirilməsini 20-30-cu illər Azərbaycanın dilçilik sahəsindəki elmi potensialına verilən qiymət kimi səciyyələndirmək olar.

XX əsr bütövlükdə Azərbaycan dilinin yazı mədəniyyətinin əsl inkişaf yoluna qədəm qoyduğu bir dövrdür. Məhz bu dövrdə dilimizin funksional imkanları genişlənmiş, üslubları zənginləşmiş, dilin daxili inkişaf meylləri əsasında yazı qaydaları cilalanmışdır.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında"Azərbaycan Respublikası Prezidentinin Fərmanından
(18 iyun 2001-ci il)

***

1970-ci ildə Naxçıvanski adına Orta Hərbi Məktəbin yaranması və ondan sonrakı illərdə sovet ordusunun Azərbaycanda mövcud olan iki ali hərbi məktəbində hər il azərbaycanlı gənclərin sayının artırılması, SSRİ məkanında
təxminən 140-dan artıq hərbi məktəbə Azərbaycan gənclərinin göndərilməsi - bunların hamısı 70-ci illərdən başlayaraq azərbaycanlı zabit kadrları hazırlanmasının əsasını qoymuşdur.

Bakı Ali Birləşmiş Komandirlər Məktəbində keçirilən görüşdə nitqind'n
(20 iyun 2001-ci il)

***

XX əsrdə Azərbaycanın ən böyük nailiyyəti, birincisi, 1918-ci ildə öz dövlət müstəqilliyini elan etməsidir. İkincisi, 1991-ci ildə bu müstəqilliyin bərpa edilməsi və nəhayət, əldə olunmuş azadlığı, dövlət müstəqilliyini ötən on ildə çətin şəraitdə, çox ağır şəraitdə, bəlkə də sizin hamınızın təsəvvür edə bilmədiyiniz şəraitdə qoruyub saxlamasıdır.

XX əsrdə Azərbaycanın ən böyük nailiyyətləri həm də bundan ibarətdir ki, Azərbaycan xalqı təhsil, mədəniyyət, elm sahəsində bir sıçrayış dövrü keçiribdir. Əgər bütün başqa müsəlman ölkələri ilə indiki, bugünkü müstəqil Azərbaycanı müqayisə etsəniz, görərsiniz ki, XX əsrdə bizim keçdiyimiz yol, insanların kütləvi savadlanması, böyük ali təhsil sisteminin, elmin yaranması və inkişaf etməsi, çox görkəmli alimlərin, maarifçilərin yaranması, Azərbaycan mədəniyyətinin musiqisinin, ədəbiyyatın, incəsənətin bütün sahələrinin yüksək inkişaf etməsi məhz bu dövrə aiddir.

Bizim neft sənayesində əldə etdiyimiz nailiyyətlər bir neçə nəslin qabaqcıl insanlarının, yüksək səviyyəli alimlərin, mühəndislərin və neft sənayesində işləyən fədakar adamların sayəsindədir. Bunlar hamısı bizim

tariximizdir. Tarixi heç vaxt unutmaq lazım deyildir. Çünki əgər millətin tarixi yoxdursa, o millət deyildir. Millətin tarixinin bir hissəsini silib atmaq, o biri hissəsini qabartmaq da millətə xəyanət etməkdir.

Görkəmli elm, mədəniyyət, tibb, bədən tərbiyəsi və idman xadimlərinin bir qrupuna "İstiqlal" və "Şöhrət" ordenlərinin təqdimetmə mərasimində nitqindən
(6 iyul 2001-ci il)

***

Fövqəladövlətin qoşunlarının bir gecədə Bakıya göndərilməsi və dinc insanları məhv etməsi - bu, Sovetlər İttifaqının tarixində yeganə haldır, bu, qara ləkədir. Əgər bu gün Rusiyada, Moskvada kimsə bunu unutmaq və ya həmin cinayəti törətmiş insanlara bəraət qazandırmaq, onları bağışlamaq istəyirsə, mən indiyədək də hesab edirəm ki, onlar düzgün hərəkət etmirlər. Heç bir cinayət cəzasız qalmamalıdır.

Rusiya Federasiyasının və bir sıra başqa ölkələrin kütləvi informasiya vasitələrinin rəhbərləri ilə Prezident sarayında görüşdə söhbətindən
(14 iyul 2001-ci il)

***

Fransanın milli bayramı - 1789-cu ildə baş vermiş Fransa inqilabı Fransa xalqı üçün çox əziz olduğu kimi, bütün bəşəriyyət üçün də çox əhəmiyyətlidir. Çünki Fransa inqilabı, Bastiliyanın alınması bəşər tarixində yeni bir mərhələ açdı. Respublika üsul-idarəsi, insan hüquqlarına diqqət və onların qorunması, insanlara bərabərlik verilməsi sonra insanların, millətlərin, xalqların taleyində mühüm olan hadisələrin baş verməsinin əsasını qoymuşdur.

Fransanın milli bayramı şərəfinə nitqindən
(14 iyul 2001-ci il)

***

Azərbaycan dövlət müstəqilliyini bəyan edən zaman, yəni 199l-ci ilin oktyabr ayının 18-də çox ağır, mürəkkəb bir dövr yaşayırdı. O vaxt Azərbaycanda bəziləri Azərbaycanın müstəqil yaşamaq imkanına şübhə edirdi, yaxud inanmırdı. Bəziləri heç bunu istəmirdi. Bəziləri buna mane olurdu. Amma Azərbaycan xalqının çox əsrlər ərzində qəlbində yaşatdığı istək və arzu bütün bunların hamısına qalib gəldi. Azərbaycan dövlət müstəqilliyini əldə etdi və müstəqillik yolu ilə uğurla irəliləyir.

Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasının 10 - cu ildönümünə həsr olunmuş Respublika sarayında zirvə tədbirində – təntənəli mərasimdə nitqindən
(17 oktyabr 2001-ci il)

***

Ötən yüzillikdə türk xalqları keşməkeşli bir tarix yaşamışlar. Lakin XX əsrin sonlarında nəhəng Sovet imperiyasının dağılması və qardaş xalqlarımızın azadlığa, dövlət müstəqilliyinə qovuşması bizim hər birimizin, ümumən türk dünyasının möhtəşəm nailiyyəti, tarixi qələbəsidir. Biz tarixin verdiyi bu imkanı, çağdaş siyasi gerçəkliyi, yeni dünya nizamını aydın dərk etməli, müstəqilliyimizi və birliyimizi daha da

möhkəmləndirərək xalqlarımızın azadlığını daima yaşatmağı bacarmalıyıq. Bunun üçün ortaq milli-mənəvi dəyərlərimizi, elmi-intellektual və mədəni potensialımızı, siyasi-iqtisadi gücümüzü türk dünyasının birliyi və bütövlüyü kimi müqəddəs məqsədə səfərbər etməliyik. Bu şərəfli işin tarixi məsuliyyəti türk dünyasının siyasət və fikir adamlarının üzərinə düşür.

Türk dövlət və Topluluqlarının IX Dostluq, Qardaşlıq və İşbirliyi qurultayına müraciətindən
(19 dekabr 2001-ci il)

***

Biz bu gün haqlı olaraq fəxr edirik ki, müsəlman Şərqində yeni tipli məktəblər, demokratik mətbuat, qadın təhsili, seçmək və seçilmək hüququ ilk dəfə Azərbaycanda reallığa çevrilmiş, 1918-ci ildə bütün İslam dünyasında Avropa tipli ilk dövlət – Azərbaycan Xalq Cümhuriyyəti bizim ölkəmizdə qurulmuşdur.

Roma papası II İohann Pavelin Azərbaycanın din, elm və incəsənət xadimləri ilə Prezident sarayında görüşündə nitqindən
(22 may 2002-ci il)

***

Rusiya bizim üçün sadəcə qonşu deyil, həm də elə bir ölkədir ki, biz iki əsrdən artıq dövr ərzində eyni dövlətin tərkibində olmuşuq. Biz Qafqazdakı bir çox problemlərin həllini məhz bu ölkə ilə bağlayırıq.

Sankt-Peterburq şəhəri Rusiyanın şöhrətinin təcəssümüdür. O, rus ruhunun gücünü və qüdrətini özündə toplamış, rus xalqının yaradıcı potensialını artıraraq inkişaf etdirmiş, rus fikrinin və rus incəsənətinin təkraredilməz incilərini dünya mədəniyyətinin sərvəti etmişdir. Əsl rus ruhuna malik olan bu şəhərə zəka və qəlblərə hakim kəsilən bənzərsiz mənəvi mühit xasdır. O, bütün dünyaya məxsus olan bir şəhərdir.

Rusiyanın Sankt-Peterburq şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimində nitqindən
(9 iyun 2002-ci il)

***

Bizim tarixçilər, arxeoloqlar gərək bundan sonra Naxçıvanın tarixi haqqında daha da geniş axtarışlar aparsınlar və Naxçıvanın tarixini ətraflı yazıb hazırlasınlar.

Gəmiqayanın daşlarında Qobustan qayalarındakı kimi rəmzlər var. Orada insanların qoyduğu izlər var. Bu, bizim, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixidir.

Naxçıvanda Olimpiya İdman Kompleksinin açılış mərasimində nitqindən
(15 iyun 2002-ci il)

***

30 il bundan öncə yaratdığımız hərbiləşdirilmiş orta məktəb, indi Cəmşid Naxçıvanski adına Hərbi Lisey Azərbaycanın milli ordusunun yaranmasında, zabit kadrlarının hazırlanmasında böyük iş görmüş və dəyərli xidmətlər göstərmişdir.

Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialında kursantlarla görüşdə nitqindən
(17 iyun 2002-ci il)

***

Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra, özü öz sərvətlərinin sahibi olandan sonra bu sərvətlərdən daha geniş və səmərəli istifadə edilməsi üçün böyük addımlar atmağa başladı. Bu addımlardan birincisi, bunun əsasını qoyan 1994-cü ilin sentyabr ayında Bakıda Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çırcıq-Günəşli" yataqlarının istifadə edilməsi barədə "Əsrin müqaviləsi" adlanan müqavilənin imzalanması oldu.

Türkiyənin İstanbul şəhərində "Üç dənizin əfsanəsi" konfransının açılış mərasimində çıxışından
(25 iyun 2002-ci il)

***

Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir.

Milli Elmlər Akademiyasinin Naxçivan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə giriş nitqindən
(12 avqust 2002-ci il)

***

Biz öz tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik. Və fəxr etməyə haqqımız vardır. Çünki "Kitabi-Dədə Qorqud" dastanı kimi böyük bir elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər.

Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin adından dövlət başçılarının və nümayəndə heyətlərinin şərəfinə "Gülüstan" sarayında təşkil edilmiş rəsmi ziyafətdə nitqindən
(18 sentyabr 2002-ci il)

***

XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsi mahiyyət etibarilə həm də bəşəriyyətə, humanizmə, insanlığa qarşı yönəldilmişdir.

Biz qürur hissi ilə qeyd edirik ki, Azərbaycan, onun alim və mütəfəkkirləri tarixdə böyük iz qoyan möhtəşəm İslam sivilizasiyasına öz layiqli töhfələrini vermişdir.

"Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq konfransın açılış mərasimində nitqindən
(10 oktyabr 2002-ci il)

***

Repressiyaya təkcə ayrı-ayrı insanlar yox, təəssüflər olsun, bizim xalqımız da məruz qalmışdır. Repressiya təkcə ondan ibarət olmamışdır ki, ayrı-ayrı insanları həbs ediblər, əsərlərini qadağan ediblər, insanları güllələyiblər, öldürüblər, yaxud da sürgün ediblər, onlar həyatlarını orada itiriblər. Ümumiyyətlə, bütün xalqımız repressiyaya məruz
qalıbdır. Xalqımızın repressiyaya məruz qalması 1920-ci illərdən başlayaraq mərhələlərlə 1950-ci illərin sonlarına qədər davam etmişdir.

Hüseyn Cavidin ev-muzeyinin açılış mərasimində nitqindən
(24 oktyabr 2002-ci il)

***

Altay bizim babalarımızın qədim məskənidir.

TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirləri daimi şurasının XIX toplantısında çıxışından
(6 fevral 2003-cü il)

ÖZÜ HAQQINDA

Bəzi dairələrdə mənim haqqımda belə söhbətlər gedir ki, Heydər Əliyev əgər yenidən Azərbaycanda bir vəzifəyə gələrsə, kimdənsə qisas alacaq. Kimsə vaxtilə onun əleyhinə olub, yaxud kimsə ona pis münasibət göstəribsə, ona qarşı pis münasibət göstərəcək. Bütün Azərbaycan xalqına elan edirəm ki, ümumiyyətlə, mənim təbiətimdə qisasçılıq hissiyyatı yoxdur. Bunu sadəcə olaraq ayrı-ayrı adamlar süni surətdə yaradıblar və görsənir ki, bir mənə ləkə vurmaq üçün yox, ümumiyyətlə, bizi parçalamaq üçün. Sizə söz verirəm ki, heç vaxt qisasçılıq hissiyyatına qapılmayacağam. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam.

Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışından
(15 iyun 1993-cü il)

***

1990-cı il, yanvarın 19-da Qorbaçov mənə gözlənilmədən zəng vurdu. 3 il idi ki, onunla görüşmək istəyirdim, amma məni eşitməmişdi. Xahişlərim şəxsi məsələlərlə yox, Qarabağla bağlı idi. Qarabağ məni narahat edirdi. Qorbaçov mənə deyirdi ki, Bakıda vəziyyət pisdir, Azərbaycana nəsə bir əlac tapmaq lazımdır. Sonra söhbət kəskin şəkil aldı və biz yenə acılı- ağrılı fikirlərlə ayrıldıq. Təsəvvür edə bilmirdim ki, o, Bakıya qoşun yeritmək barədə qərar qəbul edəndən sonra mənə zəng vurub.

"Mən sizə heç nə vəd etmirəm". "Sobesednik" qəzetinə müsahibəsindən
(10 avqust 1993-cü il)

***

Demişəm və indi də deyirəm: həyatımın bundan sonrakı hissəsini xalqa bağışlamışam.

Azərbaycan Milli Televiziyası ilə xalqa müraciətindən
(23 avqust 1993-cü il)

***

Mən müstəqil Azərbaycanın dövlətçiliyini, suverenliyini, bütövlüyünü qorumaq üçün həyatımı qurban verməyə hazıram.

Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur.
Ümumrespublika müşavirəsində çıxışından
(24 avqust 1993-cü il)

***

Həyatımın son dəqiqəsinədək xalqıma xidmət edəcəyəm və ömrümün bundan sonrakı illərini də xalqıma bəxş edirəm.

1987-ci ilin oktyabrından sonrakı illər məndən ötrü ağır, çətin dövr olub. Amma bu çətin, ağır dövrdən, imtahanlardan çıxdım, iradəm qırılmadı, əqidəmdən dönmədim.

Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışından
(21 sentyabr 1993-cü il)

***

Mən qələbəmizə inanıram.

Cəbhəyanı bölgədə – İmişli, Füzuli Beyləqan, Şəmkir, Ağcabədi rayonlarında və gəncə şəhərində görüşlər zamanı çıxışlarından
(11-12 dekabr 1993-cü il)

***

Ölkənin ağır vaxtında prezident seçiləndə də, prezident kürsüsünə qalxanda da, and içəndə də mən təkcə Azərbaycanın ərazisində olan azərbaycanlılara yox, bütün dünyada yaşayan azərbaycanlılara müraciət etdim. Bildirdim ki, respublikanın bu ağır dövründə hər bir azərbaycanlı, damarlarında azərbaycanlı qanı axan hər bir insan gərək Vətənin bu gününə yansın, münasibətini bildirsin, kömək etsin.

Xaricdə yaşayan soydaşlarımızın bır qrupu ilə görüşdə çıxışından
(9 yanvar 1994-cü il)

***

Gənc yaşlarımdan xalqıma xidmət etmişəm. Sosialist sistemi daxilində xalqım üçün çox dəyərli işlər görmüşəm.

İstanbulda mətbuat mərkəzində jurnalistlər və kütləvi informasiya vasitələri nümayəndələri üçün mətbuat konfransında bəyanatından
(11 fevral 1994-cü il)

***

Bir vaxtlar niyyətim o olub ki, Azərbaycan Respublikası müstəqil dövlət olsun, xalqımız azadlığa çıxsın, istiqlal əldə edilsin. Allaha şükürlər olsun ki, biz artıq bu günlərə gəlib çıxmışıq. Respublikamız müstəqil dövlətdir, dünya tərəfindən tanınır. Xalqımız azaddır, özü öz taleyinin sahibidir, bundan sonra da azad olacaqdır. Mənə elə gəlir ki, bütün bunlar Vətənini, xalqını sevən hər bir vətənpərvər azərbaycanlının niyyəti olub. Uzun illər dövlət işləri ilə və siyasi fəaliyyətlə məşğul olduğum üçün bu fikirlər bəlkə də mənə daha doğma, daha əziz olub. Niyyətimizə çatmışıq.

Orucluq bayramı günü müqəddəs yerlərə ziyarətindən
(14 mart 1994-cü il)

***

Müqəddəs Məkkə şəhərində olmaq, müqəddəs Kəbə daşına toxunmaq və Kəbədə namaz qılmaq bizim üçün böyük şərəfdir. Bu şərəfə nail olduğuma görə, bu niyyət və arzularıma çatdığıma görə Allah-təalaya minnətdarlığımı bildirirəm, taleyimə şükür edirəm.

Səudiyyə Ərəbistanının Ciddə şəhərində mətbuat konfransında bəyanatından
(11 iyul 1994-cü il)

***

Müqəddəs Mədinə şəhərini, İslamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm. Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha İslam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Mədinə şəhərindəki
peyğəmbər məscidinin şərəf kitabına yazılmış ürək sözlərindən
(12 iyul 1994-cü il)

***

Kəbəni görmək, müqəddəs qara daşı öpmək, ona toxunmaq, onu ziyarət etmək, Kəbənin içərisinə daxil olmaq, orada namaz qılmaq, dua etmək mənə nəsib oldu. Dua edərkən Allahdan bir arzum olmuşdur ki, Azərbaycanın müstəqilliyini daimi etsin, respublikamızı bugünkü bəlalardan xilas etsin, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bizə yardımını əsirgəməsin.

Səudiyyə Ərəbistanına – Müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən
sonra Bakıda Təzəpir məscidində din xadimləri ilə görüşdə çıxışından
(29 iyul 1994-cü il)

***

Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur. Başçılıq etdiyim dövlətdə, mən özüm üçün başqa bir mükafat görmürəm.

Mən bu böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim.

Ümumxalq nümayəndələri toplantısından
Respublika sarayı
(28 noyabr 1994-cü il)

***

Mən Azərbaycan Respublikasının bu ağır dövründə bu yükü öz üzərimə götürmüşəm. Ona görə yox ki, bu vəzifə mənə lazımdır. Bəziləri buna can atırlar. Ona görə götürmüşəm ki, öz bacı-qardaşlarıma, doğma Vətənimə, doğma vətəndaşlarıma, torpağıma xidmət edim.

Əgər hər hansı bir namərd gülləsi, bir terrorçu gülləsi məni həyatdan götürsə, özüm də, övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq.

"15-17 mart hadisələri və Azərbaycanda İctimai-siyasi vəziyyət" mövzusuna həsr olunmuş ümumxalq nümayəndələri toplantısında nitqindən
Respublika Sarayı
(23-24 iyun 1995-ci il)

***

Mən həmişə teatrı sevmişəm, ondan çox faydalanmışam. Həyatımın ağır dövrlərində də mən teatrımıza hörmət və ehtiramımı saxlamışam, heç vaxt ondan ayrılmamışam.

Azərbaycanın xalq artisti Amaliya Pənahovanın 50 illik yubileyi gecəsində çıxışından
Respublika Sarayı
(8 iyul 1995-ci il)

***

20 Yanvar faciəsi məni dəhşətə gətirdi, çox həyəcanlanırdı. Mənə qarşı olan bütün təzyiqlərə, təqiblərə baxmayaraq, həyatım və ailəm üçün yaranmış təhlükəyə baxmayaraq, artıq siyasi fəaliyyətə qoşuldum. O mənada yox ki, bir siyasi mövqe, vəzifə tutum. Sadəcə, kənarda qalmamaq üçün. Bir də ona görə yox ki, mənim kənarda qalmağım pis olar. Ona görə ki, hiss etdim ki, mənim sözümə, fikrimə Azərbaycan xalqının indiki bu ağır dövründə böyük ehtiyacı var. Məhz buna görə, başqa məqsədə görə yox.

1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən Heydər Əliyevə "səs" qəzeti vasitəsilə müraciət etmiş Azərbaycan ziyalıları ilə görüşdə çıxışından
Prezident Sarayı
(9 sentyabr 1995-ci il)

***

Azərbaycanda müstəqil dövlət yaşayır və yaşayacaqdır. Azərbaycanın müstəqilliyi bizim üçün böyük nailiyyətdir. Bu nailiyyəti göz bəbəyi kimi qoruyub saxlamalıyıq və biz bunu edirik. Bir Prezident kimi mən özümün ən ümdə, ən ülvi, ən ali vəzifəmi bunda görürəm.

Norveçdə Azərbaycan Diasporunun nümayəndələri ilə görüşdə çıxışından
(24 aprel 1996-cı il)

***

Vətənə, millətimə, xalqıma məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur.

Şuşa və Laçın rayonları sakinlərinin bir qrupu ilə görüşdən
Prezident Sarayı
(6 may 1996-cı il)

***

Bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam.

"Oqonyok" jurnalının müxbirləri ilə müsahibəsindən
(22 may 1996-cı il)

***

Azərbaycan Prezidenti kimi, şəxsən mən, Azərbaycan gənclərinə xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz.

XXVI yay olimpiadasında (Atlanta, ABŞ) iştirak etmiş Azərbaycan Milli Olimpiya komandasının üzvləri ilə görüşdə çıxışından
Prezident Sarayı
(14 avqust 1996-cı il)

***

Mən öz üzərimə böyük məsuliyyət götürmüşəm. Məsuliyyət də ondan ibarətdir ki, dövlətimi möhkəmləndirim, onun müstəqil bir dövlət kimi yaşamasını təmin edim və Azərbaycan xalqını birləşdirim. Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, bu bayraq altında, bu şüar altında, bu sözlər altında, bu amal ətrafında birləşməlidir.

Azərbaycanın belə bir dalğın vəziyyətində, parçalanan vəziyyətində mən Azərbaycana gəlib bir məqsəd daşımışam - Azərbaycanı bu fəlakətdən xilas edim, parçalanmaqdan xilas edim.

Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır.

Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam.

Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalının üçüncü ildönümü ilə əlaqədar həmin bölgələrin ictimaiyyətinin nümayəndələri ilə görüşdən
Prezident Sarayı
(7 sentyabr 1996-cı il)

***

Azərbaycan mənim həyatımın mənasıdır.

Görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin anadan olmasının 110 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsi başa çatdıqdan sonra mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışından
Respublika Sarayı
(18 sentyabr 1996-cı il)

***

Mən keçmişdəki bütün fəaliyyətimlə fəxr edirəm.

1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi başlandıqda, hakimiyyət böhranı yarandıqda, Azərbaycanı idarə etmiş adamların hərəsi bir yana qaçdıqda və camaat bir-birini öldürdükdə millətimizin ən yaxşı nümayəndələri məni Bakıya dəvət etdilər. Hiss etdikdə ki, ölkəm, xalqım ağır, fəlakətli vəziyyətdədir, dəvəti qəbul edib Bakıya gəldim.

"Yevronyus" beynəlxalq telekanalının müxbirinə müsahibəsindən
Paris
(15 yanvar 1997-ci il)

***

Məni yaşadan da, bu qədər əzmlə çalışmağıma imkan verən də həmişə xalqın etimadı olubdur. Xalqın etimadı, dayağı, xalqın mənimlə bir olması həmişə mənə ilham, güc veribdir, məni daim belə gərgin, qaynar, qızğın fəaliyyətdə olmağa sövq edibdir.

Bakının Nizami rayonunda – 8-ci kilometr qəsəbəsinin Cəmşid Naxçıvanski küçəsində Heydər Əliyev parkının açılışı mərasimində nitqindən
(10 may 1997-ci il)

***

Mənim ən böyük qüvvəm, gücüm, ən böyük silahım xalqın mənə göstərdiyi etimaddır, etibardır və xalqın dayağıdır.

Mənim də həyatımda çox əziyyətli günlərim, illərim olubdur. Çox faciəli illərim olubdur. Ancaq yenə də taleyimdən çox razıyam. Bu mənim taleyimdir. Bugünkü də mənim taleyimdir. Amma bu gün zəhmətdən, əziyyətdən savayı heç bir şey yoxdur. Mən bunu da özümə böyük xoşbəxtlik hesab edirəm ki, xalqıma belə böyük miqyasda, çərçivədə xidmət etmək imkanı əldə etmişəm.

Mənim həyatım belə olub ki, heç vaxt vəzifə uğrunda nə çalışmışam, nə də cəhd göstərmişəm. Həyat belə gətirib, məni işimə görə qiymətləndiriblər və vaxtaşırı irəli çəkiblər. Hər dəfə də mənə göstərilən etimadı doğrultmuşam. Mən özümə tələbkaram və mənə tabe olan orqanlara, şəxslərə də özümə tələbkar olduğum kimi tələbkaram.

1992-ci ilin fevral-may hadisələri ilə bağlı bir qrup qaçqın və telejurnalist ilə görüşdən

Prezident sarayı
(16 iyun 1997-ci il)

***

Mən çox arzu edirəm ki, bizim yüksək vəzifəli şəxslərimiz öz xalqına, öz millətinə, öz Vətəninə, öz torpağına canla-başla, səmimiyyətlə xidmət etsinlər.

Azərbaycanda 1997-ci ilin birinci yarısında sosial-iqtisadi inkişafın yekunları, aqrar islahatı və özəlləşdirmənin gedişi, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məsələlərinə həsr olunmuş müşavirədən
Prezident sarayı
(19 iyul 1997-ci il)

***

Mən inanıram, əminəm ki, biz müstəqilliyinin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir.

Amerika–Azərbaycan Ticarət Palatasının Azərbaycan Prezidentinin şərəfinə təşkil etdiyi rəsmi qəbulda çıxışından
Vaşinqton, Milli Tikinti Muzeyi
(30 iyul 1997-ci il)

***

Şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur.

Mən 1990-cı ilin yanvar hadisələrindən sonra Kommunist Partiyasını tərk etmişəm. Azərbaycanda bunu etməyə adi adamların cəsarəti çatmadı. Amma mən böyük çətinliklər içərisində və böyük təhlükə altında Kommunist Partiyasını tərk etdim. Mən adi qaydada tərk etmədim. Mən ittiham verdim, bildirdim ki, niyə görə Kommunist Partiyasını tərk edirəm.

Mən bu gün iftixar hissi ilə deyə bilərəm: 1969-cu ildən – Azərbaycanın rəhbəri olduğum zamandan indiyə qədər bir şairin, bir yazıçının əsərinin qarşısı alınmayıbdır.

Azərbaycan yazıçılarının X qurultayında nitqindən
Prezident sarayı
(30 oktyabr 1997-ci il)

***

Mən həyatımı insanlara səadət gətirməyə həsr etmişəm. Mən həyatımı xalqın azadlığına həsr etmişəm. Mən həyatımı millətimin, xalqımın rifahının yaxşılaşdırılmasına həsr etmişəm. Həyatımı Azərbaycan torpağında qurub-yaratmağa həsr etmişəm.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyənin Ədirnə şəhərinin bələdiyyə başçısı Həmdi Sədəfçi və Ədirnənin tarixi Kırpınar ağası Hüseyn Şain ilə görüşdə çıxışından
Prezident sarayı
(10 fevral 1998-ci il)

***

Mənəvi cəhətdən sağlam olmayan adam böyük dövlət işi ilə məşğul ola bilməz. Böyük siyasətlə məşğul olan, xüsusən dövlət başında olan bir adam daim xalqın dəstəyini hiss etməli və xalqın rəyi ilə hesablaşmalıdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qurban bayramı münasibətilə Mirmöhsün ağanın ziyarətgahında keçirilən görüşdə nitqindən
(8 aprel 1998-ci il)

***

Keçmişdə etdiyim xidmətlərin nə qədər böyük olmasına baxmayaraq, mən müstəqil Azərbaycana xidmət etməyi həyatımın ən mənalı, ən əhəmiyyətli hissəsi hesab edirəm.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından
(11 avqust 1998-ci il)

***

Azərbaycanın müstəqilliyini qorumaq, saxlamaq, onu əbədi etmək mənim üçün öz həyatımdan, canımdan artıqdır.

Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din və idman xadimlərinin böyük bir qrupuna "Şöhrət" ordenlərinin təqdim edilməsi mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən
Prezident iqamətgahı
(21 avqust 1998-ci il)

***

Mən həmişə xalqa xidmət etmişəm. Mən əməlisaleh adam olmuşam. Bu gün də bu yolla gedirəm. Ona görə də xalqımın yolunda həyatımın son dəqiqəsinə qədər xidmət edəcəyəm və heç vaxt heç şey məni qorxutmayıb, çəkindirməyibdir. Əgər hər hansı bir namərd gülləsi məni məhv edə bilərsə, mən də Azərbaycan xalqının yolunda həlak olmuş şəhidlərin biri olacağam. Ancaq əminəm ki, böyük cənabi Allah məni indiyə qədər hifz etdiyi kimi, qoruduğu kimi, bundan sonra da hifz edəcək, qoruyacaqdır və mən Azərbaycan xalqı üçün öz xidmətlərimi bundan sonra da göstərəcəyəm.

Bakıda keçirilən beynəlxalq konfransda və Qafqaz Müsəlmanları Qurultayında nitqindən

(29 sentyabr 1998-ci il)

Azərbaycan mənim gələcəyimdir, Azərbaycan mənim nəfəsimdir.

Azərbaycan Respublikasinin Prezidenti seçilməsi münasibətilə təşkil olunmuş rəsmi qəbulda nitqindən
«Gülüstan» sarayı
(18 oktyabr 1998-ci il)

***

Heç kəs iradəmi sındıra bilməz.

Yeni Azərbaycan Partiyasinin yaradilmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqindən
Respublika sarayı
(21 noyabr 1998-ci il)

***

Mən ömür boyu, həmişə Azərbaycanın bugünkü sərhədlərindən, hüdudlarından kənarda olan bütün azərbaycanlıların hamısını vahid Azərbaycan birliyində görmüşəm, birliyində hiss etmişəm.

Şair Zəlimxan Yaqubun yaradıcılığına həsr olunmuş poeziya məclisi başa çatdıqdan sonra Azərbaycanın incəsənət ustaları ilə Respublika saraynda görüşdə söhbətindən
(19 dekabr 1998-ci il)

***

Nə qədər ki, Azərbaycan var, mən varam. Mən isə Azərbaycanda əbədi olacağam.

«Moskovski komsomolets» qəzetinin müxbirinə müsahibəsindən
Ankara,
Gülhanə Tibb Akademiyası
(26 yanvar 1999-cu il)

***

Mən fəxr edirəm ki, vaxtilə Kür çayı üzərində Şəmkir Su Elektrik Stansiyasının təməlini qoydum və onu qurub yaratdım. İndi o, Azərbaycana xidmət edir.

1 nömrəli Bakı İstilik-Elektrik mərkəzində yeni qaz-turbin qurğusunun təməlinin qoyulması mərasimində nitqindən
(28 avqust 1999-cu il)

***

Mən xarici ölkələrdə ziyarətlərdə olarkən, Azərbaycanın və həmin dövlətin himni çalınarkən çox böyük qürur hissi keçirirəm. Həmin ziyarətlərimdə məndə bəlkə də ən yüksək əhval-ruhiyyə yaradan Azərbaycanın bayrağı altında Azərbaycanın himninin çalınmasıdır.

Respublikanın təhsil işçiləri və 1999-cu ildə ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə nitqindən
(31 avqust 1999-cu il)

***

Mən gənc vaxtlarımdan uzun müddət idi ki, Naxçıvandan ayrılmışdım. Bakıda işləyirdim, Azərbaycana rəhbərlik edirdim. Ondan sonra Moskvada işləyirdim, Sovetlər İttifaqının, o böyük super dövlətin rəhbərlərindən biri idim. O dövlətə 10-12 nəfərdən ibarət Siyasi Büro rəhbərlik edirdi. Sovetlər İttifaqının tarixində həmin Siyasi Büroya daxil olmaq heç bir müsəlmana nəsib olmamışdı. Mən yeganə müsəlman idim ki, Sovetlər İttifaqının rəhbərliyində Siyasi Büronun üzvü idim. Ancaq mən öz milli ruhumu, ənənələrimi, hissiyyatlarımı, dinimizə məxsus olan ənənələri həmişə qəlbimdə yaşadırdım.

Naxçıvan şəhərinin Sarvanlar məhəlləsində İran İslam Respublikasının "Bonyadə Mostezəfin" fondu tərəfindən tikilmiş "Həzrəti Zəhra (s)" məscidinin təntənəli açılış mərasimində nitqindən
(10 oktyabr 1999-cu il)

***

Mən ilk təhsilimi Naxçıvanda almışam. Əziz müəllimlərim Naxçıvanda mənə orta təhsil verib məni həyata buraxıblar. Ona görə Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin ən yüksək zirvəsidir. Mən bütün bunlara görə də fəxr edirəm.

Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun təntənəli açılış mərasimində nitqindən
(11 oktyabr 1999-cu il)

***

Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərlərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, yaşayış evləri, universitet, məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir və sair və sair və sairdir.

Tarixin həqiqətləri budur. Mən həyat yolumda uzun müddət yüksək vəzifələrdə işləmişəm, amma ağır bir dövrüm də olubdur. Ancaq özümü xoşbəxt hiss edirəm. Mənim ağır dövrümdə Moskvadan qurtara bildim. Bakıda mənə yer vermədilər, nəinki yer vermədilər, məni oradan inzibati sürətdə çıxartdılar. Naxçıvana gəldim. Naxçıvan məni qoynuna aldı, qorudu, saxladı, mən də onları qorudum, mən də onları saxladım.

Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən fəxr edirəm ki, Azərbaycan torpağı mənim doğma torpağımdır. Mən fəxr edirəm ki, mənim Azərbaycan kimi millətim var. Mən fəxr edirəm ki, mənim doğma ana dilim, Azərbaycan dilim var. Mən fəxr edirəm ki, müstəqil, azad, qüdrətli Azərbaycan dövləti var.

Naxçıvan MR-in təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında nitqindən
(12 oktyabr 1999-cu il)

***

Mən rus imperiyası tarixində, sovet imperiyası tarixində, sovet super dövlətinin tarixində Kremldə, o dövlətin başında duran ilk azərbaycanlı, ilk türk, ilk müsəlman olmuşam.

Məni Moskvaya dəvət edib Siyasi Büronun üzvü və baş nazirin birinci müavini vəzifəsinə təyin edən zaman Türkiyə qəzetləri böyük sevinclə mənim fotoşəkillərimi vermiş və yazmışdılar ki, Kreml sarayının başına bir türk oğlu yüksəldi.

Naxçıvanda "Kazım Qarabəkir Paşa məscidi"nin açılış mərasimində nitqindən
(13 oktyabr 1999-cu il)

***

Əvvəlcə rəssam olmaq istəyirdim, sonra isə memarlığa meylim, memarlıq fakültəsinə daxil olmağım, memarlıq təhsili almağım bəlkə də elə bunlarla bağlı idi. Bunları görərək, bunların təsiri altında bu sənəti sevmişəm.

Milli memarlığımızın möhtəşəm abidəsi, XII əsrdə görkəmli Memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin Naxçıvan şəhərində yaratdığı Mömünə Xatun türbəsini ziyarəti zamanı çıxışından
(14 oktyabr 1999-cu il)

***

Mən bir çox digər ölkələrin də mükafatlarını, nişanlarını almışam. Türkiyə Cümhuriyyətinin mükafatını, Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan mükafatı almaq və xüsusən sülh adını daşıyan mükafatı almaq mənim üçün böyük şərəfdir. Hesab edirəm ki, bu mükafat mənim indiyə qədər aldığım mükafatların hamısından yüksək, qiymətlidir.

Beynəlxalq Atatürk sülh mükafatının təqdim olunması mərasimində nitqindən
(1 noyabr 1999-cu il)

***

Mənim bütün həyatım xalqıma xidmətə həsr olunub. Amma bu gün həyatımın mənası, məqsədi müstəqil Azərbaycanın gələcəyini təmin etməkdir. Yəni Azərbaycan bir müstəqil dövlət kimi yaşasın və müstəqilliyi əbədi olsun. Azərbaycan inkişaf etsin və inkişaf etmiş dövlətlər səviyyəsinə çatsın. Azərbaycan yüksək iqtisadiyyata malik olsun və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları, Azərbaycanda hər bir insan xoşbəxt yaşasın, firavan yaşasın, rahatlıq şəraitində yaşasın, sabitlik şəraitində yaşasın, qorxu altında olmasın, təhlükə altında olmasın, gələcəyə baxsın və gələcək haqqında düşünsün. Budur mənim həyatımın bugünkü mənası və gördüyüm işlərin məzmunu!

Uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə "Uşaqlar dünyanın sevincidir" devizi ilə keçirilən şənlikdə nitqindən
(12 dekabr 1999-cu il)

***

İnsanların qəlbindən Heydər Əliyevi heç kəs çıxara bilmədi. Nə Qorbaçov hakimiyyəti, nə Vəzirov hakimiyyəti, nə Mütəllibov hakimiyyəti, nə Əbülfəz Elçibəy hakimiyyəti - heç birisi Heydər Əliyevi Azərbaycan xalqının qəlbindən çıxara bilmədi.

Mən heç bir iddiada deyildim. Mən sadəcə Naxçıvan Muxtar Respublikasının həyatını təmin etməyə çalışırdım və ondan artıq heç bir iddiam yox idi. Belə bir şəraitdə, 1992-ci ildə ziyalılar mənə müraciət edən zaman mən çox tərəddüd edirdim. Xatirimdədir, burada əyləşənlərin çoxu bir neçə dəfə mənim yanıma gəlmişdilər, danışmışdılar. Ancaq nəhayət, 1992-ci ilin oktyabrında mətbuatda mənə müraciət olunandan sonra düşündüm və bu təklifə, yəni onlarla birləşməyə və partiya yaratmağa müsbət cavab verdim.

Moskvada yüksək vəzifələrdən kənarlaşdırılandan, istefaya gedəndən sonra ətrafımda cərəyan edən ədalətsizliyi və mənə qarşı təzyiqləri, təqibləri görərkən yenidən siyasətə qayıtmaq fikrində olmadım. Məni siyasi həyata qayıtmağa məcbur edən 1990-cı ildəki yanvar hadisələri oldu.

Yeni Azərbaycan Partiyasinin birinci qurultayinda nitqindən
Respublika sarayı
(20 dekabr 1999-cu il)

***

Baykal-Amur Magistral mənim həyatımın ən parlaq dövrlərindən biri olmuşdur.

Məndə kəskin dönüş 1990-cı ilin yanvarında, Azərbaycan xalqına qarşı təcavüz, terror törədilən vaxt baş verdi. Mən xalqıma qarşı bu cür ədalətsizliyə daha dözə bilmədim və Kommunist Partiyasından çıxdığımı bəyan etdim, bu təcavüzə, Qorbaçovun, bütün Siyasi Büronun siyasətinə qarşı açıq çıxış etdim. Sonra mənim yeni həyat tərzim başladı. Məni təqib etməyə başladılar. Qəzetlərdə yazır, xəlvəti nəsə edirdilər. Sonra isə açıqca təqib etməyə başladılar və mən Moskvadan getməyə məcbur oldum.

Rusiya jurnalistləri qrupu ilə Prezident sarayında görüşdə söhbətindən
(25 dekabr 1999-cu il)

***

Mən dəfələrlə demişəm - bir insan, adi vətəndaş kimi məktəbə qədəm qoyduğum ilk vaxtdan indiyədək mənim müəllimə böyük hörmətim, sevgim, məhəbbətim olubdur. Mən həyatımda çox yollardan keçmişəm. Həyatımın bəzi hissələrini bəlkə də mən indi xatırlaya bilmirəm, amma müəllimlərimi heç vaxt unutmamışam, hər bir müəllimim bu dəqiqə də gözümün qarşısındadır.

Yeni dərs ilinin başlanması və Bilik günü münasibətilə Bakının Nərimanov rayonunda yerləşən 82 saylı pilot orta məktəbdə keçirilən təntənəli toplantıda nitqindən
(1 sentyabr 2000-ci il)

***

Hər bir dövlət adamının, hər bir nazirin, hər bir vəzifə sahibinin Azərbaycan xalqı qarşısında, Azərbaycan gəncləri qarşısında, Azərbaycan uşaqları qarşısında borcu var. Amma nə qədər çox etsək, yenə də xalqımıza, millətimizə borcluyuq, borcluyuq, borcluyuq. Mən şəxsən özüm haqqında demək istəyirəm ki, həyatımın son dəqiqəsinə qədər özümü xalqıma borclu kimi hiss edirəm və hər gün, hər dəqiqə o borcumu layiqincə yerinə yetirməyə çalışıram.

"Bakı SOS uşaq kəndi"nin istifadəyə verilməsinə həsr olunmuş mərasimdə nitqindən
(2 noyabr 2000-ci il)

***

Mən xoşbəxtəm ki, 1970-80-ci illərdə Azərbaycanın rəhbəri olduğum zaman ölkəmizdə müstəqil elektrik enerjisi potensialının yaradılmasına nail olmuşum.

"Şimal" DRES-də yeni enerji blokunun təməlinin qoyulması mərasimində nitqindən
(19 dekabr 2000-ci il)

***

Mən həyatımın demək olar ki, çox böyük bir hissəsini bu işə sərf etmişəm və bundan sonra da mənim həyatım üçün, Azərbaycan xalqının qarşısında xidmətlərim sahəsində bundan vacib heç bir vəzifə yoxdur. Əmin ola bilərsiniz ki, mən bu vəzifəni bundan sonra da şərəflə yerinə yetirməyə çalışacağam.

Milli Məclisin 24 fevral tarixli iclasında nitqindən
(24 fevral 2001-ci il)

***

Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban, sədaqətli ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır.

Görkəmli alim, akademik Zərifə Əliyevanın xatirəsinə həsr olunmuş Rəşid Behbudov adına Mahnı Teatrında ədəbi-bədii gecədə çıxışından
(28 aprel 2001-ci il)

***

Mən o vaxt Azərbaycana rəhbərlik edəndə çox düşünürdüm ki, nə üçün azərbaycanlılardan elm adamları var, mədəniyyət adamları var, alimlər var, mühəndislər var, yəni bütün sahələrdə - sənayedə, başqa sahələrdə çalışan çox dəyərli insanlarımız var, amma orduda yoxdur? Ona görə də çalışırdım ki, bizim Azərbaycanın gənc insanlarını hərbi məktəblərə daha çox cəlb edim.

Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Əməliyyat rəisi, korpus generalı Köksal Karabayın başçılıq etdiyi nümayəndə heyəti ilə Prezident sarayında görüşdə söhbətindən
(15 iyun 2001-ci il)

***

Mənim həyatımda çox şey olubdur. Ancaq mühüm olanı odur ki, mən bütün bu sınaqlardan, bütün bu çətinliklərdən keçmişəm və yaşayıram. Yəqin ki, hələ çox illər yaşayacağam. Belə taleyi olan insan indi çətin ki, tapılsın. Çünki mən 14 il burada işləmişəm, respublikaya rəhbərlik etmişəm, sonra 5 il Moskvada Siyasi Büronun üzvü, Sovetlər İttifaqı kimi fövqəldövlətin Nazirlər Soveti sədrinin birinci müavini işləmişəm. Sonra isə təqib dövrü olmuş və o, təxminən üç il davam etmişdir. Sürgün dövrü də olmuşdur - mən məcbur olub Moskvadan Bakıya gələndə, mənə burada yaşamağa imkan vermədilər. Mən Vətənimə - doğulduğum, hazırda blokada vəziyyətində olan Naxçıvana getdim. Orada üç il yaşadım. Ondan sonra artıq 8 ildir Bakıda yaşayır və vaxtilə tikdiyim həmin bu binada işləyirəm. İnsanların taleyi müxtəlifdir. Kimsə öz taleyindən razı olur, kimsə narazıdır. Bütün bu çətinliklərə baxmayaraq, mən öz taleyimdən çox razıyam. Çünki qısa ömür, qısa tale o qədər də maraqlı deyildir. Amma insan cürbəcür hadisələrlə qarşılaşanda, hər cür sınaqlardan çıxanda, yəqin ki, həm də daha çox təcrübə toplayır, daha da mətinləşir və bu mənada mən öz taleyimdən çox razıyam. Sabah nə olacağını bilmirəm, amma onu bilirəm ki, bundan sonra daha yaxşı olacaqdır.

Xarici ölkələrin kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşündə söhbətindən
(14 iyul 2001-ci il)

***

Bir azərbaycanlı kimi mən xalqımı sevirəm, öz xalqımın vətənpərvəriyəm. Mən çətin şəraitdə boya-başa çatmışam. Uşaqlıq illərində də, gənclik illərində də nəyə nail olmuşamsa, öz zəhmətimlə nail olmuşam, mənə heç kəs kömək etməmişdir.

"Zuğulba" dövlət iqamətgahında xarici ölkələrin kütləfi informasiya vasitələrinin Bakıda səfərdə olan rəhbərləri ilə qeyri-rəsmi şəraitdə görüşdə söhbətindən
(15 iyul 2001-ci il)

***

Məruz qaldığım bütün çətinliklərə baxmayaraq, öz taleyimdən çox razıyam. O cümlədən də Zərifə xanımın simasında çox layiqli ömür-gün dostum olduğuna görə.

"Hakimiyyət formulu" verilişində müsahibəsindən
(27 sentyabr 2001-ci il)

***

Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam.

Dünya azərbaycanlılarının I qurultayında nitqindən
(10 noyabr 2001-ci il)

***

Mənim həyatda sevdiyim şey çoxdur. Bu, Vətəndir, torpaqdır, Azərbaycandır, mənsub olduğum xalqdır, bu torpağın suyudur, havasıdır, dağı-daşıdır, gülü-çiçəyidir, ağacıdır, çayıdır. Bunların hamısını mən sevirəm. Əgər insan öz Vətənini, torpağını, xalqını və onun ətrafında olan bütün hər şeyi sevə bilməsə, bu dünyada

səmərəli yaşaya bilməz. Mən bunları sevirəm. Amma bunların hamısından çox uşaqları sevirəm. Çünki siz bizim xalqımızın gələcəyini davam etdirənlərsiniz.

Uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin YUNİSEF-lə birlikdə Teleteatrda təşkil etdiyi şənlikdə nitqindən
(9 dekabr 2001-ci il)

***

Azərbaycan Prezidenti olaraq mən hələ 30 il bundan öncə müstəqillik haqqında - bəlkə də, bunu çox az adam düşünə bilərdi, yaxud ağlına gətirə bilərdi, - düşünüb hərbi məktəb yaratmışdım. Artıq bir neçə ildir Naxçıvan filialı yaranıbdır. Güman edirəm, illər keçəcək, biz yenidən burada görüşəcəyik və Naxçıvan filialı haqqında qəbul etdiyimiz qərarın da nə qədər vacib, əhəmiyyətli olduğunu bir daha təsdiq edəcəyik.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında kursantlarla görüşdə nitqindən
(17 iyun 2002-ci il)

***

Mən dövlətlərdən çox mükafatlar almışam. Həm sovet dövlətindən, həm digər dövlətlərdən mənim çox ordenlərim var. Əgər onların hamısını taxsam, döşümə yerləşməyəcək. Amma müəllimdən alınan mükafat, müəllimdən alınan qiymət hamısından üstündür.

Mən 1987-ci ildə Moskvada Siyasi Bürodan və hökumət başçılığından uzaqlaşdırıldım. Bunun da səbəbi o idi ki, mən o vaxt orada Qorbaçovun və onun tərəfdarlarının qarşısında, Qarabağ məsələsinin ermənilərin xeyrinə həll olunmasının qarşısında böyük bir qaya kimi durmuşdum. Mənim Siyasi Büroda olmağım ermənilərdə böyük bir dəhşət yaratmışdı. Çünki rus imperatorluğunun tarixində və Sovet imperiyasının tarixində Moskvada müsəlman, türk, azərbaycanlı heç vaxt Siyasi Büroda olmamışdı. Tale məni o yüksək vəzifəyə apardı və mən də orada öz xalqımın - Azərbaycan xalqının, təkcə Azərbaycan xalqının yox, müsəlmanların və türk dünyasının mənafeyini imkanım çatan qədər müdafiə etməyə çalışırdım.

Mən Siyasi Büroda olarkən, mənim əleyhimə işlər gedəndə Ermənistanın böyük bir şairi yazmışdı ki, nə qədər ki, Siyasi Büroda erməni xalqının düşməni olan türk - Heydər Əliyev oturub, biz Qarabağ məsələsini həll edə bilməyəcəyik.

Türkiyənin Qars şəhərində Qafqaz Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimində nitqindən
(28 iyun 2002-ci il)

***

Mənim qəlbim həmişə Gəncə ilədir, gəncəlilərlədir.

Gəncə Olimpiya İdman Kompleksinin açılış mərasimində nitqindən
(12 sentyabr 2002-ci il)

***

Hərbi Lisey həmişə mənim qəlbimdədir, 1971-ci ildən hər il mən buraya gəlmişəm, kursantlarla, müəllimlərlə, zabitlərlə görüşmüşəm. Nə üçün? Çünki Azərbaycanın rəhbəri kimi mən diqqəti buraya cəlb edəndə təbiidir ki, bütün başqa təşkilatlar da buna qoşulurdular.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illiyinə həsr olunmuş yubiley mərasimində nitqindən
(19 aprel 2003-cü il)

***

Mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.

Azərbaycan xalqına müraciətindən
(1 oktyabr 2003-cü il)